# QAN HOVUZU

## Əndimeşkli qadınların müqəddəs müdafiə zamanı camaşırxana xatirələri


## Fatimə-sadat Mirali

***Araşdırma qrupu:** Fatimə-sadat Mirali, Zəhra Bəxtəvər, Səmanə Nikdel, Süməyyə Tətir, Nəsrin Tətir, Məhnaz Ülfətipur, Aminə Löhrasbi, Nərgiz Mirdurəqi*




**Kitabın adı:................................Qan hovuzu**
**Qələmə alan:................Fatimə-sadat Mirali**
**Tərcümə edən:......................İbrahim Mirzə**
**Çap tarixi:..............................................2023**
**Çap növbəsi:......................................Birinci**
**Tiraj:.....................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 58-19-78, 500-250,

ISBN 53-47-024519-51

## Naşirdən

İslam inqilabı tarixinin yazılması inqilabçı qadınların xatirələrinə və təbii olaraq inqilabın özünə çox borcludur. İnqilab və müqəddəs müdafiə dövrlərinin şəhid qadınları, inqilabdan öncəki mübariz qadınlar, inqilab mübarizlərinin həyat yoldaşları, döyüşçü, şəhid, əsir və əlil xanımları, qadın tərbiyəçilər, müəllimlər, təbliğatçılar, qurucular, alimlər, tədqiqatçılar və sahibkarlar haqda hələ yetərincə yazılmamışdır.

Ailənin özəyi kimi, qadının müxtəlif fəaliyyətlərdə iştirakı ailənin digər üzvlərinin də əməkdaşlığına və iştirakına səbəb olmuşdur. Onlar inqilabçı qüvvə yetişdirməyin bütün yükünü necə dinməzcə daşımışlarsa, indi də mübarizələrinin təsvirini elə dinməzcə inqilabçı kişilərin uğurlarının haşiyəsində görürlər.

İslam inqilabının qurucu və qalıcı hadisələrində, habelə inqilabi məfhumların, qurumların yaradılmasında, dəyərlərin möhkəmləndirilməsində və inqilabi fəaliyyətlərin davam etdirilməsində qadınların rolu inkaredilməzdir. Lakin məşhur və şablon olan hadisəmərkəzli tarixçilikdə onların rolu çox vaxt sətirlər

arasındakı boşluğa, bəzən də inqilabçı kişilərin öz xatirələrində inqilabçı qadınların dünyasına açdığı bacalara həvalə olunmuşdur.

İslam inqilabına uyğun qadın kəndin içində bir neçə balaca uşaqla yaşayan, təndirin yanında cəbhələrə çörək bişirən qadın ola bilər; Allahın istəyinə əsasən, övladı olmayan, amma vəzifələrini tərk etməyən, məktəb açmaqla cəmiyyətin övladlarının tərbiyəsi ilə məşğul olan qadın da ola bilər; fələyin hökmü ilə ata, ana, bacı, qardaş, hətta əmi və ya bibi yanında yaşayan, amma məsuliyyətsiz və laqeyd olmayan, yerdə qalmış işləri bacardığı qədər üzərinə götürən subay bir qız da ola bilər; ailənin idarəsi və övladların tərbiyəsi ilə yanaşı, özünü və cəmiyyətini də unutmayan bir qadın da ola bilər... Bizim inqilab tariximiz belə qadınlarla doludur, onları görmək üçün ətrafımıza göz atmaq kifayətdir.

İslam İnqilabının Mədəni Cəbhəsini Araşdırma Komitəsinin Şifahi tarix şöbəsi inqilabda qadınların yaşadığı təcrübələri tanımaq və tanıtdırmaq işinə başlamışdır. Məlumdur ki, görülən və görülməkdə olan işlər qadınların və anaların İslam inqilabı uğrunda şanlı mübarizə və qəhrəmanlıqları ilə müqayisədə saman çöpündən artıq bir şey deyil.

İslam İnqilabının Mədəni Cəbhəsini Araşdırma Komitəsinin Şifahi tarix şöbəsi

# Giriş

2014-cü ilin payızı idi, Əndimeşk rayonunun min şəhidinin xatirəsinə dair konfrans keçirilirdi. Elə əvvəllərdə, müharibədəki fəaliyyətləri haqda eşitdiyimiz, amma özlərini görmədiyimiz bir çox insanla tanış olduq. Həmin günlərdə müharibə dövrünün məşhur tibb işçilərindən olmuş xanım Aminə Dağəridən Şəhid Kələntəri xəstəxanası və oradakı camaşırxana barədə çox eşidirdim.

Konfransın proqramlarından biri müharibə şəkilləri və sənədləri barədə idi. Aminə Dağəri də şəkil albomunu bizə verdi. Onun şəkillər haqda məlumat verməsini səbirsizliklə gözləyirdim. Söhbət əsnasında bir neçə dəfə camaşırxana barədə məlumat verdi və çoxlu xanım adı çəkib dedi: "Bunlar camaşırxanada işləyirdilər".

Şövkət xanım Natiqinin də şəkil albomu əlimə keçdi. O, oğlunun şəkillərini skan etdirməyə gətirmişdi, amma orada özünün şəxsi şəkillərindən biri diqqətimi cəlb elədi. Təxmin edirdim ki, şəkil xanım Dağərinin məlumat verdiyi camaşırxanada çəkilib.

2015-ci ilin ilk aylarında Əndimeşkdə Şəhid Cavad Zivedari adına Mədəniyyət və İncəsənət Mərkəzi fəaliyyətə başladı. Mən mərkəzin rəhbəri Əzim Mehdinejadla iclaslarda xanımların müharibəyə dəstək fəaliyyətləri haqda daha çox məlumat əldə etdim. Xanımların çoxu onun qonşusu olduğuna görə onları tanıyırdı.

2015-ci ilin yazında Əndimeşk rayonunun inqilab və müharibədə roluna dair jurnal çıxarmaq üçün müsahibələrə başlandı. Yuyucu xanımlardan da müsahibələr alınır, qrupumuz xanımların cəbhəyə dəstək fəaliyyətlərinə xüsusi diqqət ayırırdı.

İşin əvvəllərində camaşırxana layihəsinin geniş olduğunu başa düşdük. Lakin xanımları tapmaq, onlarla əlaqə saxlamaq çox çətin idi. Onların çoxu bir-birini ləqəblə tanıyırdı: Nənə-Eydi, Nənə-Qulam, Nənə-Kərim və s. Bəziləri qədim məhəllələrdən getdiklərinə görə onları tapmaq uzun sürdü. Çoxları israrlı xahişlərimizdən sonra müsahibə verməyə razı olurdu. Hər biri ilə danışanda özündən çox başqalarının adını çəkir, fəaliyyətlərindən danışırdı. Digər tərəfdən də, qəlpə və qan dolu paltarlardan və döyüşçülərin bədənlərinin parçalarından danışanda onları ağlamaq tuturdu. "Əndimeşk günləri" jurnalı və digər layihələr çərçivəsində 2018-ci ilin fevralına qədər arxa cəbhədə fəaliyyət göstərmiş və camaşır yumuş əlli nəfərdən müsahibə aldıq.

2018-ci ilin fevralında yuyucu qadınların xatirələrini yazmaq haqda qərar qəbul olundu və bu iş mənə tapşırıldı. Müsahibələrin təxminən yarısını özüm almışdım. Onları oxuyub camaşırxana ilə bağlı olanları ayırdım. Yuyucu qadınların yaddaşları eyni deyildi; bəzisi hadisələri tam, bəzisi isə yarımçıq danışırdı. İşlərinin əhatəsi də geniş idi:

evdən məscidə, müharibənin əvvəlindən müharibədən iki il sonraya qədər davam edirdi. Ziddiyyətli və qaranlıq məqamları çıxardım. Xatirələri qələmə almaq üçün bir məntiqə əsaslanmalı idim. Qərara gəldim ki, müharibənin əvvəlindən başlayım və hərəsi bir hissəni danışsın.

Novruz bayramında müsahibələri kitab şəklinə salmağa başladım. İlk redaktə təxminən iyirmi gün çəkdi. Bəzi yerlərdə çatışmazlıq, bəzilərinin həyatına dair suallar vardı. Buna görə onlara yenidən müraciət etmək lazım gəldi. Bu müraciətlərin isə çoxlu faydaları vardı və çoxlu yeni xatirələrlə tanış oldum.

Bilirdim ki, onların bəzisi ilə görüşmək daha da çətin olacaq. Yuyucu qadınlar Şəhid Kələntəri xəstəxanasında camaşırxana barədə hazırlanmış filmə baxandan sonra çox gileylənir, filmi tənqid edirdilər. Onlar elə bilirdilər ki, filmi biz onların xatirələrinə əsasən hazırlamışıq. Digər tərəfdən, ilk müsahibələrdən üç il ötürdü, hələ işimizin nəticəsini görmədiklərinə görə də yeni müsahibəyə asanlıqla razılıq vermirdilər.

Kitabın mövcud variantını çap edib cildlədim və hər bir xanıma aid sualları oraya yazdım.

Zəng vururdum:

– Salam, ana. Necəsən? Müharibə zamanı çəkdiyiniz zəhmətlərə görə sizinlə görüşmək istəyirəm.

Adətən belə cavablar eşidirdim:

– Özüm əlaqə saxlayaram.

– Vaxtım yoxdur.

– Xəstəyəm.

– Ürəyim narahatdır.

– Üstündən illər ötəndən sonra yadınıza düşdü?

– Təhrif edilmiş o filmdən sonra daha camaşırxananın adını çəkmə...

On-on beş nəfərlə əlaqə saxlayıb belə cavablar eşitsəm də, məyus olmadım. Haqlı idilər; yaralı əllərini və necə öskürdüklərini özüm görmüşdüm. Əlbəttə, bəziləri də çox əməkdaşlıq edir, hətta digərlərini də müsahibəyə gətirirdilər.

Artıq telefon əlaqəsi işə yaramırdı. Kitabı, səsyazan aparatı, ünvan dəftərini və qələmi götürdüm, Xuzistanda iyun ayının 50 dərəcə istisində küçələrə düşüb bu evdən o evə getdim. Əvvəlcə daha çox işləmiş qadınlardan başladım. Yazdıqlarımı hər birinə cümlə-cümlə oxuyurdum. Harada qaranlıq vardısa, soruşurdum, onlar da cavablandırırdılar. Beləliklə, məzmun həm təkmilləşir, həm də müəllifi tərəfindən təsdiqlənirdi.

Gündə ən azı üç-dörd xanımı görməyə çalışırdım. Hər şeyi söylədiklərini düşünən, habelə əvvəldən müsahibəyə razılıq verməmiş xanımlar üçün kələklər tapmalıydım. Digərlərinin söhbətlərindən bu nəticəyə gəlmişdim ki, müsahibə verməmiş xanımların bəzisi camaşırxanada daha önəmli rol oynamışlar.

Təxminən səhər saat 10-da birinin evinə çatdım. Hava çox isti idi. Qapının arxasından soruşdu ki, kimdir.

– Ana, bir dəqiqəliyə qapıya gələ bilərsiz? – deyə cavab verdim.

Qapını açıb məni görən kimi dedi:

– Yenə sənsən?!

Dərhal qərara gəldim ki, ona camaşırxana barədə bir neçə səhv məlumat verim və onların doğru olub-olmadığını soruşum. Salamlaşıb hal-əhval tutandan sonra yavaş-yavaş həyətə keçdim, orada dedim:

– Ana, düzdür ki, xanımlar müharibənin son illərində paltar yumağa getmirdilər?

Bu bir cümlə xanımların paltar yumasından və fəaliyyətlərindən ayaq üstə bir saat danışmasına kifayət etdi. Yavaş-yavaş yazılmış mətni də oxuyub suallarımı verdim. İsrar edirdi ki, istirahət üçün evində qalım, hava sərinləşəndə gedim. Lakin mən başqa bir xanımla görüşməli idim.

Eşitmişdim ki, xəstədir. Yuyucu komandasının zəhmətkeş üzvlərindən idi. Çox narahat oldum. Həmin gün onu görməyə getdim. Beynim camaşırxana xatirələri ilə bağlı irili-xırdalı çoxlu məsələ ilə məşğul idi. Oraya necə çatdığımı bilmədim. Bir də yadıma düşdü ki, əliboş getmək olmaz. Bazara qayıdıb hədiyyə aldım və yenə həmin yolla evinə getdim. Qapının zəngini basdım. Səs gəlmədi. Bir də basdım. Həyətdən səs gəldi:

– Kimdir?

– Zəhmət olmasa, açın, bir neçə dəqiqəliyə işim var, – deyə cavab verdim.

Dördayaqlı əlil tutacağının taqqıltısı gəldi. Qapını açınca çox çəkdi. Əlil tutacağına söykənib qaşqabaqla məni süzdü. Üzü o qədər şişmişdi ki, gözləri görünmürdü.

– Salam, ana. Necəsiz? – dedim.

– Əleyk. Tutaq ki yaxşıyam. Nə üçün gəlmisən? Mənim heç yaddaşım qalmayıb. Neçə dəfə deməliyəm ki, daha gəlmə.

– Ana, mən sizi görməyə gəlmişəm. Haçandır görmürəm, sizin üçün darıxmışam.

– Əminsən ki, sual verməyəcəksən? Ürəyimdə batareya var ha! Qandan və camaşırxanadan danışanda çox narahat oluram ha!

– Mən qələt edib sizi narahat edərəm! Yalnız sizi görməyə gəldim. İcazə verirsiz bir neçə dəqiqə yanınızda oturum?

Qapının önündən çəkilib:

– Gəl içəri, – dedi.

Həyətindəki bağçadan gələn sərçə cikkiltiləri bir anlığa diqqətimi çəkdi. Dördayaqlı tutacağın köməyi ilə beş dəqiqəyə qonaq otağına getdik. Divanda oturdu. Çox tərləmişdi, tövşüyürdü.

Hədiyyəni stolun üstünə qoyub yanında oturdum.

– Bəs dostların hanı? – dedi.

– Allah istəsə, şəhid olmağa gediblər! Mən də eşitdim ki, xəstəsiniz, dedim, sizi yoxlayım, həm də dua edəsiniz, dostlarımdan geri qalmayım.

– Müharibə məni bu vəziyyətə saldı, – güləndən sonra söhbətə başladı. – Ürəyim narahatdır. İki gün qabaq qonağım vardı...

Özü danışmağa başladı. Fikirləşdim ki, sual verməməliyəm, yoxsa məni bayıra atar. O danışır, mən də arabir deyirdim: "Allah sizi qorusun!"

Söhbət yavaş-yavaş inqilaba və müharibəyə gəlib çıxdı. Mən eləcə gülümsəyir, dinləyir, bəzən də ehtiyatla elə sual verirdim ki, nə etdiyimi bilməsin. Söhbət əsnasında müharibədən bir xatirə danışmaq istədi, birdən dayanıb dedi: "Bunu sənə danışmışam. Qoy başqasını söyləyim".

Gülümsəyib təsdiq əlaməti olaraq başımı yellədim. “Maşallah bu yaddaşa! İki il qabaq mənə hansı xatirəni söylədiyini bilir, amma yaddaşsızlıqdan şikayətlənir” - ürəyimdə dedim.

Xülasə, Fərruxzad ləqəbli Nüsrət xanım Səfəri inqilab və müharibə barədə xatirələrini mənə söylədi. Sonra ev və mobil telefonunun nömrələrini verib dedi: "İstədiyin vaxt zəng vura bilərsən".

Təəccübdən deməyə söz tapmadım. İki il çalışandan sonra mən söyləmədən özü telefon nömrəsini verirdi.

– Ana, icazənlə mən gedim, – şam azanına bir neçə dəqiqə qalmış dedim.

– Həyətin işıqlarını yandır, sonra get, – dedi.

Həyətə çıxdım. Dördayaqlı əsanın səsini eşidib geri döndüm. Arxamdaydı. Təbəssümlə dedi:

– Zəhmət çəkib gəlmisən. Sevindim. Yenə gəl.

– Baş üstə, ana, – deyib sevincək həyətdən çıxdım. Sual verməsəm də, Allahın köməyi ilə fəaliyyəti və paltar yuması barədə ehtiyacım olanları eşitmişdim.

Fikirləşirdim ki, tez-tez ona baş çəkərəm, amma bir həftədən sonra Behişti-Zəhra məzarlığına onun dəfninə getməli oldum.

Ömürlərini camaşırxanada keçirmiş xanımların hər biri ilə görüşüm mənə əxlaq dərsi kimi idi. Onların söz və davranışlarında ixlası aydın görürdüm. Onlar gördükləri işlər barədə bir söz demirdilər, onları söyləməklə ixlaslarının azalmasını istəmirdilər. Camaşırxana işi ilk baxışda çox əzab-əziyyətli görünürdü. Onlar hələ də yuyucu maddələrin təsirindən boğulur, əllərində yara izləri görünür və yaşlı gözlərlə deyirdilər:

– Uşağından xəbərsiz olasan və kəsilmiş bir insan barmağını əlinə götürəsən - nə hala düşərsən?!

– İndiyə qədər olubmu, qan ləkələrini əlinlə o qədər sürtəsən ki, öz əlindən də qan gələ?!

– Gərək camaşırxananın qapısına belə yazaydılar: "18 yaşına qədər giriş qadağandır!”

– Bu səsyazanı söndür, sənə deyim ki, indiki ayaq ağrılarım nədəndir. Mən hətta aybaşı günlərimdə də soyuq suya girib paltar yuyurdum. Gecələr bədənimin ağrısından gözümə yuxu getmirdi. Sonrakı iltihabları məni əldən saldı.

Bəzən ağrı-acıları danışarkən camaşırxana zamanındakı şuxtəbliklə deyirdilər: "Yazıq ərim bir neçə aydan bir cəbhədən gəlib mənim bərkimiş və yaralanmış əllərimi görürdü. Hələ üstəlik xlor qoxusu da verirdim. Allah rəhm elədi, məni boşamadı”.

Çəkdikləri məşəqqətlər əvvəldə mənə də əzab verirdi, ancaq sonda hələ də inqilab üçün can verməyə hazır olduqlarını, hərəm müdafiəçilərinin paltarlarını yumağa getmək istədiklərini bildirəndə əzab çəkmiş insan təsəvvürlərim alt-üst olurdu. Onlar yaşadıqları bütün ağrı-acılara, şəhid bədənlərinin parçalarına toxunmalarına baxmayaraq, zeynəbçi ruha malikdirlər, döyüşçülərin paltarlarını yumalarını şirin xatirə kimi söyləyirlər. Əgər belə olmasaydı, fiziki zəifliklərinə baxmayaraq, indi də inqilab fəaliyyətlərində olmazdılar. Yadımdadır, Əndimeşkdə keçirilən Əmmar festivalının açılış günündə həmin xanımlar iştirakçılara könüllü şəkildə aş bişirdilər. Onlar aş qazanlarının yanında da salavat və şüar deyirdilər. Bunlar isə camaşırxana günlərini yada salırdı.

Sonda kitabın ərsəyə gəlməsində əməyi keçmiş hər kəsə, xüsusən də Şəhid Cavad Zivedari adına Mədəniyyət və İncəsənət Mərkəzinin sədri, böyük qardaşım və ustadım Əzim Mehdinejada təşəkkürümü bildirirəm.

Fatimə-sadat Mirali
Qış, 2021

## Zəhra Məliknejad (Xanım Hüseynpur)

Yayın son günü, zənnimcə, günorta çağı idi. Qəfil və dəhşətli bir səsdən sonra hamımız küçəyə çıxdıq. Mat-məəttəl bir-birimizə baxırdıq. Uşaqlar qorxudan bizə yapışmışdılar. Hərbi bazadan göyə qara tüstü qalxırdı. Camaat vahimə içində oraya doğru qaçdı. Bir-iki saatdan sonra isə şəhərdə belə bir xəbər dolaşdı: "İraq hücuma keçib".

Camaatın arasına çaxnaşma düşmüşdü. Həmin gün axşamüstü Bəsic uşaqları Vanet yük maşınına səsucaldan yerləşdirib şəhərin küçələrini gəzə-gəzə deyirdilər: "İraq ordusu Kərxə körpüsünün yaxınlığına çatıb. Ailə-uşaqlarınızı şəhərdən çıxarın!"

Kərxə körpüsü Əndimeşkin qərbində yerləşirdi, şəhərin mərkəzi ilə məsafəsi 15 km-dən az idi. Qorxurduq, amma atıb getmək də olmurdu.

Kişilər silah, çomaq və əllərinə keçən hər bir şeylə Kərxəyə doğru üz qoydular, ordu qüvvələrinin köməyi ilə düşmənin qarşısını almağa getdilər. Gənclər şəhərdə barrikadalar qurub gecə-gündüz keşik çəkirdilər. Düşmən şəhəri mərmi və raketlə vururdu. Axşamlar bir siqaret də yandırmaq olmurdu. Şəhərin səmasını yalnız düşmən artilleriyasının mərmi atəşlərinin qızartısı işıqlandırırdı. Xürrəmşəhr və Abadandan da yaxşı xəbər gəlmirdi. Əhali narahat idi. Bəsic qüvvələri qadın və uşaqları yük maşınlarının arxasına mindirib Dokuhəyə və ətraf çöllərə aparır, şəhərdən 4-5 km uzaqlaşdırırdılar. Mənsə çoxları kimi evdə qaldım.

Oğullarım küçələrdə keşik çəkirdilər. Onlar mənə molotov kokteyli düzəltməyi öyrətmişdilər. Sabun gətirirdilər, oturub hamısını doğrayırdım, butulkaları

yarıyacan neft, benzin və sabunla doldururdum, sonra parça tikələrini düyünləyib içinə salırdım; elə edirdim ki, parçaların başı bir qədər çöldə qalsın. Molotov kokteyllərini həyətdə yerə düzürdüm, oğlanlar gəlib şəhərin müdafiəçilərinə aparırdılar.

Gündüzlər qonşu qadınlarla müharibəni təhlil edir, uşaqlarımızın şəhəri və Kərxə körpüsünü qorumaq cəsarətlərindən danışırdıq. Gecələr isə Bəəs qüvvələrinin bizi evlərdə ələ keçirmələrindən qorxurdum. Hamamın çənini doldururdum, suqızdırana neft töküb yandırırdım. Qədim böyük suqızdıran qazanlardan idi, suyu qaynayırdı. Şlanqı isti su borusuna keçirib dama aparırdım. Damda kərpicdən hasar vardı. Gecələr qalxıb hasarın arxasında oturur, dəliklərdən küçəyə göz qoyurdum. Gözləyirdim ki, iraqlılar gəlsinlər, başlarına qaynar su töküm və onları kərpiclə vurum.

Müharibədən üç-dörd gün keçirdi. Günortadan qabaq həyət qapısının önündə dayanmışdım. Əsgər paltarı geymiş, üz-başı günəşdən yanmış və tərdən islanmış gənc bir oğlan gəldi, tövşüyə-tövşüyə dedi: "İraqlılar uşaqlarımızdan çoxunu öldürdülər. Mən buracan qaçmışam, çox susuzam".

Vəziyyəti yaxşı deyildi, amma bir kişinin döyüşdən qaçdığını qəbul edə bilmirdim.

– Sənə su verməyəcəm, - ona dedim. - Biz sizə ümidlə burda qalmışıq; əgər siz də atıb qaçsanız, biz nə edərik?!

Başını aşağı saldı. Ona yazığım gəldi, evdən bir stəkan su gətirib verdim. Birnəfəsə başına çəkib stəkanı qaytardı. Ona dedim:

– Qaçmaq kişilikdən deyil. İstəyərsənmi anan və ya bacın burda düşmənin əlinə keçsin?! Qayıt, şəhəri müdafiə elə!

Başını yelləyib Kərxəyə tərəf qayıtdı.

Bir həftə çəkmədən ordu qüvvələri və Əndimeşk əhalisi iraqlıları Kərxə çayının kənarından uzaqlaşdırdılar. Şəhərdən çıxmış qadınların çoxu qayıtdı. Şəhər daim bombalanırdı. Biz qadınlar düşmənin əlinə keçməkdən qorxurduq, ancaq deyirdik ki, gərək qəhrəman gənclərimizin arxasında qalaq və düşmənin çoxluğundan qorxmayaq. Öz-özümüzə deyirdik ki, biz o boyda şahı qovmuşuq, Səddam nədir ki!

Şəhərdə qalır, əlimizdən gələn hər bir işi görürdük. Evimiz dəmiryol stansiyası tərəfdə idi. Bacım Kübragilin evi villa evlərindən idi, böyük həyəti vardı, stansiyanın və dəmiryol xəstəxanasının yaxınlığında yerləşirdi. Biz qanlı ədyalları ilk dəfə orada yuduq.

Dəstəyi götürürdüm, Kübra deyirdi: "Tez bizə gəl". Vəssalam. Çadramı başıma atıb gedirdim. Evlərimiz bir prospektdə yerləşirdi. Həyətlərinin önündə həmişə bir Nissan yük avtomobili dayanırdı. Bacımın həyat yoldaşı Kəlani maşının üstündən döyüşçülərin ədyal, döşək, mələfə və paltarlarını yerə atırdı. Ədyalların bir neçəsini qoltuğuma vurub həyətin bir tərəfinə aparırdım. Həyət ədyalla dolurdu. Ağa Kəlani axırıncı ədyalı yerə atandan sonra dünən yuyulmuş ədyallara sarı gedib deyirdi: "Xəstəxanada ədyal və mələfələrə ehtiyac var... çox".

Ədyalları quru və nəmli halda toplayırdı. Xuzistanın sentyabr günəşi hələ yandırırdı, amma elə böyük və ağır ədyalları bir günə qurutmağa gücü yetmirdi. Hovuzun kranını açırdıq. Qonşu qadınlar bir-bir həyət qapısını döyüb içəri girirdilər. İyirmi-otuz qadın toplaşırdı. "Bacılar, Bismillah! Axşamacan hamısını yumalıyıq!” Mələfələri açıb çırpır, sonra hovuza tökürdük. Yuyucu tozu da töküb ayaqla tapdamağa, sürtməyə başlayırdıq.

Sonra paltaryuyan maşına qoyub bir dəfə də orada yuyurduq.

Hovuzun yanı dəri və ət parçaları və qurumuş qan laxtaları ilə dolu olurdu. Halımız pisləşirdi, kövrəlirdik, amma ağlamağa macal yox idi. "Bismillah" deyib əlimə sellofan torba götürür, əyilib ət parçalarını yığırdım. Sonra torbanı ağa Kəlaniyə verirdim, aparıb dəfn edirdi. Birinci gecələr yata bilmirdim, ət parçaları, qanlı və cırıq paltarlar gözlərim önünə gəlirdi, düşünürdüm ki, görəsən, hansı şəhidin bədəninin parçasıdır. Paltarlar üzərindəki dəliklər də bizi ağladırdı. Paltarlar quruyandan sonra Kübra ilə oturub bir-bir güllə və qəlpə yerlərini tikir, ütüləyirdik.

1982-ci ilin yazında Fəthülmübin əməliyyatı başlandı. Şuşdan sonra əməliyyat bölgəsinə ən yaxın şəhər Əndimeşk idi. Təcili yardım maşınları və helikopterlərlə dayanmadan yaralı gətirirdilər. Dəmiryol xəstəxanası stansiyanın yaxınlığında idi, onun arxasında da cümə namazı qılınan namazgah - müsəlla yerləşirdi. Müsəllanın həyəti çox böyük idi. Ora aerodroma çevrilmişdi. Helikopter ora qonub yaralıları boşaldırdı. Yerdən-göydən yaralı gəlirdi. Şəhər hərbçilərlə, xəstəxana da yaralılarla dolu idi.

Həmin günlərdə evlərə çoxlu camaşır gətirirdilər. Bütün qonşular bacımgildə, bəzən də hərə öz evində yuyurdu. Yuyulmalı o qədər çox idi ki, yalnız evdə işləmək kifayət etmirdi. Qonşulardan eşidirdim ki, xanımlar Şəhid Kələntəri xəstəxanasında da yuyurlar. Bizim evimizdən xəstəxanaya qədər on dəqiqəlik yol vardı. Piyada yola düşdüm. Yanımda bir Vanet yük maşını dayandı, sürücü başını çıxarıb dedi: "Bacı, xəstəxanaya gedirsənsə, min".

Çadramı toplayıb maşının yük yerinə qalxdım. Məni camaşırxananın yanında endirdi. Xəstəxananın şöbələri bir-birindən ayrı idi. Camaşırxana Təcili yardım şöbəsindən 10-12 metr aralıda yerləşirdi.

Camaşırxananın içi və çölü paltar, ədyal və mələfə ilə doluydu. İçəri girən kimi kəskin xlor qoxusu burnumu yandırdı. Qırx-əlli qadın salavat deyir, dua edir və yuyurdu. Heç kim mənə baxmadı. Mən də bir ləyənin yanında oturub yaxındakı mələfəni açdım. Üzərindəki qan quruyub qaralmışdı. Xlorla islatmaq istədim. Xloru götürüb üstünə tökdüm. Kəskin qoxusu boğazıma və burnuma doldu. Gözlərim yandı, yaş axmağa başladı. Nəfəsim gəlmirdi. Su şlanqını üzümə tutdum və camaşırxanadan çıxdım. Boğulmaq üzrəydim. Bir müddət dava-dərmanın köməyi ilə nəfəs alır, yuyanda başörtüyümün bir tərəfi ilə ağzımı bağlayırdım.

Bacım həmişə evdə paltar yuyurdu, mənsə ondan sonra camaşırxanaya getməyə başladım. Qonşu qadınlardan bir neçəsi də mənimlə gəlirdi. Oranın aurasını sevirdim. Aktiv və həyəcanlı bir mühit idi. Bir-birimizlə zarafatlaşır, ağrılı səhnə görən kimi ağlamağa başlayırdıq. O vəziyyətdə bir-birimizə təskinlik verirdik. Mən çox vaxt onlara mərsiyə oxuyurdum. Uşaqlıqdan ev məclislərində oxumuşdum. Camaşırxanada mən oxuyurdum, xanımlar da təkrarlayır, yumağa həvəslənirdilər.

Axşamlar bir dilim sarımsaq udurdum, səhərə qədər boğazımı və sinəmi təmizləyirdi. Bir dəfə bərk xəstələndim, səsim tutuldu; çətinliklə danışırdım. Xanımlar israr etdilər ki, gərək bu gün də oxuyasan. Dedim ki, səsim çox pisdir, oxuya bilmərəm. Əl çəkmədilər, o qədər israr etdilər ki, oxumağa başladım; həmin batmış, xışıltı səslə, amma tam emosiya və inamla:

“Kərbəlaya az qalıb! Kərbəlaya az qalıb! Kərbəla, Kərbəla! Biz gəlirik! Biz gəlirik!” – deyirdim, xanımlar da təkrarlayırdılar.

Səslərdə qəhər vardı. Sanki ağı deyirdilər. Orada qiyamət qopdu. Oxuduğum yerdə tez-tez öskürür, boğazımı arıtlayırdım. Amma axıracan oxudum. Xanımlar uzun müddət məni ələ salıb gülüşür, deyirdilər: "Oxuyanda xırıldayırdın. Bir şey fikirləş, səsin əldən gedir ha!"

O günlərdə bütün fikir-zikrimiz müharibə idi. Gecə-gündüz evə getməsək də, bir söz demirdilər. Hüseyn dəmiryol vağzalında işləyirdi. Pəhləvi rejiminə qarşı mübarizə apardığına görə inqilabdan öncə onu hər ay bir yerə sürgün edirdilər. Onu o qədər incitdilər ki, axırda xəstələndi. Müharibə başlayanda isə vəziyyəti daha da pisləşdi. Lakin stansiyada işçiyə ehtiyac olduğuna görə uzun müddət o vəziyyətdə işə getdi. Psixoloji baxımdan da durumu yaxşı deyildi, təkliyə, ailəsindən ayrılığa dözə bilmirdi.

Dörd oğlum vardı; həmişə ya Bəsicdə idilər, ya da cəbhədə. Bir gün sübh tezdən günorta yeməyi hazırlayıb qazın üstünə qoydum, Hüseynin dərmanlarını da yanına qoyub dedim: "Mən paltar yumağa gedirəm, günorta yeməyindən sonra dərmanlarını içərsən".

Axşam qayıdanda gördüm ki, xörək qazın üstündədir, əl dəyməyib.

– Niyə xörək yeməmisən? – deyə soruşdum.

– Sən çəkməyincə yeyə bilmirəm, – cavab verdi.

Ac qalmışdı, amma mənə "camaşırxanaya getmə" deməmişdi. Çox narahat oldum. Ondan sonra hər gün günorta evə qayıdıb yoldaşımla nahar edir, dərmanlarını

verir, ondan sonra ya camaşırxanaya qayıdırdım, ya da Kübragilə gedib paltar yuyurdum.

Atam molla idi. Quranı və şəriəti uşaqlıqda öyrənmişdim. Evdə digər xanımlara da öyrədirdim. İnqilabdan sonra dərslər daha da çoxaldı. Müharibə dərslərimizi tətil edə bilmədi. Həmin dövrdə həftədə iki-üç saat Bəsic mərkəzində Stansiya məhəlləsinin xanımlarına Quran və şəriət öyrədirdim.

11 Fevral 1986-cı ildə sinifdə oturmuşdum. Yeznəmiz ağa Kəlani qapının önünə gəldi. Kübra qalxıb bayıra çıxdı. Bildim ki, nəsə baş verib. Çox həyəcanlandım. On beş dəqiqədən sonra qayıdanda başını aşağı salmışdı. Çantasına tərəf getdi. Gözlərini görəndə çox qorxub dedim:

– Nə olub, Kübra?

Səsi boğazının dibindən zorla çıxdı:

– Deyirlər ki, Əhmədlə Mahmud şəhid olublar.

Birdən bütün bədənim buza döndü. Sanki keyimişdim, heç nə edə bilmirdim. Hamı gözlərini mənə dikdi. Haradansa güc tapıb özümü toparladım, başımı qaldırıb dedim:

– Allaha şükür! Oğullarımızın qanı İslam yolunda tökülüb!

Kübra əri ilə evə getdi, mənsə sinifdə qaldım. Səsim titrəyirdi, qəhərdən boğulurdum, amma, çətinliklə olsa da, dərsi davam etdirdim. Dərsdən sonra xanımlar məni tək qoymadılar, birlikdə bacımgilə getdik.

Oğlum Mahmudla bacım oğlu Əhməd həmişə bir yerdə olurdular. Uşaqlıqda bütün dəcəlliklərini birlikdə etmiş, məktəbə, sonra da cəbhəyə birlikdə getmişdilər. Həmin gün isə bir-birindən ayrı düşmüşdülər. Əhmədin cəsədini gətirdilər, amma Mahmudun cəsədini tapmadılar. Döyüş

yoldaşlarının çoxu deyirdi ki, şəhid olub. Görünür, vurulduğunu görmüşdülər, amma cəsədi yox idi.

Əhmədin dəfni ilə məşğul olmağa başladıq. Çox narahat idim; bilmirdim ki, bacıma təskinlik verim, yoxsa uşağımdan xəbərsiz qaldığıma görə kədərlənim. Hər an oğlum Mahmuddan xəbər gözləyirdim.

Vəlfəcr-8 əməliyyatı başlandı, yenə xəstəxanalar yaralılarla doldu. Dayanmadan ədyal, mələfə və qanlı paltar gətirirdilər. Belə zamanlarda rahatlığımız olmurdu, camaşırxanada və evdə gecə-gündüz paltar yuyurduq, qanlı camaşırlar bitmək bilmirdi. Belə bir durumda camaşırxanaya getməməyi vicdanım qəbul etmirdi. Gedib ləyənin yanında oturanda isə paltarların arasındakı qan və ət parçaları Mahmudu gözlərim önündə canlandırırdı. Xanımlar məni başa düşüb deyirdilər: "İnşallah, oğlun evə salamat qayıdacaq, fikir eləmə".

Şəhid analarından utanıb dözümsüzlük etmirdim. Onlarla birlikdə yuyur, iş zamanı mərsiyə oxuyurdum. Bu durumda həm də ərimin qeydinə qalırdım ki, oğlumuza görə halı pisləşməsin. Narahatlıq, stres və göz yaşları içində qırx gün ötdü.

Bir dəfə gecənin yarısı qapının səsinə yuxudan oyandım. Həyətə qaçıb qapını açdım. Qarşımda qolu gipsdə və üz-başı yaralı olan arıq bir oğlan dayanmışdı. Tanımadım. Öskürürdü. Çətinliklə nəfəsini buraxıb dedi: "Salam, ana, necəsən? İcazə olar, gəlim?!"

Başını sinəmə qoyub dedim:

– Ana sənə qurban olsun! Mahmudum... xoş gəlmisən!

Əməliyyatda ağır yaralanıbmış, onu başqa bir şəhərə xəstəxanaya aparıblar, heç kimin xəbəri olmayıb.

Nəvəm üç-dörd aylıq idi. Qucağıma götürüb öpür, onunla oynayırdım. Birdən təyyarə və partlayış səsləri evi

titrətdi. Uşaq qucağımda gəlinimlə birlikdə evin önündəki innab ağacının altına sığındıq. Camaat qışqıra-qışqıra evlərindən qaçırdı. Təyyarələr dəstə-dəstə şəhərin səmasında uçuşub bomba tökür, gedirdilər. Daha çox Stansiya məhəlləsini vururdular. Bombaları bitmək bilmirdi. Qonşuların çoxu şəhərin ətrafına qaçdı, bəziləri küçələrdə ağacların altına, hətta kanalizasiyaların içinə sığındı.

Gözlərim göydə qalmışdı. Məhəlləni od-alov, qatı və qara tüstü bürümüşdü. Qohumlarımızın çoxu və bacımgil orada yaşayırdılar. Çox həyəcanlandım, uşağı anasına verib stansiyaya tərəf qaçdım. Hərə bir tərəfə qaçıb başına vururdu. Dəmiryol meydanına çatmamış Bəsic uşaqları yolu bağlamışdılar. Dedilər ki, təhlükəlidir, lütfən qayıdın.

– Evim ordadır, qoyun gedim, – ağlaya-ağlaya dedim.

Bir neçə gün idi bazarın arxasında ev almışdıq. İstəyirdik ki, idarə evlərindən çıxaq, oranı daha ehtiyaclı birinə versinlər. Lakin hələ bütün əşyalarımızı aparmamışdıq. Çox yalvar-yaxardan sonra məni buraxdılar. Dəmiryol meydanına tərəf qaçmağa başladım.

Camaat və tibb işçiləri təcili yardım və yük maşınları ilə yaralı və şəhidləri xəstəxanalara aparırdılar. Raket düşdüyünə görə stansiyanın önündə çala yaranmışdı. Yoluma paltar, qol və ayaq parçaları tökülmüşdü. Qaçdıqca iztirabım da çoxalırdı. Hətta kişilər də ağlaya-ağlaya əzizlərini axtarırdılar. Evimə tərəf gedəndə uzaqdan bir torpaq təpəsi görüb sürətimi artırdım. Raket Cəbrailinin evinə düşmüşdü. Onunla qonşu idik. Oğlu Həmidrza qan içində asfaltın üzərində qalmışdı. O, Mahmudun dostu, on səkkiz yaşlı başıaşağı və mehriban gənc idi. Onu görəndə taqətim çəkildi, bacımgilə görə

həyəcanım daha da artdı. Çətinliklə özümü oraya yetirdim. Sanki bir-bir bütün evləri vurmuşdular.

Həyət qapıları açıq idi; evin bütün şüşələri sınmış, hər şey dağılıb tökülmüşdü. Otaqlara qaçdım. Evdə heç kim yox idi. Heyrət içində bayıra çıxdım. Bir neçə nəfər yandakı evdən, uçqunun altından yaralıları çıxardırdı. Onların biri mənim vəziyyətimi görüb yaxınlaşdı və dedi: "Narahat olma, yaxşıdırlar. Onları xəstəxanaya apardılar".

Dağılmış evlərə baxıb başıma vururdum. Ətrafa səpələnmiş ət parçalarını və dağılmış evləri görüb özümə gəldim, düşündüm ki, kömək etmək lazımdır. Bibim qızı Məhingilə çatdım. Ev yoxa çıxmış, yerində torpaq və kərpic yığını qalmışdı. Boşqab və paltarlar müxtəlif yerlərindən bayıra çıxmışdı. Bütün bədənim əsirdi. Var-gücümü toplayıb torpaq və kərpicləri kənara çəkdim. Məhin altıyaşlı oğlu Müctəba və üçyaşlı qızı Məsumə ilə birlikdə uçqunun altında qalmışdı. Bədənləri yanmış, əzilmişdi. Çətinliklə uçqunun altından bir ədyal çıxardım. Kazim Xəlili də gəldi. Torpaq təpəyə baxıb başına vururdu. Cəsədləri kərpiclərin altından çıxarıb ədyalın üzərinə qoydum. Bişmiş ət kimi idilər. Əlimə yanmış ət və beyin dəyir, qoxusu burnuma dolurdu. Məsumənin qolunu tapmadım. Ağa Xəliliyə dedim: "Axtar, qızının qolunu tap". Qüssədən ürəyi dayanmaq üzrə idi. Ertəsi gün qızının qolunu evlərindən əlli metr aralıda yerləşən Müdərris orta məktəbindən tapdı.

Gözlərim qaralırdı. Cəsədləri Şəhid Kələntəri xəstəxanasının morquna apardıq. Hamısını yerdə üst-üstə yığmışdılar. Şəhidlərin bədən parçalarından ibarət üç boğçanı morqun bir tərəfinə qoyub bayıra çıxdım.

Qırx altı yaşım vardı, çoxlu şəhid və ölü görmüşdüm, amma bu dəfə vəziyyət başqaydı. 25 Noyabr 1986-cı il

bombardmanında Səddam Əndimeşki şumlamışdı. Halım çox pis idi. Qusmağa başladım. Bağırsaqlarım ağzıma gəlirdi. Yanmış ət qoxusu başımdan çıxmırdı. Evə gedib qanlı əllərimi yudum, bir qədər sarımsaq və soğan yedim, amma faydası olmadı. Ertəsi gün çəkmə geyib morqa getdim, cəsədləri kəfənlədim. Narahatlıqdan bütün vücudum əriyirdi. Dəfn zamanı bibim qızını ərindən alıb məzara qoydum. Bütün Əndimeşk əhalisi şəhidlərin dəfninə gəlib şüar deyirdi: "Müharibə! Müharibə! Qələbəyə qədər müharibə!"

Dəfndən sonra həmin vəziyyətdə camaşırxanaya ədyal və döşəkağı yumağa getdim. Oturub kədərlənməklə iş düzələn deyildi. Özümü toparladım, salavat dedim, mərsiyə oxudum və yumağa başladım. Günlərlə, aylarla digər xanımlarla birlikdə dayanmadan yuyur, ürəyimi qüssədən təmizləyirdim. Camaşır yumaq məndə ümid yaratdı, parça-parça olub ağaclardan asılan və uçqunun altında qalan bədənlərin qüssəsi isə heç vaxt ürəyimdən yuyulmadı.

# Xədicə Dağəri

Xəbər gəldi ki, Səddamın vəhşi və rəhimsiz ordusu Əndimeşkin yaxınlığına çatıb. İnana bilmirdim. Günortaya yaxın birdən qorxunc bir səs gəldi. O qədər vahiməli idi ki, qəlbimin yerindən qopacağını sandım. Şayiə deyildi, İraq hücuma keçmişdi. Qarşılarını almaq üçün ayağa qalxdıq. Gecələr bütün işıqlar söndürülürdü, heç kim bir siqaret də yandırmırdı. Partlayış səsləri anbaan yaxınlaşırdı. Bəsic və məscid uşaqları qum dolu kisələri küçələrdə üst-üstə yığıb yolları bağlayırdılar. Biz xanımlar da evdə yeməyə nəyimiz vardısa, məscidə göndərirdik. Hamı deyirdi ki, qadın və uşaqlar şəhərdən çıxsınlar. Ərim Alimpur qatar rəisi idi, döyüşçü və sursat dolu qatarı Əhvaza və Xürrəmşəhrə aparırdı. O, istirahət zamanı da işləyirdi, evə gəlmirdi. Beş qızımız, iki oğlumuz vardı. Oğullarım məscid uşaqları ilə birlikdə olurdular. Dedim ki, mən də qalıram, heç yerə getmirəm.

Qohumlar gecə-gündüz israr edib deyirdilər: "Onsuz da ərin evdə deyil. Əgər evinə tökülüşsələr, balaca uşaqlarla nə edərsən?!"

İsrarım əbəs idi. Ərimin qohumlarından birinin evi Balarud stansiyasının yaxınlığında idi, avtomobillə bizdən on beş dəqiqəlik məsafədə yerləşirdi. Oraya getdik.

Baldızım Zəhra ilə qonşu idik. Əri Hərbi Hava Qüvvələrinin bazasında işləyirdi. Zəhranı və uşaqlarını da özümlə apardım. Uşaqlar kəndin toz-torpaqlı və susuz şəraitində xəstələndilər. Kamran yeddiaylıq idi, onda güclü ishal yarandı. Onu sakitləşdirə bilmirdim. Zəhra dedi:

– Qorxuram ki, uşağımın başına bir iş gələr. Onu həkimə aparıram.

– Kambizlə Katrin mənim yanımda qalsın, – dedim.

Onlar beş və yeddi yaşlarında idilər. Zəhra dedi:

– Yox, onları da hamama aparacam.

Uşaqlarım Fərəclə İrəc də bibiləri ilə evə qayıtdılar. Narahat idim, gözüm yolda qalmışdı. İki gündən sonra qohumların biri belə bir xəbər gətirdi: "Bu gün məhəllənizə bomba düşüb, Zəhra və uşaqları şəhid olublar".

Əndimeşkə necə getdiyimi bilmədim. Evimiz Binalar məhəlləsində, İmam Hüseyn (s) məscidinin arxasında idi. Küçənin başına çatanda gördüm ki, evlərin çoxu torpaq təpəsinə oxşayır. Dağılmış evlərin birinin yanında oturub ağlamağa başladım. Uçqunun torpaqlarını ovuc-ovuc götürüb başıma tökür, deyirdim: "Niyə qoydum ki, tək gələsiniz?! Niyə mən də gəlmədim?!"

Qışqırıb ağladığım yerdə Fərəcin yaralandığını eşitdim. Raket düz Zəhragilin evinin ortasına düşmüşdü, küçənin ortasına qədər hər yer dağılmışdı. Həmin gün Zəhranın və uşaqlarının dəfni ilə məşğul olduq. Hələ müharibədən on beş gün ötməmiş evimiz yıxıldı, matəmə qərq olduq. Camaat bəzi əşyalarımızı uçqunun altından çıxardı. Bir neçə gün atamgildə qaldıq, sonra stansiyanın idarə evlərindən birinə köçdük.

Stansiyaya və xəstəxanaya yaxın idik. Zəhraya və uşaqlarına görə vəziyyətim pis idi; dayanmadan ağlayırdım. Qapının önündə durub bir tərəfdən, gedib-gələn döyüşçülərə baxırdım, bir tərəfdən də, təcili yardım və yük maşınları ilə daşınan yaralılara. Yalnız baxmağa vicdanım razı olmadı. Dəmiryol xəstəxanasına getdim. Yaralıları dəhlizlərdə və həyətdə yerə qoymuşdular. Soruşdum:

– Görə biləcəyim bir iş varmı?

Xəstəxanada çox adam vardı. Kimsə düz-əməlli cavab vermədi. Gördüm ki, qanlı ədyal və mələfələri bir tərəfə töküblər. Dedim ki, bunları verin, yuyum. Dedilər ki, götür. Bəsic uşaqlarından iki nəfərə dedim ki, onları bizim evə gətirsinlər. Qonşu qadınlarından bir neçəsinə də xəbər verdim, köməyə gəldilər. Ədyalları həyətdə hovuzda islatdıq. Su qızardı. Zəhra ilə uşaqları yadıma düşdü, ürəyim kabab oldu. Ağlaya-ağlaya ədyalları hovuzdan çıxardım. Qadınlar da mənim kimi ağlayırdılar. Yaşlı gözlərlə və qanlı qəlblə tez-tez yuyucu tozu töküb ədyalları yuduq. Dəlik-deşik olmuş qanlı paltarları görmək bizə çox əzab verirdi, amma ölkəmiz təhlükədə idi, laqeyd qala bilməzdik, əlimizdən gələn hər bir işi görməli idik.

Stansiyanın səyyar dəstəsini də işləməyə və ədyal yumağa cəlb elədim. Onlar dəmiryollarında təmir işləri aparır, evlərə texniki xidmət göstərirdilər. Bu uşaqların sayəsində stansiyanın önündəki prospekt və evlər bomba və atəş altında da həmişə yamyaşıl və güllü-çiçəkli olurdu. Yaşıllığı görmək əhaliyə ümid verirdi. Artıq səyyar dəstə həm öz işlərini görürdü, həm də cəbhəyə dəstəklə məşğul olurdu.

Evlərimizin önündə böyük və boş torpaq sahəsi vardı. Səyyar dəstə orada paltar ipləri çəkdi. Yuduqlarımızı həmin iplərdən asırdıq ki, tez qurusun. Sonra onları uşaqlarıma verirdim, xəstəxanaya aparıb çirkli ədyal və mələfələri gətirirdilər. İş çox olanda gecələr də yuyurdum. Qızlarım da mənimlə birlikdə işləyirdilər.

Qutu-qutu yuyucu tozu, xlor və sabun alırdım. Qonşu qadınlar da bir bəhanə ilə yuyucu tozu gətirirdilər. Xəstəxananın mələfələri qandan qızarmış olurdu. Onları bir neçə dəfə yuyur, ləkələrini sürtüb təmizləyirdim. Gecə-gündüz yumaqla məşğul idim. Həyətdə qanlı su axanda

mən də ağlamağa başlayırdım. Qanlarına qəltan edilmiş gənclərin müsibəti Zəhranın və uşaqlarının müsibəti qədər mənə əzab verirdi. Artıq mənimçün cəbhəyə köməkdən başqa heç bir şeyin əhəmiyyəti yox idi.

Bir gün Bəsic uşaqlarından biri ədyalları boşaldanda üstünə bir neçə qutu yuyucu tozu da qoydu. Ona dedim ki, bunlar nədir? Dedi:

– Siz hər gün öz cibinizdən xərcləyirsiniz. Hər dəfə sizə bir qədər yuyucu maye verəcəyik ki, onlarla yuyasınız, sizə az yük düşsün.

– Yox, daha gətirmə, – narahat halda dedim, – bu qədər axmış qandan utanıram.

Pul, istirahət və yemək haqda əsla düşünmürdüm, gecə-gündüz müharibəni fikirləşirdim. 1981-ci ilin payızına qədər evdə paltar yudum. Ondan sonra Şəhid Kələntəri xəstəxanasında camaşırxana açdılar, bir batalyon qadınla oranın yuyucusu olduq.

# Purənduxt Linmən

On bir yaşım vardı. Xədicə mama, hər il olduğu kimi, həmin il də mehr ayı girməzdən bir neçə gün öncə mənə və bacım Turana məktəb paltarları aldı; qollarının aşağısı ağ rəngdə olan boz manto idi. Hər gün məktəb paltarımı geyib çantamı çiynimə aşırır, evdə gəzişirdim. Sonra çıxarıb qatlayır, yerinə qoyurdum. Çox sevinirdim. Yuxuda da qəşəng paltarlarımla məktəbə getdiyimi görürdüm.

Nəhayət, intizar sona çatmaqdaydı. Məktəblərin açılmasına cəmi bir gün qalırdı. Yenə paltarımı geyib həyətə çıxdım, küçədəki uşaqlara özümü göstərib evə qayıtdım. Anam dedi: "Elə bil, paltar görməmisən ha! Nə yaxşı ki, sənə hər il yeni paltar alıram!"

Paltarlarımla qürrələndiyim yerdə birdən qorxunc bir səs gəldi. Qışqırıb anamı qucaqladım, bir neçə dəqiqə yerimdən tərpənə bilmədim. Ürəyim bərk döyünürdü. Həmin gün xəbər yayıldı ki, Səddam hücuma keçib. Mehr ayı girdi, amma məktəblər açılmadı, mən də paltarlarımı geymədim. Onları önümə qoyub həsrətlə baxırdım. Şəhərin vəziyyəti böhranlı idi. Elan etdilər ki, qadın və uşaqları şəhərdən çıxarın, düşmən əlinə keçməsinlər.

Qorxudan səhərə qədər yata bilmədim. Atam qatar rəisi idi, işi ağır olurdu, evə az gəlirdi. Beş bacı, iki qardaş idik. Qardaşlarım Bəsicdə olurdular, biz bacılar da anamızdan ayrılmırdıq.

Anam bizi Əndimeşkin yaxınlığında bir kənddə yaşayan qohumumuzgilə apardı. Bir həftədən sonra bildik ki, Zəhra bibim uşaqları ilə birlikdə Əndimeşk bombardmanında şəhid olub. Yaralı qəlblə, ağlar gözlə qayıtdıq. Qəşəng paltarlarım uçqunun altında qalmışdı.

Amma daha mənim üçün önəmli deyildi. Stansiyanın idarə evlərinə yerləşdik. Anam da xəstəxanada işləməyə, döyüşçülərin qanlı paltar və ədyallarını yumağa başladı. Müharibənin birinci ilində, ümumiyyətlə, dərs oxumadım, bacılarımla birlikdə anama kömək edib paltar yuduq.

Ədyal və mələfə ilə dolu Vanet yük maşını və ya Rio avtomobili gəlib küçədə dayanırdı. Biz uşaqlar onları qoltuğumuza vurub həyətə gətirirdik. Anam ədyallardan qonşulara verirdi ki, öz evlərində yusunlar. Bəzi qonşu qadınlar da bizim həyətimizə köməyə gəlirdilər.

Ədyalları əvvəlcə hovuzda isladıb tapdayırdıq. Paltarlarım islanırdı. Hovuzda su ilə oynamaq biz uşaqlar üçün çox maraqlı idi. Suya girib digərlərinin üzünə su sıçradırdım. Payız idi, hava soyumuşdu, soyuqdan əsirdim. Ədyallar hovuza atılan kimi isə sudan iyrənirdim. Hovuz qandan qıpqırmızı qızarırdı. Kövrəlirdim, amma ağlamırdım, ciddi şəkildə işləyirdim. Ədyalları bir neçə dəfə yuyub təmizləyirdik.

Evlərin damı və önü hər gün yuyulmuş rəngarəng ədyal və mələfələrlə dolu olurdu. Quruduqca təhvil verib çirkliləri alırdıq. Həmişə evimizə ədyal gətirirdilər. Şəhərin digər yerlərində də ədyal yuyurdular. Qanlı mələfələri görəndə şəhidlər və onların ailələri yadıma düşürdü.

Hələ müharibədən iki-üç ay ötməmiş döyüş və ölüm qorxusu ilə vidalaşdım; həm də bir qədər sakitləşdim.

Mən digər bacılarımdan daha çevik və dəcəl idim. Lakin artıq dəcəllik yerinə yalnız anamıza kömək edib paltar və mələfə yuyurduq. Bəzən də bacılarımla sarğı taxtası düzəldib xəstəxanaya aparırdıq. Müharibə bizi tez böyütdü. Böyüklər mən boyda bir uşağa etimad edirdilər.

Hər gün döyüşçüləri görmək üçün stansiyaya gedir, qatarın yanında onlara əl yelləyir, qatarın içini yaxşı görmək üçün pəncərənin önündə atılıb-düşürdüm.

Bir gün hovuzda mələfələri tapdayırdım. Anam və qonşu qadınların bir neçəsi ağlaya-ağlaya xlorlu su ilə ləkələri sürtürdülər. Yaralılara yazığım gəlirdi, amma anamın və digərlərinin səssiz göz yaşlarına da dözə bilmir, hovuzda başımı qarışdırırdım. Bu zaman birdən qatar fiti çalındı. Hovuzdan çıxıb anama dedim ki, mən getdim.

Yaşlı paltarla evdən çıxıb stansiyaya qədər qaçdım. Çox basabas vardı. Qatar dayandı, camaatın salavat və təkbir səsi hər tərəfi bürüdü. Qatar cəbhədən gəlirdi. Əksər vaqonların pəncərəsi yarıyacan açıq idi. Döyüşçülər qollarını çıxarıb əl yelləyirdilər. Stansiyada adam əlindən yer yox idi; biri gül, biri şirniyyat verirdi, biri də şüarla onları qarşılayırdı. Gözlərim vaqonlardan birinin pəncərəsinə sataşdı. Bir kişi ayaq üstə dayanmışdı. Görkəmindən döyüşçülərə bənzəmirdi, qalın bığı vardı. İraqlıları televizorda görmüşdüm; onlara oxşayırdı. Bir neçə addım pəncərəyə yaxınlaşdım. Nəsə dedi. Səsi zəif gəlirdi. Hansı dildə danışdığını da anlamadım. Başımı yelləyib dedim: "Nə?"

İki barmağını dodağının üstünə qoyub götürdü, sonra üfürdü. Bildim ki, siqaret istəyir. Bilmirəm nədənsə ona yazığım gəldi. Evə qaçdım. Bir qədər xərclik pulum vardı, götürüb bayıra çıxdım. Anam nəsə dedi, başa düşmədim. Stansiyanın yanında bir nəfər arabada yeməli şeylər və siqaret satırdı. Pulu ona verdim. O qədər qaçmışdım ki, danışa bilmirdim. Tövşüyə-tövşüyə dedim:

– Si... siqaret... istəyirəm.

Qaşqabaqla baxıb dedi:

– Bala, siqareti neyləyirsən?!

– Tez ol, indi gedəcəklər.

Qutudan bir neçə ədəd çıxarıb verdi. Stansiyaya qaçıb həmin pəncərəyə yaxınlaşdım. Hələ ayaq üstə idi. Siqareti kupeyə tulladım. Ondan sonra xərclik pullarımı toplayıb onlarla yeməli şeylər və siqaret alıb kupelərin pəncərələrindən içəri atırdım.

Bir il Xədicə mamanın gündəlik işi döyüşçülərin ədyal və mələfələrini yumaqdan ibarət oldu. 1981-ci ilin payızında Şəhid Kələntəri xəstəxanası açıldı. Xəstəxana evimizə yaxın idi. Aminə xalam xəstəxananın Ortopediya şöbəsinin müdiri idi. Bildim ki, orada camaşırxana var. Buna baxmayaraq, hələ də evlərə ədyal və mələfə gətirirdilər. Xalam anama dedi ki, evdə ədyal yumayanda camaşırxanaya getsin. Məktəbdə olmayanda mən də anamla gedirdim.

Xəstəxana həmişə yaralı ilə dolu olurdu. Tez-tez qanlı mələfə və ədyal gətirir, təmizləri aparırdılar. Mələfələrin üstünə xlor töküb çəngələyirdik ki, tez yuyulsun. Qapalı mühit idi, xlor qoxusundan boğulurduq. İçəridə yetərincə oksigen olmurdu. Öz həyətimizdəki hovuz qədər maraqlı da olmurdu. Kəskin və narahatedici qoxulardan həmişə başım ağrıyır, ürəyim bulanırdı. Bayıra çıxıb bir neçə saniyə təmiz hava qəbul edir, sonra qayıdırdım.

Hərbi əməliyyatlardan sonra mələfə və paltarların arasında ət və dəri parçaları daha çox olurdu. Xanımlar bu zaman tez-tez: "Sən get, quru mələfələri qatla" – deyib məni oradan çıxarmağa çalışırdılar.

Bir gün bu əməllərindən çox hirsləndim. Qandan qorxmurdum. Onlarsa mənə bir ləyən verib hovuza yaxınlaşmağa qoymadılar, dedilər ki, otağa gir, quru mələfələri qatla. Bir qədər kənarda ayaq üstə dayanıb onlara baxmağa başladım. Eləcə baxır, onlara qoşulmaq

üçün bir yol axtarırdım. Xanımların biri ləyənin önündən qalxdı. Mən bir neçə addım irəlilədim, amma o, bir qucaq mələfə ilə qayıdıb məndən öncə yerində oturdu. Məyus halda daldalı yeriyib divara söykəndim. Özümü nə qədər yazıq görkəminə saldımsa, heç kim məhəl qoymadı. O qədər ciddi şəkildə yuyurdular ki, otağa bomba da düşsəydi, əhəmiyyət verməzdilər. Düşündüm ki, boş-boş durub baxmaqdansa yandakı otağa girib mələfələri qatlamaq daha yaxşıdır.

Məyus halda xanımlara baxdım. Hələ də o şən çevrəni buraxıb getmək istəmirdim. Gözlərimə bir ləyən sataşdı. Yanında heç kim yox idi. Cəld bir mələfə götürüb ləyənə qoydum və ləkəsini sürtməyə başladım. Sanki dünyanı fəth etmişdim. Tez-tez xlor töküb ləkələri sürtürdüm. Bu zaman başım üstə bir kölgə hiss etdim. O, bir söz demədən özüm dilləndim:

– Elə bilmə ki, mən uşağam; sadəcə, boyum balacadır. Gör necə təmiz yuyuram!

Yanımda oturdu, təbəssümlə dedi:

– Birlikdə yuyarıq.

Bəzən şöbəyə xalamın yanına qalxır, iki-üç saat orada qalırdım. O, çox məşğul idi. Hər yaralının başı üstə gedəndə ona bir neçə sual verirdim. Tez-tez mənə deyirdi ki, az danış, vaxtımı alma.

Çox göz qoyurdu ki, nəyəsə əl vurmayım. Xalamı sevirdim. O, evə gəlmirdi. Onu görmək istəyəndə özüm bir bəhanə ilə yanına gedirdim.

Bombardman oldu, yenə məktəblər bağlandı və mən xəstəxanaya getdim. Mühafizəçi soruşdu ki, haraya gedirsən? Dedim ki, camaşırxanaya.

– Tək olmaz. Get, ananla gəl, – dedi.

– Xalam şöbə müdiridir - xanım Dağəri.

Güldü.

– Keçə bilərəm? – deyə soruşdum.

– Elə xanım Dağəri tapşırıb ki, bacım uşaqlarını içəri buraxma.

Qulaqlarıma inana bilmirdim.

– Niyə yalan deyirsiz?! Mən hər gün bura gəlirəm.

Nə qədər israr etdimsə, içəri girməyə qoymadı.

Xəstəxana hər tərəfdən hasara alınmışdı. Fikirləşdim ki, bir yol tapıb içəri girim. Mühafizə otağından çox uzaqlaşdım. Xəstəxananın ətrafı çöllük idi. Bir qədər qorxdum. Oturub tikanlı məftilin altındakı çör-çöpü təmizlədim və yavaşca altından keçdim. Tikanlı məftillərin bədənimlə yüngül təmasını da hiss etdim. Qalxıb paltarımı çırpdım, tikanlı məftillərin yanındakı mühafizəçilər görməsinlər deyə xəstəxananın küçələrindən birinə qaçdım.

Xalama qarşı çox hirsli idim. Şöbəyə getdim. Dəhlizdə onun dostunu görüb ağlaya-ağlaya dedim.

– Mən bura xalamı görməyə gəlirəm... Camaşırxanada da nə qədər paltar yuyuram... amma xalam mühafizəçilərə deyib ki, məni içəri buraxmasınlar.

Xalam otaqdan çıxıb dedi:

– Nə vaxt camaşırxanaya gəlsən, mütləq mənim yanıma da gəlirsən. Buranın suyu da beytülmaldır. Sən yalnız məni görməyə gəl, amma ondan içsən, düzgün deyil.

– Daha yanına gəlməyəcəm. Ancaq de ki, məni buraxsınlar, camaşırxanaya gedim.

Camaşırxanaya getdim. Dəcəlliyi kənara qoyub paltarları qatlayır, məni oradan da qovmasınlar deyə xanımların dediyi hər bir işi görürdüm. Məktəb tətil olanda mənim gözəl günlərim başlayırdı; əlbəttə,

əylənmək və şənlənmək üçün yox, şəhid analarının yanında oturmaq və döyüşçülərin paltarlarını yumaq üçün.

# Məliktac Xosrovbəyi

Şahın və nökərlərinin zülmlərindən sonra rahat yaşamağa başlamışdıq ki, birdən qorxunc səslər, tüstü və od-alov rahatlığımızı əlimizdən aldı. Xəbər dolaşdı ki, Səddam hücuma keçib. Məhəllənin uşaqları toplaşıb molotov kokteyli düzəldirdilər. Mən də onlara kömək edirdim. Kişilər kisələrə qum töküb küçə və prospektlərin başında barrikadalar qururdular. Tez-tez xəbər gəlirdi: "İraqlılar Kərxə körpüsündən keçib şəhərə girirlər. Əgər gəlsələr, kişiləri öldürəcək, qadınları əsir tutacaqlar".

Nə yata bilirdik, nə yeyə. İki-üç həftədən sonra ərim Qasim bizi Həmədana əmim oğlugilə göndərdi. Orada üç ay qaldıq. Hava çox soyuq idi. Uşaqlarla birlikdə başqalarına yük olduğumuza görə əzab çəkirdim, soyuğa və evdən ayrılığa dözə bilmirdim. Ərimə zəng vurub dedim: "Deyəsən, bu müharibə bitənə oxşamır. Camaatın evində də bu qədər qala bilmərik. Gəl, bizi Əndimeşkə qaytar. Əgər öləcəyiksə, hamımız birlikdə öz evimizdə ölərik".

Bir neçə gündən sonra gəldi və biz Əndimeşkə qayıtdıq.

Gündüzlər həyətlərin qapısını açıq qoyurduq; həm bombardman zamanı tez qaçmaq üçün, həm də cəbhəyə və cəbhədən gələn döyüşçülərə kömək etmək üçün.

Müharibənin ilk günlərindən Məhəmmədəli Gətvəndi döyüşçülərin ədyallarını Binalar məhəlləsinə gətirir, "Ya Allah" deyə-deyə qapısı açıq olan hər bir həyətə bir neçə ədyal atır, qapını taqqıldadıb deyirdi: "Bunları tez yuyun, sabah gəlib aparacam". Ertəsi gün gələndə yuyulub quruyanları aparırdı. Kiminsə ona “ədyal gətir” deməsinə

ehtiyac yox idi. Həmişə gülə-gülə deyirdi: "Qızlar, yuyun; Allah yolunda yuyun!"

Həmədandan qayıdandan sonra o, bizim həyətimizin qapısını da açıq görüb ədyal gətirməyə davam etdi. Mən həmişə öz işlərimi saxlayıb əvvəlcə ədyalları yuyurdum. Bacılar məsciddə və digər yerlərdə də toplaşıb yuyurdular. Mənim körpə uşağım olduğuna görə yalnız evdə yuya bilirdim. Hər gün ədyal, paltar və mələfə gətirirdilər. Qoxunu yaxşı duya bilmirdim. Ədyal və paltarları ləyəndə isladırdım. Üzərlərində qan laxtaları olurdu. Xlor və yuyucu tozu ilə yuyurdum. Uşaqlarım balacaydılar, ədyalları tapdayırdılar. Dama iki-üç ip bağlamışdıq. Nə yuyurdumsa, nərdivanla qaldırıb iplərdən asırdım. Dama o qədər yaş və ağır ədyallar qaldırmışam ki, indi bir kilo da qaldıra bilmirəm, çəliklə yol yeriyirəm. Cırıq paltarları tikir və yamayır, düyməsi olmayanlara düymə qoyurdum.

Dəmiryol stansiyasının divarı bizim evimizlə üz-üzəydi. İraq tərəfi gecə şəhəri bombalayacağını bildirəndə, ya da özümüz təhlükə hiss edəndə yorğan-döşəyi divarın yanına aparırdım. Bir nərdivanı divarın bu tərəfinə qoyurduq, birini o tərəfinə. Uşaqlarla birlikdə divarın o tərəfinə, stansiyanın bağına keçirdik. Orada bir neçə köhnə vaqon vardı. Qonşularla yerə ədyal sərib səhərədək vaqonlarda qalırdıq. Kişilər də bağdan odun gətirib bizim üçün ocaq yandırırdılar. Qışda soyuqdan və qorxudan titrəyə-titrəyə sübhə qədər yatmırdıq, yayda da istidən tərləyirdik.

Bomba, raket və top səsi günbəgün güclənir, yaxınlaşırdı. Uşaqlarımdan ötrü çox qorxurdum. Axırda Çəmgülək kəndinə getdik. Şəhərdən iyirmi dəqiqə aralıda yerləşirdi, nisbətən təhlükəsiz idi. Fikirləşirdik ki, düşmənin çöllərlə, kəndlərlə işi olmaz. Hamam lazım

olanda evə gəlirdik. İki-üç aydan sonra isə hava çox istiləşdi. Uşaqlar orada əziyyət çəkirdilər. Yorğan-döşəyi əşirətlər üçün qoyub evə qayıtdıq.

Ağa Gətvəndi bizim qayıtdığımızı görən kimi həyətə bir neçə ədyal atıb dedi: "Haçandır yoxsan, tez bunları yu".

Döyüşçülərin ədyallarını yumaq üçün darıxmışdım. Didərginlikdən və qaçqınlıqdan da çox yorulmuşdum. Ona dedim: "Varsa, çox ver".

Əlavə dörd-beş ədyalı da yerə atdı. Qaçqınlıqdan ürəyim dolmuşdu, ədyalların üzərindəki qan da məni kövrəltdi, özümü saxlaya bilməyib ağladım. Qəlpə dəymiş paltarları görəndə öz didərginliyimi yaddan çıxarırdım.

Müharibədən bir il ötürdü. Biz hələ də didərgin həyatı yaşayırdıq. Qəbiristanın yanında çadırlar qurulmuşdu. Qonşularla gecələr oraya gedir, hamam və tualet üçün evə gəlirdik.

Bir gün axşamüstü yenə çadırdaydıq. Güclü yağış başladı. Uşaqlar yatmışdılar. Biz də çadırın içində qaldıq. Birdən çadırı su basdı, hər şey islandı. Uşaqları oyadıb evə apardım. Qasim orada qalıb çadırın bütün ətrafında kanal qazdı, suyun yolunu bağladı. Axşam yenə bir neçə ədyal və balışla oraya getdik.

Çox qaçqınlıq yaşadıq, didərgin düşdük. Ora-bura getməkdən yorulmuşdum. Qasim həyətin bir tərəfində birmetrlik çala qazdı. Eni də bir metr idi. Üstünə dəmir qoyub torpaq tökdü. Bombardman başlayan kimi uşaqlar onun içinə sürüşürdülər, mən də səngərin önündə qalırdım. Uşaqlar qışqırışırdılar. Onları sakitləşdirmək üçün deyirdim: "Qışqırmayın; iraqlılar səsinizi eşidib buranı vurarlar!" Yazıqlar səsləri çıxmasın deyə əllərini ağızlarının üstünə qoyurdular. Ancaq əllərində deyildi, hər

dəfə partlayış baş verəndə qışqırıb səngərin küncünə qısılırdılar.

Bombardmandan iki saat keçməmiş ağa Gətvəndi ədyalları həyətə töküb deyirdi: "Ay ev yiyəsi, sağsan? Ya Allah! Ədyal var!"

Ədyalları həyətə sərib şlanqın suyu ilə isladır, yuyurdum. Sonra uşaqları çağırırdım: "Uşaqlar... gəlin, kömək edin". Beləliklə, başları su ilə oynamağa qarışırdı və partlayışların qorxunc səslərini unudurdular.

1982-ci ilin martında döyüşçülərin şəhərə gəliş-gedişi və qanlı ədyallar olduqca çoxaldı. Maşınların səsucaldanından dəqiqəbaşı cəbhəyə nəsə istəyirdilər. Bir dəfə eşitdim ki, ədyal və mələfəyə böyük ehtiyac var. Dedilər ki, aparıb stansiyanın önündə təhvil verək. Mən də bir neçə cehizlik ədyalımı götürüb körpüdən o tərəfə keçdim.

Hamı bir boğçayla stansiyaya tərəf gedirdi. Uzaqdan baxdım; insanları cərgə ilə yerə düzmüşdülər. Bu səhnəni görəndə ayaqlarımın taqəti çəkildi. “İlahi, ölmüş olmasınlar. Bu gənclərin anaları yazıqdır!” – deyə ürəyimdə yalvardım.

Çox narahat halda yaxınlaşdım. Bir neçə bəsici ədyalları alırdı. Orada toplaşmağa qoymurdular. Əşyaları alan qardaşdan hallarını soruşdum. Bildim ki, yaralıdırlar, xəstəxanaya göndərəcəklər.

Bir neçə gündən sonra xəbər dolaşdı ki, Fəthülmübin əməliyyatı baş tutub və döyüşçülərimizin müqavimətinəticəsində düşmən geri çəkilib. Lakin bunun əvəzinə şəhəri bombalayırdılar, həyəcan siqnalları kəsilmirdi. Ərak və Həmədan şəhərlərində qohumlarımız vardı. Əndimeşki tərk edib oraya getməyə ürəyim gəlmirdi. Ərim Bəsic üzvü idi, gecələr məscidlərdə və küçələrdə keşik çəkirdi.

Özüm də cəbhəyə gedə bilmirdim; ədyal yuyurdum, qışda xurma, yayda da limon suyu və şəkər alıb döyüşçülərə göndərirdim. Bu işlərlə ürəyim sakitləşirdi, əmin olurdum ki, Allah uşaqlarımı bomba və raket təhlükəsindən qoruyacaq.

Radio və televiziyadan tez-tez döyüşçülərin qələbələri barədə xəbər verilirdi. Nəzir etdim ki, Xürrəmşəhr azad olunsa, bir qurban kəsərəm. Qoyunu alıb həyətdə bağladım. Bir neçə gündən sonra televiziyadan elan olundu ki, Xürrəmşəhr azad edilib. Qasim dərhal qoyunu kəsdi, mən də qonşulara payladım. Xiyabanlarda şirniyyat paylayır, bir-birimizi təbrik edirdik. Uşaqlar da məhəllədə gəzişib şüar deyirdilər: "Xürrəmşəhr azad oldu! İmamın qəlbi şad oldu!"

Cəbhəyə kömək üçün əlimdən gələni əsirgəmirdim. Bütün çətinliklərə dözdüm, Əndimeşkdən getmədim, nəhayət, səkkiz il ötdü və müharibə bitdi. İndi dizim ağrısa və çətinliklə yol yerisəm də, İslam dünyasının döyüşçülərinə kömək etməyə və fəxrlə paltarlarını yumağa hazıram.

# Firiştə Qafili

Bəzi günlərdə dostlarımızla qərara gəlirdik ki, nahar yeməyini bayırda yeyək. Evimizin yaxınlığındakı parkda süfrə sərib xörək yeyirdik. Dəcəl qızlar idik. Cəmi yeddi-səkkiz yaşlarımız vardı. Müharibə zamanı idi, bomba və raketdən, tikə-tikə olmaqdan qorxurduq. Lakin müharibə bizim gülüş, zarafat və əyləncələrimizi azalda bilmirdi. Bir yerdə bənd olmurdum, hər bir işə başımı soxurdum, məşğul olmaq üçün daim nəsə axtarırdım.

Bacım Fatimə məndən bir neçə yaş böyük idi. O, haraya gedirdisə, mən də ardınca gedirdim; Bəsicdən şəhid ailələrinin görüşünə qədər hər yerə. Çox vaxt da maraq üçün gedirdim. Bir neçə gün səhər yuxudan oyananda gördüm ki, Fatimə evdə deyil. Anamdan soruşanda dedi ki, xəstəxanaya yaralıların mələfələrini yumağa gedib.

Bir gecə qərara gəldim ki, sübh erkəndən oyanıb onunla gedim. Oyandım. Fatimə səhər yeməyini yeyirdi.

Ona dedim:

– Bu gün xəstəxanaya gedəcəksən?

– Hə, gedəcəyəm, – dedi. – Sən niyə tezdən durmusan?

– Mən də gəlirəm.

Təəccüblə mənə baxır, nə deyəcəyini bilmirdi. Anam onun köməyinə gəlib dedi:

– Sən corabını güclə çıxarırsan, döyüşçülərin paltarlarını necə yuyacaqsan?!

– Qoy bir dəfə gedim, bacarmasam, daha getmərəm.

Bu şərtlə razılaşdı ki, bacımın sözünə baxım. Anamı qucaqlayıb üzündən öpdüm, dedim ki, baş üstə.

Xəstəxananın həyətində maşından enib günəşin altında camaşırxanaya girdik. İlk baxışda içəri qaranlıq göründü. Beton divarlar qaranlığı daha da artırırdı. Gözlərimi

yumub-açdım. Xanımlar dövrə vurub oturmuşdular. Hərəsinin önündə bir ləyən vardı - ağ və qırmızı rəngli plastik ləyənlər. Yanlarına da qalaq-qalaq mələfə və paltar qoymuşdular. Xanımlar mələfələri sürtüb təmizləyirdilər. Başları aşağı idi. Hər dəfə sürtəndə özləri də ləyənə doğru əyilib-qalxırdılar. Ləyənlərin kənarından qanlı su tökülüb beton üzərindən axırdı. O qədər qanı görüb diksindim, amma öz-özümə düşündüm ki, bacım qorxduğumu bilsə, məni evə göndərəcək.

Yay idi, məktəblər tətil olmuşdu. Mən də sanki axtardığım məşğuliyyəti tapmışdım.

Bacım hovuza sarı getdi. Mən də boş bir ləyən görüb qabağında oturdum, içindəki mələfəni sürtməyə başladım. Burnuma kəskin qoxu girdi, qan və xlor qoxularının qarışığı. Başımı qaldırdım. Fatimə gözünü məndən çəkmirdi. Təbəssümlə ona bildirdim ki, hər şey qaydasındadır. Mələfə üzərində çoxlu qan ləkəsi vardı. Hövsələm daralsa da, bütün ləkələri sürtdüm. Biləklərim ağrıdı, mələfələr üzərindəsə hələ zəif rəng qalmışdı.

Yanımdakı xanım dedi: "Yaxşıdır, ver mənə".

Onu öz ləyəninə qoyub üstünə yuyucu tozu tökdü. Mən də qalxıb bayıra çıxdım, camaşırxananın önündə dövrə vurdum. Göz işlədikcə iplər çəkilmiş, üstündən ağ, yaşıl və göy camaşırlar asılmışdı. İplərin arasına girdim. Yumşaq və ətirli mələfələr üz-başıma dəyirdi. Onların camaşırxanada yığılmış mələfələr olduğuna inanmaq çətin idi. Ətrafa baxdım. Dostlarım olsaydılar, yaxşı gizlənpaç oynaya bilərdik. Helikopterin səsini eşidib özümə gəldim. Səs çox güclü idi, küləyi mələfələri yellədirdi. Üzərlərində sancaq olmasaydı, ətrafa səpələnərdilər. Qaçıb camaşırxanaya girdim. Bir neçə xanım qapının yanında dayanıb ucadan salavat deyirdi. Helikopter iplərin

yaxınlığında yerə oturdu. Tibb işçiləri xərəklə ona doğru qaçdılar. Bir neçə kişi helikopterdən boğçaları endirib camaşırxananın önünə qoydu.

Xanımlar hələ onları açmamış salavat deyir, bəzisi ilə ağlayırdı. Davranışları şübhəli idi. Onların biri camaşırxananın yanındakı otağa keçib uşaqlarla birgə mələfələri qatlamağımı söylədi. Dedim ki, yox, paltar yumaq istəyirəm.

Camaşırxanaya girib Fatimənin yanında oturdum. Boğçaları içəri gətirdilər. Bir hacı xanım dedi: "Bunları döyüş yerindən gətiriblər; tez istəyirlər". Bir neçə nəfər cəld onları yumağa başladı.

Əlimə bir mələfə götürdüm. Açanda gördüm ki, ona bir neçə göyərmiş və yanmış dəri və ət parçası yapışıb. Yanıq iyi başıma doldu. O qədər dikbaş idim ki, heç nədən qorxmurdum. Lakin bu dəfə vəziyyət fərqli idi. Tez onu yerə atdım. Bir xanım götürdü, mənə fikir vermədən, salavat deyə-deyə tikələri topladı və mələfəni sürtməyə başladı. Özümü toparlamağa nə qədər çalışsam da, xeyri olmadı, daha bir mələfə açmağa cəsarət etmədim.

Fatimənin ləyəninin yanında yaş bir mələfə var idi. Qorxa-qorxa onu götürdüm, üzərinə yuyucu tozu töküb ləkələrini sürtməyə başladım. Xanımlar çalışırdılar ki, mələfə və paltarlar üzərində ləkə qalmasın. Həmin mələfə də yaşıl idi, üstünə xlor tökə bilmirdim. Bacardığım qədər sürtdüm. Nə qədər yuyurdumsa, biri baxıb özü bir də yumağa başlayırdı.

İçəri qan və xlor qoxusu, mərsiyə və salavat səsləri ilə doluydu. Ət parçalarını gördüyümə görə ürəyim bulanırdı. Daha heç nəyə başımı soxmayıb sakitcə ləyənin arxasında qaldım, xanımlarla birlikdə yumağa davam etdim. Bəzən

də əllərinin altına yuyucu tozu, mələfə və xlor qoyurdum ki, tez-tez qalxıb-oturmağa məcbur olmasınlar.

Axşamüstü yorğun halda evə qayıtdım. Dəcəlliyə həvəsim qalmamışdı. Yorğunluq bəhanəsi ilə otağa keçib uzandım. Gözlərimi yuman kimi xırda ət parçaları gözlərim önünə gəlirdi. "Məgər adam adamla belə edərmi?!" – deyə öz-özümə fikirləşdim: "Allah bilir, nə qədər əzab çəkiblər..."

Anam:

– Firiştə, süfrə sərilib, gəl, – dedi.

Halsız halda süfrəyə yaxınlaşdım. Mənə xörək çəkdi. Bir neçə saniyə gözlərimi boşqaba dikib qaşıqla, xörəklə oynadım. İstanbul plovunun içindəki xırda ətləri görəndə həmin ət parçaları yadıma düşürdü. Anamın "Firiştə! Firiştə!" səsindən diksinib qaşığı əlimdən saldım.

– Hardasan? Nə olub? – anam dedi.

Xörəyin ətlərini qaşığın ucunda götürüb dedim:

– Ana, bu gün camaşırxanada bir mələfəni açdım, arasında bir neçə belə ət parçası vardı.

– Rulə,[1] görəsən, başına nə gəlib?! Rulə, Allah bilir, indi hardasan?! – anam ağlaya-ağlaya dedi.

Qardaşım cəbhədəydi, uzun müddət idi ondan xəbərsiz idik. Mənim sözlərim anamın narahatlığını bir neçə qat artırmışdı. Anam heç bir söz demədən əl dəyməmiş İstanbul plovunu süfrədən yığışdırdı.

Camaşırxana getdiyim hər bir yerdən fərqli idi. Şəhid anaları, şəhid xanımları, şəhid qızları da paltar yuyurdular. Əlbəttə, onlarla digərləri arasında fərq yox idi. Hamı sanki öz uşağının paltarını yuyurdu. Orada mənim yaşıdlarım,

---

[1] Kürdcə övlad, uşaq deməkdir.

hətta məndən balacalar da vardı. Cəmi iki-üç gün idi gedirdim, amma özümü dəyərli hiss edirdim.

Camaşırxananın mühiti barədə dostum Fərzanə Şüştəriyə danışdım. Çox həvəslənib gəlmək istədi. Fatiməyə çox israr etdim, axırda razılaşdı. Onunla birlikdə gedirdik. Xanımlar dayanmadan işləyirdilər, heç elə bil yorulmurdular. Dəyişmişdim: mən də ləyənin yanından qalxmaq istəmirdim. Fərzanə ilə ikimiz bir ləyənin arxasında oturub mələfə ləkələrini diqqətlə sürtür, yuyurduq. Sonra xanımlar suya çəkmək bəhanəsi ilə onları yenidən yuyurdular. Bəzən də maraqlanıb xəstəxananın həyətində gəzişir və tez camaşırxanaya qayıdırdıq.

Fatimə Savadlandırma hərəkatında müəllimə oldu və yalnız dərsi olmayan günlərdə camaşırxanaya gedə bildi. Fatimədən sonra mənim oraya getməyim də çətinləşdi. Məhəlləmizin qadınları xanım İslamipurun evinin önünə toplaşırdılar. Bir gün Fərzanə ilə oraya getdim. Hamı küçənin başında gözləyirdi.

Biri dedi:

– Maşallah! Gözəl qızlar, xoş gəlmisiniz!

Mikroavtobus gələndə Fərzanə ilə mən hamıdan qabaq minib oturacaqda oturduq. Sonra digərləri gəldilər. Hətta ayaq üstə dayanmağa da yer yox idi. Biz ayağa qalxdıq, yaşlı qadınlardan ikisi oturdu. Hələ bir neçə nəfər aşağıda qalmışdı.

Bir hacı xanım bizə dedi:

– Bu gün xanımlar çoxdur, siz qayıdın evə, dərs və tapşırıqlarınızla məşğul olun.

Razılaşmadıq. Əlimizdən tutub aşağı apardı və xanımlar birtəhər mikroavtobusa yerləşdilər. Mikroavtobus gözlərimiz önündə qaza basıb getdi, biz də dilxor halda piyada xəstəxanaya yola düşdük.

Qapıda ciddi və qaşqabaqlı bir əsgər dayanmışdı. Bizi görüb:

– Hara? – dedi.

– Biz burda paltar yuyuruq, – dedim, – servisə gecikmişik.

Bizə baxıb daha ciddi səslə dedi:

– Olmaz! Qayıdın evinizə.

Balaca boy-buxunumuza görə yaşımızı böyük göstərməyə lüzum yox idi; məlum idi ki, hələ on yaşımız olmayıb. Nə qədər israr etdiksə, razılaşmadı. Kənarda dayanıb qapını güdməyə başladıq. Xəstəxananın yanından qatar yolu keçirdi, oraya çoxlu dəmir və taxta parçaları tökülmüşdü. Onlarla qurdalanıb qapıçının gözündən uzaq şəkildə içəri girməyə yol axtarırdıq. Lakin o, beynimizi oxumuşdu, gözlərini bizdən çəkmirdi. Saatlarla vurnuxandan sonra yorğun və məyus halda evə qayıtdıq.

Bir neçə həftədən sonra məktəb Bəsicinin vasitəsilə korpus təminatına Xeyri Dağərinin yanına gedib şəhid və döyüşçü ailələrinə yardım üçün yaradılmış qrupa qoşuldum. Cırıq və qanlı paltarları, yanmış dəri və ət parçalarını, habelə camaşırxanadakı xanımların çəkdiyi əziyyətləri görüb elə böyümüşdüm ki, şəhid anaları və ailələri ilə görüşür, onlara təskinlik verirdim.

## Əşrəf Səmədifər

Televizoru açdım. Camaat qaçışırdı. Bir nəfər qanlı əlini qaldırıb kameranın önündə tutdu. Dərhal halım pisləşdi, ürəyim bulandı və həyətə qaçdım. Qusmadım, amma yarım saat həyətdə qaldım, bir neçə dəfə əl-üzümü yudum.

İnqilab yenicə qələbə çalmışdı, televizordan yürüş səhnələri göstərilirdi. Bir neçə gün gözaltı baxır, qarşıdurma səhnəsinə çatanda qalxıb başqa bir yerə gedir, başımı qarışdırırdım. Qana qarşı qeyri-adi refleksim vardı. Bilmirəm qorxu idi, yoxsa nifrət. Ailə qurandan sonra da ətləri həyat yoldaşım təmizləyib mənə bişirməyə verirdi. Ətdə zərrə qədər də qan görəndə isə daha əl vurmurdum.

Ərim İsa Mədədpurun məhəllə marketi vardı. Müharibə başlayanda onu satıcısına tapşırıb özü cəbhəyə getdi. Üç balaca uşağımız vardı. Böyük oğlumuz məktəbə gedirdi. İsa gedəndən sonra çox həssas olmuşdum: bomba səslərindən çox qorxur, uşaqlardan da bərk qışqırırdım. Bombardmandan bir-iki saat sonraya qədər bədənim keyiyirdi, uşaqları evdən çıxara bilmirdim. Gecələr də təklikdən qorxurdum. Gecənin yarısına qədər televizoru açıq saxlayıb səsini yüksəldirdim, amma çox vaxt baxmırdım; qorxurdum ki, qanlı bir səhnə görərəm.

Müharibə vasvasılığımı və həssaslığımı artırmışdı. Gündə bir neçə dəfə uşaqların və evin canına düşüb tərtəmiz edirdim. Təkliyə, fikir və xəyallara da dözə bilmirdim. Hiss edirdim ki, depressiyaya düşür və təkbaşına uşaqlara baxa bilmirəm.

BizLəvantur məhəlləsində yaşayırdıq; bazarın yanında, şəhərin mərkəzində. Atamgilin evi isə Şəhidlər küçəsində yerləşirdi, piyada təxminən iyirmi dəqiqəlik yolumuz

vardı. Uşaqların paltarlarını toplayıb bir torbaya tökdüm və bazara tərəf yola düşdük. Oradan maşın tutub atamgilə getdik.

Uşaqlar oranı çox sevirdilər. Anamla bacım onlara çox yaxşı baxırdılar. Özüm də əsla evdən çıxmırdım, səhərdən axşama qədər təmizliklə və uşaqların yemək-içməyi ilə məşğul olurdum. İsa cəbhədən gələndə öz evimizə gedirdik, ona sevdiyi xörəkləri bişirirdim. Cəbhəyə apardığı paltarlarını yaxşıca yuyub çantasına qoyurdum. Ərim evdə olanda uşaqlarla birgə çox şən olurduq, az qorxurdum. O, cəbhəyə gedən kimi isə yenə uşaqları atamgilə aparırdım. Öz evimizlə atamgilin arasında qalmışdıq.

Əzizigil atamgilin qonşusu idi. Bizimlə get-gəlləri vardı. Zənnimcə, 1982-ci il idi. Bir gün xanımı bizim qapıya gəlib mənə dedi:

– Evdə niyə oturmusan ki?! Sən də gəl, paltar yumağa kömək elə.

– Hara?

– Şəhid Kələntəri xəstəxanasına.

– Yaxşı, – necə oldusa dərhal belə cavab verdim.

– İnşallah, savabı əzizlərinin salamatlığına nəzir olsun, – deyib getdi.

Evə qayıdanda yadıma düşdü ki, xəstəxanaya getmək yara və qan görmək deməkdir. İstədim gedib deyim ki, sabah məni gözləməsin. Qardaşımın həyat yoldaşı Fatimə Musəvi xəstəxanada tibb bacısı idi. Mənə dedi ki, qandan nə qədər çox qaçsan, bir o qədər vasvası olacaqsan. Səhərə qədər düşünüb özümə ürək-dirək verdim. Deyirdim ki, döyüşçülərin bütün paltarları qanlı deyil, sən tozlu paltarları yuyarsan. Sübh namazından sonra nə qədər zikr və dua bilirdimsə, oxudum, yüngül səhər yeməyi yedim,

uşaqlarımı anama tapşırdım və xanım Əzizi ilə xəstəxanaya getdim.

Ayağım içəri dəyən kimi qan və xlor iyi burnuma doldu. Böyük bir zal idi, içəridə cərgə ilə ləyənlər düzülmüşdü. Xanımlar ləyənlərin arxasında oturmuşdular. Köpükdən mələfələr görünmürdü. Xanım Əzizi mənə dedi: "Mələfələri hovuzda isladırlar, ləyəndə yuyucu tozu ilə yuyurlar. Hansı bölmədə istəyirsənsə, orada işlə".

Birbaş hovuzun kənarına getdim. Bir neçə xanım mələfələri suya çəkirdi. Yandakı hovuza baxanda isə yerimdə quruyub qaldım, başım gicəlləndi. Su qırmızı rəngdəydi. Xanımlar onun içindəki mələfələri sürtürdülər. Qusmayım deyə udqundum. Bir qədər hərəkətsiz qalıb yalnız qan hovuzuna baxdım, düşündüm ki, gedim, yoxsa qalım. Xanımların biri əlini çiynimə qoyub dedi: "Necəsən?"

Başımın işarəsi ilə bildirdim ki, yaxşıyam. Xanımların salavat səsi qulaqlarımda əks-səda verdi. “Sənin digərlərindən nə fərqin var?! Gərək sən də bacarasan. Get yaxına", – deyə bir anlığa düşündüm, gedib hovuzun yanında oturdum.

Əvvəlcə qollarımı çırmadım. Sanki əlini hovuza salan mən deyildim! Bir mələfə çıxarıb sürtdüm. Ayaqlarımın altından qanlı su axmağa başladı. Başımı yuxarı qaldırdım ki, hovuzu görməyim, amma xeyri olmadı. Hovuzun yanından qalxıb bayıra çıxdım. Səhər yeməyinə nə yemişdimsə, hamısını boğazımda hiss edirdim.

Bir qədər gəzişib yenə hovuzun yanına qayıtdım. Səhra xəstəxanasının mələfələri idi. Birini hovuzdan çıxardım. Ona xırda ət parçaları yapışmışdı. Gözlərimi bağladım. Məni ağlamaq tutdu. Ət zərrəciklərini ayırdım. Əlimdən iyrənirdim. Hələ inana bilmirdim ki, bu, mənəm; sanki

yuxu görürdüm. Bəzən xanımların salavat, bəzən də gülüş və zarafat səslərini eşidirdim. Özümsə səssizcə ağlayırdım. Axşama qədər iyirmi hovuzdan çox paltar və mələfəni isladıb digər xanımlara verdik. Onlar da ləyənlərdə yuyucu tozu və xlorla ləkələrini təmizləyirdilər.

Hovuzun suyunu boşaltdıq. Dibində sümük, dəri parçaları və tüklər vardı. Halım pisləşdi, gözlərim qaraldı. Camaşırxanadan çıxdım, bir neçə metr uzaqlaşıb yerdə oturdum. Bağırsaqlarımı boğazımda hiss edirdim. Nəhayət, yüngülləşdim, əllərimi göyə qaldırıb dedim: "İlahi! Səni həzrət Əbəlfəzlin hörmətinə and verirəm, mənə güc ver, məni Sənin yolunda tökülmüş qandan qaçmağa qoyma!"

Yenə içəri qayıtdım. Xanımlarla birlikdə salavat dedim, mərsiyə oxudum, halım yaxşılaşdı. Axşam isə güclü baş ağrısı ilə evə qayıtdım. Ürəyim bədənimə ağırlıq edirdi. Hamama girdim. Kranı açanda hovuzun içindəki qırmızı su yadıma düşdü. Çox kövrəlib oradaca xeyli ağladım. Bayıra çıxanda uşaqlarımı bərk qucaqlayıb öpdüm. "Övladlarını itirmiş analara canım qurban! Görəsən, indi nə haldadırlar!" – deyə öz-özümə düşündüm.

Xörək yeyə bilmirdim. Yatana qədər bir neçə dəfə əllərimi yudum, amma hələ də qan qoxusunu hiss edirdim. Öz-özümə dedim ki, bu vəziyyətdə gedə bilmərəm. Gecədən sübhə qədər yuxuda qanlı hovuzda əl-ayaq çaldım. Ərimin və uşaqlarımın qanlı paltarlarla mənə yaxınlaşdığını görüb qışqırır, qaçırdım. Bir neçə dəfə öz qışqırtıma yuxudan ayıldım. Lakin sübh tezdən yenə hazırlaşıb evdən çıxdım.

Xanım Əzizi mənə dedi:

– Dünən çox əziyyət çəkdin. Əgər bacarmırsansa, gəlmə!

– Hələ ki yaxşıyam, – dedim. – Gedək, görək nə olur.

Artıq divarın küncündəki hovuzun vəziyyətinin nə yerdə olduğunu bilirdim. Lakin hansısa amil hər səhər məni camaşırxanaya və həmin hovuza tərəf aparırdı. Bəzən mələfələri gözübağlı sürtürdüm, amma yenə gedirdim. Evdə qalıb daim iztirab çəkməkdən, hər an bir raketin düşüb uşaqlarımı qanına qəltan edəcəyini gözləməkdən fərqli olaraq, orada qəribə rahatlıq hiss edirdim.

İki-üç gündən sonra hovuzun kənarında oturanda həmişəkindən daha rahat idim. Ora getməzdən qabaq həmişə fikirləşirdim ki, ərimi və uşaqlarımı itirəcəyəm. Bu qorxu gecə-gündüz məndən əl çəkmir, mənə əzab verirdi. Döyüşçülərin paltarlarını yumağa başlayandan sonra isə öz-özünə beynimdən çıxdı.

Camaşırxananın önündəki əraziyə bir helikopter oturdu. Onun səsi gələn kimi xanımların ağlamaq və salavat səsləri də gəldi. Başımı bayıra çıxardım. Xəstə daşıyıcıları xərəklə helikopterə sarı qaçırdılar. Onlar çiyinlərində, ya da xərəkdə yaralıları Təcili yardım şöbəsinə aparırdılar. Bir neçə dəqiqədən sonra isə paltar və mələfə boğçalarını camaşırxananın önünə atdılar. Bir boğçanı açıb mələfə götürdüm. Hələ isti və yaş idi. Yenə halım pisləşdi. Növbəti boğçanı aça bilmədim. Oradakı xanımların çoxu hansısa əzizini itirmişdi. Qan gördüyümə görə halım pisləşəndə həmin analardan utanırdım.

Camaşırxananın önündəki əraziyə çıxdım, yeyin-yeyin yeriyib bir qədər uzaqlaşdım. Xanımların səsi hələ gəlirdi: "Döyüşçülərin salamatlığı üçün salavat!" Bir-birinin ardınca salavat deyirdilər. Hamının səsində cəsarət və coşqu vardı, qorxu və vahimə yox idi. Onların bu ruhiyyələrinə qibtə edirdim.

Yenə içəriyə qayıtdım, bir salavat deyib mələfəni hovuza atdım. Çalışdım ki, yanımdakı halımın pis olduğunu bilməsin. Mələfəni sürtmək bəhanəsi ilə hovuzun yanında oturdum, başımı yuxarı qaldırdım. Əlimi suya salıb mələfəni iki-üç dəfə çıxarıb-batırdım. İslanandan sonra onu əlimlə sürtdüm. Xanımların biri bir neçə mələfəni də hovuza saldı. Su qızardı. Ayağa qalxdım. Şalvarımın balağından qanlı su damırdı. Ürəyim o qədər bulanırdı ki, az qala içalatım qopacaqdı. Əlimi ağzıma tutub bayıra qaçdım.

Bir neçə dəqiqədən sonra yenə camaşırxanaya qayıtdım. Özümlə vuruşurdum ki, davam gətirim, geri çəkilməyim. Əlimi suya saldım, mələfəni çəngələyəndə isə bütün vücudumu ağrı bürüdü. Əlimi sudan çıxardım. İti bir sümük parçası barmağımı kəsmişdi. Onu sudan çıxardım. Baş barmağımdan qan fəvvarə vururdu, görünür, damarımı kəsmişdi. Onu digər əlimlə tutdum. Qan dayanmır, barmaqlarımın arasından damırdı. Özümdən iyrənirdim. Əlim əsirdi. Bir xanım məni kənarda yerə oturtdu, barmağımı parça ilə bağladı. Parça da qana boyandı. Dedi: "Gedək Təcili yardım şöbəsinə, tiksinlər". Yaralıları görməyə dözə bilmədiyimə görə getmədim.

Əlimi suya sala bilmirdim. Mələfələri ipdən yığıb qatladım. Axşam evə gələndə parçanı barmağımdan açdım. Barmağım 2 sm uzunluğunda yarılmışdı. Yenə qan axmağa başladı. Onu bağladım. Ertəsi gün camaşırxanaya gedib bağlı barmaqla mələfələri suda sürtməyə başladım. Yaram qanaxma verir, göynədib ağrıdırdı. Əlim daim soyuq suda olsa da, çirk eləmədi, amma gec sağaldı.

Get-gedə camaşırxanada olduğuma görə özümü yaxşı hiss etməyə başladım. Evdə uşaqlarla oynayır, deyib-gülürdüm. Ərim də cəbhədən qayıdanda halımın

yaxşılaşdığını görürdü. Yalnız ərimi və uşaqlarımı fikirləşmirdim, bütün döyüşçülərin salamatlığı və İslamın qələbəsi üçün dua edirdim. Qan görəndə halım pisləşsə də, döyüşçülərin paltarları ilə dolu hovuzu müharibənin ağrı və qorxusunu sakitləşdirən amil hesab edirdim. Bir müddətdən sonra uşağa qaldım və xanımların israrı ilə camaşırxanaya getmədim; çünki ürək bulantısı və başgicəllənməm vardı. Qan hovuzunun yanındakı başgicəllənmələr necə qələbə müjdəsi verirdisə, bu başgicəllənmə də başqa bir hədiyyəni müjdələyirdi.

# Xavər Tağızadə

On beş yaşımda əmim oğlu Məhəmmədlə ailə qurduq. O, bələdiyyə idarəsində fəhlə idi. Sadə və sakit həyatımız vardı, uşaqlarımızı imanlı və savadlı böyütməyə çalışırdıq. Beş-altı uşağımız, müharibə başlayanda artıq gəlinimiz də vardı. Düşmənin atəşi altında qaldıq, amma şəhərdən çıxmadıq; qorxurduq, amma işlərimizlə məşğul idik.

İnqilabdan öncədən həftədə bir dəfə günortadan sonra xanım İslamipur və ya Nənə-Əbdülkərimgilə gedirdim. Orada Quran dərsi keçirilirdi.

Bir gün dərsdən sonra Nənə-Əbdülkərim mənə:

– Biz bəzi xanımlarla birlikdə Şəhid Kələntəri xəstəxanasına gedib yaralıların və həkimlərin paltarlarını yuyuruq. Vaxtın olsa, sən də gəl, – dedi. Çox sevindim. Sonra əlavə etdi: – Sizin məhəllənin qadınları İmam Xomeyni hüseyniyyəsinin önünə toplaşırlar. Səhər saat 7-də orada ol ki, servislə gələsən.

Gənc və enerjili idim. İnqilab coşqusu da vardı. Sübh saat 5-də işlərimi gördüm, səhər yeməyimi yeyib hüseyniyyənin önünə getdim. Servisin gəlişinə yarım saat qalırdı. Digər xanımlar da gəldilər. Sevindiyimdən bir yerdə qərar tuta bilmirdim. Servis gələnə qədər hüseyniyyədə var-gəl etdim.

Camaşırxanaya girəndə bir xanım mənə çəkmə və əlcək verdi. Onları geyib kimsə bir söz demədən hovuzlara yaxınlaşdım. İki-üç nəfər hovuzdakı mələfələri tapdamağa başladı. Hovuzun kənarından axan qanı görəndə isə yerimdə quruyub qaldım. Hamı işi ilə məşğul idi. Gözlərim yaşardı. Mələfələri qanlı sudan çıxarıb başqa bir hovuza tökdük. İkinci hovuzun suyunun da qızaracağına

inanmazdım. Sinəmə vurub "ya Hüseyn" dedim və hönkür-hönkür ağlamağa başladım.

Xanımlar nəsihət və təskinlik verməyə başladılar: "Burada şəhid anası, şəhid xanımı, şəhid qızı var, amma səbirlə işləyirlər".

Bir neçə dəqiqə sakitləşirdim, qəlpə dəymiş paltar görəndə isə şəhid analarına baxıb yenə ağlamağa başlayırdım. İki-üç il idi müharibə və uçqun altda qalmaq qorxusu ilə yaşayırdım, amma qanlı paltarları görmək o qorxu və iztirablardan min qat ağır idi. Həmin gün o qədər ağladım ki, gözlərim qan kasasına döndü.

Evdə də qəhərli idim. Qəm-qüssə içində şam yeməyi hazırladım, amma yeyə bilmədim. Uşaqlarla məşğul olmalı, özümü onların yanında normal aparmalı idim. Səhər tezdən yenə camaşırxanaya getdim, yenə eyni halları yaşadım. Bəzi xanımlar da ağlayırdılar, amma mənim kimi ucadan və dayanmadan deyil. İki-üç gün beləcə ötdü.

Bir gün xanımların biri mənə ciddi şəkildə dedi: "Biz də ağlayırıq, amma bu qədər yox. Sən bununla özünü də, digərlərini də məhv edirsən. Əgər bu qədər ağlayacaqsansa, daha gəlmə".

"Daha gəlmə" sözləri gürz kimi başıma dəydi. Qəhərim çoxaldı, amma yaylığımın küncü ilə gözlərimi sildim, heç bir söz demədən paltar ləkələrini sürtməyə davam etdim. Qəhərimi uddum və bir də paltar yuyanda səsim çıxmadı. O vəziyyətdə ağlamamaq həyatımın ən çətin işi idi. Lakin o xanım da doğru deyirdi; ağlamaqla digərlərinin əhvali-ruhiyyəsinə də pis təsir edirdim. Bir neçə həftədən sonra isə digərləri kimi oldum; hamıyla birlikdə gülür, hamıyla ağlayırdım.

Problemim təkcə ağlamaq deyildi. Xlor iyindən ürəyim bulanır, başım bərk ağrıyırdı. Ayağa qalxanda gözlərim qaralırdı. Axşamüstü ürəyim bulanan halda və çox zəif vəziyyətdə evə qayıdır, bayğınlıq keçirirdim. Ərim döyüşçülərin paltarlarını yumağıma etiraz etmirdi. Uşaqlarım da sakit idilər; dərsləri, tapşırıqları ilə məşğul olurdular. Mənsə daim başımda olan xlor qoxusundan təngə gəlir, hövsələdən çıxırdım.

İştaham çox azalmışdı. Bir gün özümlə camaşırxanaya çörək və sadə bir xörək apardım. Günorta həyətdə yerə bir parça sərib gətirdikləri çörək, xiyar, göyərti və digər şeyləri üstünə düzdülər. Mən də xörəyi çıxardım. Birlikdə oturduq. Xanımlar bir-birinə yemək təklif edirdilər, kim nə istəyirdisə, yeyirdi. Mən bir tikə götürüb ağzıma qoydum. Hiss etdim ki, xlor dadır. Süfrədən qalxmağa utandım, güclə udub başqa bir tikə ilə oynadım ki, xanımlar bilməsinlər. Qısası, çox çətinliklə iki-üç tikə yedim. Hər gün öncəkindən daha çox müqavimət göstərdim, ürəkbulanmamın qarşısını aldım, nəhayət, xlor qoxusu və o vəziyyətdə yemək mənə müəyyən qədər dözüləsi oldu.

Artıq hər axşam işlərimi enerji ilə görürdüm; xörək bişirir və sübh tezdən xörək boğçası ilə camaşırxanaya gedirdim. Bəzən iki-üç saat ləyənin arxasından qalxmırdım, əlimə hansı camaşır keçirdisə, ləkələrini sürtür, hovuzda suya çəksinlər deyə kənara qoyurdum. Ayağa qalxanda isə ayağımın və belimin ağrısından bir neçə addım qozbel kimi və axsaya-axsaya gedirdim. Ərimin maaşı az idi, amma həmişə yuyucu tozu, xlor, çəkmə və əlcək alıb oraya aparırdım. Bir gün də getməyə bilmirdim.

1985-ci ildə məhəlləmizi yenə bombaladılar. Bu dəfə evimiz dağıldı, amma şükür Allaha ki, uşaqlara bir şey

olmadı. Bazarın arxasındakı məhəlləyə gedib bir müddət orada bir ev kirayə etdik. Elə ilk günlərdə əşyaları düzməyi və səliqəyə salmağı qızlarıma tapşırıb qonşum Xurşid Qalavəndlə birlikdə camaşırxanaya getdim.

İndi fikirləşəndə bilirəm ki, o zaman camaşırxana məni möhkəm bir qadına çevirdi. Mənim ruhiyyəm orada gücləndi, inanclarıma görə yersiz həssaslıqlarımı kənara qoya bildim. Camaşırxananın xanımları ilə birlikdə oraya, həqiqətən də, layiqli bir ad qoyduq: İnsanyetişdirmə zavodu.

## Zəhra Əhmədnejad

Aminə Dağəri Şəhid Kələntəri xəstəxanasının şöbələrindən birinə rəhbərlik edirdi. Bir gün mənə dedi:

– Nə işlə məşğulsan?

– Hərdən İmdad komitəsinə gedib yoxsullar üçün gətirilmiş paltarları paketləyirəm, – deyə cavab verdim.

– Xanımlar xəstəxanaya gəlib qanlı paltar və mələfələri yuyurlar. Sən də gəl, kömək elə.

Ərimdən ayrılmışdım. Üçyaşlı bir oğlum vardı. Anamla yaşayırdım. Onunla danışıb dedim ki, uşağa baxsın. Sübh tezdən xəstəxanaya gedib soruşa-soruşa camaşırxananı tapdım. Oraya çoxlu torba yığmışdılar.

Şövkət Natiqi mənə dedi:

– Yazıb-oxuya bilirsən?

– Hə, – deyə cavab verdim.

– Hər bir bağlamanın üzərinə haranınkı olduğu yazılıb. Diqqətli ol, qarışdırma və yuyulandan sonra yenə haraya aid olduqlarını üzərlərinə yaz.

Bir-birinin ardınca ədyal, paltar və mələfə gətirirdilər. Üzərinə məxsus olduqları yer yazılmışdı: İltihab, Cərrahiyyə, CSR, Əndimeşk Şəhidlər meracı məzarlığı, Əhvaz Şəhidlər meracı məzarlığı və s. Hər bir bağlamanı açıb ləyənlərdə yuyan xanımların əlinin altına qoyurdum. Təmiz mələfələri də ayırıb qatlayır, üzərinə şöbələrin adlarını yazırdım.

Qardaşlarım Kərimlə Qulam cəbhədə vuruşurdular. Kərim müəllim idi. Yaşda məndən kiçik idi, amma mənə həmişə müəllim kimi olmuşdu. Onu çox sevirdim. Qanlı paltarları görəndə həmişə ondan ötrü narahat olurdum. Paltar ləkələrini sürtə-sürtə Kərimlə Qulamın salamatlığı üçün dua edirdim.

Bilmirəm necə oldusa, camaşırxananın sabit işçilərindən oldum. Səhər tezdən oraya gedirdim, qayıdanda isə oğlum yatmış olurdu. Bəzən onun üçün çox darıxırdım. Səhər tezdən oyadıb bir qədər onunla danışır, oynayır, sonra gedirdim.

1982-ci ilin martı idi. Axşam Şövkət Natiqi və Gültəla Davudi ilə məni saxlayıb dedilər: "Evinizə deyin ki, mələfə çoxdur, bu gecə evə gəlməyəcəyik".

Evdə telefon yox idi. Qonşumuza zəng vurub dedim: "Anama de ki, bu gecə xəstəxanada qalacam".

Xəstəxananın Mühafizə xidməti də kənar şəxslərin giriş-çıxışını qadağan etdi. Biz səhərə qədər oyaq qalıb paltar yuduq.

Çox yuxum gəlsə də, hovuzları su ilə doldurduq. Ədyal və mələfələrin bir qismini suya saldıq ki, xanımlar gələnə qədər islansın. Günəş çıxmazdan öncə iki mikroavtobus qadın gəldi. Şiddətli yuxusuzluqdan özümdən getmək üzrəydim. Onları görəndə arxayınlaşdım, otağa keçib yuyulmuş mələfələrin üstündə uzandım. On beş dəqiqə yatandan sonra helikopterin səsinə oyanıb camaşırxanaya girdim.

Yuyulmamış paltarlar hər an artırdı. Hələ də köməyə ehtiyacımız vardı. Çadramı belimə bağladım, əlcək və çəkmə geyib ağzımı bir parça ilə örtdüm və ədyalları hovuza tökdüm. Xanımların iki-üçü ilə birlikdə hovuza girib onları əvvəlcə tapdadıq, sonra sürtdük. Suyun rəngi qırmızıya çalırdı, sanki qəssablıq edirdik. Bir dəstə xanım soyuq beton üzərində oturub ləyənlərə xlor və yuyucu tozu tökürdü. Axşamacan o qədər paltar, mələfə və ədyalı yuyub qurtarmayacağımıza görə narahat idim. Birdən səkkizinci-doqquzuncu sinif şagirdi olan iyirmi-otuz qız içəri girib dedi: "Biz nə iş görək?"

Hovuzdan çıxıb sevincək onlara yaxınlaşdım, yaş paltarla onları qucaqlayıb dedim: "Xoş gəlmisiniz!"

Yuyulmuş mələfələri iplərdən asandan sonra bizimlə birlikdə yumağa başladılar. Axşam Bəsic servisi gəlib onları apardı. Hər dəfə əməliyyat olanda və camaşırxanada köməkçiyə ehtiyac yarananda orta məktəb bəsici yuxarı sinif qızlarını toplayıb köməyə gətirirdi.

Camaşırxanaya kim gəlirdisə, oradan ayrıla bilmirdi.

Səhər tezdən və hava çox soyuq idi. Yuyulmamış mələfə və paltar da çox idi. Hovuzların kranlarını açdım, mələfələri bir-bir çırpdım. İşləyib tərlədim. Birdən bir nəfər camaşırxananın qapısını döyməyə başladı. Dedim:

– Qardaş, nə qədər mələfə gətirmisənsə, qapının yanına qoy. İndi məşğulam, bir azdan götürərəm.

– Salam, – deyib içəri girdi. – Mən bacıyam, qardaş deyiləm!

Gülərüz bir xanım idi. Dedim:

– Salam. Xoş gəlmisən!

– Bu gecə xəstəxanaya çatmışam, – deyib mənə bir qutu verdi. – Bu peçenyeləri də sizin üçün gətirmişəm.

– Sağ ol. Tibb bacısısan?

– Müəlliməm, amma bura tibb işçilərinə kömək etməyə gəlmişəm, - deyə bildirdi, təxminən yarım saat yanımızda oturdu, gedəndə dedi: – Çox savab qazanırsınız. Burda çəkdiyiniz əziyyətləri yalnız Allah görür.

Bizimlə dostlaşdı. Xəstəxanada olduğu müddətdə növbədən çıxanda bizə nabat gətirir, çay hazırlayır, paltar da yuyurdu.

Paltar və mələfələr qanlı olurdu. Bir neçə dəfə ağardıcı məhlul və yuyucu tozu töküb yuyur, nəyin bahasına olur-olsun, qan ləkələrini təmizləyirdik. Soyuq su və buz kimi hava əllərimin yarasını pisləşdirirdi. Əlimi xlora və

yuyucu tozuna vuran kimi qışqırırdım. Dərisi qurumuş, yaralanmışdı. Gecələr əlim paltarıma dəyəndə yuxudan diksinirdim. Xanımların çoxu mənim günümdə idi.

Bir dəfə xəstəxananın Sanitariya-gigiyena şöbəsindən camaşırxanaya iki-üç xanım gəldi. Onlar bizim əllərimizi görəndə bu vəziyyətdə paltar yuduğumuza inana bilmirdilər. Bizə A vitaminli krem yazıb dedilər: "Əllərinizi xüsusi sabunla yuyun və onlara bu kremdən sürtün".

Bir müddət istifadə etdim. Yavaş-yavaş əlimin dərisi yumşaldı və daha gecələr yuxudan oyanmadım. Sanitariya-gigiyena şöbəsinin xanımları hər dəfə camaşırxanaya gələndə bizə bir qutu krem gətirirdilər.

Fəthülmübin əməliyyatından sonra cəbhə şəhəri olmaqdan qurtulub müharibədən çıxmış şəhərə çevrildik. İraqlılar uzaqlaşdılar, şəhərimizin işğalına dair qorxumuz azaldı. Lakin döyüşçülərin paltarları durmadan çoxalırdı. Biz camaşırxana xanımları da çoxaldıq. Artıq helikopterlə də ədyal və paltar gətirirdilər. Biz də olduqca çox idik, harada ehtiyac olurdusa, gedirdik.

Bir dəfə bizim bir qismimizi mikroavtobusla Əhvazın Şəhid Bəqayi xəstəxanasına paltar yumağa apardılar. Səhər saat 8-də Əhvaza çatdıq, axşama qədər əhvazlı xanımlara kömək edib paltar yuduq. Mən evə çatanda axşam saat 10 idi. Oğlum oyaq idi. Özünü qucağıma atıb başını sinəmə qoydu və orada da onu yuxu apardı. Səhər yuxuya qalıb təxminən saat 8-də camaşırxanaya getdim. Gördüm ki, dünən Əhvazda olan xanımlar mələfə yuyurlar. Müharibə idi, heç kim istirahət barədə düşünmürdü.

1983-cü ilin ilk ayları idi. Kərim həmişəki kimi sağollaşıb cəbhəyə getdi. O, xanımını və uşağını anama

tapşırmışdı. Anam narahat idi, mənə deyirdi: "Çox həyəcanlıyam, Kərimə".

İki-üç həftədən sonra qardaşım Qulama xəbər göndərdilər ki, Kərim Bəsrənin şərqində itkin düşüb. Bunu eşidəndə özümü itirdim, başıma o qədər vurdum ki, bərk ağrıdı. Anam da çox dözümsüzlük edirdi. Daim Kərimdən xəbər gözləyirdik. İki gün ötdü, heç bir xəbər gəlmədi. Səhər çağı yenə oğlumu evdə qoyub camaşırxanaya getdim. Xanımlar mənə deyirdilər: "Allaha təvəkkül elə və səbirli ol".

Qəhərdən danışa bilmirdim. Paltarları çıxarıb hovuza tökdüm, hovuzun kənarında oturub yavaşca ağlamağa başladım. İlk bir neçə gün çox çətin keçdi. Anam çox narahat halda uşağımı saxlayırdı, özüm də yaşlı gözlərlə paltar yuyurdum. Kərim itkin düşmüşdü və bu, bizim üçün çox ağrılı idi. Lakin bilmirəm necə oldusa, ağlamağım azaldı və Kərim barədə fikirləşməkdən çox, diqqətimi paltarlara yönəltdim.

1983-cü il Əndimeşkin ən çox bombalandığı ildir. Düşmən hər dəfə bir küçəni yerlə yeksan edirdi, daha çox, avtomobil və qatar yollarını vururdu. Gecədən sübhə qədər həyəcan siqnalından və partlayış səslərindən yata bilmirdim. Hər dəfə səs gələndə anamla uşağımın əlindən tutub küçəyə qaçırdım.

Bir dəfə sübh namazından sonra yatdım. Hələ gözlərimə yuxu getməmiş anamın səsinə oyandım. Mənə dedi: "Servis küçənin başında səni gözləyir".

Çətinliklə ayağa qalxdım, çadramı başıma atıb getdim, sürücüyə salam verib dedim: "Qardaş, olmaz ki, bir dəfə də sən yuxuya qalıb gec gələsən?!"

Başını aşağı salıb gülümsədi. Camaşırxanaya çatdıq. Orada böyük bir yük maşını dayanmışdı, arxasından

mələfə bağlamalarını yerə atırdılar. Mələfə yükünü Tehrandan qatarla cənuba gətirmişdilər. Tələzəng körpüsü bombalanmış, qatar onun arxasında dayanmışdı. Yükü maşına boşaldıb aparmaq istəyəndə də yağış yağıb hamısını islatmışdı. Ağ və yaşıl mələfələr idi, yağış suyu onlara sarı ləkələr salmışdı.

Xanımlardan yeddi-səkkiz nəfəri bu işə ayırdım. Axşama qədər onları yudular, mən də qurudana salıb-çıxarır və qatlayırdım. Yeni və böyük mələfələr idi. İkinci gün hamısını hazırladıq. Yük maşınını camaşırxananın önünə gətirdilər, bütün mələfələri gözlərim önündə yükləyib Əhvazın Şəhid Bəqayi xəstəxanasına aparmağa hazırlaşdılar. Ürəyim istəyirdi ki, onlardan bizim xəstəxanaya da versinlər.

Yaxınlaşıb dedim: "Burda da ehtiyac var ha!"

Heç kim qulaq asmadı. Mələfələri yükləyib getdilər.

Camaşırxananın xanımlarının problemlərini həll etmək üçün nə lazımdırsa, edirdim. Oranın təminatçısı olmuşdum. Onlar demədən hətta su və çay da aparıb əllərinə verirdim. Yazıqlar saatlarla soyuq beton üzərində oturub ləyəndə paltar yuyurdular. Su və qan ayaqlarının altına axır, daha çox islanırdılar, amma heç vaxt etiraz etmirdilər. Bu problemi həll etmək üçün bir yol axtarırdım. Tez-tez düşünürdüm ki, əgər Kərim olsaydı, bacısına yol göstərərdi. Evə getdim. Anam taxta dördayaqlının üstündə oturub paltar yuyurdu. Birdən beynimə gəldi ki, xanımlar üçün bu dördayaqlıdan düzəltdirək.

Xəstəxananın Xidmət bölməsinin işçilərindən olan ağa Həsənvəndə dedim:

– Qardaş, xanımlar üçün qırx-əlli ədəd taxta dördayaqlıya ehtiyacım var.

– Yaxşı, həll edərəm, – deyə cavab verdi.

İki gündən sonra dördayaqlıları Vanet yük maşını ilə gətirib camaşırxanada boşaltdı. Xanımların sevinmələrindən və təşəkkürlərindən məndə belə bir fikir yarandı ki, Kərim də sevinir.

Xanımlar səhərdən axşamüstüyə qədər camaşırxanada işləyirdilər, amma xəstəxana xörəyindən yemək istəmirdilər. Deyirdilər ki, bu xörək döyüşçülərin haqqıdır, bizim deyil. Bəzən evdən çörək, xiyar və pendir gətirirdilər. Ətiyyə Çətirçi xəstəxana qadınlarının rəhbəri idi. Bir gün mənə bir neçə qutu kompot və peçenye verib dedi:

– Düzgün deyil ki, səhərdən axşama qədər işləyəsiz, bir şey də yeməyəsiz. Bunları xanımlara ver.

Xanımlar paltar yuyurdular. Peçenye qutusunu içəri aparıb:

– Bacılar, gəlin bir şey yeyin, bir az cana gəlin, - dedim.

– Kim gətirib? – deyə soruşdular.

– Xəstəxana verib.

– Cavanlar qurumuş boğazla vuruşurlar, biz gəlib peçenye yeyək?! Bunları göndərin cəbhəyə.

İstiyə və xlor qoxusuna görə onlara limon şərbəti düzəldib deyirdim: "Bu ki peçenye deyil! Əgər içməsəniz, zəhərlənərsiniz, işləyə bilməzsiniz".

Yayda zorla şərbət içirdilər.

Xanımlar üçün nə gətirirdimsə, nəyisə bəhanə edir, əksərən yemirdilər. Mən də daha meyvə, kompot, peçenye və digər bu kimi məhsullar almağa getmirdim. Bir gün ardımca adam göndərib dedilər:

– Niyə xanımların qida məhsullarını almağa gəlmirsən?

– Əşi, bu xanımlar heç nə istəmirlər, – dedim.

– Öz paylarıdır, gəl apar.

Oraya getdim. Mənə 10-15 ədəd armud və alma şirəsi verdilər. Xanımlar təxminən otuz-qırx nəfər idilər. Şirələri yandakı otağa aparıb ağızlarını açdım, iki dolçaya töküb camaşırxanaya keçdim:

– Bacılar, Allah qüvvət versin! – dedim. – Stəkanlara su vurun, mənə verin. Bu meyvə şirəsi ciyərinizə yaxşı təsir edəcək!

Heç kim dinmədi. Cümləmi bir də ucadan təkrarladım.

Yaşlı xanımların biri cavab verdi:

– Rulə, axı demişik, kompotları bu qədər qan itirmiş yaralılara verin!

Nə qədər dedimsə, xeyri olmadı. Qorxdum ki, kompot əlimdə qalar. Bir stəkan içib dedim:

– Kim içməsə, payı israf olacaq!

Xanımlar əsla özlərini düşünmürdülər. Paltar yuyur, döyüşçülər üçün dua edirdilər.

Vəlfəcr-8 əməliyyatı gedirdi. O qədər paltar və mələfə yumuşduq ki, ayaq üstə dura bilmirdim. Kərimin itkin düşdüyünü eşidəndə keçirdiyim hissləri yaşayırdım. Bir helikopter yerə oturdu. Tibb işçiləri cəld yaxınlaşıb yaralıları boşaltdılar. Biz də paltar yuyur, salavat deyirdik. Bəsici qardaşlar helikopterdən bir neçə torba paltar və ədyal götürüb camaşırxanaya gətirdilər. Onların birini açdım. Bir pasdarın qanlı forması idi. Kövrəldim. Onu öpüb gözlərim üstə qoydum. Üzümə kəskin qoxu və güclü qaz dəydi. Gözlərim yaşardı, asqırmağa başladım, əllərim qaşındı. Xanım Natiqi yanımda idi. Ona dedim:

– Nənə-Qulam, bu nədir? Əllərim niyə qaşınır?

– Bəlkə, kimyəvi qaza bulaşıb!

Tez torbanın ağzını bağladım, aparıb xanım Çətirçiyə göstərdim. O dedi: "Bunu niyə açmısan? Məgər deməmişəm ki, şübhəli bağlamaları açmayın?!"

Paltar torbasını aparıb mənə bir dərman gətirdi. Onu içdim. Nəfəsim bir qədər açıldı, amma əllərimin qaşıntısı dayanmadı. Gecə saat 12-də evə çatdım. Oğlum yatmışdı. Ona yazığım gəlirdi. Əksər axşamlar mən gələnə qədər yatmış olurdu. Hamama girdim, paltarlarımı yudum, oturub bir qədər anamla danışdım. Söhbət edə-edə məni yuxu tutdu. Oğlumun səsinə yuxudan oyandım. Bərkimiş əllərimi tutub tumarlayırdı. Onu qucaqlayıb öpdüm. Pəncərədən içəriyə günəş şüası düşürdü.

– Da,[2] məni niyə oyatmamısan? – narahat halda anama dedim. – Yenə yatıb qalmışam.

– Rulə, neçə dəfə çağırdım, oyanmadın, – dedi.

Uşağım qucağımdan düşmürdü. Özüm də ondan ayrıla bilmirdim. "İlahi! Bu analar uşaqlarından necə ayrılırlar?! – deyə öz-özümə düşündüm, onu öpüb dedim: "Nənəni incitməyəsən ha! Tez qayıdacam".

Çadramı başıma atıb piyada xəstəxanaya doğru yola düşdüm. Köçəri camaat xəstəxananın yanında çadır qurmuşdu. Bir neçə itləri də vardı. Xanımların biri dedi:

– Orda qal, gəlirəm. İndi it səni yeyər.

– Qorxma, – gülə-gülə dedim, – itlər də məni tanıyırlar.

Yaxınlaşıb mənə 4 kq-lıq bidon dolu ayran verdi: "Bunu qızlara apar".

Biz lorlar ayranı sevirik. Camaşırxananın isti və boğucu mühitində sərin ayran çox ürəyimizə yatdı.

Nəinki isti-soyuq, heç raket partlayışları da bizi ləyənlərin önündən qaldıra bilmirdi. Yadımdadır, bir gün

---

[2] Kürdcə ana deməkdir.

yağış yağdı, hava soyudu. Biz də camaşırxanada hər şeyi soyuq su ilə, üşüyə-üşüyə yuyurduq. Birdən Əndimeşkə raket düşdü, ardınca da təcili yardım və mülki maşınlarla yaralıları gətirməyə başladılar. Xanımlar yumaqla məşğul idilər. Təcili yardım şöbəsinə getdim. Mənə dedilər:

– Mələfə lazımdır, gətirməyə də heç kim yoxdur. Özün get, gətir.

– İpdən təzə yığmışıq, amma çoxu cırıqdır, – deyə cavab verdim.

– Eybi yox, tez gətir.

Xanım Natiqi ilə birlikdə onları böyük bir arabaya qoyduq. Arabanın dəstəklərindən tutub sürətlə itələdim. Önü camaşırxananın qapısının kənarına ilişib əyildi, özüm də başı üstə yerə yıxıldım. Gözlərim qaranlıq çaldı, amma fikir vermədim, ayağa qalxıb paltarımı çırpdım. Xanım Natiqinin köməyi ilə arabanı qaldırıb Təcili yardım şöbəsinə apardım.

Topuğum ağrıyırdı, amma heç baxmırdım da. Başım çox qarışıq idi. İki sutkadan sonra evə getdim. Topuğum şişmişdi. Çox yorulmuşdum, amma ağrıdan yata bilmirdim. Anam bir ləyən gətirib ayağımı suya qoydu, masaj eləməyə başladı. Bir qədər sakitləşdim.

Ertəsi gün axsaya-axsaya camaşırxanaya getdim. Xanımlar israr etdilər ki, gərək Dağəri bacının yanına gedib şəklini çəkdirəsən.

Xanım Dağəri şəkli çəkdi, baxandan sonra dedi:

– Gərək bir müddət istirahət edəsən, bu ayaqla işləmək olmaz.

– Çarpayıda yatan yaralılardan da ağır vəziyyətdə deyiləm ki, – dedim. – Onlar qol, ayaq vermişlər, hətta bəzilərini tanımaq belə olmur.

Camaşırxanaya çatdım, şəkli boş əraziyə fırladıb içəri girdim.

Həyəcan siqnalı verildi, təyyarələr xəstəxananın üstündən keçib şəhərə getdilər. Qulaqbatırıcı səslər gəlirdi, şəhəri tüstü bürümüşdü. Bayıra çıxıb ağacların altında, çəmənlikdə uzandıq. Xurma dənələrinə oxşayan qırmızı qəlpələr yanımıza düşürdü. Bir-birimizə qısıldıq.

Mən qulaqlarımı tutub qışqırırdım. Səs maneəsinin yarılmasından və bombalardan çıxan gurultu beynimə dolurdu. Evdən xəbərim yox idi. Gözləyirdim ki, yaralı və şəhidləri gətirsinlər, bizim işimiz də sürətlənsin. O vəziyyətdə camaşırxananı buraxıb evə gedə bilməzdim. Şəhər hələ bombalanırdı. Dayanmadan xəstəxanaya təcili yardım maşınları və digər avtomobillər gəlirdi. Çəmənlikdən qalxıb camaşırxanaya girdik. Bir qardaş qışqırdı: "Təmiz ədyal və mələfələri təcili yardıma gətir!"

Yuyulmuşları qucağımıza götürüb qaçdıq. Bir dəstə də qollarını çırmayıb yumağa başladı. Hamımız evlərimizdən ötrü nigaran qalmışdıq. Axşamüstü daha dözə bilmədik, ailəmizdən xəbər öyrənmək üçün evə getdik. Şükür Allaha, bizdə hamı salamat idi.

Səkkizillik müharibə dövründə bütün həyatım camaşırxanada xülasə olur. Dəfələrlə olub ki, çadramı başıma atıb evə getmək istəyəndə bir iş çıxıb, məni saxlayıblar.

Bir dəfə axşam bütün xanımlar mikroavtobusa minib getdilər. Xanım Natiqi ilə mən əşyaları yerbəyer etmək üçün qaldıq. Çəkmələri camaşırxananın yerindən götürüb divardakı mıxlardan asdım ki, içi qurusun və iyi çəkilsin. Sonra xanım Natiqiyə dedim: "Ədyalları tök hovuza, mən də gedib quru mələfələri toplayım".

Bir nəfər başıaşağı halda dedi:

– Bağışlayın, bacı, mənim üçün bu paltarları yuya bilərsiz?!
– Mənim işim budur.
– Mümkünsə, başqalarına qarışdırmayın, – deyib torbaları mənə verdi.
Məlum idi ki, xəstəxanaya təzə gəlib, hələ adət etməyib. Onları əlindən alıb dedim: "Mütləq".
İçəri girib xanım Natiqiyə dedim: "Nənə-Qulam, sifarişli paltar gəlib, gəl yuyaq".
Hər torbada üç-dörd ədəd köynək-şalvar dəsti vardı. Onları tərtəmiz yuyub ipdən asdıq.
Bir azdan quru mələfələri yığmağa getdim. Otuz-qırx sıra ip arasında gəzib quruları toplayırdım.
Tibb bacılarının otağı iplərlə üzbəüz idi. Oradan bizə göz qoyurdular. Birdən onların biri bir neçə addım yaxınlaşıb dedi: "Əhmədnejad bacı, bu mələfələri içəri qoy, gəl, səninlə işim var".
Qucağım mələfə ilə doluydu, ayağımın altını görmürdüm.
– İndi deyə bilməzsiniz? – soruşdum.
– Onları qoy, gəl.
Mələfələri otağa töküb onun yanına qayıtdım. Dedi:
– Bu mülki paltarlar kimindir?
– Tibb bacılarının, – dedim. – Nə olar ki?!
– Onları özləri yumalıdırlar. Siz yalnız iş geyimlərini yuyun.
Narahat oldum. Məntiqli deyildi, amma gördüm ki, çox ciddidir, mübahisə etmək olmaz.
- Mən bilmirdim; həm də birinci dəfədir gətiriblər.
Ertəsi gün səhər çağı tibb bacılarının biri paltarları aparmağa gəldi. Çox təşəkkür edib dedi:
– Bağışlayın, bacı, özümüz yumağa vaxt tapmırıq.

– Sənin işin yaralılara qulluq etməkdir, mənim işim də paltarları yumaq. Nə vaxt paltarın olsa, gətir, ya mənə ver, ya da xanım Natiqiyə. Dostlarınkını da gətir.

Otağın divarlarına bir neçə mıx vurub xanım Natiqiyə dedim:

– Tibb bacılarının paltarlarını yuyanda otaqdan as, sonra bizə söz gəlməsin.

Döyüşçülərin paltar və mələfələrini yuyandan sonra onlarınkını yuyub mıxlardan asırdıq, səhərəcən quruyurdu.

Bəzi axşamlar saat 10-a qədər orada qalırdım. Başağrıdan gözlərim qaralırdı. İstirahət üçün bacıların yataqxanasına gedirdim, ancaq orada da istirahət etmək olmurdu; bağlamalara iynə-sap, bir neçə konfet, bir qədər püstə, alt paltar, alın lenti və möhür qoyub bir məktubla birgə cəbhəyə göndərirdik. Məktubları ya şagirdlər yazırdılar, ya da özümüz.

Bir dəfə çox yorğun idim, güclü başağrım vardı, paltarlarım da suyun içində idi. Axşam saat 10-da işim bitdi. Bacıların yataqxanası camaşırxanadan təxminən əlli metr aralıdaydı. Bir dəst təmiz paltarımı götürüb oraya getdim, hamamlarında çimdim. Bacılar çox sevindilər. Bir yerə toplaşıb söhbətə başlamaq istəyəndə isə dedim:

– Tez yatım deyə bura gəlmişəm.

– Bu gecə bizim yanımızda olduğuna görə çox sevinirik – dedilər.

Onların israrından sonra bir qədər şam yedim və necə oldusa, o səs-küydə məni yuxu tutdu. Gecənin yarısı şüşə səsinə və xanımların qışqırtısına yuxudan oyandım. O qədər yuxum gəlirdi ki, yerimdən qalxmaq istəmirdim. Bacılar qışqırışır, biri deyirdi: "Əhmədnejad! Əhmədnejad! Tez gəl, otağa oğru girib".

Ayağa qalxmağa məcbur oldum. Onlara dedim: "Məgər oğurlamağa nəyiniz var ki?! Raketdən, bombadan qorxmursuz, oğruya görə isə bu qədər qışqırırsız!"

Dəhlizə çıxıb işığı yandırmaq istədim, birdən lampa partladı. Xanımlar əvvəlkindən də bərk qışqırışdılar. O biri lampanın düyməsini basdım, işıq yandı. Dəhlizin qapısı bağlı idi, oğru gəlməmişdi. Lampaların bir neçəsi bombardman səbəbindən sallaq qalmış, mənim bəxtimdən həmin gecə düşüb sınmışdı. Yuxum haram oldu, əvəzində isə bacıların qorxmasına gülüb onları xeyli ələ saldım. Onlara dedim: "İndi ki məni yatmağa qoymadınız, gərək sabah hərəniz bir növbə camaşırxanaya gəlib mələfə yuyasınız".

Özləri həmişə fürsətdən istifadə edir, növbələri olmayanda bizim yanımıza gəlib mələfələri ipdən asır, təmizləri yığıb qatlayırdılar.

Bir müddət idi müharibənin bitməsindən söhbət gedirdi. Mən də istəyirdim ki, müharibə bitsin, amma qardaşım Kərimin və bütün gənclərin intiqamının Səddamdan alınmasını da istəyirdim.

Qətnamənin qəbul olunması xəstəxananın səsucaldanından elan olunanda gözlərimdən yaş axdı. Hələ də bilmirəm ki, o yaş sevincdən idi, yoxsa kədərdən.

İki-gün gün idi camaşırxanaya yalnız xanım Natiqi ilə mən gedirdim. Xəstəxana hələ yaralı ilə doluydu. Mələfə və paltarları da biz yuyurduq. Sübh tezdən idi. Məni aparmağa maşın gəldi. Küçənin başına iki dəqiqə gec çıxdım. Dayanmadan siqnal verirdi. Ona dedim:

– Müharibə vaxtı bu qədər tələsmirdiniz, indi nə olub?

– Hələ də müharibədir, – dedi.

Sürətlə xəstəxanaya doğru getdi. Yolda çox qələbəlik vardı. Bildim ki, nəsə baş verib. Xəstəxanaya çatanda

gördüm ki, müharibənin ən qızğın çağında olduğu kimi yaralı gətirirlər. Çox narahat oldum: nə qədər ki münafiqlər var, müharibə bitməyəcəkdi!

Təcili yardım şöbəsinin önündə maşından enib camaşırxanaya tərəf getdim. Yolda ah-uf səslərini eşidib dayandım. Bir döyüşçü innab ağacının altındakı kanala düşmüşdü; qıvrılır, zarıyırdı. Kanalda su yox idi, amma yeri yaş idi. Bütün paltarları palçığa bələşmişdi. Kanalın yanında oturub:

– Qardaş, necəsən? Niyə bura girmisən? – deyə soruşdum.

Zorla nəfəs alıb dodaqlarını araladı:

– Susuzam... su...

Gördüm ki, halı çox pisdir. Qışqırdım:

– Qardaşlar, burda bir yaralı var!

Xidmət bölməsinin işçilərindən ikisi ona doğru qaçdı. Onu kanaldan çıxarıb Təcili yardım şöbəsinə apardılar. Mən də onların ardınca getdim. Vəziyyət ağır idi. Yaralıların çoxunu şöbənin önünə qoymuşdular. Onların sızıltıları halımı pisləşdirirdi. Həmin yaralı qardaşı da onların yanına qoydular. Bir tibb bacısı onun başı üstə gəldi. Dedim ki, su istəyir.

– Çoxlu qan itirib, – dedi, – yalnız dodaqlarını islat.

Yaş pambığı dodaqlarına qoydum. Dodağındakı çatların qanı pambığı qızartdı. Məni ağlamaq tutdu. Tibb bacılarından biri dedi: "Bacı, get, mələfə gətir".

Camaşırxanaya getdim. Təmiz mələfələri xanım Natiqi ilə birgə Təcili yardım şöbəsinə apardıq. Geri qayıtdım. Digər xanımlar da gəldilər. Bir neçə sutka xəstəxanada qaldıq. Allahın köməyi ilə münafiqlər də məğlub oldular.

1990-cı ilə qədər Şəhid Kələntəri xəstəxanasında oldum. Bütün çətinliklərə, böyüyəndə və məktəbə gedəndə

uşağımın yanında olmamağıma baxmayaraq, həyatımın ən yaxşı günlərini camaşırxanada yaşamışam.

# Məhin Xoşhalzadə (Xanım Heydəri)

Namazlarımı İmam Hüseyn (ə) məscidində qılırdım. Mübarizənin əvvəlləri idi, tək-tük adamlar küçələrdə şüar deyirdilər. Mən də onlarla gedirdim. Həyat yoldaşım bələdiyyə idarəsində işləyirdi. O, tez-tez hirslənib deyinirdi: "Sən axırda uşaqları ölümə verəcəksən!"

Qulaq asmırdım. Səhər çadramı başıma atıb alış-veriş bəhanəsi ilə yürüşə gedirdim. Qayıdanda mənə deyirdi: "Qapını qıfıllayım ki, getməyəsən?! Axı hamiləsən, bu qarınla hara gedirsən?!" Deyirdim ki, qapını bağlasan, üstündən aşıb gedərəm.

Yürüşləri İmam Hüseyn (ə) məscidinin uşaqları təşkil edirdilər.

Bir dəfə məscidin önündə iki polis dayanıb heç kimi içəriyə buraxmırdı. Axşam namazının vaxtı idi. Çadramı başıma atıb getdim. Küçədə qələbəlik vardı. Polislər də silahla məscidin həyətində durmuşdular. Əlimi sinəmə qoyub təbəssümlə salam verdim və içəri girdim.

Məscidin həyəti adamla dolu idi. Namaz qılıb bayıra çıxanda polislərə dedim: "Allah qəbul eləsin!"

Dostum mənə dedi:

– Mən məscidin önündən keçəndə qorxumdan əsirdim, kül başına, qorxmadın ki, səni öldürərlər?!

– Əllərindəki silaha baxma, – dedim, – onlar məndən qorxurlar da.

Şahın qaçışından bir gün sonra qürub çağı hərbçilər tankla prospektlərə çıxdılar. Onlar maşınların və camaatın üstündən keçir, şənlik səsi çıxarırdılar. Heç kim evindən bayıra çıxa bilmirdi. Ancaq uzaqdan cavanların "şaha ölüm" şüarlarını və atəş səslərini eşidirdim. Birdən tank səsi gəldi, ev titrəməyə başladı. Bizim prospektdə idilər.

Başımı qapının arasından bayıra çıxarıb "şaha ölüm" qışqırdım və yenə qapını bağladım.

Yoldaşım hirsləndi:

– Ay Allah, bu arvadın əlindən nə edim?! Ağa, gəlin bunu tutun, uşaqlarımı ölümə verməsin!

– Nə olub?! – dedim. – Qorxma, onlar özləri də qışqırırlar, məni eşitmədilər.

Bu qədər çətinlik çəkdik, axırda şah qaçdı və imam gəldi. Hələ inqilabın ləzzətini dadmamış müharibə başladı; hər gün qorxu və bomba həyəcanı. Gənclər cəbhəyə gedir, xanımlar da ağı deyə-deyə, "Amerikaya ölüm" və "Müharibə! Qələbəyədək müharibə" şüarları ilə cəsədlərini dəfn edirdilər.

Hər kəs bir şəkildə müharibə ilə məşğul idi. Mən bir il ancaq şəhidlərin dəfninə getdim, şəhid analarına və xanımlarına təskinlik verdim. Sonra eşitdim ki, qonşular Şəhid Kələntəri xəstəxanasına gedib döyüşçülərin paltarlarını yuyurlar. “Mən inqilab vaxtı hamilə halda yürüşə getmiş adamam. Düzdür, beş uşağım var, böyük qızım üçüncü sinifdə oxuyur, özüm də hamiləyəm. Amma paltar yumaq mənimçün nədir ki?!" – deyə öz-özümə düşündüm. Bilirdim ki, ərimə desəm, qoymayacaq, deyəcək, qal evdə, uşaqları böyüt.

Ərim səhər saat 7-də işə getdi. Tez qızım Məhnazı yuxudan oyadıb dedim: "Mən qayıdana qədər uşaqlardan muğayat ol". Yemək də verdim ki, oyananda birlikdə yesinlər. Evdən çıxıb qonşu qadınlarla birlikdə xəstəxanaya getdim. Qarnıma görə ləyənin arxasında oturub ləkələri təmizləyə bilmirdim. İki beton hovuz vardı: birində qanı yuyur, digərində suya çəkirdilər. Çəkmə və əlcək geydim, zibillərini yerə çırpıb mələfələri hovuza tökdüm, sonra da üstünə çıxıb tapdamağa başladıq.

Hovuzda başım gicəllənir, ürəyim bulanırdı. Özümü birtəhər saxlayıb mələfələri tapdadım, amma az qala mədəm ağzıma gəlirdi. Bayıra çıxıb həyətdə oturdum. Halım çox pis idi. Torpağı çəngələyə-çəngələyə yediklərimi qaytardım. Sonra içəri girib şlanqı üzümə tutdum, ağzımı yaxaladım və yenə hovuza girdim. Su dolu hovuz qana boyanmışdı.

Günortaya qədər, çətin olsa da, yudum. Evə qayıdanda başım gicəllənirdi, yorğun idim. Ev işlərini gördüm, tez yüngül bir xörək hazırlayıb özümdən getdim. Camaşırxanaya getdiyimi ərimin bilməsini istəmirdim.

O, evə gələndə məni halsız görüb soruşdu:

– Nə olub?

– Evin və uşaqların işləri məni əldən salıb, – deyə cavab verdim.

– Qalx, xörək ye.

Süfrə sərib xörək çəkdim. Süfrədəki suya baxanda gözlərimə qırmızı göründü. Həyətə qaçıb yenə qusdum. Axşam öz-özümə dedim: "Kül başına! Şahdan, SAVAK-dan qorxmurdun; indi də möhkəm ol!"

Səhər yenə camaşırxanaya getdim və yenə dünənki vəziyyəti yaşadım. Bir neçə gün özümü zorlayıb getdim.

Bir gün Cərrahiyyə şöbəsindən çoxlu mələfə gətirdilər. Adət üzrə, onları çırpdım ki, arasında iynə və ya başqa bir alət qalmasın. Üçüncü və ya dördüncü mələfənin arasından isə xırda ət və dəri parçaları töküldü. Bu dəfə həyətə çıxana qədər də özümü saxlaya bilməyib elə oradaca qaytardım.

Xanımların biri məni bayıra çıxardı. Qarnımdakı uşağın ürək döyüntüsünü eşidirdim. O qədər qusdum ki, taqətimi itirib yerdə qaldım. Xədicə Bəyyad yanıma gəlib məni

ayağa qaldırdı, üzümə su vurdu, məni yeməkxanaya apardı. Heç nə yeyə bilmirdim. Ağlaya-ağlaya ona dedim:

– Daha mələfə yumayacam. Cavanları tikə-tikə edib mələfələrin arasına qoyublar.

– Sakitləş, – dedi. – Otuz yaşın var. Burda səndən də balacalar qan yuyurlar. Axı sən heç nədən qorxmurdun, birdən-birə sənə nə oldu?

Yazıq mənə görə narahat idi. Halım yaxşılaşana qədər yeməkxanada oturduq.

Evə gələndə yenə qusub özümdən getdim. Daha ayağa qalxıb yemək hazırlaya bilmədim.

Ərim camaşırxanaya getdiyimi bilib qışqırdı: "Ay arvad, niyə başa düşmək istəmirsən?! Özünü fikirləşmirsən, qarnındakı uşağa rəhm elə. Bu vəziyyətinlə necə xəstəxanaya gedə bilirsən?"

Heç bir söz demədim. Başım bərk ağrıyırdı, halsız idim. İki-üç gün nə yedimsə, dərhal qaytardım.

Yavaş-yavaş ayağa qalxıb məscidə şam namazına getdim. Uşaqları həyətdə cəbhə geyimində görüb pisləşdim və məni ağlamaq tutdu. Paltar yuya bilmədiyimə görə vicdan əzabı çəkirdim. Bu vəziyyətdə nə edəcəyimi də bilmirdim. Səhərə qədər yatmadım. Əndimeşk bombalananda əsla qorxmurdum, amma şəhidlərin qanı və ət parçaları məni məhv edirdi.

Səhər hazırlaşıb yenə xəstəxanaya getdim, ancaq camaşırxanaya yaxınlaşa bilmədim. Ondan sonra yeməkxanaya getməyə başladım. Oranı süpürür, stolları təmizləyib səliqəyə salır, günortalar evə qayıdırdım.

Axırıncı ayım idi. Uşaqlar çox və balaca idilər. Onların yeyib-içmələri və təmizlikləri ilə yetərincə məşğul ola bilmirdim. Müharibə başlayandan bəri ərim çox vaxt işdə qalırdı, uşaqları evdə tək qoyduğuma görə narazılıq edirdi.

Evdə qalıb uşaqları saxlamaqdan başqa yolum yox idi. Lakin şəhidlərin dəfnini və yürüşləri heç vaxt tərk etmədim, nə olur-olsun, özümü yetirirdim.

# Zəhra Ajirak

1962-ci ildə, 12 yaşımda ailə qurdum. Yoldaşım şəkər zavodunda işləyirdi. Üç oğlum, bir qızım vardı. İnqilab yürüşləri zamanı qızım Kübra 11 yaşındaydı. Birdən qarnı bərk ağrımağa başladı. Onu xəstəxanaya apardıq. Həkim həmin gün onu kor bağırsağından əməliyyat etdi, amma halı daha da pisləşdi. Bir həftə xəstəxanada yatandan sonra vəfat etdi. Ona görə çox dözümsüzlük edirdim; bütün həyatdan əlimi üzmüşdüm, hər gün məzarına gedirdim.

Yürüş və qarşıdurmalar günbəgün çoxalırdı. Kübra həm qızım, həm də sirdaşım idi. Ondan sonra oğullarıma çox bağlandım. Onlar həmişə yürüşə gedir, gecələr də divarlara şüar yazırdılar. Özüm də bilmirəm necə oldusa, mən də yürüşlərə getməyə başladım. Ancaq uşaqlar evə qayıdana qədər birtəhər olurdum. İnqilab qələbə çaldı, mənsə hələ də uşaqlardan nigaran idim.

Evimiz "Şir və günəş"in arxasındaydı. Müharibə vaxtı oranın bir hissəsi Bəsic mərkəzi oldu. Çoxlu uşaqlar oradan cəbhəyə göndərildilər.

Bəhmən yuxarı sinifdə oxuyurdu. O, məktəbdən çıxan kimi birbaş Bəsicə gedirdi. Yavaş-yavaş kitablarını da oraya apardı. Evə az gəlirdi. Bir gün evə bir vərəqlə gəldi. Razılıq vərəqi idi. Atasına dedi ki, imzalasın, o da cəbhəyə gedə bilsin. Qardaşı Həmid korpusda işləyirdi, cəbhəyə çox gedirdi. Atası Bəhmənin də getməsinə razı olmadı.

Müharibə idi, imam da elan etmişdi ki, cəbhələri boş qoymayın. Uşaqları çox, imamı isə onlardan da çox sevirdim. Bir tərəfdən, hələ Kübranın qüssəsi qəlbimdə idi, digər tərəfdən də, imamın sözünü yerə salmaq istəmirdim. Nə edəcəyimi bilmirdim. Bəhmənin narahat və qərarsız durumunu görüb razılaşdım; hərçənd bir ananın

öz ürəyinin parçası üçün narahat olmaması qeyri-mümkün idi. Həmişə narahat idim, amma üz vurmurdum. On səkkiz yaşı olanda da adını hərbi xidmətə yazdırdı və Kürdüstan bölgəsinə düşdü.

Raket və bomba atəşləri altındaydıq. Əndimeşkin ətrafındakı bir qəsəbədə qohumumuz yaşayırdı. Onlara getmək istəyəndə Bəhmən dedi: "Əgər siz getsəniz, qonşular da gedərlər və yavaş-yavaş şəhər boşalar".

Evdə qaldım. Partlayış səsindən qorxsam da, heç bir yerə getmirdim. Kiçik oğlum Hürmüz yeddinci-səkkizinci sinifdə oxuyurdu. Partlayış səsi gələndə onu pilləkənin altına aparır, özümü üstünə atırdım ki, birdən qəlpə sıçrasa, mənə dəysin. Hürmüz ya məktəbdə olurdu, ya da Bəsicdə. Mən evdə tək qalırdım. Buna görə Kübranın yerini daha çox görüb ağlayırdım.

Müharibədən yeddi ay ötməmiş qardaşım Səfər əsir düşdü. Gecə-gündüz onun üçün ağlayırdım. Həmidlə Bəhməndən ötrü narahatlığım və həyəcanım da çoxaldı. Sakit və utancaq adam idim. Döyüşçülər üçün bir iş görmək istəyirdim, amma evdən çıxmadığıma görə heç bir yeri tanımırdım.

Təxminən bir il idi Səfəri görmürdüm. Bir gün evdə tək idim. Televizordan cəbhə və döyüşçülər göstərilirdi. Fikirləşirdim ki, görəsən, indi Səfər nə haldadır? Ona xörək verirlərmi? Həmid korpusdadır, yoxsa xəbərsiz cəbhəyə gedib? Bəhmən hardadır? Nə edir? Kürdüstanda əks-inqilabçılar başını kəsməsinlər! Onu tutub işgəncə versələr, necə olar?

Birdən qapının səsinə diksindim. Həyəcanım daha da çoxaldı, əl-ayaqlarım əsməyə başladı. Qapıya yaxınlaşdım. Zeynəb Dərikvənd idi: dostumuz, qohumumuz və qonşumuz.

– Salam, hacı xanım. Təksən? – dedi.

Hələ sakitləşməmişdim. Fikirləşirdim ki, birdən uşaqlardan nəsə xəbər olar.

– Salam. Xoş gəlmisən, - deyə cavab verdim. – Buyur içəri.

– Yox, işim var. Xanımlarla Şəhid Kələntəri xəstəxanasına yaralıların paltarlarını yumağa gedirik. İstəsən, sən də gəl.

Rahat nəfəs alıb dedim:

– Allaha şükür! Hə, gələrəm.

Əri xanımları kiçik yük maşınının arxasında xəstəxanaya aparırdı. Qərara alındı ki, sabah sübh saat 7-də evinin önündə olum.

Tələsirdi. Sağollaşıb getdi. Qapını bağladım. Gözlərim yaşarmışdı. Allaha şükür etdim ki, pis bir xəbər deyilmiş və cəbhəyə kömək etməyə dəvət olunmuşam.

Sübh çağı məhəllə qadınları ilə birlikdə Dərvişali Dərikvəndin maşınına minib xəstəxanaya getdik. Böyük bir ərazidə tikilmiş beton bir zalın qapısına çatdım. Digər tikililərdən aralıda idi. Ona "döyüşçülərin camaşırxanası" deyirdilər. Zalın önündə qumun üstünə ədyal və mələfə yığmışdılar.

Qapıdakı ədyalı kənara çəkib içəri girdim. Zal da paltar və mələfə ilə doluydu. Xanımlar çadralarını bellərinə bağlayır, paltarların arasında yer açıb önlərinə ləyən qoyurdular. Bəziləri çəkmə və əlcək də geyirdi. Mən də çadramı belimə bağlayıb xanım Dərikvəndin yanında bir ləyənin önündə oturdum. Xanımlar ucadan salavat deyib mələfələri isladır, yuyucu tozu və xlor tökülmüş suda çəngələyirdilər. Bir döşəkağı götürdüm; qandan zərrə qədər də ağ yeri qalmamışdı. Xlorla isladıb əlimlə sürtməyə başladım. Döşəkağının qanı barmaqlarımın

arasından damırdı. Bilmirdim şəhid qanıdır, yoxsa yaralı; anası indi nə haldadır. Məni ağlamaq tutdu. Dedim ki, İlahi, canım uşaqlarımın canına bənddir, onları və digər uşaqları qoru və şəhid analarına səbir ver.

Bir neçə gün idi məhəllə qadınları ilə birlikdə hər səhər camaşırxanaya gedirdim. Bir gün helikopterin və təcili yardım maşınlarının səsi kəsilmirdi. Bildim ki, əməliyyat olub. İki-üç gənc oğlan paltar və mələfələri camaşırxananın önünə gətirirdi. Bizə deyirdilər ki, hər birini ayrıca yuyaq. Xəstəxananın mələfə və ədyalları da az deyildi.

O qədər paltar və mələfəni görəndə ürəyim ağrıyırdı. Avtomobil və helikopter səsindən də həyəcanlanırdım. Gözləyirdim, biri camaşırxanaya gəlib deyəcək ki, uşaqlarını xəstəxanaya gətiriblər. Çox azdanışan idim, amma fikir və xəyallarım dərdli hadisələrlə dolu olurdu. Səfərin xanımı da paltar yumağa gəlirdi. Ona baxanda Səfər üçün çox darıxırdım. Hətta Kübranın ölümü də yadıma düşürdü.

Birdən xanım Dərikvəndin səsi gəldi:

“Böyük Xomeyni, misilsiz rəhbərim,
Mənə icazə ver, düşmənin canın alım!”

O oxuyur, xanımlar da ucadan təkrarlayır, yuyurdular. Mən də nə vaxt xəyallardan ayrılıb xanımlara qoşulduğumu bilmədim. Qanlı və cırıq paltarları görmək çətin olsa da, bu işdən əl çəkə bilmirdim. Narahat olub ağlamaqla yanaşı, yaxşı hisslər də keçirirdim. Ondan sonra gündəlik işim bu oldu: həmişə xanım Dərikvəndlə camaşırxanaya gedib yavaşca ağlayır, verilənləri yuyurdum.

Bəhmən hərbi xidmətdən sonra cəbhədə qaldı. Daha razılıq vərəqinə də ehtiyac yox idi. Atası da bir söz

demirdi, amma üzündə uşaqlarına görə narahatlıq görürdüm. Bəhmən Əndimeşk çimərliyində dalğıc təlimi keçdi. Oradan evimizə qədər maşınla cəmi iyirmi dəqiqəlik məsafə vardı, amma məzuniyyətə çox az gəlirdi. Altı ay orada oldu, sonra cəbhəyə getdi.

Bir neçə gün idi çox yaralı gətirirdilər. Paltar və mələfələr də çoxalmışdı. Kərbəla-4 əməliyyatı baş tutmuşdu. Bəhməndən xəbərim yox idi, narahat idim. Qardaşımın əsirlik qəminə Bəhmənin dərdi də əlavə olunmuşdu. Qorxurdum ki, Səfər kimi o da düşmənlərin əlinə keçər. Camaşırxanada özümdə olmurdum, hər bir paltarı yuyanda Bəhmən gözlərim önünə gəlirdi. Gecəm-gündüzüm, yeməyim və yatmağım yox idi. Nəhayət, iyirmi beş gündən sonra qayıtdı. Ona dedim:

– Allah Həmidə bir qız verib.

Bəhmənin bacısı yox idi, amma qardaşının qızını çox sevirdi.

Mənə dedi:

– Onu görmək istəyirəm. Tapşırığım bitib. Gərək bir iş üçün cəbhəyə gedib qayıdım.

Gözlərim yaşardı. Məni əmin etdi ki, onu döyüş yerinə aparmayacaqlar və tez qayıdacaq. Üç gündən sonra səhər tezdən hazırlaşdı, sağollaşıb getdi. Göz yaşlarımı görməsin deyə özümü saxladım. Küçənin başına qədər onunla getdim.

Bir neçə gün idi camaşırxanada və xəstəxanada təxminən normal şərait hökm sürürdü. Bəhmən hələ qayıtmamışdı, amma ürəyim bir qədər sakit idi. Birdən yenə qələbəlik yarandı. Səhra xəstəxanasının ədyal və mələfələri Şəhid Kələntəri xəstəxanasından bir neçə dəfə artıq idi. Bildim ki, yenə əməliyyat olub. Halım çox pisləşdi.

Gündüzlər camaşırxanada ləyənin arxasında sakitcə ağlayır, gecələr də pərişan yuxular görürdüm. Gözlərim yolda qalmışdı; Bəhməni gözləyirdim.

Bir dəfə yuxuda gördüm ki, bir məzar qazılıb. Yaxınlaşanda şok keçirdim: Bəhmənin məzarı idi. Yuxudan diksindim. Bütün bədənim titrəyirdi. Səhər evdə qaldım. Qapının səsini eşidib həyətə qaçdım. Uşaqlarımın bibisi idi. Gözləri qızarmışdı. İçəri girdi. Ürəyim üzüldü. Nə baş baş verdiyini bilmək istəmirdim. Mətbəxə çay hazırlamağa getdim. Arxamca gəldi, əlimdən tutub dedi: "Bəhmən yaralanıb".

Birdən-birə pərişan halım yoxa çıxdı. Ürəyimə gəldi ki, şəhid olub. Dedim: "Yox, uşağım şəhid olub".

Bəhmən Kərbəla-4 əməliyyatından salamat qayıtdı, amma Kərbəla-5-də arzusuna çatdı və məni şəhid anası etdi.

Halım çox pis oldu. Daha qanlı paltara baxa bilmirdim. Yenə evdə oturdum. Həmidlə Hürmüzü itirmək qorxusu məni Kübra ilə Bəhmənin müsibətindən də çox incidirdi. Lakin onlara mane olmağa ürəyim gəlmirdi.

Bəhmənin şəhadətindən iki-üç ay sonra korpus bizi Məşhədə apardı. Şəhid, əsir və döyüşçü ailələri birlikdə getdik. Yolda harada avtobusdan enirdiksə, birlikdə şüar deyirdik: "Müharibə! Qələbəyədək müharibə!" İmam Rzanın (ə) məqbərəsində özümü çox yaxşı hiss etdim. Əhd bağladım ki, heç bir işdən ötrü inqilabdan geri çəkilməyim və həmişə meydanda olum.

Xanım Dərikvəndin əri 1986-cı ilin 25 noyabrında şəhid olmuşdu. Xanımı ondan sonra korpusun Təminat bölməsinə getdi, işi ağırlaşdı, daha camaşırxanaya gələ bilmədi. O, şəhid analarını və xanımlarını toplayıb digər şəhid və əsir ailələri ilə görüşə aparırdı. Mən də onlarla

gedirdim. Şəhid ailələri çox idi, onları görmək üçün hətta kəndlərə də gedirdik. Həftədə ən azı üç gün görüşümüz olurdu. Şəhid analarını görəndə sakitləşirdim. Şəhidlərin dəfnində mütləq iştirak etməyə çalışırdım. Mərasimdə qoca-gənclər hamı bir ağızdan deyirdi: "Müharibə! Qələbəyədək müharibə!"

Hələ də təcili yardım maşınının və helikopterin səsindən həyəcanlanırdım. Qəlpə dəymiş və qana bulaşmış paltarları görməyə heç cür dözə bilmirdim. Mümkün deyildi ki, camaşırxanada olasan, amma belə paltar görməyəsən. Lakin ləyən arxasında oturub döyüşçülərin paltarlarını yumaq üçün çox darıxırdım.

Xanım Qulami bizim qonşumuz idi. Onunla çox səmimi dost idik. Oğlu Bəhməndən öncə itkin düşmüşdü. Bəhmən hər dəfə cəbhədən gələndə gedib ona baş çəkirdi. Bir gün eşitdim ki, döyüşçülərin ədyallarını yük maşını ilə evlərinə gətirirlər. Çox sevinib oraya getdim. Həyətləri böyük idi. Bütün qonşu xanımlarla hər gün oraya toplaşıb ədyal yuyurduq. Gətirilən ədyallar qanlı deyil, çox toz-torpaqlı olurdu. Cəbhədən gəlmiş torpaqdan isə Bəhmənin ətrini duyurdum.

# Seyid Məryəm Musəvi

Zeynəb Dərikvəndlə qonşu idim. Xürrəmşəhrin azadlığından öncə o, mənə dedi:

– Seyid, döyüşçülərin paltarlarını yumağa gələrsənmi?

– Hə, gələrəm, – dedim.

Oğlum beşaylıq idi. Beş qızım vardı. Süd butulkası alıb böyük qızıma verdim:

- Nə vaxt ağlasa, butulkaya bir qədər ılıq su tök, ver içsin, - dedim.

Qayınanam da bizimlə qalırdı. Əlbəttə, qoca idi, bir iş görə bilmirdi. Lakin uşaqlara göz qoyurdu ki, bir hadisə baş verməsin. Sübh tezdən oğluma süd verdim. Qorxurdum ki, birdən qızlar onu sakitləşdirə bilməzlər. Gecikirdim. Alnından öpüb qızımın qucağına qoydum, Allaha təvəkkül edib evdən çıxdım. Ürəyim evdə qalmışdı, iti addımlarla gedirdim ki, fikrimdən dönməyim. Mikroavtobus Dərikvəndgilin evinin önündə dayanmışdı. Xanımlar gəlmişdilər. Mən də ən axırda mindim və camaşırxanaya getdik.

Qırx-əlli qadın hovuz və ləyənlərdə yuyurdular. Hovuzlara yaxınlaşdım. Xanımların biri dedi: "Xoş gəlmisən!"

Döşəkləri hovuza atdıq. Dörd-beş döşəklə suyun rəngi dəyişdi. Mən həyəcanlandım. Hovuzun qırağında oturub suya doğru əyildik. Bir döşəyin aşağısından tutub özümüzə çəkdik və suyunu sıxdıq. Ayağımızın altından qanlı su axırdı. Onları yandakı hovuza salıb-çıxardıq, camaşırxananın yerinə qoyub üzərlərinə yuyucu tozu tökdük və ayaqlarımızla tapdamağa başladıq. Çəkmələrimizin altından qırmızı su çıxırdı. "Ya Hüseyn" və salavat deyə-deyə yuyurduq. Halımın necə olduğunu

bilmirdim, ancaq onu bilirdim ki, gözlərimin yaşı dayanmır. Axşamüstü camaşırxanadan çıxdım. Evdə südəmər körpəm vardı. Yolda olduğum on dəqiqə bütün gün qədər çətin keçdi.

Camaşırxana Şəhid Kələntəri xəstəxanasında yerləşirdi. Paltar və döşəkləri gətirəndə üzərlərindəki yaralı qanları hələ təzə olurdu. Cəbhədən və səhra xəstəxanalarından da yumağa göndərirdilər. Ora təmiz paltar fabrikinə çevrilmişdi.

Bir gün sübh tezdən gedib gördük ki, camaşırxananın önünə bir dünya paltar və mələfə yığılıb. Hərəmiz bir qədərini götürüb içəriyə apardıq. Növbəti günlərdə gedəndə hiss edirdim ki, paltar topaları daha da böyüyür. O vəziyyətdə ağlıma gəldi ki, Ziba ilə Kübranı da özümlə gətirim. Yeddinci-səkkizinci siniflərdə oxuyurdular. Amma südəmər uşaqla nə edəcəyimi bilmirdim. Oğulları cəbhədə olan, onlardan xəbərsiz halda şəhid paltarları yuyan anaların fikrini nə edəydim?!

"İlahi! Mən yalnız süd verdiyim Nasirdən ötrü bu qədər narahatamsa, bəs canlarının parçasını itirdikləri halda burada paltar yuyanlar necə dözürlər?!” – deyə tez-tez düşünürdüm.

Nasir bir an da gözlərimin önündən getmirdi. Qonşu idik. Eşitdim ki, anasının südü yoxdur. Uşaq əldən gedirdi. Qızım təzə dünyaya gəlmişdi, südüm vardı. Gedib ona süd verdim ki, cana gəlsin. Bir il yarım həmişə əvvəlcə Nasirə süd verdim, sonra qızıma. Beləliklə, onun da anası oldum. Müharibə vaxtı isə özünə görə kişi olmuşdu. Bir gün gəlib mənimlə sağollaşdı, halallıq istəyib cəbhəyə getdi, 5 aprel 1982-ci ildə isə Xürrəmşəhrdə şəhid oldu. Onun üçün çox ağladım. O, mənim uşağım idi.

Sübh tezdən yenə əməliyyata dair pıçıltılar dolaşdı. Bu, xəstəxanadakı qələbəlikdən, təcili yardım maşınlarının və helikopterlərin gedib-gəlməsindən də bəlli idi. Döyüşçü və şəhid analarının ürəyindən yalnız Allahın xəbəri vardı. Cəbhəyə göndərməyə böyük oğlum olmadığına görə çox heyifsilənib şəhid analarına dedim: "Xoş halınıza! Övladlarınıza verdiyiniz südə qurban! Onlar İmam Hüseyn (ə) yoluyla getdilər!"

Özümdə deyildim, paltarları yuya-yuya gözlərimdən yaş axırdı. Şəhidlərə yalvarırdım: "Mən də sizin ananız! Mənə şəfaət edin. Xəcalətliyəm, əlimdən gələn yalnız budur".

Ərim maşının üstünə səsucaldan yerləşdirib Hacı Haşim Dezfuli və Nəsir Namdari ilə birlikdə ətraf kənd və qəsəbələrə gedir, yardım toplayıb cəbhəyə aparırdı. Bəzən günlərlə evə gəlmirdi. Özüm də səhərdən axşama qədər camaşırxanada olurdum.

Evə gedib Ziba ilə Kübraya dedim:

– Nə vaxt dərsiniz olmasa, gəlin camaşırxanaya.

– Bu məsum körpəni neyləyəcəksən? – qayınanam dedi.

– Allaha təvəkkül! O biri qızlar baxarlar.

Qızlar sevindilər. Tətil günlərində məndən tez hazırlaşırdılar. Onları özümlə aparırdım. Digər qızımın on iki yaşı vardı, balacalara o baxırdı. Yavaş-yavaş hiss etdim ki, camaşırxana dünyanın sonudur, gərək hər şeydən keçəsən. Nə olur-olsun, camaşırxanaya gedirdim. Bəzən yuyan zaman raket atılırdı, mənsə yerimdən tərpənmir, salavat deyib işimi görürdüm. Deyirdim ki, Allah nə istəsə, o da olacaq.

Ərim Seyid Əli Əkbər Musəvi mömin adam idi, bütün həyatını Əhli-beytə həsr etmək istəyirdi. 1952-ci ildən

Fatimeyi-Zəhra adına əza heyətimiz var. Məhərrəmliyin ilk on bir axşamında məclis keçirir, ehsan veririk. Şah dövrünün repressiyaları və müharibənin bombardmanları zamanı da məclislərimiz olub. Eltilərimlə birlikdə heyətin aşpazlığını edirik.

Məhərrəm ongünlüyündə axşamüstü camaşırxanadan evə qayıdır, əl-üzümü yuyandan sonra yemək bişirməyə başlayırdım. Məclis başlayana qədər ayaq üstə olurdum. Məclisdən sonra zalı təmizləyir, əşyaları yuyur və növbəti axşamın xörəyinin ləvazimatını hazırlayırdıq. Ev işlərini görür, hətta çörək də bişirirdim. Səhər də camaşırxanaya gedirdim. Xanım Dərikvənd mərsiyə oxuyur, biz "ya Hüseyn" və salavat deyirdik. Bütün çətinliyi ilə bərabər, camaşırxanada işləyəndə ev və məclis işləri üçün də əhvali-ruhiyyəm yaxşı olurdu.

Camaşırxanada bir ay işləyəndən sonra bildim ki, ədyalları məscidlərə də aparırlar. Qərara gəldim ki, axşamlar da evdə ədyal yuyum. Cavadül-əimmə məscidi bizə yaxın idi. Cəbhə ədyallarının bir qismini birbaş oraya aparırdılar. Ərimin mavi rəngdə Vanet yük maşını vardı. Məscidə gedib otuz-qırx ədəd ədyal alır, maşının arxasına atıb gətirirdi. Yuyucu tozunu da məsciddən almırdı. Axşamçağı onları böyük ləyənlərdə iki-iki isladıb on beş dəqiqə saxlayır, qurumuş palçıqlarını yumşaldırdım. Uşağıma süd verir, altını dəyişdirir, sonra həyətə çıxıb ədyalları bir də su ilə yuyurdum. Sonra yuyucu tozu töküb tapdayır və böyük qazanlarda suya çəkirdim. Evlər birmərtəbəli, damları bir-birinə bitişik idi. Öz evimizin damından üç ev o tərəfə qədər 10-12 ip bağladım. Axşam yaş ədyalları yuxarı qaldırıb iplərdən və divarlardan asırdım. İki günə quruyurdu. Sonra ərim onları məscidə aparıb çirkliləri gətirirdi.

Camaşırxanada iş başdan aşırdı. Bilirdim ki, bu vəziyyətdə, yəqin, məscid də tozlu və qanlı ədyallarla doludur. Günbatan çağı evə gedib ərimin ədyal gətirməsini gözlədim. Ancaq gəlib çıxmadı. Bir gün, iki gün ötdü, döyüş mövqeyindən qayıtmadı. Axşamlar bekar qalıb ərimi gözləyə bilməzdim. Çadramı başıma atıb məscidə getdim. Məscidin xadimi məni tanıyırdı.

Ona dedim:

– Evə ədyal aparıb yumaq istəyirəm.

– Seyid hələ qayıtmayıb? – deyə soruşdu.

– Yox.

Ədyallardan götürüb qucağımda evə aparmaq istəyəndə qoymadı, bir Vanet maşınını ədyalla doldurub həyətimizə gətirdi. Dedi ki, seyid evdə olmayanda, özüm gətirəcəyəm.

Ədyalları evdə görəndə ürəyim açıldı. Gecənin yarısına qədər qızlarla birlikdə hamısını yuyub, sonra yatdım. Sübh azanının səsinə yuxudan oyandım. Dəstəmaz aldığım yerdə seyid içəri girdi. Onu görəndə sevindiyimdən gözlərim yaşardı. Əşyaları əməliyyat üçün ön xəttə aparmış, onların yanında qalıb bir müddət təminat işlərini görmüşdü. Onu yenə gördüyümə görə şükür səcdəsi etdim.

Əllərim həmişə yaralı olub qanayır, çox ağrıdırdı. "İlahi! Bu yara mələfələr üzərinə tökülmüş bir damla qan qədər deyil! – deyə düşünür, ağrıya dözürdüm. Yuyanda gözlərimdən yaş, əllərimdən qan gəlirdi. Əllərimi heç kimə göstərmir, qanlı paltarlardan söz açmırdım. Cəbhə üçün işləmək səadətindən məhrum olmaq istəmirdim. Ləkələrin üzərinə xlor töküb əlimlə sürtürdüm. Əlim gündə yeddi-səkkiz saat soyuq və xlorlu suda olurdu. Dərisi nazikləşmişdi. Bir müddətdən sonra gördüm ki, bu vəziyyətdə işləyə bilmirəm. Axırda əlcək geydim, ləyənə bir mələfə qoyub içinə xlor tökdüm. Mələfələri əlimlə

tutdum. Əlcək sürüşkən idi, xlor onu daha da sürüşkən edirdi. Bir neçə dəfə artıq vaxt aldı, heç yuya da bilmədim. Axırda əlcəyi çıxarıb kənara qoydum.

Müharibə zamanı südəmər körpəm yavaş-yavaş böyüyüb məktəbə getdi. Bir qızımı da köçürəndən sonra camaşırxanada iş qurtardı. Ləkə və yara hələ də əllərimdə qalır. Bu yaralı əllər bu günlərdə məni camaşırxanaya aparır – fədakarlıq və mənəvi rahatlıqla dolu mühitə.

# Fatimə İslamipur

Məhəmmədhüseyn İslamipurla ailə qurandan sonra həftədə iki gün evdə Quran dərsimiz olurdu. Bizə çoxlu xanımlar gəlirdi. 1982-ci ilin əvvəllərində bildim ki, Şəhid Kələntəri xəstəxanasında döyüşçülərin paltarlarını yuyurlar. Quran dərsində dedim: "Sabahdan etibarən xəstəxanaya döyüşçülərin paltarlarını yumağa gedəcəm. Kim istəsə, sübh saat 7-də küçəmizin başında olsun".

Səhər çağı on-on beş xanımla toplaşıb piyada xəstəxanaya yola düşdük. On beş dəqiqədən sonra oraya çatdıq. Oradakı xanımların biri nə edəcəyimizi başa saldı. Təcili yardım şöbəsinin yanında əlli-altmış metr uzunluğunda boş ərazini hasarlamışdılar. Hər birimiz yerdə, bir ləyənin arxasında oturduq. Ağ və qırmızı rəngli metal və plastik ləyənlər idi. Mələfələri xlorla yuyurduq. Olduqca çox idi. Günbatana qədər hamımız istirahətsiz işlədik, sonra paltarlarımız yaş halda oradan çıxdıq. Bizə dedilər ki, maşın sizi aparacaq.

Qərara alındı ki, ertəsi gün hamımız bir yerə toplaşaq. Quran dərslərinə görə xanımlar bizim evimizi tanıyırdılar. Xəstəxanaya öz ünvanımı verdim. Hər gün bizim evimizin önünə toplaşırdıq. Xəstəxananın bir mikroavtobusu bizim servisimiz oldu. Əməliyyat olan günlər bütün maşınları yaralı gətirməyə göndərirdilər, bizə zəng vurub deyirdilər ki, maşın gözləməyin. Belə günlərdə özümüz piyada gedirdik.

Üç böyük oğlum cəbhədə idi, balaca oğlum isə hələ məktəbə getmirdi. Evimizin yanında ərimin kitab mağazası vardı. Ata-anası qocalmışdı, birlikdə yaşayırdıq. Balaca oğlumu onların yanına qoyub camaşırxanaya gedirdim. Günbatan çağı qayıdanda isə ev işləri başlayırdı:

yeri süpür, qabları yu, şam yeməyi hazırla, paltarları yu və s. Qızım da yox idi ki, kömək etsin. Çörəyi də özüm bişirirdim; sübh namazından qabaq xəmir hazırlayırdım, səhər və günorta yeməklərini, sonra da çörəyi bişirib camaşırxanaya gedirdim.

Bir dəfə xəmirim çox olmuşdu, nə qədər çörək bişirirdimsə, bitmək bilmirdi. Birdən siqnal səsi gəldi, xanımların biri qapını döydü: "Xanım İslamipur, servis gəldi".

Dörd-beş çörəklik xəmir qalmışdı; qoyub getsəydim, xarab olardı. Bayıra çıxıb sürücüyə dedim ki, imkan varsa, bir neçə dəqiqə gözlə. Sağ olsun, razılaşdı. Təndirin yanına qayıtdım, ocağı gücləndirib digər çörəkləri də yapdım.

Qayınanam dedi: "Get, çörəkləri özüm çıxararam".

Çadramı başıma atıb maşına mindim, sürücüdən və xanımlardan üzr istədim.

Camaşırxana və onun qapısının ağzı paltar və mələfə ilə doluydu. Digər məhəllələrin xanımları gəlmişdilər, yuyurdular. Ləyəndə bir mələfə islatdım, sürtmək üçün yuxarı qaldıranda bir də gördüm ki, əlimdə xəmir qalıb. O qədər tələsik çıxmışdım ki, xəmirli əlimi görməmişdim. Xəmir də qana bulaşmışdı.

Əvvəldə hələ camaşırxana üçün yer tikməmişdilər. Açıq ərazidə idik. Çəkmə geyib yerdə otururduq. Ayaqlarımızın altından qanlı su axırdı.

Bir dəfə təxminən səhər saat 10-da raket səsi gəldi. Ərazidəki alüminium listlər əyildi, az qaldı başımıza düşsün. Oradan bayıra çıxdıq. Gördüm ki, bizim məhəlləmizdən tüstü qalxır. Çox qorxdum. Hamımız uşaqlarımıza görə narahat idik. Mikroavtobusu camaşırxananın önünə göndərdilər. Binalar məhəlləsinin

xanımları qaçıb maşına mindik. Məhəlləyə çatanda gördük ki, prospektin yarısı dağılıb. Camaat toplaşmışdı. Raket bizdən iki-üç prospekt aralıya düşmüşdü. Maşından enəndə bildim ki, camaşırxananın əlcək və çəkməsi ilə gəlmişəm. Evə getdim. Hamı salamat idi.

Gördüm ki, küçədə qalsam da bir iş görə bilməyəcəyəm. Xədicə Bəyyadla birgə ölü yuyulan yerə getdim. Şəhidləri zalın yerinə qoymuşdular. İçəriyə yanmış ət qoxusu dolmuşdu, yerdən qan axırdı. Ağlamaqdan özümü saxlaya bilmirdim. İşıqlar sönmüşdü. Tez qüsl verib dəfnə hazırlaşmalı idik. Beş-altı başqa xanım da köməyə gəldi. Ağlaya-ağlaya on-on iki nəfərə qüsl verib kəfənlədik. Nəhayət, iş bitdi. Amma Xədicə də mənim kimi evə gedə bilmirdi. Camaşırxanaya yola düşdük. Yolda qəhərdən danışmırdıq. Əlcək və çəkməni hələ çıxarmamışdım. Ləyənin arxasında oturanda özümü saxlaya bilmədim. Şam azanına qədər bir neçə dəqiqə ağlaya-ağlaya qanlı mələfə yudum.

1982-ci ilin novruz bayramı gəldi. Xəstəxanada qələbəlik idi. Helikopterlər və təcili yardım maşınları tez-tez yaralı gətirirdilər. Hətta Vanet yük maşınları və mikroavtobuslar da yaralı daşıyırdı. Biz yuyucu xanımlar da iki-üç dəfə çoxaldıq. Xidmət bölməsinin uşaqları hər saat paltar, ədyal və mələfə dolu arabalarla gəlir, hamısını üst-üstə boşaldırdılar. Biz də dua edə-edə, ağlaya-ağlaya yuyurduq. Hamımızın üzündən narahatlıq yağırdı.

Mən köz üstündəki üzərlik kimi bir yerdə qərar tuta bilmirdim. Uşaqlarımdan və qardaşım Əbdülhəsəndən ötrü narahat idim. İki-üç gün gərgin əməliyyatla məşğul olub yuduq, qardaşımdan və uşaqlarımdan da xəbərim olmadı. Gecələr yata bilmirdim. Həyəcanım səbəbsiz deyildi: mənə Əbdülhəsənin şəhid olduğunu söyləmişdilər. Bu

xəbərlə sanki dünya başıma uçmuşdu. Ağlaya-ağlaya deyirdim: "Qardaşımın paltarlarını gətirin, özüm yuyum. Onun qanlı paltarlarını yumaq istəyirəm".

Onu kəfənli halda gətirib dəfn etdilər. Paltarlarını görmədim. Əsla sakitləşə bilmirdim. Bir hiss məni camaşırxanaya aparırdı. Səhər tezdən hazırlaşdım. Ərim mənə görə narahat idi. Dedi ki, bir neçə gün istirahət elə, sonra gedərsən. Lakin bacarmırdım. Çadramı başıma atıb getdim. Xanımların çoxu Fəthülmübin əməliyyatında mənim kimi əzizlərini itirmişdilər, matəmdə idilər. Bir-birimizə başsağlığı verib ləyənlərin yanında oturduq. Bir paltar götürdüm. Qəlpə dəymişdi. Ağlaya-ağlaya ləkələrə sabun vurdum, əlimlə sürtüb yudum. Qardaşım gözlərim önündən getmirdi, elə bilirdim ki, onun paltarını yuyuram. Nədənsə birdən-birə sakitləşdim. O paltarı yumaq daxilimdəki odun üstünə sərin su effekti vermişdi.

Şəhid Kələntəri xəstəxanasının, səhra xəstəxanalarının və cəbhənin paltar və mələfələrini yuyurduq. Hansını açırdıqsa, yerə qan laxtası tökülürdü. Bunu görəndə isə xanımları ağlamaq tuturdu. Əməliyyat günlərində xəstəxanada tünlük olanda isə mələfələrin arasında ət, sümük və dəri parçaları da olurdu. Çoxu belə səhnələri görəndə özündən gedirdi. Xədicə Bəyyadla məndə isə qorxu yox idi. Çünki biz həm də ölülərə, şəhidlərə qüsl verirdik. Əməliyyat zamanı mələfələri açıb aralarındakı ət və dəri parçalarını bir torbaya yığırdıq, sonra qüsl verib ağ parçanın arasına qoyur, camaşırxananın ərazisində dəfn edirdik.

Oranın yeri torpaqdan idi. Get-gedə oralar haralı olduğunu bilmədiyimiz şəhidlərin bədən parçalarının məzarlığına çevrildi. Bu işi görəndə ürəyim kabab olurdu, amma özümü saxlamağa, ağlamamağa çalışırdım. Gecələr

gözlərimi yuman kimi isə sübhədək şəhidlərin parçalarını toplamaqla məşğul olurdum; nə qədər yığırdımsa, bitmirdi.

Əməliyyat zamanı idi. Yenə camaşırxanada qan su yerinə axırdı. Ucadan salavat deyir, yuyurduq. Cərrahiyyə şöbəsinin və səhra xəstəxanasının mələfələrini açdım. Hansını silkələyirdimsə, arasından nəsə düşürdü: ət və sümük parçasından tutmuş içalata və bağırsağa qədər. Onları tez toplayırdım ki, xanımlar görüb pis olmasınlar. Ətli sümüklərə əl vurduğuma görə qüsl də verməli olurdum. Bu isə çətin idi.

Daim həyəcan siqnalı verilirdi. Qorxurdum ki, evə çatana qədər raketlə vurular, qüslsüz ölərəm. Xanımların biri bir dəfə mənə dedi: "Get, bacıların yataqxanasında qüsl ver".

Başqa şəhərlərdən gəlmiş xanımların yataqxanası camaşırxanaya yaxın idi. Camaşırxanada həmişə bir dəst təmiz paltarımız olurdu. Onu götürüb hamama getdim. Başımı suyun altına salıb tez yudum. Sonra paltarla duşun altına girib islandım. Paltarlarımın altından əlimi salıb özümü yuyurdum. Böyük qorxu içində paltarımı çıxardım; qorxurdum ki, bomba düşər və bədənimi uçqunun altından çıxaranda paltarsız olaram. Tez qüsl verib geyindim. Hələ qapını açmamış partlayış səsindən divara yapışdım. Bədənim titrəyirdi. Bayıra çıxdım. Şəhər bombalanmışdı. Əynimdə paltar olduğuna görə yataqxananın önündə şükür səcdəsi etdim.

Camaşırxana həmişə qan və xlor qoxusu ilə dolur, analar ağlayır, dodaqaltı ağı deyə-deyə ləkələri sürtürdülər. Həqiqətən, ağrılı səhnə idi, adamın ürəyi yanırdı. Onların ağılarını eşidib Əbdülhəsən üçün

darıxırdım. Gördüm ki, belə davam etsə, hamımız depressiyaya düşəcəyik.

Beynimə belə bir fikir gəldi ki, günün bir hissəsində yuya-yuya başımızı qarışdıraq. Xanımlara belə təklif etdim: "İndi ki camaşırxanada birlikdəyik, gəlin Quran dərsimizi də keçək".

Yaxşı qarşıladılar. Mən kiçik surələri oxuyurdum, hamı təkrarlayırdı. Namazın düzgün qiraətini də məşq edirdik. Hamı çox kədərli olanda xanım Dərikvənd, ya da başqa bir bacı mərsiyə oxuyurdu. Get-gedə camaşırxana Quran və şəriət sinfinə çevrildi.

Tibb bacıları da istirahət zamanı gəlib bizə baş çəkirdilər. Bizim Quran və şəriət barədə sual-cavablarımızdan və salavatlarımızdan xoşları gəlirdi. Evdən uzaqda, bomba və raket altında cihad edirdilər, onlara bir yolla təşəkkür etmək istəyirdim. Təklif etdim ki, paltar yuyandan sonra yataqxanaya və ya evlərdən birinə gedib Quran dərsi keçim. Başqa şəhərlərdən gəlmiş komandir və döyüşçülərin ailələri orada qərib idilər. Sanki belə bir təklif gözləyirmişlər kimi çox təşəkkür etdilər. Həftədə bir dəfə qürub çağı həyət evlərindən birinə gedirdim; Quran oxuyur, salavat deyirdik. Hər dəfə Təvəssül duası və Aşura ziyarətnaməsi də oxuyurduq. Bir-birimizdən şəriət hökmlərini soruşur, söhbət əsnasında dərdləşir, qüssələrimizi paylaşırdıq.

Quran dərsi öz məhəlləmizdə də keçirilirdi. Əlbəttə, zamanı qısa idi; çünki camaşırxanada xanımlarla görüşür, Quran və şəriət dərsini çalışırdıq. Lakin evdəki Quran dərsini də tətil etmədik. Orada camaşırxana və cəbhəyə kömək barədə planlar da düşünürdük.

Bir dəfə camaşırxanada elan etdilər ki, bir neçə gün xlor və yuyucu tozundan az istifadə edək. Yuyucu tozunun

bitməsi paltarların yuyulmaması demək idi. Ərimdən orta ölçülü bir kitab qutusu aldım, ağzını bağlayıb ortasını bir qədər açdım; oldu nəzir qutusu. Ertəsi gün evimdə Quran dərsi keçirildi. Qutunu taxçaya qoyub dərsin əvvəlində xanımlara dedim: "Bu qutunu camaşırxanaya kömək üçün qoymuşam. Kimin nəyə gücü çatırsa, qutuya salsın".

Hər həftə içinə pul salırdılar. Hər ayın axırında ağzını açırdım; çoxlu pul yığılırdı. Onunla yuyucu tozu, ləyən və ya əlcək alıb camaşırxanaya aparırdım. Get-gedə qutudakı pul çoxaldı. Xanımlarla məsləhətləşib yaralılar üçün çəkələk, döşəkağı və yeyinti məhsulları aldıq. Camaşırxanadakı xanımlarla bütün günü bir yerdə, bir ailə kimi idik. Xanımların hansının maddi problemi olsaydı, qutunun pulundan ona borc verirdim, bir aydan sonra qaytarırdı və onu camaşırxanaya xərcləyirdik.

Oğlum Qulaməli Əhvaz korpusunun Təminat bölməsində işləyirdi, amma çox vaxt cəbhədə olurdu. Mənə dedi ki, onun üçün elçilik edim. Həyatımın ən gözəl günləri idi. İmanlı bir qız seçib elçi düşdük. Müsbət cavab alandan sonra Qulaməli ailə qurmağa tələsdi. Nişanında korpus geyimi ilə nikah şöbəsinə gəldi, toyu da sadə keçdi. Toy günü böyük bir ləyəndə xəmir edib qonşuya təndirində bişirməyə apardım. Nəvəm də mənimlə gəldi. Xəmiri yastıqcığın üzərinə qoyub qolumu təndirin içinə saldım. Birdən güclü bir səs gəldi, yastıqcıq əlimdən təndirə düşdü, nəvəm qışqırıb mənə yapışdı. Dayanmadan elə qışqırırdı ki, qonşu qadın onu sakitləşdirmək üçün köməyə gəldi.

Məhəlləmizə raket düşmüşdü. Gecədən sübhə qədər yatmayıb Ayətəlkürsi oxudum ki, daha raketlə vurmasınlar. Səhər çağı yorğun və yuxulu halda oyandım. Yaxın qohumlarımızdan bir neçəsi bizdə qalmışdı. Onları

gəlinlə evdə qoyub şəhidlərin dəfninə getdim, oradan da birbaş camaşırxanaya yollandım.

Raket atıldığına görə camaşırxanada paltar və mələfələrin çoxaldığını və xəstəxanada təmiz mələfəyə ehtiyac olduğunu bilirdim. Camaşırxanada uzun əlcək geyirdim, qolumu tuturdu. Yuyucu və xlor töküb camaşırları çəngələyir, əlimlə sürtürdüm. Xlor əlcəyin yuxarısından qoluma girirdi. Su da soyuq idi. Bir müddətdən sonra əlim qaşınmağa başladı. Gecələr yata bilmirdim. Əlimi o qədər qaşıyırdım ki, qızarır, qanayırdı. Dərim o qədər nazikləşmişdi ki, hara dəyirdisə, göyərirdi. Əlimin yaralarına yara bandı vuranda daha da pisləşirdi. Həkim mənə dedi: "Dərində göbələk yaranıb. Paltar yumaq istəyirsənsə, gərək əvvəlcə pambıq əlcək geyəsən, üstündən də plastik əlcək taxasan".

Əllərim üçün çoxlu dərman aldım. Axşamlar müxtəlif kremlər sürtürdüm ki, gündüz paltar yuya bilim. Lakin əlim soyuq və xlorlu suya girən kimi yenə yarası açılır, qanayırdı.

Uşaqlarım cəbhədə idilər, məzuniyyətə də az gəlirdilər. Mən onlarla fəxr edirdim.

Bir dəfə Qulamhüseyn cəbhədən evə gəldi. Arıqlamış, rəngi qaçmışdı. Qucaqlamaq istəyəndə kənara çəkilib dedi: "Ana, hamama girim, gəlirəm".

Birbaş hamama girdi, sonra da harasa getdi. Mən onun paltarlarını isti su ilə yuyanda dayanmadan asqırırdım, gözlərimdən yaş axırdı. Hamamın içində boğulmaq üzrəydim. Paltarları zorla ipdən asıb həyətdə oturdum. Bu zaman isə öskürək də əlavə olundu. Qulamhüseyn evə gələndə dedi:

– Sənə nə oldu? Niyə üzün qızarıb?

– Paltarlarını yuyanda birdən halım pisləşdi.

Yanımda oturub iki əli ilə başına vurdu:

– Ya Hüseyn! Paltarlar kimyəvi qaza bulaşmışdı, onları atacaqdım, - dedi.

Məni xəstəxanaya apardı. Bir dərman verdilər; asqırağım kəsildi, öskürək və nəfəs çatışmazlığı isə davam edirdi. İndiyə qədər də qalıb. Camaşırxanada paltar və mələfələrin üstünə o qədər yuyucu maddələr tökmüşəm ki, ağ ciyərim su çəkib. İndi yuyucu maddələrə qarşı allergiyam var, iyi də mənə pis təsir edir. Mən hələ də öskürəndə xlor qoxusunu hiss edirəm.

Əllərim hər gün xlorda və soyuq sudaydı, paltarlarım da yaşdı. Axşamüstü yaş paltarla evə gedirdim. Külək əsəndə soyuq sümüklərimə işləyirdi. Gecələr bədənimin ağrısından yata bilmirdim. Bir müddətdən sonra güclü soyuqdəyməyə yoluxdum. İki-üç gün yatıb camaşırxanaya gedə bilmədim. Bir qədər ayaq üstə qalmağı bacaran kimi isə bir dəst paltar götürüb getdim. Axşamüstü yandakı otağa keçirdim. Ora quru mələfələri qatlayıb sellofana keçirmək üçün idi. Yaş paltarı əynimdən çıxarır, apardığım paltarı geyirdim. Yaş paltarı da ipdən asırdım ki, sabaha qurusun. Xanımların çoxu belə edirdi. İş forması olan fəhlələr kimiydik, amma maaşsız işləyirdik.

Qulaməli toydan iki-üç gün sonra Əhvaza qayıtdı. Xanımı bizimlə qalır, Qulaməli işə və cəbhəyə gedib-gəlirdi. Bəzən qayınanamı və gəlinimi də özümlə camaşırxanaya aparırdım. Qayınanam qocaydı, zəifləmişdi, hovuzun kənarında oturub camaşırları suya çəkirdi.

Xeybər əməliyyatı gedirdi. Camaşırxanada işimiz olduqca çoxalmışdı. Qulaməli xanımına demişdi ki, cəbhəyə gedir və həftəsonu gəlməyəcək. Xanımı mənə dedi ki, bu gün köməyə gəlmək istəyirəm.

Hamilə idi. Onu özümlə apardım. Hovuzun kənarında oturub mələfələri çəngələməyə başladı. Hovuzun suyu qızarmışdı. Gəlinimin rəngi də tez-tez dəyişirdi. Xanımların biri işarə ilə mənə bildirdi ki, onu aparım. Əlindən tutub zalın bir tərəfində oturtdum. Qulaməlidən ötrü həyəcanlı idi, qanlı su hovuzunu görüb qan təzyiqi enmişdi. Bir neçə dəqiqə oturdu, halı yaxşılaşandan sonra yenə yumağa başladı.

Əndimeşkli uşaqların çoxu Xeybər əməliyyatında avanqard olmuşdu. Biz xanımlar da səhərdən axşama qədər camaşırxanadaydıq. Uşaqların şəhid olduğuna dair xəbərlər dolaşırdı. Çoxlu analar kimi, mənim də oğlum əməliyyatdaydı. İşimiz o qədər çox idi ki, şöbələrə gedib uşaqlarımızdan xəbər tutmağa vaxtımız olmurdu.

Günbatan çağı xəstəxanadan zəng vurub dedilər: "Sabah nə qədər bacarırsansa, köməkçi gətir".

Kimin telefonu vardısa, zəng vurdum, kimdə yox idisə, evlərinə getdim. Əlirza Bərhəxtin evinin önündən keçəndə atasını qapının ağzında gördüm. Ağlayırdı.

– Nə olub? – deyə soruşdum.

– Əlirza şəhid olub; gətirirlər.

Qulaməli yadıma düşdü. Ondan xəbərsiz idim.

– Allah səbir versin! – dedim.

Xanımların sayı səksənə çatdı. Camaşırxananın önü yenə ədyal və mələfə ilə dolmuşdu. Qulaməlidən ötrü çox narahat idim. Axşama qədər camaşırxanada oldum, sonra evə gedib ərimə dedim:

– Heç bilmək istəmirsən ki, Qulaməliyə nə olub?!

Qulamhüseyn evdə idi. Dedi:

– Ana, narahat olma, korpus uşaqların vəziyyətindən xəbər öyrənməyə çalışır.

Qulamhüseyn də uşaqların vəziyyəti ilə maraqlanırdı. Əndimeşkin komandir və pasdarlarının çoxu Xeybərdə idi və heç kimin onlardan xəbəri yoxdu.

Həyəcanlı idim. Qulaməlinin xanımını görəndə halım pisləşirdi. Hamiləydi, gözləri yaşla dolmuşdu. Qardaşım da bizdə idi. İdarələrinin nömrəsini alıb mənə verdi.

Salamlaşıb hal-əhval tutandan sonra dedim:

– Mən Qulaməlinin anasıyam.

Səsi dəyişdi.

– Bütün uşaqlarım şəhid olsalar da İslam yolunda qurban gediblər, - deyə bildirdim. - Ancaq mənə deyin ki, uşağıma nə olub.

– Döyüş yoldaşı onun yaralandığını görüb, amma əsir düşdüyündən, yoxsa şəhid olduğundan xəbərimiz yoxdur. İnşallah, halı yaxşı olar, ana.

Dəstəyi yerinə qoyandan sonra gəlinimə dedim: "Allaha təvəkkül elə. Qulaməlidən yalnız Allahın xəbəri var".

Səhərə qədər uşağımın toyuna qədərki bütün xatirələri gözlərim önündə canlandı, yata bilmədim. Gecə xəmir hazırlayıb çörək bişirdim, sonra hərgünkü kimi camaşırxanaya getdim. Lakin bu dəfə ürəyim səhrada qalmışdı. Ondan xəbərim yox idi, özümsə paltar yuyur, əyilib yerdən qan laxtalarını və ət parçalarını toplayır, camaşırxananın həyətində basdırırdım. Sonra onların yanında bir neçə dəqiqə oturub ağlaya-ağlaya deyirdim: "İlahi! Əzizim, ürəyim çöllükdədir. Bəlkə, özüm onun bədəninin parçalarını dəfn edirəm, xəbərim yoxdur!"

Hovuzdan axan suyun töküldüyü kanalizasiya quyusunun böyük qapağı vardı. Yaylı millərin üstünə beton töküb qapaq düzəltmişdilər. İki metal dəstəyi də vardı. Suyun yolu bağlananda qapağı götürüb yolu açırdıq.

İki-üç həftə ötdü. Hələ də Qulaməlidən xəbərsiz idim. Camaşırxanadakı yalnız bədənim idi. Səhərdən hovuza bir neçə dəfə mələfə tökdülər, su yolunu açdılar. Hovuz boşalmırdı. Kənarlarından camaşırxanaya qanlı su axırdı. Xanımların birinə dedim: "Gərək quyunun qapağını götürək. Gəl kömək elə".

Qapağın millərindən tutduq. Çox ağır idi. Onu birtəhər qaldırıb camaşırxananın yerinə qoyduq. Bu zaman belimdə güclü ağrı hiss etdim, alnıma soyuq tər gəldi. Suyun yolunda iki-üç xırda parça, iynə və şpris ilişmişdi. Yolu açıb qapağı yerinə qoyduq. Həmin gün bir neçə dəfə yaş paltar dolu metal ləyəni də qaldırıb iplərin yanına apardım. Axşamüstü yorğun halda və bel ağrısı ilə evə qayıtdım.

Evdə bir iş görə bilmirdim. Belim və qarnım bərk ağrıyır, ağrı bütün bədənimə yayılırdı. Titrətmə də başlamışdı. Dəstəmaz almaq üçün zorla yerimdən qalxanda gördüm ki, qanaxmam var. Namaz qılmadan ədyalın altına girdim. Ağrıdan zarıyırdım. Evdəkilər bildilər. Ərim məni xəstəxanaya apardı. Doktor müayinədən sonra dedi ki, əkiz imişlər.

Həmin gecə xəstəxanada yatdım. Özümə yazığım gəldi. Ağrının şiddətindən tələf olmuş uşaqlar barədə düşünə bilmirdim. Səhər çağı uşaqlar götürüləndən sonra ağrım da azaldı. İki gündən sonra isə camaşırxanaya getməyə hazırlaşdım. Anam mənə dedi: "Sən indi yenicə uşaq doğmuş qadın kimisən; soyuq su və hava ziyandır".

Lakin evdə qala bilmirdim. Qulaməlinin itkinliyinin və iki uşağın düşməsinin qəm-kədəri altında ayağa qalxıb camaşırxanaya getdim. Yaralıların paltarlarını yumaqla özüm də sakitləşmək istəyirdim.

Uzun müddət idi Əndimeşki bombalayırdılar. Ərimlə uşaqlar ya cəbhədəydilər, ya da cəbhə işləri ilə məşğul olurdular. Özüm də camaşırxanaya gedirdim. Qulaməli itkin düşəndən sonra isə həyəcanım birə min artmışdı. Qayınatama və qayınanama görə narahat idim. Qocaydılar; bomba atılsaydı, qaça bilməyəcəkdilər. Baldızımgilin evi HHQ-nin bazasında yerləşirdi. Biz də onlara getdik. Sübh tezdən oyananda gördüm ki, ərim hazırlaşıb.

Ona dedim:

– Əndimeşkə gedirsən?

– Hə.

– Gözlə, birlikdə gedək.

Onunla evə gəldim, çörək və yemək bişirib qazana qoydum, bələdiyyədə hər an hazırlıq vəziyyətində olan oğluma və iş yoldaşlarına göndərdim, sonra isə camaşırxanaya getdim. Axşamüstü qayıdanda yolüstü camaşırxananın arxasında çadırda yaşayan qaçqın ailələrini görməyə getdim, onlarla Quran məclisi keçirdik. Dayanacağa gedəndə isə maşın yox idi. Çox gözlədim, nəhayət, bir maşın məni hərbi bazaya apardı.

Uzun müddət idi bazada qalırdıq. Hər gün səhər çağı evimizə gəlib işlərimi görür, oğluma və Bəsic uşaqlarına yemək göndərir, sonra da camaşırxanaya gedib axşamacan işləyirdim.

Camaşırxanaya o qədər çox gedirdim ki, çoxları Allah yolunda işlədiyimi bilmirdi; elə bilirdilər ki, oranın rəsmi işçisiyəm.

Bəzi xanımlar hər gün, bəziləri də əməliyyat və bombardman zamanı mən zəng vurandan sonra gəlirdilər. Evdə işləri çox olurdu.

Bir gün xəstəxanadan xəbər göndərdilər ki, sabah digər xanımlara da xəbər verin, gəlsinlər. Xanımların birinə zəng vurdum. Qızı dəstəyi götürdü. Ona dedim: "Əgər ana evdədirsə, de ki, gəlsin, camaşırxanaya gedək".

Mənim ədamı çıxarıb dəstəyi yerinə qoydu. Çox narahat oldum, amma anasına bir söz demədim.

Başqa bir gün də camaşırxanada işləyən xanımlarla Şəhid Dərikvəndin evinə getmək qərarına gəldik. Dərvişali Dərikvəndi hamımız tanıyırdıq; xəstəxanada işləyirdi. Camaşırxanada bir iş olanda o görürdü. O, 1986-cı ilin 25 noyabr bombardmanında şəhid olmuşdu.

Xanımlara görüş barədə xəbər vermək üçün dəstəyi götürdüm. Həmin dostumgilə də zəng vurub dedim: "Anaya deyin, gəlsin, şəhid evinə gedirik".

Oğlu idi. Qışqırdı: "Hava işıqlaşan kimi ya camaşırxanaya aparırsan, ya da evlərə. Bu nə vəziyyətdir?!"

Telefonun arxasından mənə ağzına gələni dedi. Dəstəyi yerinə qoydum. Çox narahat idim. Anasını görəndə dedi: "Bağışla. Bunlar qorxurlar ki, harasa gedərəm, başıma bir iş gələr. Buna görə razı deyillər. Sən narahat olma".

Zəhmətkeş qadın idi, bir neçə nəfərin işini təkbaşına görürdü. Hər dəfə ehtiyac olanda ona zəng vururdum.

Çoxlu problemlərinə rəğmən, camaşırxanaya gələn xanımlar az deyildi. Qonşuların birinin bir neçə balaca uşağı vardı. O, hər gün camaşırxanaya gedirdi. Kimsə ilə danışmaz, bir an da bekar durmazdı. Evə qayıdanda paltarlarını dəyişdirir, əl-ayaqlarını daşla sürtüb bir neçə dəfə yuyur, qızardırdı.

Bir dəfə ona dedim:

– Bu qədər həssassansa, niyə gəlirsən?

– Gəlməyimə ərim razı deyil; deyir ki, uşaqlar xəstələnərlər. Belə edirəm ki, xlor qoxusu ilə ona bəhanə verməyim.

Bildim ki, hər gün bura gəlmək üçün ərinə çox yalvarır, hətta əlini öpür. Bir gün mənə dedi: "Dua et ki, yalvarışlarımın mükafatı şəhadət olsun".

1985-ci ilin Qüds günündə onunla birlikdə yürüşə getdik. Qızını və gəlinini də gətirmişdi. Müsəllanın qapısına qədər birlikdəydik. Mənə dedi: "Oğlum evdə yatıb, namaza qala bilmərəm".

Sağollaşıb evə qayıtdı. İyirmi dəqiqə ötmədən raket səsinə hamımız diksindik. Tüstü İmam Xomeyni hüseyniyyəsi tərəfdən qalxırdı. Bir-iki saatdan sonra camaşırxanaya gedəndə gözlərim ona sataşdı, yerimdə quruyub qaldım. Bir neçə dəfə gözlərimi yumub-açdım. Özüydü. Nəhayət, yalvarışlarının mükafatını alıb oruc ağızla, susuz dodaqla şəhid olmuşdu. Bədəninə su tökmək olmurdu. Ona təyəmmüm verib kəfənlədim. Başımı kəfənə qoyub doyunca ağladım.

Şəhid Kələntəri xəstəxanası acı və şirin xatirələrlə doludur. Heyif ki, bu xatirələr itib-batır. Hər dəfə onun yanından keçəndə çətin və işgüzar günləri, şəhidlərin parçalarını xatırlayıram. Oranın necə müqəddəs olduğunu yalnız orada işləmiş xanımlar bilirlər. Oranın ətrafında o qədər şəhid barmağı, əti və dərisi dəfn etmişik ki, sanki naməlum şəhid məzarlığına dönüb. O müqəddəs torpaqda bədən üzvü dəfn olunmuş şəhidlərin xatirəsinə oranı ziyarət etmək istəyirəm. Lakin özüm gedə bilmirəm, məni aparmağa da heç kim vaxt tapmır.

Nə qədər ki müharibə vardı, camaşırxanada şəhid analarının yanında olmaq Qulaməlidən xəbərsizliyə və gözümün yolda qalmasına təskinlik verirdi. Müharibədən

sonra isə döyüşçülərin paltarlarını yumaq üçün darıxırdım; daha çox, uşağım üçün darıxırdım. Qardaşımın müsibəti də mənim üçün təzələndi. Onun üçün də çox darıxdığımı hiss edirdim. Əbdülhəsənin məzarı üstə gedəndə uşağım üçün də ağlayırdım.

1990-cı ildə Qulaməlinin cəsədini gətirdilər. İndi iki məzarın ortasında oturur, camaşırxananın önündə dəfn etdiyim bədən parçalarını yada salıb ağlayır, sakitləşirəm.

# Nahid Niyazi

Çox çətinliklər çəkir, müsibətlər görür, amma heç vaxt məyus olmurduq. Ortada səmimilik və mehribanlıq olduğuna görə heç kim deyinmirdi. Qaranlıqda yaşayırdıq, heç kimin siqaret yandırmağa da haqqı çatmırdı. Geniş imkanlarımız yox idi, amma qələbə üçün hər kəs əlindən gələni etməyə çalışırdı.

Çoxlu məscidlərdə və evlərdə döyüşçülərin ədyal və paltarlarını yuyurdular. 1981-ci ildə isə zərurətdən camaşırxana tikildi. Döyüşçülərin çoxlu ədyal və paltarlarını helikopterlə cəbhədən oraya gətirirdilər. Anam, bibim, əmidostum, kiçik bacım İsmət və digərləri oraya gedirdilər. Bizim ailəmizdən yalnız mən getmirdim. Qardaşım Sadiq yaralı idi, bibimin yoldaşı əsir düşmüşdü.

Mən Savadlandırma hərəkatında işləyirdim. Anam, ya bibim axşamüstü camaşırxanadan qayıdanda Bəsicdən göyərti kisələrini alırdı, evdə yuyub təmizləyir, bişirməyə hazır vəziyyətdə təhvil verirdik. Ev işləri də az deyildi.

Bir gün anam dedi: "Camaşırxanada işlər olduqca çoxalıb. Hətta, narahat hallarına rəğmən, çoxlu şəhid anaları da gəlib paltar yuyurlar".

Bir neçə saat bu barədə düşündüm. Şəhid anası şəhidlərin qanını görməyə necə dözə bilər?! Daha camaşırxanaya getməyə bilməzdim. Bir tərəfdən də, hərəkata heç getməmək olmurdu. İmamın sözünə görə oraya getmişdim. İşdə daim şəhid analarını və paltarları fikirləşirdim.

Sadiq yaralananda yatmaq və yemək rejimlərim pozuldu. Daha çox, cəbhədə olan digər qardaşım Kuroşa görə narahat olurdum. “Gör indi bu analar nə

vəziyyətdədirlər?!” Qəhərdən boğulurdum, amma ağlaya bilmirdim.

Günorta evə gəldim, zorla bir neçə tikə yedim. Bir yerdə qərar tuta bilmirdim. İxtiyarsız halda çadramı başıma atıb camaşırxanaya getdim. Ora, həqiqətən də, qəribə aləm idi. Yeniyetmədən tutmuş belibükük qarıya qədər hamı paltar və döşəkağı yuyurdu. Bir neçə dəqiqə yalnız baxdım. Beş-altı şəhid anasını özüm tanıdım. Digərləri kimi idilər; hamı bərabər. Mən də onlara qoşuldum.

Cavan və çevik idim. Elə birinci yarımgündə bir neçə gün qədər mələfə yumaq istəyirdim. Mələfənin üzərinə xlor tökdüm. Xlor və qan qoxusu boğazıma və burnuma doldu. Ürəyim bulandı. Hava çox isti idi. Camaşırxana da qapalı yer idi, yuyucu maddələrin iyi ilə dolmuşdu. Şəhid analarından utanıb zorla dözürdüm. Bəzən xanımların salavat və şüar səsləri gəlirdi, bəzən də sakit ağlamaq səsi.

Bir də gördüm ki, əksər mələfələrə tük, ət və dəri parçaları yapışıb. Kaş bu matəmli analar yalnız qanlı paltar yuyaydılar. Mələfələr hamının əlinə keçməzdən qabaq bu anaların bir neçəsi həmin parçaları toplayıb qüsl verir, bayırda dəfn edirdi. Bundan ağrılı səhnə ola bilməzdi. Onların göz yaşları, "rulə, rulə" demələri, sükutları və məzlumluqları ürəyimi ağrıdırdı. Artıq ürəkbulanmanın mənimçün mənası yox idi.

Yuyuculuq hamı üçün səbir məktəbi idi. Şəhid, əsir və yaralı anasından, xanımından tutmuş cəbhədə kimsəsi olmayan xanıma qədər hamı nə qədər paltar yuyurdusa, səbri və dözümü də bir o qədər böyüyürdü. Çoxu əlinə silah götürüb cəbhədə vuruşa bilmədiyinə görə qəm çəkir, bunu tez-tez söyləyirdi.

Kuroş 1986-cı ildə Kərbəla-4 əməliyyatında şəhid oldu. Onun şəhadət xəbərini gətirəndə gördüm ki, Sadiqin yaralı olduğu dövr qədər narahat deyiləm. Yaxşı bilirdim ki, camaşırxananın ab-havası mənim səbrimi artırıb. Şəhid olanda Kuroşun cəmi on beş yaşı vardı. Böyük müsibət idi, amma digər şəhid anaları kimi, mənim anam da hər gün ləyənin yanında oturub səbirlə qanlı paltarları yuyurdu.

Camaşırxanadakı qoca və gənc xanımların fəaliyyətinə baxanda enerji alırdım; baxmayaraq ki, ürəyim də, həqiqətən, ağrıyırdı. Camaşırxanaya getmək üçün ən kiçik fürsətdən də istifadə edirdim. Səhərdən günortaya qədər Savadlandırma hərəkatında işləyirdim, evə gəlib bir şey yeyir, sonra camaşırxanaya gedirdim.

Müharibə başlayandan iki il sonra bibimin gəlini oldum. Həyat yoldaşım evdə olanda məni motosikletlə camaşırxanaya aparırdı. Tətil günlərində isə səhərdən anamla birlikdə gedir, axşamüstü qayıdırdım.

# Məsumə Əhmədnejad

Ərim mühəndis idi, cəbhədə işləyirdi. Ayda bir dəfə evə gəlib bir neçə gün qalır, yenə qayıdırdı. Qızımla oğlum balacaydılar. Mən harasa getməyə tənbəllik edirdim; gərək məcbur edəydilər.

Bir gün bacım Zəhra mənə dedi: "Hər gün bu qədər cavan şəhid olur, niyə evdə qalmısan? Gəl xəstəxanaya, bizə kömək elə".

Şəhid Kələntəri xəstəxanası stansiyanın və magistralın yaxınlığında yerləşirdi, helikopter meydançası və digər imkanları vardı. Orada döyüşçülərin çoxlu ədyal, paltar və mələfələri yuyulurdu. Bir qismini məscid və evlərə aparır, bir qismini də orada yuyurdular. Xəstəxananın camaşırxanasına hər gün bir batalyon qadın gedirdi. Başçıları Zəhra idi.

Evimizdən xəstəxanaya qədər ondəqiqəlik məsafə vardı. Zəhranın sözlərini eşidəndən və hər gün paltar yumağa gedən xanımları görəndən sonra mən də həvəsləndim. Səhər tezdən ev işlərini görüb uşaqlarımı anamın yanında qoydum və piyada xəstəxanaya yollandım.

Zəhra camaşırxananın yaxınlığında məni görüb dedi: "Bəh-bəh! Axır ki bizim bacımız da gəldi!"

Məni elə qucaqladı ki, sanki illərdir görmür. Sonra da əlimdən tutub hovuzların yanına apardı. Bir anlığa yerimdə donub qaldım. Suyun rəngi qırmızı idi. Zəhra çiynimdən vurub dedi: "Nə fikirləşirsən? Al, bu çəkməni gey".

Mənə dedi ki, mələfələri hovuzda isladan xanımlara kömək edim. Elə əvvəldə suyun rəngini görəndə halım pisləşmişdi, ancaq ona dedim ki, yaxşı.

Çəkməni geyib suya yaxınlaşdım. Üç-dörd xanım hovuzun kənarında oturub əlləri ilə ləkələri sürtürdü. Üz-gözlərindən bildim ki, əziyyət çəkirlər, hələ vəziyyətə alışmayıblar. "Bismillah" deyib duyğularımın əksinə olaraq təbəssümlə hovuzun qırağında oturdum. Lakin nə vaxt hıçqırtı ilə ağlamağa başladığımı bilmədim. Hovuzun kənarlarından və ayaqlarımızın altından qırmızı su axırdı. Yaş mələfələri tez-tez hovuzdan çıxarır, boşalsın deyə hovuzun kanala gedən qapağını açır, onu yenə doldururduq. Qanları qurumuş mələfə və ədyalları hovuza töküb isladanda bütün suyu yenə qızarır və biz ağlamağa başlayırdıq. Axşamüstü gözlərim qızarmış və başım bərk ağrıyan halda anamgilə gedib uşaqları götürdüm və evə yollandım.

İlk günlərdə qan dəryasını görəndə ürəyim kabab olurdu, deyirdim ki, İlahi, Özün kömək elə.

Təcili yardım şöbəsi camaşırxananın yanında idi, helikopter sahəsi də önündə. Yaralıların iniltilərini də eşidirdik. Hətta gecə qan hovuzu gözlərim önünə gəlir, yaralıların səsi qulaqlarımda dolaşırdı. Qanın və yuyucu maddələrin qoxusundan halım pisləşir, başım bərk ağrıyırdı.

Camaşırxanada heç nə yemirdim. Evdə də bir-iki tikə nəsə yeyirdim ki, ayaq üstə qalıb işlərimi görə bilim. Lakin bu yorğunluq və halsızlıq mənə gözəl gəlirdi. Son dərəcə yorğun halda axşam ev işlərini görür, uşaqların şam və günorta yeməklərini hazırlayırdım. Səhər tezdən gümrah şəkildə oyanıb uşaqları günorta yeməkləri ilə birgə anamgilə aparır, oradan camaşırxanaya gedirdim.

Anam qocaydı, Zəhranın oğluna da baxırdı. Bütün işləri onun üzərinə qoymağa ürəyim gəlmirdi. Pul almırdım, kimsə də getməyə məcbur etmirdi. Amma sanki işə qəbul

olmuşdum və getməyə bilməzdim. Necə oldusa, qanın və yuyucu maddələrin qoxusuna alışdım; daha başım ağrımırdı, işimi rahat şəkildə görürdüm.

Bəlkə də, qardaşım Kərimin eşqi ilə gedirdim. O həmişə bizə deyirdi ki, yolumu davam etdirin.

Kərim inqilabçı və mübariz müəllim idi. 1982-ci ilin iyulundan sonra ondan xəbərimiz olmadı. Korpusdan deyirdilər ki, Dəclənin şərqində itkin düşüb. Ümidvar idim ki, qayıdar. Qayıtması üçün etmədiyim nəzir qalmamışdı.

Bir gün səhər tezdən oyandım. Zəhra yox idi. "Şükür Allaha, əmin-amanlıqdır!" – deyə düşünüb yenə uzandım. Bərk qapı döyüntüsündən bildim ki, Zəhradır. Qapıya yaxınlaşıb:

– Sevinirdim ki, bu gün cəbhədən bir xəbər yoxdur. Yenə nə olub? – dedim.

– Hələ ki müharibə gedir. Hər gün gəlib səni dəvət etməli deyiləm ki! Bu gün işimiz çoxdur, tez xəstəxanaya gəl.

– Yaxşı. İşlərimi görüb gəlirəm.

Çoxlu işim vardı. Hava da soyuq idi. Yavaş-yavaş qabları yuyub evi süpürdüm. Evdə çoxlu yuyulmamış paltar vardı. Həyətdə soyuqda onları yudum. Barmaqlarım get-gedə keyiyirdi. Düşündüm ki, bu vəziyyətdə camaşırxanaya gedib soyuqda necə paltar yuyacağam?!

Getməyə həvəsim yox idi. Paltarları sərdim. Təxminən səhər saat 09:00 idi. Qərara gəldim ki, uşaqlara günorta yeməyi hazırlayım, sonra gedim. Mətbəxə girdim. Hiss elədim ki, arxamda kimsə var. Geri döndüm. Heç kim yox idi. Görünür, məni qara basırdı. Qazanı götürdüm. Birdən Kərim dedi: "Səngərimi boş qoymaq istəyirsən?"

Geri döndüm. Yenə heç kim yox idi. Həqiqətən, onun səsi idi. Çox vicdan əzabı çəkdim. Uşaqları aparıb

anamgilə qoydum, yeyin addımlarla camaşırxanaya getdim. Hava çox soyuq idi, ancaq o qədər sürətlə getdim ki, paltarlarım tərdən islandı.

Camaşırxanada qiyamət idi: xanımlar yuyur, salavat deyirdilər. Qapının önündə mələfə ilə dolu iki-üç ləyən vardı. Çadramı belimə bağlayıb onların birini götürdüm. Çox ağır idi. Dizlərimdən kömək aldım. İplər camaşırxananın önündə idi. Əyilə-əyilə gedib ləyəni birinci ipin yanında yerə qoydum. Qırx-əlli sıra ipi axtarıb boş yer tapmalı idim. Onları birinci iplərdən asdım. Geri qayıdıb ikinci ləyəni götürdüm, iplərin arasından keçdim, amma daha irəliyə apara bilməyib yerə qoydum. Baxdım. Deyəsən, hamısı doluydu. Kərim başını mələfənin arxasından çıxarıb boş yerləri mənə göstərdi: "Gəl, burdan as. Bura boşdur".

Bir neçə saniyə elə bildim ki, qayıdıb. Həmin gün həvəslənib ağlar gözlərlə o qədər işlədim ki, qışın quru və yandırıcı soyuğunu hiss etmədim.

Paltar yumaq gündəlik proqramım olmuşdu. İşlərimi onunla tənzimləyir, orada lazım olan hər bir işi görürdüm.

Avqust ayı və hava olduqca rütubətli idi. Camaşırxana istidən boğulurdu. Həyətdəki torpaqdan sanki isti buxar çıxırdı. Xlor iyi istiyə dözümü daha da çətinləşdirirdi. Bir xanımın yanında oturdum. İkimiz bir ləyəndə mələfə yuyurduq. Tez-tez qolumla alnımın tərini silir, ləkələri sürtürdüm.

– Məsumə, otağa gəl, - deyə Zəhra məni çağırdı.

Əllərimi yuyub getdim. Mənə qayçı verib dedi:

– Xəstəxanada mələfə çatmır. Tez bu parçaları kəs.

Yerə yaşıl, göy və ağ rəngdə dörd-beş top parça qoymuşdular. Mənə üç-dörd şablon da verdi. Rəngi qaçmış nazik kovrolit üzərində oturdum. Hər parça

topundan taxtüstü, mələfə və yastıq üzü kəsməli idim. İlk bir neçəsini şablon üzərindən kəsdim. Çox vaxt aparırdı. Şablonları kənara qoyub qalanını təqribi şəkildə kəsdim. Ölçülər yadımda qalmışdı. Mən kəsdikcə iki-üç nəfər də qatlayırdı. Zəhra onları palatalara göndərdi.

Axşama qədər hamısını kəsdim. Qayçının izi barmaqlarımda qaldı, biləyim bərk ağrımağa başladı. Ertəsi gün həmin ağrı ilə qan ləkələrini sürtdüm. Ondan sonra Şəhid Kələntəri və səhra xəstəxanaları üçün parçalar gətirirdilər, mən də camaşırxananın yanındakı otağa keçib kəsirdim. Parça həddən artıq çox olanda xanımların bir neçəsi də əllərində qayçı köməyə gəlirdi. Mələfələrin kənarlarını tikməyə əsla vaxt olmurdu. Yalnız kəsib palatalara və xəstəxanalara göndərirdik. Həmin mələfələr sonradan camaşırxanaya yuyulmağa gəlirdi.

25 Noyabr 1986-cı il idi. Uşaqları evə qoyub yola düzəldim. Ayağımı camaşırxanaya qoyub o qədər camaşırı görəndə isə özümü də, uşaqları da unutdum. Hava Hücumundan Müdafiə sistemləri yaxındaydı. Günortaya yaxın həyəcan siqnalı verildi, sonra dəstə-dəstə təyyarələr gəldi. Hər dəstə gələndə səs maneəsini yarırdı, bu isə çox vahiməli gurultu qoparırdı, adamın beyni silkələnirdi. Zenit qurğularından dayanmadan atış açılırdı. Həkimlər hər bir halda yaralıların yanında qalırdılar. Mən həmişə onlara qibtə edirdim. Lakin bu zaman bir həkimin əlləri başında sığınacaq axtardığını görüb dedim:

– Hara?

– Bu saat vuracaqlar! – güclü qorxu və həyəcandan səsi titrəyirdi. – Adam özünü topun-tankın altına atmamalıdır! – dedi, mənim qorxmadan orada dayandığımı görüb əlavə etdi: – Deyəsən, intihar etməyi sevirsən.

– Yox, canımı çox istəyirəm, amma bu yaralılardan da çox yox.

Həyəcan siqnalının və təyyarələrin səsi həyəcanı daha da artırırdı. Hərə bir tərəfə qaçırdı. Həkim sığınacağa qaçdı. Mən də əllərimi qulaqlarıma qoyub camaşırxanaya tərəf qaçmağa başladım.

Bəzən günorta camaşırxanaya gedib axşama qədər qalırdım. İşlər çox olanda isə səhərdən gedirdim.

Bir dəfə əməliyyat günləri idi, yenə səhərdən axşama qədər dayanmadan yuyurduq. Xəstəxananın işçiləri paltar, ədyal və mələfələri camaşırxananın yanına qoyub deyirdilər: "Hazır nə varsa, verin, aparaq". Biz də birnəfəsə yuyurduq, heç xörək yeməyə də vaxtımız olmurdu. Axşamüstü acından ayağa qalxmağa taqətimiz qalmırdı.

Zəhraya dedim:

– Bizə bir tikə çörək verməyəcəksən?! Analar əldən düşdülər.

– İndi gedib mətbəxdən bir şey gətirərəm.

On beş dəqiqədən sonra iki mavi dolça ilə qayıtdı. Uzaqdan dolçaların içində sarı bir şey gözümə dəydi.

– Biz acıq, sənsə gedib banan gətirmisən? - dedim.

– O qədər qan görmüsən ki, kor olmusan. Yeməkdir.

Qazan tapmadığına görə xörəyi dolçada gətirmişdi. Plovu və qaynanmış toyuq budunu çıxarıb bir neçə boşqaba qoydu. Onun israrı ilə xanımlar işlərini saxlayıb hərəsi bir qədər yedi.

Mikrofonlu maşın küçələrdə gəzib xəstəxanalarda və cəbhədə nələrə ehtiyac olduğunu elan edirdi. Camaatın da nəyi vardısa, aparıb verirdi.

Bir gün camaşırxanadan yenicə qayıtmış, otaqda uzanıb Kərim barədə xəyallara dalmışdım. Birdən səsucaldanın

səsini eşidib özümə gəldim. Maşın küçədə dayanmışdı, mikrofondan deyilirdi: "Xəstəxanalarda ədyala ehtiyac var".

İşlətdiyim ədyallardan ikisini götürüb aparmaq istədim, amma qapının yanında dayandım. Fikirləşdim ki, bu gənclər bizim təhlükəsizliyimiz üçün ən əziz sərvətləri olan canlarını verirlər, mən də gərək onlara ən yaxşı ədyallarımı aparım. Əlimdəkiləri otağa atdım. İki Küveyt ədyalım vardı. O zaman belə ədyallar çox gözəl və məşhur idi. Onları işlətməmişdim. Ədyalların altından çıxarıb apardım.

Xəstəxanaya çoxlu yaralı gətiriləndə xanımların bir qismi tibb işçilərinə kömək etmək və yaralıların qanlı üst-başlarını yumaq üçün palatalara gedirdi. Mən adi halda əmim qızı Aminə Dağərinin yanına gedirdim. Bir dəfə də oraya getdim. Çox məşğul idi. Mənə dedi:

– Mətbəxə keç, qabları yu. Ancaq qapını ört ki, partlayış dalğasına düşmüş biri sənə hücum etməsin.

– Yox, bunlar elə halsız uzanıblar ki, qarışqaya da ziyanları dəyməz.

Qabları yudum, südü qızdırıb bir neçə stəkana süzdüm, qənd də götürüb yaralıların palatasına getdim. Əlimi bir yaralının başına altına qoyub süd stəkanını ağzına yaxınlaşdırdım. Gözəl təbəssümlə mənə təşəkkür etdi.

Çarpayıların birinin yanında bir tibb bacısı təxminən iyirmi yaşlı bir yaralının başı üstə dayanmışdı. Yaralının ayağı buddan kəsilmişdi. Tibb bacısı ona bir stəkan verib dedi: "Sidiyini bura tök, analizə aparmalıyam".

Cavan yerindən qalxa bilmirdi. Xəcalətindən başını aşağı saldı, bir söz demədi. Tibb işçisi isə tələsirdi. Mənə dedi: "Mən o biri palataya keçirəm, stəkanı gətirərsən".

Otaqdan çıxdı. Mən yaralının çarpayısına yaxınlaşıb ona dedim: "Bu inqilabın sizə ehtiyacı var. Həkimlər nə deyirlərsə, et ki, tez sağalasan. Sən də mənim qardaşım kimisən. Mən bayıra çıxıram, bir neçə dəqiqədən sonra stəkanı aparmağa gələcəm".

Yaralıları o vəziyyətdə görmək çalışmaq üçün iradəmi daha da gücləndirirdi.

Yuyanda əlcək geyə bilmirdim. Ağ mələfələri xlorlu suda yuyurduq. Əməliyyat otağındakı həkimlərin paltarlarını yuyandan sonra dezinfeksiya da edirdik. Dezinfeksiya maddələrinin qoxusu mənə pis təsir edirdi. Qışda da soyuq su ilə yuyurduq. Əllərim çox vaxt yaralı olur, qanayırdı.

Ərim bir dəfə evə gəlib mənə dedi: "Paltarlarımı yumana ehtiyac yoxdur".

Fikirləşdim ki, yəqin, əllərim yaralı olduğuna görə əziyyət çəkməyimi istəmir. “Mən qanlı paltarları yuyuram, bunlar nədir ki?” – deyə öz-özümə düşündüm, o yatandan sonra paltarlarını yudum. Əllərim qızarıb qaşındı. Ərim onları ipdə görəndə dedi: "Ey dili-qafil! Bunlar kimyəvi qaza bulaşmışdı!"

Əllərim həmişə soyuq və xlorlu sudaydı, üstəlik, kimyəvi qaza bulaşmış paltar da yumuşdum. Bu səbəbdən əllərimdə ekzema xəstəliyi yarandı, hələ də onlara qulluq edirəm.

Uşaqlar məndən və atalarından uzaqda, daha çox anamın yanında böyüdülər. Dərs və tapşırıqlarından da xəbərsiz olurdum.

Bombardman zamanları da daxil olmaqla müharibənin axırlarına qədər camaşırxanaya getdim. Kərimin müsibəti ağır idi. Onu 1996-cı ilin 29 yanvarında gətirdilər. Onda nə müharibə vardı, nə də camaşırxana. Biz də sevindik ki,

heç olmasa, yanında oturub dərdləşməyə, müharibə və camaşırxana günlərinə qayıtmağa bir məzarımız var.

# Zöhrə Ləvisi

Hər dəfə həyəcan siqnalı veriləndə sığınacaq axtarırdıq. Müharibənin ilk bir neçə ayında hər bir bombardman zamanı biz uşaqlar küçələrə tökülüşüb qışqırışırdıq. Anaların üz-gözündən iztirab və narahatlıq yağırdı. Həyəcan siqnalı, bomba və raket səsləri get-gedə həyatımızın bir hissəsinə çevrildi. Yenə qorxurduq, amma müharibənin əvvəlindəki qədər özümüzü itirmirdik.

Bazar məhəlləsində, Məhəmmədi məscidinin arxasındakı küçədə yaşayırdıq. İbtidai sinif şagirdi idim. Məktəbdən gələn kimi küçəyə qaçırdıq. Səhər-axşam küçədəydik: evcik oyunu, klas-klas və s.

Bir gün yenə küçədə oynayırdıq. Məscidin səsucaldanından səs gəldi. Hələ sözünü bitirməmiş xanımlar bir-bir qara və güllü çadralarını başlarına atıb məscidə doğru getməyə başladılar. Nə baş verdiyini bilmək istəyirdik. Biz də onların ardınca qaçdıq.

Məcid Gülüstaninin qırmızı rəngli kiçik yük avtomobili Məhəmmədi məscidinin yanında dayanmışdı. Hər dəfə onun maşınını görəndə bilirdim ki, cəbhə ilə bağlı bir iş var.

Məscidin həyətinin bir tərəfində üst-üstə çoxlu ədyal yığmışdılar. Məcid Gülüstani xanımlara dedi: "Bacılar, deyin, kimin nə qədər ədyal apardığını yazım".

Anam və qonşu qadınlar yaxınlaşıb adlarını yazdırdılar. Təxminən altmış ədyalı bizim üçün kənara qoydular. Biz uşaqlar da bacardığımız qədər onlardan götürüb küçəyə çıxdıq. Deyə-gülə, oynaya-oynaya bir neçə dəfə xanımlarla gedib-gəldik, hamısını gətirib küçəyə qoyduq.

Yarım saatdan sonra küçədə qiyamət başladı: Bütün qonşular su şlanqlarını və iri ləyənlərini küçəyə çıxardılar.

Birlikdə müharibədən danışa-danışa ədyalları yuyurdular. Az yaşımla fikirləşirdim ki, necə də nizam-intizamla bir-birinin yanında yuyurlar. Sanki illərdir işləri budur. Bir dəstə qadın ədyalları isladırdı, bir neçə nəfər yuyucu tozu tökür, bir neçəsi də suya çəkirdi; həm də kimin nə iş görəcəyini öncədən təyin etməmişdilər. Biz uşaqlar da ədyalları tapdayırdıq.

Qış fəsli və hava soyuq idi. Həmin gün gecənin yarısına qədər əyləncəmiz yumaq və su ilə oynamaq oldu. İki gündən sonra ədyallar qurudu, qatlayıb məscidə apardıq. Məcid Gülüstani dedi: "Vəlfəcr əməliyyatı baş tutub. Camaşırxanada köməkçiyə ehtiyac var. İstəyirsiz, gedin, orda yumağa kömək edin".

Oranı görmək və yeni mühiti təcrübə etmək istəyirdim. Düşünürdüm ki, orada su ilə oynamaq daha həyəcanlı olar. Dedim ki, mən camaşırxanaya getmək istəyirəm.

Dedi: "Hər gün sübh çağı xanımları məscidin önündə mindirib aparırıq. Yaşın az olduğuna görə gərək məscidin idarə heyətindən məktub alasan".

Cəbhəyə kömək etmək yaşa baxmırdı, hər kəs bir iş görə bilirdi. Məscidin idarə heyətinin üzvlərindən olan Hüseyn Məcdi mənə və xalalarım Zəhra ilə Mehribana məktub verdi. Səhər saat 8-də məscidə getdik. Xanımlar Məcid Gülüstaninin Vanet yük maşınının arxasında oturmuşdular. Biz də minib camaşırxanaya getdik.

Məcid Gülüstani şəhid atası idi, digər oğulları da cəbhədə vuruşurdu. Özü də əhali ilə cəbhə arasında əlaqələndirici olmuşdu. O, xalq yardımlarını toplayıb cəbhəyə aparır, çirkli ədyalları gətirib camaata yumağa verirdi.

Qapının yanına çoxlu boğça qoyulmuşdu. Bir neçə nəfər onları açırdı. Aralarında qayçı, maqqaş, iynə, ət və

dəri parçaları vardı. Xanımların təkbir və salavat səsləri qulaq batırırdı. Mələfələri hovuzlara salıb qanlarını yuyur, ləyənlərin yanında oturanlara verirdilər. Mələfələri bir-birinə qarışdırmamağa, hər şöbəninkiləri ayrıca yumağa çalışırdılar. Tez-tez bir-birlərinə deyirdilər: "Bacı, ehtiyatlı ol, qarışmasın".

Təxminən əlli nəfər idilər. Gözüm dolu hovuzu tutmuşdu; təmiz və güman ki, çox sərin suyu vardı. Mələfələri onun içinə atdılar. İki-üç nəfər hovuza girdi. Mən də hovuzun qırağından mələfələrin üstünə hoppandım. Su ayağımın altından xanımların üzünə sıçradı. Onların biri dedi: "Rulə, bir az yavaş!"

Atılıb-düşürdüm, üzümə su sıçrayırdı. Bir xanım mənə dedi: "Bura niyə girmisən ki?! Hovuzda çimmək üçün? Get, o biri hovuzda suya çək, ya da otur, ləyəndə ləkələri təmizlə".

Bir anlığa baxıb gördüm ki, təmiz su qırmızı olub. Yerimdə donub qaldım. Birdən bütün bədənim buzladı, yerimdə əsməyə başladım, dəcəllik və oyun həvəsi başımdan çıxdı.

Mələfələri hovuzdan çıxarıb xanımlara verdilər. Onları qaldırmağa qollarımda güc qalmamışdı. Hovuzdan bayıra çıxdım. Qanlı su hovuzun kənarından yerə, oradan da kanala doğru axırdı. Bir nəfər əlini hovuzun içinə salıb qapağını götürdü. Bir neçə dəqiqə gözlədilər, amma su boşalmadı. Narahat halda dedilər: "Vay-vay! Yenə tutulub!" Şəmsi Sübhani dedi: "Xahiş edirəm, qoyun bu dəfə mən açım".

Qolunu çırmayıb əlini borunun içinə saldı. Xanımlar narahat halda baxırdılar. Qalxdı, dolmuş əlini də qaldırıb dedi: "Narahat olmayın. Bu böyrək artıq imiş. Bir sağlam böyrəklə də yaşamaq olar!"

Özü xəstəxanada tibb xidmətçisi idi. Dayanmadan danışırdı ki, ağlayanların fikrini dağıtsın. Əksər xanımlar həyat yoldaşlarını və ya uşaqlarını itirmişdilər. Yavaşca "Allahu əkbər" və "La ilahə illəllah" deyib işlərinə davam etdilər. Bəziləri də ağı zümzümə edirdi: "Qəhrəman ruləm, şəhid ruləm..." Onların səbirlərini və səssizcə ağlamalarını görəndə gözlərim yaşarırdı.

Başım yumağa çox qarışmışdı, özümə baxmırdım. Axırda vəziyyət o həddə çatdı ki, gecələr bədən ağrısından yata bilmirdim. Xlor qoxusu da daim başımdaydı. Ləkələrin üzərinə yuyucu tozu və xlor töküb əlimizlə sürtürdük. Əllərim yara olurdu. Gecə yuxudan oyanıb zarıyırdım. Qorxurdum ki, o vəziyyətdə daha camaşırxanaya gedə bilmərəm. Mən əlcək geydiyim halda bu gündəydim, əksər xanımlarsa əlcək geymir, deyirdilər: "Cavanlar canlarını təhlükəyə atıb vuruşurlar, bizimsə əlimiz qanlı mələfəyə dəyməsin?! Əlcəklə ləkələr yaxşı yuyulmur!"

Səhər tezdən aptekə gedib qliserin aldım, içinə bir neçə damcı limon suyu tökdüm. Gecələr əllərimə sürtürdüm, səhərə qədər dərim yumşalırdı. Xlorlu suya salanda isə yenə pisləşirdi.

Əməliyyat günləri idi, xəstəxanada iş başdan aşırdı. Təcili yardım maşınlarının və helikopterlərin gediş-gəlişindən və xəstəxanadakı qələbəlikdən əməliyyat olduğunu bilirdik. Boğçalarla paltar və mələfə gətirib camaşırxananın qapısının yanına qoyurdular. Xanımlar yuyulmamış əşyaların çoxalmasına imkan vermir, dayanmadan işləyirdilər. Vəziyyət belə olanda biz balacalar da həvəslənir, güclənirdik. Boğçaları gətirib xanımların əlinin altına qoyurdum, bəzilərini açıb hovuza tökürdüm. Belə vaxtlarda kim nə deyirdisə, edirdim.

Bir dəfə torbaların birini açdım. İçində köynək, şalvar və çəfiyə şalı vardı. Köynəyin üstündəki yazıya gözlərim sataşdı: "Rəsul Muradian". Ərdəbildə yaşayan yaxın qohumlarımızdan idi, tibb universitetində təhsil alırdı. Köynəyin qolu deşilmiş, qana bulaşmışdı. Çox narahat oldum, nə edəcəyimi bilmədim. Xəstəxanaya getdim. Çox adam vardı. Xeyli axtarandan sonra xanım Sübhanini tapdım. Başı qarışıq idi, sözlərimə elə də fikir vermirdi. Ağlamağa başladım:

– Rəsul Muradian hardadır? Vəziyyəti necədir? – dedim.

– Narahat olma, yaxşıdır. Qoluna güllə dəyib. Burda əməliyyat olundu. Sabah Tehrana göndərəcəklər.

Evə gedib məsələni söylədim, anasına zəng vurub xəbər verdilər.

Bir neçə ay tətil günlərində camaşırxanaya getdim. Xanımların yanında paltar yuyur, onlarla gülür, ağlayır, "ya Hüseyn" və salavat deyirdim. Xanımların sayı çox idi, hər gün daha da çoxalırdı. Onlar Şəhid Kəlәntəri xəstəxanasının paltar və mələfələrini yuyurdular. Cəbhədən və səhra xəstəxanalarından da helikopter və maşınlarla ədyal və paltar gətirirdilər. Çox diqqətlə hamısını yuyub sellofanlara qoyur və cəbhəyə göndərirdilər. Onların yanında olmaqla özümü dəyərli sayırdım.

Abbas dayım Quruculuq cihadı təşkilatında işləyirdi. Bir gün mənə və xalalarıma dedi: "Bizim təşkilatda dərzi sexi açıblar. Köməyə çox ehtiyac var. Əgər mümkünsə, orada fəaliyyət göstərin".

Paltar, mələfə və ədyalları yumaq çox çətin idi, həqiqətən də, cəsarət tələb edirdi. Mən də bu çətinliyə

alışmamışdım. Oradan getmək istəmirdim, amma Abbas dayı dedi ki, indi dərzi sexində köməyə çox ehtiyac var.

Çox fikirləşəndən sonra bu nəticəyə gəldim ki, harada köməyə ehtiyac varsa, oraya getmək lazımdır. Dərziliyi bacardığımıza görə xalalarımla "Kərbəla" dərzi sexinə gedib döyüşçülərin dərzisi olduq. Gözəl sistemimiz vardı: biz paltar tikirdik, döyüşçülər geyirdilər, bir dəstə qadın da çətin şəraitdə onları yuyurdu. Paltar tikə-tikə fikirləşirdim ki, görəsən, buna hansı cavanın qanı töküləcək və o qanı hansı ana ağlaya-ağlaya yuyacaq?

# Ətiyyə Çətirçi

Evimiz Tehrandaydı. Cəbhəyə getmək üçün korpusun tibb bölməsinə adımı yazdırdım. 1983-cü ilin martında Səhiyyə nazirliyindən sərəncam alıb Əhvaza getdim. Məni oradan Əndimeşkin Şəhid Kələntəri xəstəxanasına göndərdilər. Xəstəxananın qadınlarına xanım Pacik rəhbərlik edirdi. Sərəncamı ona göstərəndə:

- Yerlər dolub, işçiyə ehtiyacımız yoxdur, - dedi, sonra üzünü Tibb xidmətçisi bölməsinin rəisi ağa Əttarana tutub bildirdi: – Ona qayıdış vərəqi ver.

Çox narahat oldum, ağlaya-ağlaya dedim:

– Mən qayıtmayacam, burda qalacam. Sanitar, dərzi, xadimə – bu xəstəxanada harda desəniz, işləyərəm.

İsrarımı görüb dedi:

– Xanımların yataqxanasında yat, səhər də get camaşırxanaya.

Gecə halım çox pis idi. Heç kimlə danışmırdım. Otağın bir küncündə oturub dizlərimi qucaqlamışdım. Müharibənin əvvəlində döyüş bölgəsinə getmək üçün evdəki israrım və yalvarışlarım yadıma düşdü. Haraya göndərilirdimsə, müvəqqəti olurdu; iki aydan sonra Tehrana qayıdırdım.

Müharibənin əvvəlində Qırmızı Aypara Cəmiyyətinin xətti ilə Əhvaza getdim, bir müddət qanköçürmə mərkəzində qan aldım. Mənə və bir gənc cütlüyə tapşırıq verdilər ki, Dezfulun qanköçürmə məntəqəsinə gedək. Könüllü qüvvələr də səhərdən axşama qədər orada idilər.

Yaralılar üçün qan almaq olduqca həyati məsələ idi. Orada istirahət yeri yoxdu. Mənimlə getmiş cütlüyə otaq verdilər, mənsə çantamı pilləkənin altına qoydum; gecələr də orada yatırdım. Bombardman zamanı bina titrəyirdi,

pilləkənin altı isə mənimçün səngər kimi idi. İlk dəfə orada vəsiyyətnamə yazdım.

Bir aydan sonra ezamiyyət müddətimi uzatmadılar, mən də Tehrana qayıtdım. Amma yenə cəbhəyə dönmək istəyirdim. Cəbhəyə getmək üçün ata-anam razılıq verdi. Yenə Qırmızı Aypara Cəmiyyəti tərəfindən cəbhəyə göndərildim. 1982-ci ilin yazında qərb bölgəsinə ezam olundum, İslamabadın İmam Xomeyni və İlamın 7 Tir xəstəxanalarında tibb xidmətçisi kimi işlədim. Bir neçə aydan sonra yenə ezamiyyətim bitdi və Tehrana qayıtdım.

Bu dəfə də xəstəxanadaydım, amma tibbi xidmətlə məşğul olmağa icazəm yox idi.

Bilmirdim ki, paltar yuya bilərəm, yoxsa yox. Əslində, tibb xidmətçisi kimi gəlmişdim. Məni qaytardıqlarını görəndə isə yalvardım ki, harada ehtiyac varsa, orada işləməyə razıyam. Qorxurdum ki, məni camaşırxanaya da buraxmazlar.

Səhər çağı narahat halda camaşırxanaya getdim. Yataqxanaya yaxın idi. Qapının yanına çoxlu mələfə və ədyal yığılmışdı. Bir neçə xanım onları açıb çırpırdı. Onlardan camaşırxananın rəhbərini soruşdum. Biri dedi ki, qulluğundayam. Özümü təqdim edib dedim: "Tehrandan tibb xidməti üçün gəlmişəm, ancaq dedilər ki, camaşırxanaya gedim".

– Çox xoş gəlmisən, səfa gətirmisən! – deyə cavab verdi. – Mən buranın rəhbəri Zəhra Əhmədnejadam.

Məni içəriyə aparıb xanımlara dedi: "Xanımlar, yeni iş yoldaşımız var. Bu bacımız Tehrandan gəlib".

Hamı gülərüzlə mənə xoşgəldin dedi.

Ağ və qırmızı rəngli plastik ləyənlərin yanında oturmuşdular. Camaşırxananın yerindən qanlı su axırdı. Qan qoxusuna həssas deyildim, bir-iki il qan almış, tibbi

xidmət göstərmişdim. Lakin qan və xlor qoxuları birlikdə çox qəribəydi.

Xanım Əhmədnejad mənə əlcək verdi. Çadramı belimə büküb düyünlədim, əlcəyi geyib ləyənin yanında oturdum. Yeniyetmə qızların biri yanıma bir neçə mələfə qoydu. Onları ləyənə qoyub üzərinə yuyucu tozu və xlor tökdüm, sonra da ləkələrini sürtməyə başladım. Halım pis idi, kövrəlib səssizcə ağlayırdım. Camaşırxananın ab-havası darıxdırıcı idi. Hər kəs bir ləyənin başı üstə oturub yavaşca ağlayır, işini görürdü; sanki uşaqlarının cəsədi başında ağlayırdılar.

İnanmazdım başım camaşırxanada o qədər qarışa bilər ki, tibb xidməti yadımdan çıxar. Çox tezliklə oradakı xanımlara alışdım. Onların ruh yüksəkliyindən xoşum gəlirdi: ağlayır, bir neçə dəqiqədən sonra salavat deyir, Aşura ziyarətnaməsi oxuyur və həvəslə işləyirdilər. Çoxu şəhid və döyüşçü ailəsi idi. Əsla istirahət etmir, özlərini düşünmürdülər.

Kimyəvi qaza bulaşmış paltarları adətən xəstəxanadan və cəbhədən xüsusi torbalarda gətirib camaşırxananın qapısının yanına qoyurdular. Xəstəxananın işçiləri də oradan götürür, kənardakı boş əraziyə aparıb yandırırdılar. Bəzən o paltarlar səhvən camaşırxanaya gətirilir və xanımlar onları yuyurdular. Bəziləri heç əlcək də geymirdi, əlləri səhərdən axşama qədər soyuq və xlorlu suda olurdu. Əllərində çox pis yaralar əmələ gəlirdi, qanayırdı. Sinələri də tutulurdu, tez-tez öskürürdülər. Bu vəziyyəti görəndə ürəyim ağrıyırdı.

Bir neçə gün yağış yağdı, hava çox soyuq keçdi. Yuyulmalı camaşır da çox idi. Xanımlar axşama qədər yuyur, sonra yaş paltarla mikroavtobusa minib evə gedirdilər. Mələfələri yuyanda əllərindəki yaralardan qan

axdığını, öskürək səslərinin kəsilmədiyini öz gözlərimlə görmüşəm. O vəziyyəti görməyə dözə bilmirdim. Onlara dedim:

- Heç olmasa, halınız yaxşılaşana qədər evdə qalın.

- Nə qədər ki müharibə gedir, evdə oturmaqla halımız düzələn deyil, - deyə cavab verdilər.

Heç biri bir an da işdən uzaqlaşmağa razı deyildi.

Xəstəxanada dəri həkimi vardı. Onun yanına gedib camaşırxanadakı xanımların vəziyyətini izah etdim. Bir dərman adı dedi, aptekdən aldım. Onlara bir neçə soyuqdəymə əleyhinə şərbət də apardım. İstifadə etməyə ürəkləri gəlmir, deyirdilər: "Bəlkə, yaralıların bu dərmana daha çox ehtiyacı var". Bu fədakarlıqlarına görə məni ağlamaq tuturdu.

Günbatan çağı camaşırxananın işi qurtarırdı; xanımlar evlərinə, mən də yataqxanaya gedirdim. Orada otaqları süpürür, qabları yuyurdum. Lakin bunlar iş deyildi. Tibb xidmətçiləri yataqxanaya gec gəlirdilər. Qanlı su dolu hovuz və ləyənlər, şəhid analarının və xanımlarının şəhidlərin bədən parçalarını görərkən göstərdikləri səbir nümunəsi və əllərinin yaraları məni yatmağa qoymurdu. Gecəni sübhə qədər oyaq və bekar qalmaqdan təngə gəlmişdim.

Bir gün eşitdim ki, tibb bacılarının otağının arxasında dərzi otağı var. Camaşırxanadan çıxandan sonra şam namazımı qıldım, xörək yeyib oraya yollandım.

Tibb bacısı Şəmsi Sübhani dərzilik işlərinə də başçılıq edirdi. Orada mələfə, əməliyyat geyimi, xəstə və yaralı paltarları tikirdilər. Mən də dərziliyi bacarırdım. Bir tikiş maşının arxasında oturub kəsilmiş parçaları tikməyə başladım. Gecənin yarısına qədər ayağa durmadım. Başqa şəhərlərdən göndərilmiş tibb xidmətçilərinin bir çoxu

növbədən çıxandan sonra iki-üç saat da orada işləyirdilər. Mən də gecənin yarısına qədər dərzilik edirdim. Orada bir-birimizlə tibbi yardım barədə də danışırdıq.

Bir dəfə xanım Sübhani mənə dedi: "Əgər xanım Pacik tibbi yardımı bu qədər bacardığını bilsəydi, səni paltar yumağa göndərməzdi".

Orada bildim ki, ezam olunmuş bəzi tibb xidmətçilərinin lazımi bacarığı yoxdur, xəstəxanada işləyə-işləyə öyrənirlər. Xanım Sübhaniyə dedim: "Mən tibb işləri üçün gəlmişdim, amma camaşırxananı görəndən sonra harada lazım olsa, vəzifəmi yerinə yetirərəm".

İyirmi gün camaşırxanada işləyəndən sonra bir gün xanım Pacik məni çağırıb dedi: "Sabahdan get Cərrahiyyə şöbəsinə".

İnanmırdım ki, bu, birinci gün mənə ciddi şəkildə "işçiyə ehtiyacım yoxdur" deyən qadındır.

Həmin gün Cərrahiyyə şöbəsinə getdim. Amma hər gün camaşırxanadakı xanımlara baş çəkir, lazım olanda onlara dərman aparırdım.

Dörd aydan bir məzuniyyət alıb evə gedir, bir həftədən sonra xəstəxanaya qayıdırdım. Qardaşım Əmirin on doqquz yaşı vardı. O, cəbhəyə gedəndə bəzən yolüstü gəlib mənə baş çəkirdi.

1986-cı il, ramazan ayı idi. Əmir narahat halda xəstəxanaya gəldi. Soyuqlamışdı. Ona dərman aldım. Mənə dedi:

– Bir müddətdir Dokuhədəyəm. Məni təmas xəttinə göndəriblər. Orada beytülmaldan istifadə edirəm, amma bir işə yaramıram.

– Sənin vəzifən orada qalmaqdır. Adam gərək komandirinə tabe olsun!

O, Həzrət Rəsul diviziyasının Əmmar batalyonunda xidmət edirdi. Mənimlə sağollaşıb getdi. Bir neçə gündən sonra Əmmar batalyonundan çoxlu yaralı gətirdilər. Yataqxanadakı qızlara da dedim ki, köməyə hazır olsunlar. Bir palatada iki yaralı qardaş var idi. Soyadımı eşidəndə məni çağırdılar. Onların yanına getdim.

– Əmmar batalyonunda qardaşın var? – deyə biri soruşdu.

– Hə, nə olub ki?

– Qardaş Çətirçi çox dəyərli uşaqlarımızdandır.

– Ondan xəbəriniz varmı?

– Yox, biz yaralanıb geri qayıtdıq, onlarsa irəliləyirdilər.

Canıma qorxu düşdü. Dayanmadan yaralı gətirirdilər, mən də hər birinin başı üstə gedirdim. Əmir üçün həyəcanım daha da çoxalırdı.

Tibb xidməti rəisi ağa Mamaqaniyə dedim:

– Qardaşımdan xəbəriniz var?

– Uşaqları göndərərəm, öyrənərlər, – dedi.

Atam qocaldığına və yalnız bir oğlu olduğuna görə komandir onun irəliyə getməsinə razı deyildi. O isə öz israrı ilə getmişdi. Çox həyəcanlandım, bir yerdə qərar tuta bilmirdim. İki-üç gün belə gərgin oldum. Sonra isə xəstəxana qadınlarının rəhbəri mənə zəng vurub dedi: "Gəl ofisimə, səninlə işim var".

Səsindəki qəhərdən əmin oldum ki, Əmir şəhid olub. Şöbədəydim. Dəstəyi yerinə qoydum, başımı stolun üstünə qoyub ağlamağa başladım. Camaşırxanadakı şəhid analarının səbrini xatırlayıb dedim: "Biz Allaha məxsusuq və Ona doğru qayıdacağıq!"

# Şövkət Dezfuli

Təbrizdən idi. Onu Əndimeşk stansiyasına göndərmişdilər. Yoldəyişən idi. Bizə qonşu olmuşdu. İki qızı, bir oğlu vardı. Həyat yoldaşı vəfat edəndə oğlu onaylıq idi, qızlarının da üç və beş yaşları vardı. Mənim təxminən otuz yaşım vardı, onunsa əlli. Uşaqlarına görə sözünü yerə sala bilmədim. İlk aylardan bildik ki, xərçəng xəstəliyi də var.

Biz evlənəndən üç il sonra müharibə başlandı. Ərim xəstəliyinə görə kobud və səbirsiz olmuşdu. Partlayış səsləri və işinin çoxluğu halını daha da pisləşdirirdi. Şəxsi heyəti daşımaq işi cəbhə qədər zəruri və əhəmiyyətli olduğuna görə məzuniyyətə çıxa bilmir, daim işə getməli olurdu. İyirmi dörd saat işdə olurdu, iyirmi dörd saat evdə. Bəzən istirahət növbəsində də işdə qalmağa məcbur olurdu.

Binalar məhəlləsində yaşayırdıq, inqilabçı uşaqların toplaşdığı Hüseyn ibn Əli (ə) məscidinin yaxınlığında. Məhəllə xanımlarının hələ inqilabdan öncədən Quran dərsləri olurdu; mən də gedirdim. Müharibə vaxtı həmin xanımlar xalq yardımlarını toplayıb şəhid ailələrinə baş çəkir, birlikdə Şəhid Kələntəri xəstəxanasına yaralıların paltarlarını yumağa gedirdilər. Mən də onlarla getmək istəyirdim, amma azyaşlı uşaqlara görə gedə bilmirdim.

Axşamüstülər qonşu qadınlarla evin önündə otururduq. Orada həmişə yaralılardan və döyüşçülərin paltarlarından danışırdılar. Həmişə vicdan əzabı çəkirdim ki, bir-iki ildir müharibə başlayıb, mənsə hələ bir iş görməmişəm. Birdən fikirləşdim ki, ərimin evdə olduğu günlərdə uşaqları onun yanında qoyub camaşırxanaya gedim.

Bir gün əhvali-ruhiyyəsi yaxşı olanda ərimə dedim: "Uşaqlara baxarsan, mən qonşularla camaşırxanaya gedirəm".

Bir söz demədi. Üzündən bildim ki, razıdır. Çadramı başıma atıb tez evdən çıxdım ki, birdən "yox" desə, eşitməyim. Qonşu xanımlarla mikroavtobusa minib getdik. Beş-altı dəqiqədən sonra artıq camaşırxanada idim.

Camaşırxananın önünə üst-üstə paltar və mələfələr yığılmışdı. Onların yanından keçəndə burnuma qan qoxusu doldu, cavanlara görə ürəyim kabab oldu. Özüm əziz müsibəti görmüşdüm. Əbdülkərim və Əbdürrəhim Dezfulilər əmim uşaqları, Mahmud Ələmnişan da bibim oğlu idi. Onları qardaşım kimi sevirdim. Cəbhədə şəhid olmuşdular. Orada məni ağlamaq tutdu.

Camaşırxanada xanımların sayı çox idi. Yumaq, xlorla ləkələri təmizləmək, tapdamaq, suya çəkmək və iplərdən asmaq üçün dəstələrə bölündük. Mən hovuzda suya çəkirdim. Yaralıların paltarlarını yuyanda daha da güclənir, evin və uşaqların işlərini daha yaxşı görürdüm. Hər gün səbirsizliklə gözləyirdim ki, ərim işdən qayıtsın, uşaqları qoyub gedim.

Bir gün mənə dedi: "Daha camaşırxanaya getməyəcəksən!"

Əsəbləri korlanmışdı. Xərçəng xəstəliyi də onu əldən salırdı. Ona dedim: "Öz uşağım yoxdur, sənin uşaqlarına analıq edirəm, əllərini ağdan-qaraya vurmağa qoymuram. Cavanlar isə cəbhədə tikə-tikə olurlar. Qoy gedib qanlarını yumağa kömək edim, bəlkə bir savab qazanmış oldum".

– Savab odur ki, evinlə, ailənlə məşğul olasan.

Nə qədər israr etdimsə, xeyri olmadı. Xanımların biri ardımca gəlib dedi:

– Maşın gəlib, niyə hazırlaşmamısan?

– Bu gün bir qədər işim var, gələ bilməyəcəyəm, - dedim.

Bir neçə gün xanımları iş bəhanəsi ilə yola verdim, ərimin narazı olduğunu söyləmədim. Ümidvar idim ki, razılıq verər. Əgər razı olmadığını desəydim, daha məni aparmazdılar.

Bir neçə gün ötdü. Çox narahat idim. Birdən dəli kimi oldum, iki ayağımı bir başmağa dirəyib dedim ki, getməliyəm. Lakin o da sözündən dönmürdü. Hədələdim ki, səndən ayrılaram. Həqiqətən də, yolayrıcında idim. Bu barədə fikirləşirdim də, ancaq nə qədər edirdimsə, anasız uşaqları tərk etməyə ürəyim gəlmirdi. Ərimin deyinməsinə, hirslənməsinə də hövsələm yox idi, amma xəstə olduğuna görə ona da yazığım gəlirdi.

Dedim: "Yaxşı, getmirəm, günahı sənin boynuna. O dünyada bağışlamayacam!"

Qəhərdən boğulurdum. Sanki həbsdə idim. İşləri könülsüz görür, ərimlə danışmırdım. Uşaqlar bir söz soruşanda bir-iki kəlmə ilə cavab verirdim. Özümü evə həbs etdim, daha qonşu qadınların yanına da getmədim. Bir qədər sakitləşmək ümidi ilə oruc tutdum. Bir-iki gün belə keçdi. Üçüncü axşam ev işlərini gördüm və iftar açmamış yatmağa getdim. Ədyalı başıma çəkib yavaşca ağladım ki, məni yuxu tutsun. Yuxuda gördüm ki, əba geymiş və niqab taxmış xanımlar salavat deyə-deyə paltar yuyur, hovuzlarda suya çəkirlər. Həsrətlə onlara baxdım. Biri mülayim şəkildə mənə dedi: "Gəl kömək elə, axırda Kövsər hovuzundan payını alarsan". Ürəyimə gəldi ki, o, həzrət Zeynəbdir.

Sübh azanına az qalırdı. Dəstəmaz alıb namaz qıldım. Ərimin namazını bitirməsini gözlədim. Gedib yanında oturdum. Son atəşim idi; yenə razılıq verməsəydi, daha

yolum qalmayacaqdı. Ürəyimdə həzrət Zeynəbə təvəssül etdim. Ağlamaqdan danışa bilmirdim. Birtəhər yuxumu danışdım. Bir neçə dəqiqə heç nə demədi. Birdən dilləndi:

– Mən evdə olanda uşaqları qoyub gedərsən.

– Ağa... sağ ol, – heyrət içində ona dedim.

Ondan sonra mən iş başında olanda servis gəlsəydi də, deyirdi ki, mən edərəm, sən get, servisi qaçırma. Bəzən birdən-birə qanlı paltarlar çoxalırdı, günorta ardımızca maşın göndərirdilər. Tez süfrəni sərirdim. Ərim deyirdi ki, get, özüm uşaqlara xörək verərəm.

Yenə camaşırxanaya gedib ruhlandım. Cəbhədən maşın-maşın ədyal gətirib camaşırxananın önünə boşaldırdılar. Bir neçə nəfər hovuzda yuyurdu, bir dəstə də ləyənlərdə yuyucu tozu və xlor töküb ləkələri təmizləyirdi. Mən də iki-üç nəfərlə hovuzun kənarında otururdum, mələfələri çəngələyib yuyurdum ki, xlor iyi qalmasın. Yuduqlarımız par-par parıldayırdı. Hansı mələfədə ləkə olsaydı, xanımlara qaytarırdım ki, bir də yusunlar. Soyuq suyun içində əllərim keyiyir, yaralanırdı. Atam hər dəfə məni görəndə deyirdi: "Yaxın gəl, bu əlləri öpüm".

Camaşırxanadan evə yorğun qayıdırdım. Başımda həmişə qan və xlor qoxusu olurdu. Əsla istirahət etmirdim. Ev işlərini görür, uşaqlara anadan artıq baxırdım ki, ərim peşman olmasın. Razıydı, amma həmişə həyəcanlı idim ki, birdən getməyə qoymaz. Bəzən xəstəlikdən, partlayışlardan və çoxlu işdən bezirdi. Mən hər dəfə əba geymiş xanımları xatırlayanda halım yaxşılaşırdı, hər bir çətinliyə dözürdüm. Duayla, nəzir-niyazla müharibənin sonuna qədər camaşırxanaya gedib şəhid anaları ilə birlikdə döyüşçülərin paltarlarını yudum.

## Suğra Bustak

Hər bir bombardmanda Əndimeşkin suyu və elektrik enerjisi kəsilirdi. Bəsic uşaqları təklif etdilər ki, ədyalları yumaq üçün şəhərin mərkəzindən 5 km kənara, Dez çayının kənarındakı çimərliyə gedək.

Ağa Müəyyidlə xanım Sima Kərimi bizi mikroavtobusla oraya aparırdılar. İyirmi dəqiqə yolda olurduq. Hər gün ordu qüvvələrinin ədyallarından ibarət bir dağı cəbhədən birbaş çayın sahilinə aparıb boşaldırdılar. Yuyanda həmişə çadra başımızda olurdu, ətəyini belimizə möhkəm bağlayırdıq. Deyirdilər ki, yuyucu tozu gətirməniz lazım deyil, amma əksər xanımlar evlərindən yuyucu tozu, əlcək və çəkmə gətirirdilər. Yuyucu tozunu az tökür, daha çox əlimizlə çəngələyir, tapdayırdıq. Axar çay idi, ədyallar çox asanlıqla təmizlənirdi. Yuyandan sonra rulon şəklində büküb ayaqla üzərinə çıxırdıq ki, suyu sıxılsın. Sonra hamısını böyük daşların və ya səkinin üzərinə sərirdik. Günəşin altına sərmək və yığmaq kişilərin işi idi. Qırx qadın səhərdən-axşama qədər dayanmadan çayın kənarında ədyal yuyurduq. Nə qalırdısa, ertəsi günə saxlayırdıq.

Həftədə iki-üç gün oraya gedirdik. Səhərdən axşama qədər soyuq sudaydıq; islanırdıq, bədənimiz ağrıyırdı. Su bizi həm də şən edirdi. Hamı ciddi şəkildə, istirahət etmədən yuyanda bizim dəcəlliyimiz də başlayırdı. Əyilib ovuclarımızı su ilə doldurur, digərlərinə atırdıq. Onlar da atəşlərimizi cavabsız qoymurdular. Eynilə sudan çıxmış bir siçan kimi islanır, amma çox gülüb əylənirdik. Çimərlikdə o qədər ədyal yumağımıza baxmayaraq, yumaq üçün məscid və evlərə də camaşır verirdilər.

1981-ci ildə Şəhid Kələntəri xəstəxanası açıldı, onun bir hissəsində camaşırxana fəaliyyətə başladı. Cavad Zivedari İmdad komitəsinin rəhbəri idi. O mənə bir mikroavtobus verdi. Sürücüsü ya Lorustani idi, ya da Əlizadə. Hər bir məhəllənin xanımlarına deyirdim ki, bir yerə toplaşsınlar. Mikroavtobusla gedib hamısını toplayır, camaşırxanaya aparır, günbatan çağı da məhəllələrinə qaytarırdım. Gündəlik bir neçə bölgədən otuzdan çox adam toplayırdım. Xanımların sayı günbəgün artırdı. Onların hər biri öz qohum-qonşularını da gətirirdi. Mikroavtobusun ikinəfərlik oturacaqlarında üç-dörd nəfər otururdu. Bəziləri də ortada keçiddə oturur və ya ayaq üstə dayanır, bir qismi də piyada gəlirdi. Bir müddətdən sonra xəstəxana tərəfindən hər məhəlləyə bir servis ayırdılar. Artıq sürücülər evləri tanıyırdılar və mənə ehtiyac olmurdu.

Xanımlar mikroavtobusda döyüşçülərin qələbəsi, sürücünün, rəhbərimizin və camaşırxana qadınlarının salamatlığı üçün salavat deyirdilər. Camaşırxanada adətən xanım Dərikvənd çox yaxşı mərsiyələr, şeirlər oxuyur, eyni zamanda işləyirdi. Digərləri də ruhlanır, təkrarlayırdılar. Onların salavat zikrlərinin ritmi çox maraqlı idi: mindən başlayıb yüz minə qədər davam edirdi: "Min dəfə salavat, Məhəmməd və ali-Məhəmmədin gözəl adının gözəl ətrinə salavat!"

Nənə-İbrahim çox mehriban və gülərüz qadın idi. Həmişə salavatların ortasında: "Öz salamatlığımız üçün də salavat" – deyib hamını güldürməyə çalışırdı.

Camaşırxana qadınları canlarından maya qoyurdular. Hər bir iş üçün onların köməklərinə bel bağlamaq olurdu.

Təcili yardım maşınlarından birinin Tehrandan ezam olunmuş sürücüsü qəza keçirib magistralda iki-üç qoyunu

vurmuşdu, cərimə verməli idi. Birdən beynimə gəldi ki, camaşırxananın qadınları ilə ona kömək toplayaq. Onlara dedim ki, belə bir hadisə baş verib, kömək edə bilərsinizmi?

İslami, Zare, Dərikvənd, Haruni, Nənə-İbrahim, Nənə-Eydi və digər xanımlar oradaydılar. Bir həftə keçmədən hamı kömək etdi və onun cəriməsi ödəndi.

Xanımlar başörtüklərini ağız və burunlarına bağlayırdılar ki, xlor qoxusu onları az incitsin. Paltarları dezinfeksiya etmək üçün detol maddəsindən də istifadə edirdik. Bəzi paltarlar ağ, gülləri göy idi, ləkələr üzərlərinə başqa güllər də salmışdı. Onları o qədər sürtürdük ki, ləkə tamamilə yoxa çıxırdı. Mələfələr üçün də detoldan istifadə edirdik. Az olduğuna görə deyirdilər ki, zəruri hallarda işlədək.

Cərrahiyyə şöbəsindən çoxlu mələfə göndərirdilər. Onları tez yuyub sərir, qurudurduq. Çünki oranın mələfələri həmişə qanlı olur, təmiz mələfəyə ehtiyac yaranırdı. Yaralıların paltarlarını torbaya qoyub üstünə sahibinin adını yazırdılar. Hər birini ayrı şəkildə yuyub torbaya qoyur və yenə adını yazırdıq. Cırılmış paltarları xanımların bir neçəsi tikirdi. Nənə-Eydi camaşırxananın həyətində yerə kovrolit sərib tikiş işlərini görürdü. Kişi işçilər gəlib yuyulmuş paltar və mələfələri palatalara aparırdılar.

Kimyəvi qaza bulaşmış paltarları ayırırdılar. Lakin kimyəvi silahdan yaralanmış birinin bir ədyal üzərində uzanması və o ədyalın camaşırxanaya gəlməsi mümkün idi. Bəzən də səhvən kimyəvi qaza bulaşmış paltarlar gətirirdilər. Onları yuyandan sonra əllərimiz gicişir, suluq bağlayırdı.

İsti və soyuqda xanımların ayaqları daim suda olur, paltarları islanırdı. Məsələn, mən fikirləşirdim ki, döyüşçü qardaşım, yaxud atam soyuq havada vuruşursa, deməli, mən də buna dözməliyəm. Bu yolla hamının isti-soyuğa dözümü çoxalırdı. Bunun özü də onlar üçün bir savab idi.

Bir dəfə Cərrahiyyə şöbəsindən gəlmiş paltarların birini çırpanda arasından yarıdan kəsilmiş bir barmaq düşdü. Çox pis oldum. Əvvəllər onlara ya xanım İslamipur, ya da xanım Zare qüsl verir, bir parçaya qoyub həyətdə basdırırdı. Qan laxtaları və ət parçaları camaşırlara yapışırdı, onları görəndə adamın halı çox pis olurdu. Hər kəs çalışırdı ki, özü dözsün, digərlərinə deməsin. Hamı gizlicə, səssizcə ağlayırdı. Çoxu şəhid və ya döyüşçü ailəsindən idi. Kimin qan təzyiqi yüksəlir və ya halı pisləşirdisə, xanım Sübhani onu dərhal Təcili yardım şöbəsinə aparırdı.

Mən 1984-cü ilə qədər camaşırxanada oldum, sonra tibb xidmətçisinə ehtiyac olduğuna görə könüllü şəkildə xəstəxananın Daxili xəstəliklər şöbəsinə keçdim.

# Fatimə Namipur (Xanım Şəbani)

Qulamhüseyn inqilabın qələbəsi üçün çox çalışır, həmişə məni və uşaqları da yürüşlərə aparırdı. Çox qorxmaz adam idi.

İnqilabdan qabaq polis idarəsinin yaxınlığında yaşayırdıq. Bir dəfə torpaq və qum dolu kisələri evin damına qaldırıb səngər düzəltdi. Hasarın üstünə açıq elektrik məftili çəkdi ki, polislər divardan həyətə keçə bilməsinlər. Axşamlar səngərdə dayanıb "Allahu əkbər" deyirdik. Polis qüvvələri atəş açırdılar, amma səngərə dəyirdi. Ərim İmam Xomeyninin İrana sağ-salamat gəlməsi üçün bir qurban nəzir etmişdi.

Hələ azadlığın ləzzətini dadmamış Səddam ölkəmizə hücuma keçdi. Tez-tez deyirdilər ki, iraqlılar şəhərə çatırlar. Əndimeşkdən qaçmağı vicdanımız qəbul etmirdi. Qulamhüseyn cəbhəyə getdi. Mən də evdən çoxlu ədyal, mələfə və qida məhsullarını Cavadül-əimmə məscidinə aparırdım, döyüşçülərə göndərirdilər.

Günortaya yaxın idi. Məscidin səsucaldanının səsini eşidib həyətə çıxdım. Bəsic uşaqlarından biri bir neçə dəfə elan etdi: "Döyüşçülərin ədyallarını məscidə gətiriblər. Kimin imkanı varsa, onlardan bir qədərini evinə aparıb yusun".

Oğlum Rzanın on iki yaşı vardı. Ona dedim ki, get məscidə, ədyal gətir.

Əl arabasını götürüb getdi və təxminən on ədyal gətirdi. Onları həyətdə yerə sərib islatdım. Mağazaya gedib dörd-beş qutu yuyucu tozu aldım. Ədyalların üstünə töküb şotkaladım, suyun təzyiqi ilə palçıqlarını yudum. Qışın yandırıcı soyuq və küləyində əl-ayaqlarım qızarır, hətta göyərirdi. Suyu axsın deyə ədyalları bir tərəfə qoydum,

sonra dama sərdim. İp və divarlarda ədyal sərməyə yer qalmadı. Rza evdə olmayanda özüm təmiz ədyalları araba ilə məscidə aparır, çirkliləri gətirirdim. Get-gedə yuyuculuq döyüşçüsü oldum.

Qulamhüseynin cəbhədən gəldiyi iki gün olmamış yenə çantasını hazırladı, uşaqları qucaqlayıb öpdü, çantasını götürüb həyətdə dayandı, mənə baxıb dedi:

– Məndən xəbər ala bilməsən, gec qayıtsam, tez-tez korpusa gedib onları narahat etməyəsən ha!

– Belə danışma. İnşallah, sağ-salamat qayıdacaqsan.

Ramazan əməliyyatı başlamışdı. Hər gün Dərvişali Dərikvəndin evinin önünə toplaşırdıq. O bizi Vanet yük maşını ilə camaşırxanaya aparırdı. Bir batalyon qadın idik, mələfə və paltarlar isə bitmək bilmirdi. Günbatan çağı evə gələndə də məsciddən ədyal alıb yuyurdum. O qədər şəhid və yaralı gətirirdilər, o qədər çirkli camaşır görürdüm ki, nə qədər yuyurdumsa, yorulmurdum. Əsla bekar dura bilmirdim. Gecələr səbirsizliklə gözləyirdim ki, səhər açılsın, camaşırxanaya gedim. Qulamhüseynə görə narahat idim, amma başımı qarışdırırdım ki, pis fikirlərdən uzaq olum.

Bir müddət keçdi, ərimdən xəbər gəlmədi. Bəsicə getdim. Qardaşların birinin önündə siyahılar vardı. Məni görən kimi onları əksinə çevirdi.

Ona dedim:

– Qulamhüseyn Şəbaniyə nə olub?

– Bacım, döyüşçülərin çoxu əsir düşüb. Hələlik bizim də xəbərimiz yoxdur. Radioya qulaq as, əsirlərin adlarını orada oxuyurlar.

Döyüş yoldaşlarından bir neçəsini tanıyıb yaxınlaşdım. Yaralanmışdılar. Dedilər ki, Qulamhüseyn əsir düşüb.

Səhər tezdən oyanıb namazımı qıldım, radionu açdım, uşaqların səhər yeməyini verdim. Rza Bəsicə getdi. Şahnaz beşinci sinifdə oxuyurdu; mənimlə camaşırxanaya getməyə hazırlaşdı. Afşin, Zeynəb və Məsumə isə balacaydı. Onlara dedim ki, mən qayıdana qədər birlikdə oynayın. Radioya nə qədər qulaq asdımsa, ərimin adını eşitmədim. Radionu söndürüb Şahnaza dedim: "Tez gedək, servisi qaçırmayaq".

Paltar və mələfələri camaşırxananın önünə yığmışdılar. Şahnaz onlardan bir neçəsini gətirib yanıma qoyurdu. Ləyənin yanında oturub yumağa başladım. Daim gözləyirdim ki, bir nəfər gəlib Qulamhüseynin xəstəxanaya gətirildiyini söyləyəcək.

Xəbər çıxmadı. Axşamüstü mikroavtobusa minib evə qayıtdıq. Enəndən sonra addımlarımı yeyinlətdim ki, evə tez çatım. Öz-özümə deyirdim ki, Qulamhüseyn, bəlkə də, həyətdə uşaqlarla oynayır. Qapını açdım. Uşaqlarım səssizcə həyətdə oturmuşdular. Ağlamağımın qarşısını alıb başlarından öpdüm. Onlara baxıb yetim olacaqlarını düşünürdüm, ürəyim od tutub yanırdı.

Hər gün camaşırxanadan evə qayıdanda radionu açıb həyətdə yanıma qoyur, səsini ucaldıb ədyal yuyurdum. On bir ay ötürdü, mən hələ də xəbərsiz idim. Tehrana qədər getmişdim, heç yerdə adı yox idi. Eşitdim ki, onun döyüş yoldaşı olmuş bir əsir evinə məktub yazıb. Bizim qonşumuz idi. Onlara getdim. Bacısı oğlu məktubu oxuyurdu, məni görmürdü. Məktubun bir yerində belə oxudu: "Qulamhüseyn Şəbani bizim yanımızda şəhid oldu".

Ayağa qalxdım. Bədənim tir-tir əsirdi. Xanımlar məni dövrəyə aldılar. Hərə bir söz deyirdi, amma yaxşı eşitmirdim. "İlahi, mənə kömək elə, uşaqların yanında

özümü itirməyim!" – ürəyimdə dedim. Evə gedib uşaqlara dedim: "İnşallah, atanız qayıdacaq".

Bir neçə gündən sonra korpus ona yas məclisi keçirdi. Mənsə onun qayıdacağına çox ümidvar idim, uşaqlarımın məyus olmasını istəmirdim.

Evdə qərarsız idim. Ürəyim istəyirdi silah götürüb cəbhəyə gedim, amma balaca uşağım vardı və eşitmişdim ki, xanımları aparmırlar. Camaşırxana mənim cəbhəm oldu. Hər gün axşamüstüyə qədər xəstəxanada döşəkağı, axşamlar da gecəyə qədər evdə ədyal yuyurdum. Bəzi günlərdə camaşırxanada iş az olanda evdə qalıb uşaqlarımla vaxt keçirirdim. Məsciddən ədyal alıb uşaqlarla evdə yuyur, şəhidlərin dəfninə və ailələri ilə görüşlərə gedirdim.

Bir gün camaşırxanada bir paltarı açdım. Dəlik-deşik olmuş, qana bələşmişdi. Özümü saxlaya bilməyib ağladım. O qədər şəhid qanını və cəsədini görəndə həzrət Zeynəbi xatırlayırdım. Ərimin gəlməməsi, uşaqlarımın gözlərinin yolda qalması, gündə bir neçə dəfə helikopterlə endirilən yaralılar...

Qızım Şahnaza baxanda daha çox ağlayırdım. O, üzərində, bəlkə də, atasının qanı olan paltarları xanımların yanına qoyurdu. Xanımların biri dəri və ət tikələrini topladı, bir parçanın arasına qoyub bayıra çıxdı. Xanımlar onun arxasınca salavat deyirdilər. Mən də yaşlı gözlərlə salavat dedim. Həmin gün çox ağlayıb yüngülləşdim və yaxşı əhvalla evə qayıtdım.

Xəstəxanadan yenicə gəlib pilləkənin üstündə oturmuşdum. Paltarlarım hələ yaş idi. Qardaşım gəlib dedi:

– Hardaydın?

– Camaşırxanada.

– Ərin itkin düşüb, qayıdıb-qayıtmayacağı məlum deyil. Hələ otuz yaşın var, gərək uşaqlarını özün böyüdəsən. Əgər xəstələnsən, onlara kim baxacaq?

– Mən və balalarım heç kimdən artıq deyilik. Mən çox narahatam ki, burda qalmışam, uşaqlarsa cəbhədə şəhid olurlar.

Rza adını cəbhəyə yazdırmışdı. Nəhayət, getməyə razılıq verdilər.

Bir gün gəlib dedi:

– Ana, axır ki, sabah cəbhəyə gedirəm.

– Allah dayağın olsun! – başını öpüb dedim.

Bazara gedib şirniyyat aldım, mikroavtobusa minəndə Rzaya və dostlarına verdim. "İlahi! Sənə şükür ki, bu oğlum var, atasının silahını yerdə qoymur!" – deyə öz-özümə düşündüm. Qohumlar məni məzəmmət edib deyirdilər ki, atası itkin düşüb, bu uşağı getməyə qoyma, mənsə razılaşmırdım.

Bir müddətdən sonra yaralandı, kimyəvi xəsarətlə geri döndü. Onu evdə qoyub camaşırxanaya gedirdim. Ayağa qalxan kimi yenə cəbhəyə qayıtdı. Hiss edirdim ki, Qulamhüseyn məndən razıdır, ancaq bununla qane olmurdum, istəyirdim daha çox çalışım və Allah Qulamhüseyni mənə qaytarsın. Müharibənin sonuna qədər şəhid ailələri ilə görüşlərə getdim, cəbhəyə kömək topladım, camaşırxanada işlədim; ümidvar idim ki, ərim qayıdar. Yatanda da radio qulağımın dibində olurdu.

On dörd il üç ay günləri sayandan sonra mənə bir kimlik nişanı və bir neçə sümük parçası gətirdilər. Ərimi yenidən görmək, səsini eşitmək arzusu ürəyimdə qaldı. Müharibə illəri, ümid və intizar özümə qapılmayıb ərimin yolunu davam etdirməmə səbəb oldu. Bəlkə də, şəhid olduğu vaxt cəsədini gətirsəydilər, hər gün şəhid

paltarlarını yuya bilməzdim. İnandım ki, Qulamhüseyn bütün müharibə illərində mənim və uşaqlarımın yanında olub. O, müharibədən sonra da heç vaxt bizi tək qoymadı.

## Minu Cəmil

Uşaqların beş-altısı ilə korpusun İctimai əlaqələr şöbəsindəydim. Qəzetlərdən mühüm xəbərləri kəsib arxivləyirdik. Qardaşların biri qapını döydü. Açdım.

– Cəbhədən çoxlu ədyal gətirib məscidin həyətinə tökmüşük, - dedi. - Xanımların bir neçəsini toplayıb Əbəlfəzl məscidinə aparın.

– Oldu.

Şəhidlər məhəlləsinin məscidi idi. Uşaqların ikisi ilə birlikdə piyada oraya getdim. Qurumuş qan və palçıq ləkələri olan iki yüzdən çox ədyal vardı. Uşaqlara dedim: "Gərək məscidin bütün qonşularını səfərbər edək, yoxsa bir həftəyə də yuyulub qurtarmaz".

Evlərə getdim. Hansı xanıma deyirdimsə, sevincək çadrasını başına atıb məscidə gedirdi. On-on beş nəfər olduq. Çoxu özü ilə yuyucu tozu və ləyən də gətirdi.

Məscidin həyətində bir su kranı vardı. Metal vedrələrlə su daşıyıb ədyalları islatdıq, sonra yumağa başladıq. Bəzi ədyalların arasındakı qan laxtalarını görüb ağlayırdım. Çox emosional idim, digərlərinin qanını və ağrısını görməkdən həmişə qaçırdım. Ədyalları yumaq üçün də özümlə çox mübarizə apardım. Çox acıyırdım. Hamının halı pis idi.

Günbatana qədər yarısını yuduq. Axşam xanımların çoxu bir neçəsini götürüb evdə yumağa apardı. Mən də yaş paltarla çadramı başıma atıb evə doğru yola düzəldim. İyirmi dəqiqəlik yolum vardı. Soyuqdan çənəm əsirdi, dişlərimin taqqıltısını eşidirdim. Lakin bu, önəmli deyildi. Çətin olan qan laxtalarını görmək idi; gecədən səhərə qədər yuxuda da gözlərim önündən getmədi. Bir neçə dəfə qışqırıb yuxudan diksindim. Ertəsi gün səhər çağı yenə

məscidə getdik. Dünən yuduğumuz ədyalları qardaşlar dama və divarlara sərmişdilər.

Günorta Məhin Sufivənd dedi: "Anam yemək hazırlayıb. Bu gün hamınız bizə qonaqsınız".

O, həm Təminat bölməsində, həm də ədyalları yumaqda bizə kömək edən qızlardan idi. Uşaqların biri ilə evə gedib yeməyi gətirdi. Ədyalların birini məscidin həyətinə sərdik. Tozlu idi. Hamımız onun üzərində oturub deyə-gülə nahar etdik, sonra günəş batana qədər yenə dayanmadan yuduq. Yuya-yuya salavat deyir, mərsiyə oxuyur, şüar söyləyirdik. Nəhayət, qürub çağı hamısı bitdi. Lakin bu, məsciddə ədyal yumağımızın başlanğıcı oldu.

Vicdanım məni möhkəm olmağa, qan görüntülərinin və Hüseyn üçün narahatlığımın məni əldən salmasına imkan verməməyə məcbur edirdi. İsti-soyuq bilmirdim, daha çox ədyal yuyanda daha çox zövq alırdım və Hüseynin ayrılığı məni daha az incidirdi. Qışın soyuğunda yaş paltarla evə gedirdim. Yolda soyuqdan çənəm əsir, dişlərim bir-birinə dəyib taqqıldayır, dırnaqlarım göyərirdi. Evdə otağa girib maqnitofonu yandırır, Hüseynin səsi ilə yatırdım. Bir müddətdən sonra kaset xarab oldu. Oturub uşaq kimi doyunca ağladım. Hüseyn inqilabın mənə hədiyyəsi idi, Səddam onu məndən uzaqlaşdırmışdı.

***

Liseydə oxuyurdum. Uşaqların bir neçəsi ilə birlikdə hərbi təlim də görmüşdüm. 1982-ci idə novruz bayramından bir neçə gün qabaq on-on beş nəfərimizə dedilər: "Bir qədər zəruri əşya götürün, ezamiyyətə gedirik. Nə vaxt qayıdacağımız bəlli deyil".

Evdən icazə aldım, iki-üç dəst paltar götürüb səhər tezdən qərarlaşdığımız yerə getdim. Pasdar qardaşların biri bizə məlumat verdi. Qərara alındı ki, gecə-gündüz Dokuhə

yoxlanış məntəqəsində keşik çəkək və oradan keçmək istəyən bütün xanımları yoxlayaq.

Bizi mikroavtobusa mindirdilər. On dəqiqədən sonra postda yerə endik. Biz bir konteynerdə qalırdıq, qardaşlar bir konteynerdə. Həmin gün axşamüstü məni çağırdılar. Bir pasdar qardaş konteynerin önündə dayanıb dedi: "Mən Mirsamiyəm, bacıların nəyə ehtiyacı olsa, mənə deyin".

İkinci gün hər yerdə Fəthülmübin əməliyyatının başlanmasına dair xəbər dolaşdı, yolda böyük qələbəlik yarandı. Hamını yoxlayırdıq. Çoxu qaçqın idi, amma aralarında silah gizlətmiş adamlar da vardı. Bizim işimiz olduqca həssas və təhlükəli idi. Hər gün çoxlu silah, qumbara və partlayıcı maddə tapırdıq. Bəzi gecələr sübhə qədər güclü yağış altında və soyuqda qalırdıq. On dörd gündən sonra sabitlik yarandı və biz evə qayıtdıq.

Ailəm üçün darıxmışdım, amma yorğunluqdan onların yanında otura bilməyib otağa girdim. Gözümə təzə yuxu gedirdi ki, anam çağırdı: "Minu can, səni çağırırlar".

Bayıra çıxdım. Hüseyn Mirsaminin bacısı Pəri idi. Yoxlanış postunda tanış olmuşduq. Cəmi iki saat idi ayrılmışdıq. Bir qədər həyəcanlandım.

– Postda nəsə baş verib? – deyə soruşdum.

– Yox, özünlə işim var.

– Gəl içəri.

– Yox, bir söz soruşub gedəcəm.

– Minu, – mənə yaxınlaşıb qulağıma dedi, – nişanlın var?

– Yox. Nə olub ki?

– Heç nə. Bir nəfər məndən xahiş etdi ki, soruşum.

Gülə-gülə sağollaşıb tez getdi. Çox yuxulu və yorğun idim. Onun rəftarı mənə qəribə gəldi. Otağa qayıdıb özümdən getdim.

Bir neçə gündən sonra Pəri yenə gəlib dedi:

– Qardaşım Hüseyn onun barəsində fikrini bilmək üçün səninlə danışmaq istəyir.

– Mən dərs oxumaq istəyirəm, onun barəsində heç nə fikirləşmirəm.

Pasdarları, həqiqətən, sevsəm də, heç kimin izdivac üçün evimizə gəlməsinə icazə vermirdim. Lakin bir neçə gündən sonra ağa Mirsami ailəsi ilə bizə gəldi. Bildim ki, həmişə cəbhədədir, indi ailə qurmaq istəyir. Xoşum gəldi, çox rahatlıqla ona "hə" dedim və həmin ilin mayında nişanlandıq. On ikinci sinifdə oxuyurdum. Qərara gəldik ki, imtahanlardan sonra toy edək.

Ramazan ayı idi. Hüseyn bizə gəlib bir neçə dəqiqə oturdu. Getmək istəyəndə dedim:

– İftara qal.

– Bir qədər işim var, – dedi.

Qapının ağzında mənə sarı dönüb gözlərini üzümə dikdi. Ona dedim:

– De.

– Bir şey istəmirsən? – həmişəki kimi dedi.

– Yalnız canının sağlığını, – mən də həmişəki kimi cavab verdim.

İki gün ondan xəbərim olmadı. Atası bizə gəlib həyəcanla dedi:

– Korpus uşaqları deyirlər ki, Hüseyn iki gündür işə gəlmir. Sən bilirsən hardadır?

– İki gündür bura da gəlmir, – təşviş içində dedim.

Bir ay stres və həyəcanla, nəzir-niyazla keçdi. Bir gün qonşularının qızı zəng vurub dedi: "Ramazan əməliyyatında əsir düşənlərin səsi radiodan yayımlanıb. Biri deyib ki, Hüseyn Mirsami də bizim yanımızdadır".

Sevindiyimdən məni ağlamaq tutdu. Bir gün isə gülə-gülə yanıma gəlib dedi: "Muştuluq ver! Ağa Mirsaminin səsini radiodan yazıb sənə gətirmişəm".

Kaseti ondan alıb otağa girdim, dəfələrlə qulaq asdım.

Hüseyn əsir düşəndən sonra bir aydan çox evdən çıxa bilmədim. Hətta şəhidlərin dəfninə və şəhid ailələri ilə görüşə də getmirdim. Bir dəfə gedişindən bir neçə gün öncəki cümləsi yadıma düşdü: "Əgər bir zaman mən olmasam, arxa cəbhə işlərini davam etdir".

Korpusun İctimai əlaqələr şöbəsinə gedib dedim: "Düzdür, Hüseyn yoxdur, amma nə iş olsa, deyin, mən onun əvəzinə yerinə yetirim".

Hər gün səhərdən axşamüstüyə qədər orada olurdum. Xanımları və lisey qızlarını xəstəxanalara yaralıların ziyarətinə aparırdım. Məscidlərdə də yardım toplayırdım. Komandamızın bütün üzvləri gənc və işgüzar uşaqlar idi.

***

Mən qandan qaçan, əlim kəsiləndə ağlayan adam idim, amma iş o yerə çatmışdı ki, qanlı ədyalları yuyurdum. Məscidin həyətində qanlı su axırdı. Qəhərdən boğulurdum, amma ürəyimə salmırdım, müqavimət göstərirdim. Ürəyimdə deyirdim ki, görəsən, Hüseynin paltarlarını kim yuyur? Qanlı ədyalları yumaq, həqiqətən, ağrılı idi. Lakin kim bir dəfə yuyurdusa, bu işi tərk etməyə vicdanı yol vermirdi. Çoxlu xanımlar Şəhid Kələntəri xəstəxanasının camaşırxanasında yuyurdular. Mən korpusun İctimai əlaqələr şöbəsində idim. Hər dəfə əməliyyat olanda və ya cəbhədə adam çoxalanda məscidlər də qanlı ədyal və mələfələrlə dolurdu. Mən həzrət Əbəlfəzl məscidinə gedib məhəllənin qadınlarını toplayırdım. Niyyət edirdim ki, Hüseynin salamatlığı üçün edirəm. Özüm də onlarla

birlikdə qanlı ədyalları yuyurdum. Yuya-yuya xanımlarla birlikdə salavat deyirdik.

1983-cü ildə Hüseyndən mənə ilk məktub gəldi və ondan sonra məktub vasitəsilə ilə bir-birimizin vəziyyətindən xəbər tutmağa başladıq. Gənc qız idim, daim evdən bayırda fəaliyyət göstərirdim, barəmdə söz-söhbət olurdu. Bəziləri deyirdilər ki, Hüseyn qayıtmayacaq, taleyini məhv eləmə, get ailə qur. Bu sözləri eşidəndə ürəyim od tutub yanırdı.

Bir gün Hüseynin anası bizə gəlib dedi: "Hüseyn məktub yazıb, deyib ki, səninlə danışım, boşanasan, onu gözləməyəsən".

Bunu Hüseynin söylədiyinə inana bilmirdim. Bu barədə, ümumiyyətlə, fikirləşmək istəmirdim. Ona dedim: "Ana, icazənlə mən işə getməliyəm".

Ayağa qalxıb getdim. Dedilər ki, ədyallar bir-iki saata məscidə gələcək. Mən də Qırmızı Aypara Cəmiyyətinə Hüseynin məktubunu almağa getdim. Zərfi alıb öpdüm. Anasının sözü yadıma düşdü, qorxdum. İdarənin önündə zərfi açdım. Belə yazmışdı: "Salam. Bunu deməyə ürəyim gəlmir, amma burada bir ruhani var, deyir ki, şəriət baxımından günahdır; gərək xanımına deyəsən ki, ailə qursun".

Gözlərimə inana bilmirdim. Diqqətlə oxudum. "Yəni bu, Hüseynin sözüdür?! Elə camaatın tənəsi çatmırdı! Hüseyn, bəs sən niyə?!" – deyə öz-özümə danışdım. Narahat halda məscidə getdim. Hirsli idim. Tez-tez ədyal yuyurdum. Nəhayət, özümü saxlaya bilməyib xeyli ağladım. Xanımlar vəziyyətimi görüb israrla səbəbini soruşdular. Heç kimə bir söz demədim. Ədyalların yuyulub bitməsini səbirsizliklə gözləyirdim. Həmişəkinin əksinə olaraq, hamıdan tez məsciddən çıxıb evə getdim,

bir vərəq götürüb ağzıma gələni yazdım, Hüseynə və həmin hacı ağaya ürək sözlərimi dedim. Səhər tezdən Qırmızı Aypara Cəmiyyətinə gedib məktubun cavabını verdim. Mən yarımçıq yoldaş ola bilməzdim!

# Güllü Səadət

Şəhidlər küçəsində yaşayırdım, həzrət Əbəlfəzl məscidinin qonşularından idim. Müharibənin ilk aylarında Zöhrə Bağban məscidə gəlib xanımları topladı, dedi ki, şəhid analarına baş çəkməyə gedirik.

Hər həftə bir neçə şəhidin evinə baş çəkir, dəfn, yeddi və qırx mərasimlərinə gedirdik. Çox mülayim və səbirli idim, hamı ilə tez isinişirdim. Adımı Yaxşı işlərə dəvət mərkəzinə də yazdılar. Beş-altı nəfər idik. Gündüz bazara və adamların sıx olduğu digər yerlərə gedib hicabı düzgün olmayan xanımlarla danışırdıq. Hər bir münasibətdə şəhərdə paraddan keçirdik. Cümə günlərində də cümə namazına gələnləri yoxlayırdım. Döyüşçülərin ədyallarının məsciddə xanımlara yuyulmağa verildiyini görürdüm. Lakin bütün zamanım Bəsicin proqramları ilə dolurdu.

Bir dəfə günbatan çağı Bəsicdən evə qayıtdım. O qədər ayaq üstə dayanmış və yol yerimişdim ki, dizlərim bərk ağrıyırdı. Həyətdə oturdum. Üst-üstə yığılmış ədyallar gözümə sataşdı. Otuz-qırx ədəd idi. Onların bir neçəsini açdım. Üzərindəki qan və palçıqlar qurumuşdu. Mən ədyal istəməmişdim, buna görə təəccübləndim. İstirahət etmədən bir neçəsini həyətə sərib şlanqın suyu ilə islatdım.

Ərim gələndə ondan soruşdum:

– Rəhman, sən bilirsən bunları kim gətirib?

– Mən gətirmişəm, – deyə cavab verdi.

Onu mağazaya yuyucu tozu almağa göndərdim, özümsə çoxunu islatdım. Həyətdə qanlı su axırdı. Bir qədər ev işlərini gördüm, şam yeməyi hazırladım. Şamdan sonra Rəhmanla və qızlarla birlikdə ədyalların yanına getdik. Rəhman həyətdə ip bağladı, ədyalların bir neçəsini yuyub

sərdik. Üç-dördünü də açdım. Gördüm ki, onlara xırda-xırda ət və dəri parçaları yapışıb. "Rulə, rulə" – deyə-deyə onları toplayırdım. Hamısını bir sellofan torbaya yığdım. Bütün ədyalları yuyandan sonra bağçada yeri qazıb həmin parçaları basdırdım. Gecənin yarısına qədər hamısını yuduq. Sonra Rəhmana dedim: "Allah səndən razı olsun! Nə vaxt məsciddə ədyal olsa, gətir, axşam yuyaq".

Get-gedə həyətin bağçası diri, yoxsa şəhid olduqlarını bilmədiyim insanların xırda bədən parçalarının məzarlığına çevrildi. Ət və dəri zərrəciklərini, hətta qan laxtalarını da dəfn edirdim. O səhnələri gördükcə daha çox yuyurdum. Hətta hamilə olanda da yumamağa ürəyim gəlmədi. Soyuq sudan və yuyucu tozundan əllərimin dərisi bərkiyib yara olurdu. Uşağıma süd verəndə əlimi üzünə vurmağa qorxurdum; dərisi zərif idi, əlimin bərkliyi onu incidib ağladırdı.

Əndimeşk yerli və gəlmə döyüşçülərlə dolu idi. Yaxşı işlərə dəvət patrulu çıxarkən bəzən başqa yerlərdən döyüşçülərə problem yaratmağa gəlmiş insanlarla rastlaşırdıq. Onlar, bəlkə də, düşünürmüşlər ki, inqilabdan öncə olduğu kimi, indi də Əndimeşkdə əylənə, kinoteatra gedə, şərab içə və şəhərdə veyillənə bilərlər.

Şəhərin ətrafı hərbi düşərgələrlə doluydu. Şah zamanında biz xanımlar günortadan sonra bazara tərəf getməzdik. Çünki ora əsgər və hərbçilərin toplaşdığı yerlər idi. Müharibə başlayanda da Əndimeşk həmişə döyüşçülərlə dolu olurdu.

Mən səhərdən günortaya qədər ədyal yuyur, həyətboyu qanları axan cavanlara yazığım gəlirdi.

Bir gün günorta bir qədər istirahət edib axşamüstü bazara getdim. Çox qələbəlik vardı. Gördüm ki, bir neçə xanım döyüşçülərə baxıb xoşagəlməz sözlər deyir və

ucadan gülür. Belə hallarda çox çalışırdım ki, sərt reaksiya verməyim. Ancaq o qədər qan və cəsəd parçası görmüşdüm ki, daha əvvəlki səbrim qalmamışdı.

Yaxınlaşıb hirslə qışqırdım:

- Baxıb güldüyünüz bu adamların bədənlərinin hansı parçasının hara düşəcəyi bəlli deyil. Əgər bomba və raket səsi bir-iki dəfə canınıza vəlvələ salsaydı, bu qələtlərdən etməzdiz. Hardan gəlmisiz?

Yerli deyildilər. Çox qorxub tez-tez deyirdilər:

– Xanım... pis məqsədlə gülmürdük... bağışlayın...

– Sizə göstərərəm məqsədiniz pis olub, yoxsa yox! – deyə qışqırdım.

Əsəbdən bədənim qızmışdı, tərləmişdim. Yanımdakı yoldaşım əlimi tutub dedi:

– Sakitləş! Sən axı belə etməzdin!

Orada qala bilməyib evə getdim. Bir müddət Bəsicə getməyib ədyal yudum, nəhayət, halım yaxşılaşdı.

# Huma Puryeganə (Xanım Musazadə)

Evdə otaqların birini gözəllik salonu eləmişdim. Müharibə zamanı da salonum işləyirdi. Məhəllənin bütün qadınları ilə əlaqəm vardı. Salonum həmişə dolu olurdu. Hər bir iş görürdüm: üz alır, saç qısaldır, xanımları gözəl şəkildə evlərinə göndərirdim.

Müştəri gəlib hovuzun yanında oturanda və ədyalları çəngələyəndə isə yavaş-yavaş nə üçün gəldiyini unudurdu. Gözəllik salonu bir yerə toplaşıb ədyal yumaq üçün də yaxşı imkan idi. Ədyalları yuyanda bel ağrısından ayaq üstə dura bilmirdim, amma üz vurmur, xanımların işlərini də görürdüm.

Müharibə başlayandan demişdim ki, evdə yumaq üçün mənə ədyal və mələfə gətirsinlər. Linmən ailəsi ilə qonşuyduq. Hələ müharibədən bir ay ötməmiş onlar Land Cruiser avtomobili ilə döyüşçülərin ədyal və mələfələrini gətirib evlərinin önündə boşaldırdılar. Qonşulardan kim nə qədər bacarırdısa, evinə aparıb yuyurdu.

Bizim həyətimiz də böyük idi, ortasında kvadrat formalı bir hovuz vardı. Yuyulmalı əşyaları səhər çırpırdım ki, aralarında iynə və ya ülgüc olsa, əl-ayaq kəsməsin. Çünki bəzən uşaqlar hovuza girib ədyalların üstündə oynayırdılar.

Stansiya evlərində suyun təzyiqi güclü idi. Kranı açırdım, hovuz dolurdu, ədyalları onun içində yuyurdum. Sonra hovuzun qapağını açıb suyunu boşaldırdım, oradaca üzərlərinə xlor və yuyucu tozu tökür, xlorlu suda saxlayırdım. Uşaqların günorta yeməyini verib qayıdır, hovuzun kranını açıb onları ayaqla tapdayırdım. Qanlı su hovuzdan yerə tökülür, həyətdə qırmızı çay axırdı. Sonra onları bir də yuyucu məhlula qoyub ləkələrini sürtürdüm.

Ədyallara yuyucu tozu tökəndən sonra hovuzdan çıxarıb böyük ləyəndə suya çəkirdim. Həmin ləyən indi də qalır. Ona baxanda ağır müharibə günləri yadıma düşür.

Həyətdə dörd-beş paltar ipi çəkmişdik, amma az idi. Bizimlə qonşu həyətin önündə tut ağacları vardı. Ərim uzun məftil tapıb hər başını onların birinə bağladı. Yuduqlarımızı onların üstünə, günəşin altına sərirdik. Evin önündə sürahilər vardı. Onların üzərinə də ədyal sərirdim. Harada bir qədər günəş görürdümsə, ədyal sərirdim. Həyətdə bir çardağımız vardı. Yağış yağanda mələfələri iplərdən toplayıb onun altına aparırdım. Rütubətli mələfələri otaqda qızdırıcı lampanın yanına qoyurdum. Hava soyuq olanda axşamlar içəriyə aparıb yataqlardan, asılqanlardan – mümkün olan hər bir yerdən asırdım. Çox tezliklə xəstəxanadan onları aparmağa gəlirdilər. Hələ tam qurumamış qatlayıb verirdim.

Get-gedə ədyalları maşınla gətirməyə başladılar. Bir dəfə həyətdə idim. Nissan yük avtomobilinin səsini eşidib güllü çadramı ipdən götürdüm, başıma atıb qapıya yaxınlaşdım. Avtomobilin göy rəngi bütün kuzova yaxılmış palçığın altında itib-batmışdı. Linmənin oğlu maşının yük yerinə çıxıb həyətimizə bir qədər ədyal atdı. Maşının önündən bir cavan düşdü, əlindəki torbanı uzadıb dedi: "Buyur, bacı, bu yuyucu mayeni al. Əgər az olsa, deyərsiz, gələn dəfə çox gətirərəm".

– Onları apar. Qoyun bu müharibədə mənim də payım olsun.

– Ədyallar az deyil. Hər gün özünüz alsanız, çətin ola bilər.

Nə qədər deyirdimsə, israr edirdi. Axırda səsimi qaldırdım:

– Hələ ki varımdır.

Həyat yoldaşım Əbdülhəmid Musazadə heç vaxt ədyal yumağıma etiraz etmir, qutularla yuyucu tozu və xlor alıb evə qoyurdu. Özü stansiyada işləyirdi. Mikroavtobusu da vardı, könüllü şəkildə döyüşçüləri cəbhəyə aparıb-gətirirdi. Evə gələndə və mən yumaqla məşğul olanda mətbəxə keçib xörəyini qızdırır, yeyirdi.

Üç oğlum, bir qızım vardı. Müharibə başlayanda böyük uşağım beş yaşındaydı. Stansiyanın Altmış qohum məhəlləsində yaşayırdıq, qatar evimizin önündən keçəndə qonşularla küçədə dayanıb döyüşçülərin salamatlığı üçün salavat deyirdik. Onlar da başlarını qatarın pəncərələrindən çıxarıb deyirdilər: "Düşmən sizin dualarınız və müqavimətiniz sayəsində məğlub olacaq!"

Stansiyada qonşularımızın çoxu tehranlı və türk idi. 1980-ci ilin payızında onların çoxu iş yerlərini dəyişdirib getdilər. Bəziləri də ailələrini göndərib özləri qaldılar. Onlar gedəndə çox narahat oldum. Çünki düşmən müharibənin ilk günlərində Əndimeşkin 5 km-nə qədər gəlmişdi. Yuya-yuya öz-özümə deyirdim: "İlahi, əgər iraqlılar gəlsələr, mən bu uşaqları necə xilas edərəm?!"

Çox tezliklə onların yerinə başqa ailələr gəldi. Stansiyanın səyyar inşaat dəstəsi bizimlə üz-üzə yerləşirdi. Böyük bir zirzəmiləri vardı. Ora bizim sığınacaq yerimiz olmuşdu. Gecələr uşaqlarla birlikdə orada yatırdıq. Həyəcandan gözlərimizə yuxu getmirdi.

Gecələr partlayışların səsi çox yaxınlaşırdı. Hər an iraqlıların səngərə girib bizi əsir tutacaqlarını gözləyirdim, pis fikirlərdən başım gicəllənirdi. Sübh azanı veriləndə evə qayıdırdıq, namaz qılıb bir qədər istirahət edirdim. Gecələrimiz qorxu və həyəcanla keçirdi. Ədyal maşını gələn kimi sakitləşirdim, qorxularım yox olurdu. Bəlkə də, o qədər qanı görəndə özüm üçün narahat olmağa səbəb

qalmırdı. Döyüşçülərdən ötrü o qədər narahat idim ki, özüm və uşaqlar barədə fikirləşmirdim.

Bir neçə gün məhəlləmizə maşınlarla mələfə və ədyal gətirdilər. Yuyulması üçün çox tələsir, hələ tam qurumamış aparırdılar. Döyüşçülərin get-gəli də çoxalmışdı. Mələfələri açmağa fürsət olmurdu, qucaq-qucaq götürüb hovuza atır, tez-tez tapdayırdım. Ayaqlarımın altında iti şeylər hiss edirdim, amma əhəmiyyət vermirdim. Tük və dəri zərrəcikləri suyun üzünü tuturdu.

Hovuzun qapağını açdım; su boşaldı. Mələfələrin üzərinə yuyucu tozu və xlor tökdüm. Hamısı bir-birinə dolaşmışdı. Onları ayırıb birini götürdüm. Bütünlüklə qana boyanmışdı. Ləkələrini sürtdüm. Birdən əlimə bərk bir şey dəydi. Elə bildim daş parçasıdır. Mələfəni açanda isə özümdən asılı olmadan tez yerə atıb ayağa qalxdım. Bütün bədənim buza döndü, boğazımı qəhər, vücudumu qorxu bürüdü. Evdə heç kim yox idi. Çox çalışandan sonra özümü toparlayıb onu əlimə götürdüm. Əl barmağı idi, şişib göyərmişdi. Bərkdən ağlamağa başladım.

Atamla babam ruhani olduqlarına görə meyit qüslünü bacarırdım. Onu kranın altına tutdum, sonra ağ bir parçaya büküb bağçada dəfn etdim, yanında oturub hönkür-hönkür ağladım. Birdən yadıma düşdü ki, mələfə və ədyallar yuyulmayıb, onları tez təhvil verməliyəm. Gözlərimi yaylığımın ucu ilə silib "Bismillah" dedim və yumağa başladım. Tez-tez gözucu bağçaya baxırdım. Ürəyimdə tufan vardı: "İlahi, bu barmağın sahibi sağdırmı?! Ya Hüseyn!.."

Stansiya və xəstəxananın önündə qələbəlik yarananda məhəllədə xəbər dolaşdı ki, Fəthülmübin əməliyyatı baş tutub. Hələ günəş çıxmamış evlərimizə çoxlu mələfə və

ədyal gətirdilər. Dərhal işə başlayıb axşamüstüyə qədər hamısını yudum, ipdən asdım və divarlara sərdim. Yuya-yuya imamın və döyüşçülərin salamatlığı üçün salavat deyirdim. Çox yorulmuşdum. Bir az istirahət etmək üçün otağa girdim. Helikopter və təcili yardım maşınlarının səsi kəsilmirdi. "Sən yumaqdan yoruldun, bəs cəbhədə vuruşanlar insan deyillər?! Onlar yorulmurlar?!" – deyə öz-özümə düşündüm.

Evdə qalanda vicdan əzabı çəkirdim. Şəhid Behişti xəstəxanası bizdən dörd-beş dəqiqəlik məsafədə yerləşirdi. Uşaqları evdə qoyub oraya getdim.

Xəstəxanada adam əlindən yer yox idi; biri gəlir, biri gedirdi. Həyət və dəhlizlər yaralı ilə doluydu. Onları ədyalların üzərindən götürüb şöbələrə aparırdılar. Bir neçə nəfər də ədyal və mələfələri bir yerə yığırdı. Onların altından qan axırdı. Xəstəxanada mənim görəcəyim bir iş yox idi. Qardaşların birinə dedim: "Mələfə və ədyalları gətirin, yuyum".

Evimin ünvanını verdim. Ədyal və mələfə dolu maşın məhəlləmizə gəldi. Bütün xanımlar maşının ətrafına toplaşdı, hərə bir neçəsini götürüb apardı. Gecəyə qədər hamısını yuduq.

Hansı işi asan saysan, çətin olmaz. İşlərimi proqramla, amma tez-tez görürdüm, heç birini bir dəqiqə sonraya da saxlamırdım.

Beş-altı il idi həyatımız təyyarə gurultusu, bomba və raket partlayışı olmadan ötüşmürdü. Hər dəfə yerlilərimizin bir dəstəsi Səddamın amansızlığına qurban gedirdi. Partlayışlar o qədər vahiməli idi ki, hər dəfə bədənimizi titrədir, canımıza vəlvələ salırdı.

Günortaya az qalırdı. Yemək bişirdiyim yerdə birdən həyəcan siqnalını və səs maneəsinin yarılma səsini eşidib

qışqırdım. Uşaqlar məndən də bərk qışqırırdılar. Onları bağçaya apardım, bir toyuq cücələrini necə qanadları altına alırsa, o şəkildə hamısını qorumağa çalışdım. Təyyarələr dəstə-dəstə səmada uçuşub bombalarını tökür, gedirdilər. Hər an üzərimizə qonacaqlarını hiss edirdim. Onların enib-qalxma səsi partlayış səsindən qat-qat dəhşətli idi. Qorxudan beynim donmuşdu, uşaqları səyyar dəstənin zirzəmisinə aparmaq ağlıma gəlmirdi.

Təxminən iki saat bağçada qışqırıb təyyarə, tüstü və alov dolu səmaya baxdıq. Vəziyyət bir qədər sakitləşəndə Əbdülhəmid qaça-qaça bizə yaxınlaşdı. Oğluma qəlpə dəydiyini, paltarının altından qan axdığını görməmişdim. Ərimin qulağı və boynu da qanlı idi. Uşaqları qaldırıb maşına tərəf apardı.

Ayağımı küçəyə qoyanda yerimdə quruyub qaldım. Parça-parça olmuş insanlar asfalt üzərinə səpələnmişdilər. Qonşuların iki-üçü də yaralanmışdı. Ərim yaralıları maşına qoydu. Mən də minmək istəyirdim, amma yerdəki bədənləri görüb fikrimdən daşındım. O, qaza basıb Şəhid Kələntəri xəstəxanasına getdi, mənsə Stansiya meydanına tərəf qayıtdım.

Meydanı görəndə az qaldı dəli olum; tam bir qətlgah idi. Hər kəs qışqırıb bir tərəfə qaçır, yaralı və ya şəhidi yerdən qaldırırdı. Mən də köməyə getdim. Bərkdən ağlayır, qışqırır, yerdəki bədən parçalarını götürürdüm. Özümə gələndə daha qışqırmağa taqətim qalmamışdı. Əllərim əsir, barmaqlarımın arasından qan damırdı.

Günbatan çağı vəziyyət bir qədər sakitləşdi və mən evə getdim. Oğlum ibtidai sinifdə oxuyurdu. O, böyrü sarılmadan qanlı paltarla otaqda oturmuşdu. Ərim də qulağını bağlatdırmamışdı. Xəstəxanada o qədər sıxlıq var

imiş ki, heç bir iş görməmiş qayıtmışdılar. O qədər bədən parçalarını görmək də məndə hissiyyat qoymamışdı.

Bir neçə gün stansiyanın innab və xurma ağaclarının üzərində şəhidlərin parçaları və qanları qaldı. Tikə-tikə olmuş qadın və uşaqlar bir an da gözlərim önündən getmirdi. Ət parçalarını daim əlimdə hiss edirdim.

Məhəlləmiz xəstəxanaya və stansiyaya yaxın idi. Əlli dörd təyyarə təxminən iki saat müddətində şəhəri, xüsusən də stansiyanın və xəstəxananın ətrafını bombalamışdı. Haraya baxırdımsa, xarabalıq idi və yerdən qan axırdı.

Daha orada qala bilməyib şəhərin kənarında bir ev tutduq. Yarımçıq tikili idi. Otaqlara külək girməsin deyə qapılarına sellofan çəkdik. Bir neçə aydan sonra oğlum avtomobil qəzasında dünyasını dəyişdi. Matəm içində stansiyaya qayıtdıq.

Sakitləşənə qədər bir müddət çəkdi. 25 Noyabr 1986-cı il bombardmanı və asfalt üzərindən topladığım bədən parçaları kabusum olmuşdu. Ancaq şəhid analarını düşünəndə qərarsız qəlbim təskinlik tapırdı. Onlar şəhidlərin bədən parçalarını qanlı mələfələr arasında görəndə salavat deyirdilər. Onlar mənim səbir və müqavimət örnəyim idilər.

# Fatimə Mirçinari

1984-cü ildə ailə qurdum. Yeganə şərtim arxa cəbhədə işləməyimə razılıq verməsi idi. Özü də müharibədə çox fəal idi. Ayaqqabı mağazası vardı. Hər ay mağazasından bir neçə cüt çəkələk və ayaqqabı götürüb xəstəxanadakı yaralılara aparırdım. Evə də paltar və mələfə gətirib yuyur, qurudur, təhvil verirdim. Bəzi günlərdə ev işlərini tez görüb qonşum Məşədi Bətulla birlikdə Şəhid Kələntəri xəstəxanasının camaşırxanasına gedirdim.

Hamilə idim. Partlayış səsi gələndə bətnimdəki uşağın titrədiyini hiss edirdim. Həyəcan siqnallarına, bombardmana və yerlilərimin şəhadətinə biganə qala bilmirdim; ya camaşırxanaya gedir, ya da evdə ədyal yuyurdum. Son aylarımda isə Vanet yük maşınının arxasına minməyə çətinlik çəkirdim, qorxurdum ki, daha ərim getməyə icazə verməz. Camaşırxanada da yerdə otururdum, ayağa qalxanda bir nəfər qolumdan tuturdu. Buna baxmayaraq, həqiqətən də, narahat deyildim.

Uşağım dünyaya gələndən sonra bir müddət evdə camaşır yudum. Bir gün Məşədi Bətul yanıma gəldi. Camaşırxana və oradakı xanımlar üçün çox darıxmışdım.

Ona dedim:

– Camaşırxanada vəziyyət necədir?

– Əməliyyat olub; səhərdən axşama qədər yuyuruq, amma yenə də təmiz mələfə çatışmır, – dedi.

– Mən də sabah gəlimmi? - Orada olmadığıma görə narahat halda soruşdum.

– Bəs uşağın?

Axşam oturub həyat yoldaşımla danışdım. Dedi ki, uşağı mən saxlayaram. Sevindiyimdən gözlərim yaşardı.

Səhər tezdən uşağa süd verdim, düyü qaynadıb yaxşıca əzdim, ərimə dedim ki, acsa, verərsən.

İki-üç dəfə qapıya qədər gedib yenə geri qayıtdım, ərimə nəsə tapşırdım. Yolda da həyəcanlı və nigaran idim, tez-tez deyirdim: "İlahi, bu altıaylıq körpəni Sənə tapşırıram!"

Camaşırxanaya ayağımı qoyan kimi həyəcanım da yoxa çıxdı. Orada qiyamət idi; qəlpədən deşilmiş paltarlar, anaların ağlamaq səsi və xlor qoxusu. Axşamüstüyə qədər dayanmadan yuduq. Mən evə digərlərindən tez qayıtdım, uşağımı qucağıma götürüb ağlaya-ağlaya öpdüm.

Xəstəxanada çoxlu yaralı vardı. Getməməyi vicdanım qəbul etmirdi. Vəziyyət yaxşılaşana qədər onu atasının yanında qoyub hər gün getdim.

Bir qədər böyüyəndən sonra özümlə aparırdım, yanımda otururdu. Əlinə bir peçenye verirdim. Sakit uşaq idi, məni incitmirdi. Günbatan çağı da maşının arxasına bir qədər yuyulmamış mələfə və paltar qoyub evə gətirir, axşam evdə yuyurdum.

Hələ uşağım böyüməmiş yenə hamilə oldum. Doğuşdan iki-üç həftə öncəyə qədər o vəziyyətdə camaşırxanaya getdim. Öz halımı hiss etmirdim. Günboyu soyuq sudaydım, yaş paltarla evə qayıdırdım. Külək əsəndə sümüklərimə qədər titrəyirdim. Axşamlar da gecəyə qədər ləyəndə paltar tapdayırdım. Soyuqdan dırnaqlarım göyərirdi.

Yoldaşım mənə çəkmə aldı, yuyanda onları geyməyə başladım. Yağış yağanda yuyulmuş paltarları iplərdən toplayıb otaqda asırdım. Neft çətin tapılırdı, ancaq yuduqlarımın altında ələddin lampası yandırıb yaralıların sağalması və Səddamın məhv olması üçün dua edirdim.

## Siddiqə Fəllah

Böyük qardaşımın adı Eydi olduğuna görə anamı Nənə-Eydi çağırırdılar. Mən altıaylıq olanda atam vəfat etdi, Nənə-Eydi ailəmizi dolandırmağa başladı. Məhəllədə balaca dükanı vardı, ərzaq və neft sataraq bir neçə yetim uşağa baxırdı.

Yoxsulluq və çətinliklər anamı daha da əliaçıq etmişdi. Kimsə neft üçün gec gələndə və ya dükanda neft olmayanda onu əliboş yola salmır, özümüzünkündən verirdi. O, hər bir şəkildə qonşulara kömək edirdi; biri xəstələnəndə tez ona baş çəkir, onu həkimə aparır, evə gəlib onun üçün şorba bişirirdi.

Müharibə başlayandan sonra neft də talonla verilməyə başladı. Qışda əhali neft növbəsinə dayanırdı. Anamın işi çətinləşmişdi. O, heç kimi narazı getməyə qoymurdu. Cəbhə üçün də ehtiyac olan hər bir şey – ədyal, çərəz və digər məhsullar göndərirdi.

O qədər zəhmət çəkdi ki, çox tezliklə qocalıb əldən düşdü. Əsla bekar durmurdu, hər bir işə hazır idi. Arabir cəbhəyə getməkdən də danışırdı.

İnqilabdan öncədən qonşularla birlikdə evdə məclislərimiz olurdu. Xəbərləri bölüşmək və cəbhəyə kömək toplamaq üçün məclislər daha da rövnəqləndi. Orada öyrəndik ki, xanımlar Şəhid Kələntəri xəstəxanasında yaralıların mələfə və paltarlarını yuyurlar. Cəbhə ədyallarının bir qismini də yumaq üçün evlərə gətirirdilər. Quran dərsindəki xanımlar xəstəxanaya getmək üçün vədələşdilər.

1981-ci ildə liseydə oxuyurdum. Tətil günlərində mən də anamla birgə gedirdim. Xəstəxana xanımların çoxluğunu görüb bizi aparıb-gətirmək üçün servis ayırdı.

Mələfələr qandan qırmızı olurdu, üzərlərinə su və xlor tökən kimi ətrafa qan qoxusu yayılırdı. Hətta qanın rəngi də ürəyimi bulandırırdı. Buna baxmayaraq, tez-tez udqunub qan ləkələrini sürtürdüm. Vasvası idim, nəyə əl vururdumsa, elə bilirdim ki, qanlıdır. Gündə bir dəfə də xörək yemirdim. Camaşırxanaya getmək mənə çox çətin idi, amma anamın və digər xanımların yumağa həvəslərini görəndə getməyə bilmirdim.

Cırıq paltarları yuyandan sonra ayırıb bir tərəfə qoyurdular. Anam demişdi ki, yuyun, mən cırıqlarını tikərəm.

Evdən iynə-sap aparıb paltarları tikirdi. Bir neçə gün səhərdən-axşama qədər işi bu oldu. Cırıq paltar və mələfələr olduqca çox idi. Bir gün onları mələfələrin arasına qoydu. Üç-dörd boğça oldu. Günbatan çağı servislə evə gətirdik. Ev işlərini görəndən sonra namazını qıldı, yeməyini yedi və tikiş maşınının arxasına keçdi. Mən sübh azanına qədər bir neçə dəfə maşının səsinə oyandım. Dinamiki yox idi. Təəccüblənirdim ki, əli necə ağrımır! Sübh namazını qılan kimi başını yastığa qoydu. Bir saatdan sonra oyandı, hazırladıqlarını götürüb xəstəxanaya yollandı. Cırıq paltar və mələfələri hərdən Vanet yük maşını ilə də gətirirdilər.

Bəzi paltarlara o qədər qəlpə dəymişdi ki, tikməklə, yamamaqla düzəlmirdi. Anam dedi ki, yuyun, onlardan yaralılara mütəkkə və döşək düzəldək. Evə çoxlu cırıq paltar gətirdi. Salamat yerləri qalmamışdı. Özü onları açdı. Gözlərindən yaş süzülürdü. Mənə qayçı verib dedi: "Bunları xırda-xırda kəs".

Nisbətən sağlam olanları tikdi. Mənim kəsdiyim parçaları torbaya töküb dövrəsinə bir sellofan çəkdi.

Sellofanı tikəndə kisəyə çox fikir verirdi ki, cırılmasın. Sonra yenə onları bir mələfəyə qoyub tikdi.

Ona dedim:

– Sellofan çəkməklə işini çətinləşdirirsən.

– Rulə, sellofan çəkirəm ki, içinə qan girməsin və hamısını yumağa ehtiyac olmasın.

Hər axşam dörd-beş ədəd yumşaq döşək və mütəkkə düzəldir, səhər çağı xəstəxanaya aparıb palatalara verirdi. Xanımlar daha ən xırda parçanı da kənara atmır, yaxşıca yuyub yaralılara döşək və mütəkkə hazırlamaq üçün anama verirdilər.

1983-cü ildə qardaşım Eydi diz və çiyin nahiyəsindən yaralandı. Onu Tehranın Şəhid Müiri xəstəxanasına apardılar. Biz qızlar çox narahat idik, anamsa öz işindəydi; arxayın şəkildə camaşırxanaya gedir, evdə də gecənin yarısına qədər tikişlə məşğul olurdu. O deyirdi: "Xəstəxanada adamlar var, oğluma məndən də yaxşı baxırlar. Ora getsəm, əlimdən bir iş gəlməyəcək. Yaxşısı budur ki, burda qalıb yaralılara xidmət edim".

Həmin müddətdə anamın döyüşçülər üçün yumaq və tikmək işi zərrə qədər də azalmadı. Bir aydan sonra qardaşımı xəstəxanadan buraxdılar. Vəziyyəti yaxşı deyildi. Evdə yatmalı oldu.

Mən həmin il ailə qurub Əndimeşkdən getdim. Anama yazığım gəlirdi. Evdə döyüşçülərin paltarlarını tikir, ev işlərini görür, qardaşıma qulluq edir, onu bacılarımın yanında qoyub camaşırxanaya gedir, günbatan çağı da dükanı açırdı. Ramazan və məhərrəm aylarında evdə Quran və rövzə məclisləri də keçirirdi.

Anam hər bir işi bacarırdı. Camaşırxanada ip çatmayanda və orada kişi olmayanda özü dəmir millərə ip bağlayırdı. Bunlardan əlavə, şəhid olmuş qadın və

uşaqlara qüsl verir, cəbhəyə kömək toplayırdı. Yetim uşaqları olsa və həyatı çox çətin keçsə də, riyasız şəkildə, tam təmənnasız işləyirdi. O, müharibənin sonuna qədər bir saat da bekar oturmadı.

## Pərvin Lorbahari

1981-ci ilin yayında İmam limanından Dezfula getdim. On səkkiz yaşım vardı. Evdə bekar olurdum, bir yeri tanımırdım. Ağa Xameneiyə qarşı terror hadisəsindən bir-iki ay sonra müsəllaya getdim. Xanımların giriş yerinin önündə yeddi-səkkiz xanım dayanmışdı. Onların davranışlarına məftun oldum. Kim gəlirdisə, səmimi şəkildə salam verirdilər, üzlərindən təbəssüm əskilmirdi. Yanlarında iki əlisilahlı xanım dayanmışdı, üz-gözlərindən kişi cəsarəti yağırdı.

Yaxınlaşıb çadramı açdım, əllərimi qaldırdım. Bir qadın məni təpədən-dırnağa qədər axtardı.

Ona dedim: "Allah qüvvət versin! Kömək istəmirsiz?"

Bəsicin ünvanını verib dedi: "Sabah səhər çağı oraya gəl".

Axşam anamla danışdım. Üç qardaşım həmişə cəbhədəydi. Anam etiraz etmədi. Səhər saat 8-də maşına minib yola düşdüm.

Stolun arxasında iki-üç qadın oturmuşdu. Salam verib Bəsicin rəhbərini soruşdum.

– Qulluğunuzdayam, - deyə biri dilləndi.

– Bəsicə üzv olmağa gəlmişəm.

– İki tanınmış adam tərəfindən təsdiqnamə gətirməlisiz.

Öyrəndim ki, iki aya qədər yeni qüvvələrə dərs və proqram qoyulmayacaq. Çox narahat halda dedim:

– İndi görüləsi bir iş yoxdur?

Vəsiqəmi aldı, ünvanımı yazıb dedi:

– Təsdiqnamə gətirənəcən və dərslər başlayanacan qərargaha gedib dənli bitkiləri təmizləyən xanımlara kömək edə bilərsən.

Qapı yarıyacan açıq idi. İtələyib içəri girdim. Böyük həyət idi, divarlarına uşaqlar üçün rəsmlər çəkilmiş, boyalar vurulmuşdu. Müharibədən qabaq uşaq bağçası olmuş, həmin günlərdə isə Müharibəyə dəstək qərargahına çevrilmişdi. Xanımlar dənli bitkiləri təmizləyir, çərəz və digər məhsulları qablaşdırır, paltar tikirdilər.

Xanımların biri ayağa qalxıb dedi: "Xoş gəlmisən! Gəl otur".

Yer açıb məni də öz dairələrinə saldı. Könüllü iş idi, ancaq rəsmi kargüzar kimi hər gün səhər saat 8-də gedib günorta saat 2-ə qədər işləyirdim. Sonra evə gedir, axşam saat 10-11-ə qədər də dərzilik edib zəhmət haqqı alırdım. Ürəyim istəyirdi ki, müharibənin çətin günlərində öz qazancım olsun və anamdan yolpulu almayım.

Bir ay orada işlədim. Təsdiqnaməm gəldi və adımı Bəsic siniflərinə yazdılar. Tibbi yardım kurslarında iştirak etdim. Bir gün qərargaha işləməyə gedirdim, bir gün də dərslərə.

Yanvar ayı idi, hava çox soyumuşdu. Səhər tezdən qərargaha gedəndə soyuqdan çənəm titrəyirdi. Lakin xanımların dua və salavat səsləri hamını həvəsləndirirdi. Həmin soyuq günlərin birində bizə dedilər: "Sabah səhər tezdən buraya toplaşın, cəbhə şəhərinə gedəcəyik".

Xanımların bir neçəsi israrla dedi ki, iki addım da irəliyə aparın, cəbhənin özünə gedək.

Səhər tezdən təxminən on beş nəfər toplaşdıq. Bizi mikroavtobusa mindirib apardılar. Şüşələrə palçıq sürtmüşdülər, heç nə görmürdük. Salavat deyir, dua edirdik. Yarım saatdan sonra mikroavtobus dayandı, bir bəsici qardaş bizə dedi: "Bacılar, çatmışıq, düşə bilərsiz. Nə edəcəyinizi burda deyəcəklər".

Əndimeşkə çatmışdıq, Şəhid Kələntəri xəstəxanasının camaşırxanasına.

Artıq hər gün camaşırxanaya gedirdim. Orada yeniyetmədən tutmuş qocaya, kora qədər hər cür adam işləyirdi. Əndimeşkin yandırıcı soyuğu camaşırxananın matəmini sərtləşdirirdi. Əməliyyatlar və raket hücumları bitmək bilmirdi. Qanlı mələfələri açıb hovuza tökəndə camaşırxana Kərbəla qətlgahına dönürdü. Laxta qanlar, dəri və ət parçaları camaşırxananın yerinə tökülür, hovuzdan qanlı su axırdı. Mələfələrin arasında ət, ürək və ciyər parçaları olurdu. Öz aramızda oranın adını qətlgah və Xomeyni dostlarının xeyməsi qoymuşduq.

Bir baxışla xanımların hər birinin qüssəsini anlayardın. Oğlu itkin düşmüş ana ləyənin arxasında oturmuşdu, paltar üzərindəki ləkələri diqqətlə sabunlayır, sürtürdü. Bir neçə dəqiqə gözlərimi ona dikdim. Dodaqaltı zikr deyirdi, sanki öz oğlunun paltarını yuyurdu. Yanında üç şəhidin anası oturmuşdu, hamıdan sakit şəkildə xlor töküb döşəkağı yuyurdu. Onun belə səbrinə heyran qalırdım. Camaşırxananın hansı tərəfinə baxırdınsa, şəhid anaları, şəhid xanımları məşğul idi.

Xanımlar ləyənlərin arxasında dövrə vurub oturmuşdular. İslanmış mələfələri hovuzdan çıxarıb ləyənlərin yanına qoyduq, onlar da xlor töküb ləkələrini sürtməyə başladılar. Qanın və yuyucu maddələrin, xüsusən də xlorun qoxusundan ibarət qarışıq iy hər tərəfi bürüdü.

Boğazım yanırdı, boğulurdum. Camaşırxananın yanındakı otağa keçib çaydanın altını yandırdım, quru mələfələri qatlayıb sellofana qoydum. Su qaynadı, çay dəmlədim. Səhər yeməyi üçün süfrəyə halva və çörək də düzüb camaşırxanaya qayıtdım. Xanımlar çoxlu mələfələrin ləkələrini yuyub yerə qoymuşdular. Hovuzlar

təmiz su ilə dolmuşdu. Xanımlara dedim: "Çay və səhər yeməyi hazırdır".

Dedilər: "Bunları da yuyaq, sonra gələrik".

İki-üç nəfərlə köməkləşib mələfələri suya çəkmək üçün hovuzlara saldıq. Xanımların arxa tərəfinə çəkməmi götürməyə getdim. Qara bir ip parçası diqqətimi cəlb elədi. Götürmək istəyəndə gördüm ki, ilandır. Əlimi geri çəkdim, qıvrılıb şəhid analarından birinin arxasına keçdim. Bədənim əsirdi. Düşündüm ki, burada ilan olduğunu desəm, hamı diksinib qışqırar. Daş gətirib onu öldürmək üçün bayıra qaçdım. Xanımların biri bilib çəkmə ilə ilanı öldürdü, sonra bayıra aparmaq üçün götürdü. Xanımlar qışqırmadan və qorxmadan ləyənlərin arxasında oturub işləyirdilər.

Metal və taxta dirəklərə altmış-yetmiş ip bağlamışdılar. Dostum Şazdə ilə iplərin arasında gəzib quru mələfələri toplayır, yer açırdıq. Bir gün təxminən səhər saat 11-də iplər doldu. Sərilmiş camaşırların hamısı yaş idi. Yeni yuyulmuş paltar və mələfə dolu beş-altı böyük ləyən qalmışdı. Qış idi, amma günəş çıxmışdı. Şazdə dedi ki, nə edək?

İplərin o tərəfində çöllüyə doğru bir yol vardı, kənarı çınqılla doluydu. Təmizlikdən parıldayırdı. Ona dedim: "Aparaq o daşların üstünə sərək".

Ləyənləri götürüb getdik, camaşırları çınqılların üstünə sərdik. Şazdə çox səliqəli idi. Həkimlərin papaq, köynək və şalvarlarını dəst halda yerə sərirdi. Camaşırxanaya qayıdıb yola baxdıq. Sanki həkimlər yolun kənarında cərgə ilə düzülmüşdülər. Yoldan keçən hər kəs bir neçə dəqiqə dayanıb bu gözəl mənzərəyə tamaşa edirdi.

Əməliyyat zamanı bir neçəmiz camaşırxanada qalıb səhərəcən işləyirdik. Şövkət Natiqi həmişə gecə qalanlardan olurdu.

Bir gün hava buludlu idi. Dayanmadan qanlı mələfə və ədyal gətirir, hər dəfə də təkidlə deyirdilər: "Ehtiyac var; tez yuyun". Çətinliklə olsa da, onları küləkli və soyuq havada soyuq su ilə yuyub iplərdən asdıq. Xanımlar soyuqdan titrəyirdilər. Günbatan çağı gedəndə özləri ilə yuyulmamış ədyal da apardılar.

Qorxurduq ki, gecə yağış yağar və bütün zəhmətlərimiz hədər gedər. Xanım Natiqi ilə mən gecəni orada qaldım. Külək anbaan güclənirdi. İplərdən sərdiyimiz paltar və mələfələrə sancaq vurmuşduq. Dua edirdik ki, yağış başlamadan külək onları qurutsun. Ancaq soyuq havada qurumaq bilmirdilər. Xanım Natiqi dedi: "Gedək, ədyalları içəri gətirək. İndi yağış başlayacaq, hamısı islanacaq".

Güclü küləkdən və göy gurultusundan yol yerimək olmurdu. Ədyalları iplərdən yığıb içəriyə aparırdıq. İplərlə otaq arasında o qədər gedib-gəldim ki, başım gicəlləndi. Xanım Natiqi daha çevik idi, ancaq o da mənim günümdəydi.

Ona dedim:

– Ehtiyatlı ol, külək səni cəbhəyə atmasın!

– İndi görərsən külək hansımızı atacaq, – deyə cavab verdi.

Axırıncı ədyalları yığanda birdən yağış başladı. Xanım Natiqi qucağını doldurub otağa qaçdı.

– Qalanını da sən gətir.

Onları topladım. Külək və yağış yeriməyə imkan vermirdi. Birtəhər özümü otağa yetirdim, amma külək məndən tez tərpənib qapını örtdü. Əllərim doluydu, qapını aça bilmirdim. Ona nə qədər yaxınlaşırdımsa, külək məni

başqa səmtə dartırdı. Şövkətin gülüş səsi küləyin səsinə qarışmışdı. Ədyalları yerə qoymağa heyfim gəlirdi, bulanardılar. Qışqırıb: "Nənə-Qulam, qapını aç" – deyirdim. O isə gülə-gülə cavab verirdi: "Qorxuram ki, məni külək aparar".

Çiynimdə altı-yeddi ədyalla camaşırxananın arxasına keçdim. Orada külək nisbətən zəif idi. Pəncərədən ədyalları Nənə-Qulama verib özümü də oradan içəri atdım. Yağış altında islanmışdım. Nənə-Qulam gülə-gülə dedi: "İndi külək hansımızı cəbhəyə atdı?!"

Üst-başıma baxıb özüm də gülməyə başladım.

Bir neçə gün idi Səddam tez-tez raketlə vuracağını bildirirdi: "Xəbərdarlıq edən üzrlüdür! Şəhərin heç bir yeri salamat qalmayacaq. Xəbərdarlıq edənin günahı yoxdur!"

Əksər ailələr şəhərin kənarında çadır qurdular. Biz camaşırxana qadınları və tibb bacıları daha çox xəstəxanada qalırdıq. Hər dəfə partlayış səsi gələndə "Allahu əkbər" deyə qışqırırdıq. Hamımız şəhadət qüslü verib işləyirdik.

Günbatan çağı servis məni Dezfula apardı. Mağazalar bağlanmışdı. Anam evdə idi. Birlikdə qardaşımgilə getdik. Xanımı səkkizaylıq hamiləydi, balaca uşağı da vardı. Səddam əhaliyə gecə saat 12-ə qədər vaxt vermişdi. Biz birlikdə deyib-gülürdük, ancaq gülüşün formal olduğu üzlərdən bilinirdi. Vücudumu qorxu və həyəcan bürümüşdü. Dodaqaltı zikr deyir, ölüm anının yaxınlaşdığını hiss edirdim.

Saat 12-ə qalırdı. Üzüqibləyə uzandım, ədyalı başıma çəkib kəlmeyi-şəhadətimi dedim. Digərləri də uzandılar, amma oyaq idilər. Bir neçə dəfə hamımızın birlikdə uçqunun altında qaldığımızı təsəvvür edib kövrəldim. Təzyiqim qalxıb-enirdi. Bütün vücudumu soyuq tər basdı.

Ölümün hər an yaxınlaşdığını görürdüm. Birdən bir dəstə adamın səsi gəldi: "Biz burdayıq, şəhər boş deyil!"

Hələ saat 12 olmamışdı. Başımı ədyalın altından çıxardım. Qardaşım dedi: "Bunlar Bəsic uşaqlarıdır".

Səslərini eşidib bir az ürəkləndim. Saat 12-ni keçdi, amma raket hücumundan xəbər olmadı. Həmin gecə yatmadım. Səhər çağı camaşırxananın qapısına çatanda isə qəlbimə qəribə rahatlıq doldu.

8 Oktyabr 1983-cü ildə səhər çağı camaşırxanada işləyən şəhid, itkin və əsir ailələrini Abadan və Xürrəmşəhrə aparmaq mənə tapşırıldı. Bölgədə vəziyyət stabil idi. Öncəki gün günbatana qədər hamı camaşırxanada qalmışdı, yuyulmamış paltar yox idi. Saat 7-də hamı camaşırxananın önünə toplaşdı, mikroavtobusa minib salavatla yola düşdük. Bütün maşını palçıqla kamuflyaj etmişdilər, nə rəngdə olduğunu bilmirdik.

Bacılar əvvəldə çox deyib-gülürdülər, heç kimin üzündə qorxu yox idi. İrəlilədikcə top və tank səsləri çoxalırdı. Analar şüar və salavat deyirdilər. Əhvazın Kərbəla qərargahından günorta yeməyinə çörək və balıq konservi alıb yolumuza davam etdik. Yolda nahar elədik və günorta Abadana çatdıq. Şəhər döyüşçü ilə doluydu, əhali isə xarabalıqlarda yaşayırdı. Bacılar hələ yavaşca ağlayırdılar.

Axşamüstü Xürrəmşəhrə çatdıq. Şəhər xaraba qalmışdı, yanmış tanklarla doluydu. Şəhid anaları özlərini məscidin yerinə atıb ucadan hönkür-hönkür ağlayırdılar. Sanki həzrət Zeynəb indicə qətlgaha çatmışdı! Anaların vəziyyətini görüb məni də ağlamaq tutdu.

Qayıdanda hamı sakit idi. Əndimeşkə gecənin yarısı çatdıq. Səhər çağı camaşırxanaya gedəndə isə hamı yuyur,

birlikdə deyib-gülürdü. Xürrəmşəhrdə ağlayıb yüngülləşmişdilər.

Cəbhədə əməliyyat olanda camaşırxanada bizim də yumaq əməliyyatımız başlayırdı. Xanım Natiqi ilə birlikdə bir neçə sutka orada qalırdım. Əlim həmişə soyuq suda və paltarlarım yaş olurdu. Xlor və qan qoxusu da bizim ətrimiz olmuşdu.

Bir gün səhər tezdən xəstəxanaya çatdım. Camaşırxananın qapısının yanında yenə paltar, mələfə və ədyallardan ibarət təpə yaranmışdı. Palçığa bələşmiş mülki və təcili yardım maşınlarının get-gəlindən, xəstəxanadakı qələbəlikdən və o qədər yuyulmalı paltardan bildim ki, əməliyyat gedir. Bacıların servisi də gəldi, birlikdə yumağa başladıq. Axşamüstü getdilər və mən xanım Natiqi ilə birlikdə yuyulmamış paltarların yanında qaldım.

Səhər yenə xanımlarla birlikdə yuduq və yenə gecəni qaldıq. İki sutka ötdü və mən yarım saat da yatmadım. Üçüncü gün günbatan çağı evə getdim. Bədənim bərk ağrıyırdı. Bir neçə tikə yemək yeyib sübh azanına qədər özümdən getdim. Səhər çağı barmaqlarım keyimişdi, hətta çadramı da başıma ata bilmirdim. Zahirdə bir şey yox idi, amma içəridən qaşınırdı. Həkimə göstərəndə dedi ki, bir neçə gün əllərinlə işləmə.

Çox narahat oldum. Camaşırxanaya getməyə bilməzdim. Getdim və əlimi suya saldım. Əlim yandı, dərim qırışdı və mən qışqırdım. Bir neçə gün ağrı və qaşınmaya dözüb paltar yudum. Gecəni də səhərə qədər yata bilmirdim.

Xanım Natiqi ilə bir-birimizə çox yaxın idik. O həmişə mənim qeydimə qalırdı, mən də onun. Mənə görə çox narahat idi. Vəziyyətimi tibb bacısı xanım Sübhaniyə

danışdı. O, camaşırxanaya gəldi, məni kənara çəkib dedi: "Məzuniyyətə çıx, bir neçə gündən sonra gələrsən".

Kiş adasına bacımgilə getdim. Məni həkimə apardı. Həkim dedi: "Bir həftə əlinə su vurmamalısan".

Bir həftə hətta namazı da təyəmmümlə qıldım. Camaşırxanaya qayıtmağı səbirsizliklə gözləyirdim. Bir həftədən sonra qayıdıb gecənin yarısı evə çatdım. Səhər tezdən camaşırxanaya getdim, içəriyə girib divarını öpdüm. Həkimin dediyi kimi, əvvəlcə pambıq əlcək geydim, üstündən rezin əlcək taxıb yumağa başladım.

Camaşırxanaya getdiyim yeddi-səkkiz ayda Bəsicdəki tibbi yardım kursum da bitdi. Əməliyyat zamanı gecələr orada qalırdım. Sonra isə tapşırıq verdilər ki, həftədə üç gün Dezfulun Əfşar xəstəxanasına get.

Bir gün camaşırxanada olurdum, bir gün xəstəxanada. Xanım Qəmbəri Şəhid Kələntəri xəstəxanasında tibb xidmətçisi idi. Əri bir müddət xəstəxananın rəisi də olmuşdu. O, mənim iki gündən bir camaşırxanaya getdiyimi biləndə səhər tezdən oraya gəlib mənə dedi: "Niyə mənə deməmisən ki, tibb xidmətçisisən?"

Camaşırxanadakı bacılar ona mənim tibb xidmətçisi olduğumu və buna görə iki gündən bir gəldiyimi söyləmişdilər. Mənə dedi:

– Özümüzün sanitara ehtiyacımız var. Əgər gəlsən, səni şöbəmizə apararam.

– Harda ehtiyac olsa, qulluğunuzdayam, – dedim.

Məni birinci şöbəyə apardı, qəlpədən və partlayış dalğasından yaralananların tibb xidmətçisi oldum. Lakin yuyuculuğu da əldən buraxmırdım. Nə vaxt şöbədə sıxılır, darıxırdımsa, növbədən çıxan kimi birbaş camaşırxanaya gedib paltar yuyur, işləyir, sonra evə yollanırdım. Şəhid

analarının, şəhid xanımlarının yanında nəfəs almaq, onlarla birlikdə işləmək səbir və dözümümü artırırdı.

Bir cümə axşamı günü günorta çağı xanım Natiqi ilə yeməkxanaya getdim. Qarşımda bir tibb xidmətçisi oturmuşdu. Onu birinci şöbədə görmüşdüm. Xörəyi ilə oynayır, yemirdi. Üzündən narahat olduğunu bilib:

– Nə olub? Niyə narahatsan? – deyə soruşdum.

– Şöbədə işim olduqca çoxdur. Haçandır cümə namazına getmirəm. Xəstəxananın vəziyyətinə görə sabah da gedə bilməyəcəm.

Evdə yaşlı ata-anam olduğuna görə cümə günləri xəstəxanaya getmir, onlara qulluq edirdim. Tibb bacısının səsindəki qəhər isə ürəyimi yandırdı, ürəyim dözmədi ki, cümə günü ailəmin yanında olum, o isə qürbətdə bir cümə namazının həsrətini çəksin.

Ona dedim:

– Sabah sənin yerinə qalaram, cümə namazına gedərsən.

Sevinib məni qucaqladı. Səhər çağı xəstəxanaya getdim, tibb bacısı və tibb xidmətçisi işləyən bacılara dedim: "Xidmət şöbəsindəki qardaşlar da burdadırlar. Hamınız gedin cümə namazına. Əgər ehtiyac olsa, digər şöbələrdən kömək alaram".

Günorta namazından bir neçə dəqiqə qabaq şöbəyə bir yaralı gətirdilər. Palatanı və çarpayını sanitar qardaşa göstərdim, özüm də qovluğuna baxmağa başladım. Ürəyim kollektiv şəkildə cümə namazına getmiş xanımlarda qalmışdı. Mən də onlarla getmək istəyərdim. Birdən çiynimdə bir əl hiss edib qorxdum. Hiss elədim ki, partlayış dalğasına düşmüş yaralılardan biridir. Yavaşca geri döndüm, heç kimi görmədim. Birdən yaralıların biri zalın axırından qışqırdı: "Ağa gəlib! Gəlin qarşılayın! Ağa

gəlib!" Oraya qaçdım. Özündən başqa heç kim yox idi. Yenə qışqırdı: "Bizə əl yelləyir. Ona salam verin".

Mən heç kimi görmədim, amma əlimi yuxarı qaldırdım. Yaralının gözlərindəki sevinc parıltısından məni ağlamaq tutdu.

Ertəsi gün səhər çağı camaşırxanaya getdim. Bacıların bir neçəsinin halı mənə qəribə gəldi. Dayanmadan İmam Mehdinin (ə) salamatlığı üçün salavat deyirdilər. Söhbət əsnasında onlardan soruşdum: "Dünən günorta yeməyinə döyüşçülərə nə vermişdiniz?"

Camaşırxanada işləyən xanımlar cümə günləri xörək bişirib namazdan sonra döyüşçülərə verirdilər. Biri dedi: "Dünən kotlet bişirmişdik. Qorxurduq ki, çatmaz. Bir nəfər maşınla müsəllaya iki böyük qazanda mərciplov gətirdi və dedi: "Bu, İmam Mehdinin (ə) salamatlığı üçün nəzirdir. Döyüşçülərə verin".

"Ağa dünən həm döyüşçülərə baş çəkib, həm də yaralılara" – deyə ürəyimdə düşündüm. Bu əlamətləri, anaların səbrini və qəlpə dəymiş bədənləri görüb daha da qərarlı şəkildə, yorulmadan işləyirdim.

1985-ci ildə xanımı hamiləlik zamanı zəhərlənmədən ölmüş əhvazlı bir döyüşçü mənə elçi gəldi. Balaca bir oğlu və iki qızı vardı. Bilmirəm necə oldusa, razılıq verdim. Elçiliklə toy arasında cəmi bir həftə fasilə oldu. Bacılarla sağollaşmaq üçün camaşırxanaya getdim. O qədər kövrəlir və ağlayırdım ki, danışa bilmirdim.

Əhvazda yaşayırdım. Orada yalnız camaşırxanadan ötrü darıxırdım. Toyumdan iki-üç ay sonra camaşırxanaya getdim. Xanımların həmişəki salavat səslərini bayırdan eşitdim. Hələ də səbirlə və qüdrətlə yuyurdular. İki-üç saat yanlarında qaldım, havamı dəyişib getdim.

## Şəhin Ahəngər

Hər gecə topların səsinə yuxudan oyanırdım. Kərxə çayından bir neçə kilometr aralıda iraqlılar yerləşmişdilər. Çay şəhərin mərkəzindən təxminən iyirmi dəqiqəlik məsafədəydi. Bizim evimiz Tehran-cənub magistralının yaxınlığında idi. Top səsi bir tərəfə, yoldan keçən silah-sursat dolu maşınların və tankların səsi bir tərəfə!

On ikinci sinifdə oxuyurdum, dostlarımla birlikdə etiqadi dərslərdə, hərbi və tibbi kurslarda iştirak edirdim. Cəbhəyə yardımları da səliqə ilə qablaşdırırdıq.

1982-ci ilin novruz bayramından iki-üç gün qabaq bizi toplayıb Dokuhəyə yoxlanış postuna apardılar. Qışın son günləri və hava çox soyuq idi. Gecə-gündüz oyaq qalır, qardaşların yanında bütün maşınları və içərisindəki xanımları yoxlayırdıq. Yolda o qədər qələbəlik vardı ki, saatlarla ayaq üstə qalırdıq. Fəthülmübin əməliyyatı gedirdi. Qardaşlar tez-tez bizə deyirdilər: "Əməliyyatın əhatəsi genişdir; ehtiyatlı olun, münafiqlər bu postdan Tehrana və digər şəhərlərə silah apara bilməsinlər".

Maşınlara əməliyyat qənimətləri və sursatlar yığmışdılar. Onları çıxarıb korpusa göndərirdik. İki həftə orada olduq. Yol get-gedə boşaldı və bölgədə əmin-amanlıq yarandı. Mən digər xanımlarla birlikdə evə qayıtdım.

Dokuhə ezamiyyətinin yorğunluğu hələ canımda idi. Amma evdə rahat otura bilmirdim. Dokuhədə oyaq qalmağa, gecə-gündüz işləməyə öyrəşmişdim. Yalnız bircə gün evdə qala bildim. Səhər tezdən oyanıb məktəbə getdim, günorta dostlarla birlikdə yolüstü qərargaha gedib dedim: "Deyin, biz nə iş görək?"

Xanımların biri dedi:

– Dərsləriniz olmasaydı, sizi Şəhid Kələntəri xəstəxanasına göndərərdik.

– Hansı iş üçün? – həyəcanla soruşdum.

– Yaralıların paltarlarını yumağa.

Uşaqlarla bir-birimizə baxdıq. Camaşırxanaya getməmişdik, amma yaralıların paltarlarının yuyulmalı olduğunu bilən kimi gözlərimiz sevincdən parıldadı. Dedik ki, cəmi bir növbə məktəbdə oluruq, çox zaman da tətil olur. Beləliklə, bizi həmin xəstəxanaya göndərdilər.

Camaşırxananın qapısının ağzında, hovuz və ləyənlərdə çoxlu mələfə və paltar vardı. Çadramı çıxarıb divardakı mıxdan asdım. Beton divar mühiti daha da soyuq və qaranlıq edirdi. Xanımların salavat səsləri gəlirdi. Altmış yaşlı qadından altı yaşlı qız uşağına qədər hamı işləyirdi. Kim içəri girirdisə, bir hovuzun və ya ləyənin yanında oturub yumağa başlayırdı. O günə qədər heç öz paltarımı da əlimdə yumamışdım.

Əlcək geyib mələfə ləyəninin önündə oturdum. Gözaltı yanımdakı xanıma baxdım. Heç nə bacarmadığımı bilib mənə dedi: "Qızım, ləkələrin üstünə xlor tök, sonra həmin hissələri bir-birinə sürt".

Mələfəni xlorla isladıb ləkələri təmizləməyə başladım. İlk dəfə idi əlimi insan qanına vururdum, amma nə qorxurdum, nə də iyrənirdim. Qandan mələfənin rəngi bilinmirdi. Var-gücümü topladım ki, üzərində ləkə qalmasın. Nəhayət, təmizləndi. Sevindiyimdən uçmaq istəyirdim. Növbəti mələfəni götürüb ləkələrini sürtməyə başladım. Günəş batana qədər bir-birinin ardınca mələfə yudum. Qan və xlor qoxusu da önəmli deyildi.

Evə qayıdandan sonra isə qan və xlorun kəskin qoxusunu hiss edirdim. Əllərimi isti su və sabunla nə qədər yuyurdumsa, qoxu getmirdi. Tətil günlərini

səbirsizliklə gözləyirdim. Bir neçə saatdan bir helikopter yerə oturub yaralı boşaldırdı. Onun səsi gələn kimi xanımlar salavat deyirdilər.

Bir gün qəribə haldaydım: ürəyim sıxılırdı, ağlamaq istəyirdim. Ləyəndə bir köynək islatdım, sabunu götürüb ləkələri sürtməyə başladım. Gözlərimdən yaş axdı. Çox həyəcanlı idim. Birdən raket səsi gəldi və hamımız bayıra qaçdıq. Haranısa vurmuşdular. Şəhərin bombalanması bizim üçün adi bir şeyə çevrilmişdi, ancaq onda məhz bizim evimizin vurulduğunu hiss etdim. Tüstü də bizim məhəllədən qalxırdı. Bacım Şahnaz evdəydi. Ona görə çox narahat oldum, qapının yanında oturub ağlamağa başladım. Xanımlar başıma toplaşıb deyirdilər: "Allaha təvəkkül elə, narahat olma".

Əl-ayaqlarım titrəyirdi, o vəziyyətdə evə qayıda bilməzdim. Xanımların biri məni xəstəxananın poçtuna apardı. Oradan evlə əlaqə saxladım. Bacım dəstəyi götürdü. Ağlaya-ağlaya dedim:

– Şahnaz, salamatsan?

– Hə, raket bizdən yeddi-səkkiz ev kənara düşdü.

Camaşırxanaya qayıtdım və ləyənin yanında paltar yuya-yuya doyunca ağladım.

# Fatimə Əlipur

Ərim Səfər Ajirak Quruculuq cihadı təşkilatında işləyirdi. O, sərhəd kəndlərə təmir işlərinə gedir, bəzən də cəbhədəki döyüşçülərə xörək aparırdı; bir ayağı cəbhədəydi, bir ayağı təşkilatda. O, cəbhədən qayıdana qədər mən çox həyəcan keçirirdim.

Bir gün evə gəldi. Qonağımız vardı. Mənə dedi:

– Gərək gedim; qala bilmirəm.

– Hara? Təzə çatmısan. Heç olmasa, qonaqların yanında bir saat otur, ayıbdır.

– Bunlar özgə deyillər, qonaqlıq üçün də vaxt çoxdur.

– Məni körpə uşaqlarla qoyub hara gedirsən? – narahat halda dedim.

Uşaqlarım çox balacaydılar. Böyük oğlumun səkkiz yaşı vardı.

– Müharibədir, mənim barəmdə fikirləşməməlisən. Mən oldum çöllər adamı, - dedi.

Onu fikrindən daşındırmağa çalışdım:

– Əgər şəhid olsan, uşaqları qoyub gedəcəm, ailə quracam.

Gülümsəyib başını aşağı saldı. Üzündəki narahatlığı gördüm. Bu cümlə də işə yaramadı. Getdi.

Bir müddət ondan xəbərim olmadı. 1981-ci ilin 20 aprelində ordudan xəbər gətirdilər ki, şəhid olub. İnana bilmirdim. Qohumlar evimizə toplaşıb ona yas keçirdilər. Mən ağlayırdım, halım çox pis idi, amma qayıdacağını gözləyirdim. İyirmi iki gündən sonra bir ərəb kişi soruşa-soruşa evimizi tapdı, mənə dedi: "Səfər Ajirakı əsirlər arasında gördüm".

Səfər Quruculuq cihadı tərəfindən ərəblər yaşayan kəndlərdə təmir işləri gördüyünə görə çox adam onu

tanıyırdı. Əlamətlərini söyləyəndən sonra çox ümidvar oldum.

Qırmızı Aypara Cəmiyyətinə gedib qovluq açdırdım. Bir neçə aydan sonra Səfərdən məktub gəldi. 2376 saylı əsir idi. Əsir düşməzdən öncə onun üçün çox qorxurdum, daim narahat idim, amma ondan xəbərsizliyin çətinliyi məni möhkəmlətmişdi. Qardaşlarım Canməhəmmədlə Əli də cəbhədə idilər.

Evdə bekar otura bilmirdim. Uşaqları anamla baldızımın yanına qoyub bazarın arxasındakı məhəllənin xanımları ilə birlikdə camaşırxanaya gedirdim. Maşın və helikopterlə cəbhədən ədyal və paltar gətirib camaşırxananın yanına boşaldırdılar. Mən daha çox, paltar yuyurdum. Əməliyyat günlərində günbatan çağı evə qayıdırdıq. Xanımlar mərsiyə oxuyur, salavat deyirdilər. Çox cəld işləyirdik. Nənə-İbrahim bəzən ağı da deyirdi. Xırda ət parçalarını torbaya tökürdük, anaların biri onları camaşırxananın önündə basdırırdı. Əllərimə əlcək, dizlərimə qədər də çəkmə geyirdim. Xlor vurmurdum, suya çəkirdim. Buna baxmayaraq, əllərim yara olurdu, evə gələndə məndən xlor qoxusu gəlirdi.

Bir gün evə qayıdan kimi Leyla yanıma qaçıb dedi:

- Ana, bu gün bir neçə əmi gəlmişdi. Səninlə işləri vardı.

– Onlara nə dedin?

– Dedim ki, döyüşçülərin paltarlarını yumağa gedib. Mənə "afərin, yaxşı qız" deyib getdilər.

Ürəyimdə dedim ki, bəlkə də Səfər tərəfindən gəlibmişlər. Yenə onun üçün darıxdım, halım pisləşdi. Bir neçə gündən sonra axşamüstü Həsən Rzayi Şəhid fondundan bir neçə nəfərlə birlikdə bizə gəldi və mənə dedi: "Ağa Səfər İraqda səninlə fəxr etməlidir!"

Mənə hədiyyəlik qara çadra parçası gətirmişdilər. Onlara dedim: "Döyüşçülərin paltarlarını yumaq mənim borcumdur, bundan ötrü heç bir şey gözləmirəm".

Əndimeşki çox bombalayırdılar. 1983-cü ilin noyabrında bizim məhəlləmizə raket düşdü, Kərəmi və Gülüstani ailələri şəhid oldular.

Uşaqlarımdan ötrü qorxub onları Quma qaynımgilə apardım. Səhər tezdən oyandım, çadramı başıma atıb həyətə çıxdım. Birdən yadıma düşdü ki, Qumda, camaşırxanadan kilometrlərlə uzaqdayam. Məni ağlamaq tutdu. Bomba və raket səsləri gəlməsə də, rahat deyildim. Tez-tez düşünürdüm ki, məgər şəhərdə qalanlar adam deyillər?! Səfər mənim bombardmandan ötrü arxa cəbhə işlərini tərk etdiyimi bilsə, nə deyər?!

On gün ötdü. Daha davam gətirə bilməyib uşaqlarla birlikdə Əndimeşkə qayıtdım.

Həmin gecə bir ömür qədər uzun sürdü. Tez-tez oyanıb saata baxırdım. Səhər açılmaq bilmirdi. Sübh namazına bir qədər qalmış daha yatmadım. Başımı qarışdırdım, günorta yeməyini bişirdim, əşyaları səliqəyə saldım, uşaqları anama tapşırıb vaxt öldürmək üçün həyətə çıxdım. Nəhayət, xanımların servisi gəldi. Minib bir-bir bütün xanımları öpdüm. Camaşırxananı görəndə gözlərimə işıq gəldiyini hiss etdim. "İlahi! Mənə döyüşçülərə xidmət etmək səadəti nəsib elə!" – deyə düşünə-düşünə paltar və mələfə yuyur, bir neçə aydan bir Səfərdən məktub alıb sevinirdim.

Balaca uşağım olduğuna görə günortadan sonra evə tez qayıdırdım. Deyirdim ki, mənim ədyal paylarımı verin, evdə yuyaram. Hər gün qırxdan çox ədyal gətirirdik, ya bizdə, ya da Qulamigildə yuyurduq. Xanım Qulami qonşumuz idi, böyük həyətləri vardı. Onlara ədyal

gətirəndə camaşırxana kimi çoxlu adam toplaşırdı. Ədyallar palçıqlı və qanlı olurdu. Təmiz ədyalları təhvil almağa gələndə yenə qanlı ədyallar verirdilər.

Yuyucu maddələri özümüz alırdıq. Yuduqlarımızı həyətdə və damda divarların üstünə sərirdik. Kişilər ya cəbhədə idilər, ya da cəbhəyə ərzaq və xalq yardımları aparırdılar. Müharibə vaxtı biz qadınlar da bir növ kişi olmuşduq.

## Seyid Bibi Musəvi

Balaca uşağım vardı. Ərim də cəbhədəydi. Eşitdim ki, xanımlar Şəhid Kələntəri xəstəxanasına gedib yaralıların paltarlarını yuyurlar. Mən də gedə bilmədiyimə görə çox narahat oldum. Bir gün küçədə səsucaldandan elan etdilər ki, xəstəxanada ədyal və mələfəyə ehtiyac var. Beş-altı təmiz mələfəni qatlayıb iki ədyalın üstünə qoydum, başıma çadra atıb hamısını götürdüm və yola düşdüm. Yarımsaatlıq yolu on beş dəqiqəyə gedib Şəhid Kələntəri xəstəxanasına çatdım.

Sanki döyüş yerinə getmişdim; kişi və qadınlar xaki Bəsic geyimində işləyirdilər. Oradan ayrılmaq çətin idi. Cəbhə üçün bir iş görmək istəyirdim. Narahat halda evə döndüm. Küçədə qonşu xanımı gördüm. Söhbət açılanda dedi: "Yeznəmiz həkimdir, Məşhəd şəhərindən səhra xəstəxanalarına ezam olunub. Bura tez-tez gəlir". Orada təmiz mələfə və ədyala çox ehtiyac olduğunu söyləyəndə dedim: "Gələndə de ki, xəstəxananın paltar və mələfələrini gətirsin, mən yuyum".

İki-üç gündən sonra qapı döyüldü. Küçədə bir Vanet yük maşını dayanmışdı. İnana bilmirdim. Maşından hərbi torbaları çıxardılar. Həkim mənə dedi: "Bir-iki gündən sonra qayıdanda bunları apararam".

Sevindiyimdən gözlərim yaşardı. Dedim ki, Allah sizdən razı olsun.

Onları həyətə qoydum. Torbalar hərbi şalvar-köynəklə doluydu. Qanları qurumuşdu. Eşitmişdim ki, soyuq su ləkələri yaxşı təmizləyir. Sabun və yuyucu maye ilə onları yudum. Bəzi paltarlar dəlik-deşik olmuşdu. Onları görəndə məni ağlamaq tutdu. Həmin dəliklərdən güllə və ya qəlpə keçib cavanlarımızın arıq bədənini yaralamışdı. Günbatana

qədər hamısını yuyub iplərdən asdım. Birdən-birə o qədər paltar yumağa adət etmədiyimə görə biləklərim ağrıdı. Ertəsi gün cırıqları tikdim, qatlayıb yuyulmuş torbalara qoydum. Qonşuya gedib təşəkkür etdim. Həkimə üç-dörd sabun qutusu verib dedim: "Bunları da apar, orada mütləq ehtiyac olar".

Həkim mənə söz verdi ki, hər dəfə gələndə paltar gətirsin. Allaha şükür, hər həftə yaralıların və həkimlərin paltarlarını göndərirdi.

Bir gün qonşu qadınların bir neçəsi bizdə hərbi formalarla dolu ipləri görüb mənə dedilər:

– Seyid, bu qədər hərbi formanı haradan gətirmisən?

– Bunlar döyüşçülərin paltarlarıdır.

– Sən cəddin, yuyanda mənə də de, köməyə gəlim, – biri dedi.

Halını başa düşürdüm; eynilə mənim kimi idi. Ona dedim ki, arxayın ol.

Qış idi. Ərim Məhəmmədkərim cəbhədən gəldi. Əlində bir neçə torba və bel çantası vardı.

Ona dedim:

– Bunlar nədir? Cəbhənin torpağını gətirmisən?

– Uşaqlar yağış altında səngər düzəltdilər. Hamının paltarı palçığa batdı. Çoxunu toplayıb gətirdim. Bağışla, hava da soyuqdur, birdən... – deyə başını aşağı saldı.

– Bu paltarları yumaq mənimçün şərəfdir, – sözünü kəsib dedim. – Bundan yaxşı nə ola bilər?!

Həmin axşam onları bir neçə dəfə adi su ilə yudum, sonra səhərədək yuyucu mayeli suda saxladım. Səhər çağı da o qədər təmiz yudum ki, sanki indi mağazadan almısan.

Çox istəyirdim ki, şəhid olum, amma olmadım. Səddamın tankı, topu və raketi vardı, bizim də inqilaba və rəhbərə sevgimiz. Buna görə həvəslə işləyir, düşməndən

qorxmurduq. O zaman üç uşağım vardı. Müharibə vaxtı yenə hamilə oldum. Lənətə gəlmiş Səddam da daim başımıza bomba yağdırırdı. Heç vaxt şəhərdən çıxmadım. Qapım hər bir döyüşçü və yolçunun üzünə həmişə açıq oldu. Uşaqları qarşılamağı, yaralıların paltarlarını yumağı çox sevirdim.

Bir müddətdən sonra oğlum Məhəmməd də cəbhəyə getdi. Döyüşçülərin paltarlarını yuduğuma görə mənə təşəkkür edir, tez-tez əllərimi öpüb deyirdi: "Bu əl şəhidlərə xidmət edir. Onu öpsəm, aqibətim xeyirli olar!"

O, 1988-ci ilin 20 martında qərb bölgəsində şəhid oldu, cəsədi də orada qaldı. Bel çantasını gətirəndə köynəyi içində idi. Daha oğlumun qayıtmasına ümid yox idi. Köynəyini dəfn etdik ki, ondan xatirə qalsın. Artıq yerimiz dəyişmişdi. Bu dəfə mən onun məzar daşını öpürdüm. Ona borclu idim. O, məni şəhid anası etmişdi.

# İran İmami

Cümə namazında xadim idim. Hər cümə səhər çağı dostlarımla müsəllaya gedirdim. O vaxt şəhəriçi avtobus yox idi, təxminən iyirmi dəqiqə yolda olurduq. Kovrolit və xalçaları sərib süpürür, canamazları sərirdik. Günorta camaat dəstə-dəstə gəlirdi. Qapıda onları yoxlayıb sıraları səliqəyə salırdıq. Namazdan sonra da müsəllanın qapısını növbəti cüməyə qədər bağlayırdıq.

Çox vaxt su kəsilirdi. Paltarları Gətvənd çayının sahilinə aparırdım. Evimizlə yarımsaatlıq məsafədə yerləşirdi. Onları suya salanda su qızarırdı. Dəri və ət parçaları suda üzür, ətrafa qan qoxusu yayılırdı. Ürəyim ağrıyırdı, ağlaya-ağlaya yuyur, iri daşların üstünə sərirdim. Bəzən başım yumağa o qədər qarışırdı ki, məni ağlamaq tutmurdu. Yandırıcı günəş vardı, güclü istidən başım yanır, ağrıyırdı. Axırıncını yuyanda birincisi qurumuş olurdu. Dayanıb hamısının qurumasını gözləyirdim. Çaya digər xanımlar da gəlib döyüşçülərin və ya özlərinin paltarlarını yuyur, tuluq və bidonla evlərinə su aparırdılar.

1984-cü ilin yayında bir gün cümə imamı məni kənara çəkib dedi: "Əndimeşkdən bir döyüşçü var, Qulaməli Lorustani. Səkkiz uşağı var. Qüds günü yalnız xanımı evdə imiş. Raket düşüb, şəhid olub. Balaca oğlu ikinci sinifdə oxuyur. Birinin uşaqlarına analıq etməsini istəyir. Bu barədə fikrin nədir?”

İyirmi iki yaşım vardı, ağa Lorustani məndən otuz beş yaş böyük idi. Lakin müharibə zamanı yalnız xidmət barədə düşünürdüm. Həmin uşaqlara analıq etməyi də xidmət bilirdim. Ağa Lorustani uşaq istəmirdi. Uşaqlıqdan mənim də başıma bir hadisə gəlmişdi, həkim demişdi ki, heç vaxt uşağın olmayacaq. Həmişə fikirləşirdim ki,

analığı təcrübə edə bilməyəcəyəm. Lorustaninin isə səkkiz uşağı vardı. İki-üçü məndən böyük idi, ailə qurmuşdu.

Bir neçə gün bu fikir beynimi məşğul etdi. Nəhayət, qərara gəldim ki, onunla evlənim. Yaxınlarım çox çalışdılar ki, fikrimi dəyişdirsinlər. Məni danlayıb deyirdilər: "Həm uşağı olan, həm də səndən üç dəfə yaşlı bir kişi ilə niyə ailə qurmaq istəyirsən?" Bir neçə həftə israrlı xahişdən sonra ata-anam razılıq verdi.

Əndimeşkin Qüds günü bombardmanından altı ay ötdü. Bir gün ağa Lorustani gəldi, kəbinimiz kəsildi və mən Əndimeşkə köçdüm.

Evi dağılmışdı. Məhəmməd Ədibinejadla qonşu idik. Onun dörd tərəfi otaq dolu böyük həyəti vardı. Öz evimizi tikənə qədər bir otağını kirayə etdik. Ağa Lorustani evini Təmir qərargahının təmir etməsinə qoymadı. Ailə qurmuş uşaqları həmişə bizdəydilər, tez təmir olunsun deyə işləyirdilər. Bununla belə, təmir bir il yarıma bitdi.

Ağa Lorustani izdivacımızdan sonra cəbhəyə getdi. Böyük uşaqlar evin tikintisi ilə məşğul oldular. Ən kiçik uşaq Məhəmmədrza idi, yeddi-səkkiz yaşı vardı. O, bombardmandan və anasının şəhadətindən sonra uzun müddət danışmırdı. Sonra da qüsurlu şəkildə danışır, hər səsdən əsəbiləşirdi. Ondan gözümü çəkmir, çatızmazlıq hiss etməsinə qoymurdum.

Ev işlərini görür, uşaqların paltarlarını yuyur, onlara xörək bişirir, sonra evə gedib təmir işinə kömək edirdim. Başım ailə və həyata bərk qarışmışdı. Xanım Ədibinin hər gün camaşırxanaya getdiyini görürdüm. Rayonumuzda döyüşçülərin paltarlarını yumağım yadıma düşürdü. Ağa Lorustani öncədən mənə demişdi: "Əgər vaxtın olsa, Bəsicdə və ya başqa bir yerdə cəbhə üçün bir iş görmək istəsən, get, mən etiraz etmirəm".

Xanım Ədibi ilə birlikdə getmək istəyirdim, amma hər gün işim çoxalır, ona məni də aparmasını söyləyə bilmirdim. Bir gün özü mənə dedi:

– Camaşırxanaya getmək istəyirsən?

– Əgər bu gecə işlərimi çatdıra bilsəm, gedərik, – ürəyimdən xəbər vermiş kimi ona söylədim.

Gecənin yarısına qədər oyaq qalıb ertəsi günün günorta yeməyini bişirdim, çirkli paltarları yudum, evi süpürdüm. Səhər tezdən oyanıb uşaqların səhər yeməyini hazırladım, Məhəmmədrzanı bacısına və Ədibinin uşaqlarına tapşırdım və xanım Ədibi ilə birlikdə İmam Xomeyni hüseyniyyəsinin önünə getdim. Orada mikroavtobusa minib Şəhid Kələntəri xəstəxanasının camaşırxanasına yollandıq.

Camaşırxanada salavat səsi bir an da kəsilmirdi. Səslərdə kövrəklik hiss olunurdu. Bir neçə dəqiqə dayanıb oranın mühitinə və xanımların işinə baxdım. Mənim yumağımdan çox fərqlənirdi. Bacıları qanlı paltar dolu ləyənlərin yanında görüb qətlgaha gəldiyimi hiss etdim. Xanımlar çadralarını bellərinə bağlamışdılar, bəzisi əlcək və çəkmə geyib qırmızı və ağ ləyənlərin yanında oturmuşdu, mələfələri çəngələyirdi. Mən də çadramı belimə bağlayıb bir ləyəni önümə qoydum.

Üst-üstə atılmış iki-üç paltarı götürdüm. Qanlı idi, bir-birinə yapışmışdı. Onları açdım. Şalvar balaqdan belə qədər qayçılanmışdı. Ürəyim kabab oldu. Məni ağlamaq tutdu. Onu yumağa ehtiyac yoxdur deyə fikirləşib ləyənin yanına qoydum. Yanımdakı mənə baxdı. Gözləri yaşarmışdı. Ağlamağının qarşısını alıb təbəssümlə mənə dedi: "Yu, uşaqlar tikəcəklər".

Mələfə və paltarları açanda bəzisinin arasında kəsilmiş əl, barmaq, ət və ya dəri parçası görürdük. Xanımların iki-

üçü salavatla onlara qüsl verib xəstəxananın həyətində basdırırdı.

Ora çayın kənarından çox fərqli idi. Hovuz qanlı su ilə dolur, qıraqlarından yerə axırdı. Qapalı mühit idi, qan qoxusu daim burnumdaydı. Hətta qanlı paltarların vəziyyəti və aralarında gördüklərimiz də daha acınacaqlı gəlirdi. İlk günlərdə o qədər ağlayırdım ki, özüm də bundan öncə paltar və mələfə yuduğuma inana bilmirdim. Hətta iştaham da küsmüşdü. Evə qayıdanda başımı qarışdırırdım ki, qanlı paltarlar yadımdan çıxsın və bir şey yeyə bilim.

Ərim adətən cəbhədə olurdu. Məzuniyyətə gələndə Şəhid Kələntəri xəstəxanasına gedib yaralıları yerbəyer edir, işlərini görür, əyinlərinə paltar geydirir, palataları və dəhlizləri silirdi. Uşaqlarla mən də həyatın, didərginliyin çətinlikləri, bombardmanın qorxu və iztirabı ilə günümüzü keçirirdik. Hər gün camaşırxanaya getdiyimə görə onlara yazığım gəlirdi. Qorxurdum ki, ev raketlə vurular və başlarına bir iş gələr. Ədibinin uşaqları da çox idi, evdə tək qalırdılar. Onları görəndə mən də ürəklənib uşaqları evdə qoyurdum. Təkcə Məhəmmədrza məktəbə gedirdi, digərləri səhərdən-axşama qədər evin təmiri ilə məşğul olurdular. Camaşırxanadan gələndən sonra onlara xörək qızdırırdım, paltarlarını yuyub deyirdim: "Nə işiniz varsa, mənə deyin!"

Onları incidəcək bir söz demirdim. Məhəmmədrzaya daha çox baxırdım, onu müxtəlif bəhanələrlə özümlə bayıra aparır, ona nəsə alırdım ki, anası üçün darıxmasın.

Bir il idi camaşırxanaya gedirdim. Bir neçə gün idi aclıq hiss edirdim, ürəyim bulanırdı, amma heç nə yeyə bilmirdim. Rəngim də qaçmışdı. Bildim ki, hamiləyəm. Sevindiyimdən nə edəcəyimi bilmirdim. Ərim cəbhədən

təzə gəlmişdi. Məndən uşaq istəmədiyini əsla fikirləşmədən ona dedim ki, hamiləyəm. Möcüzə idi; ərim də "mən uşaq istəməmişəm" demədən sevindi və Allaha şükür etməyə başladı.

Hamiləlikdən özümü gücsüz hiss edirdim, ürəyim bulanırdı. Buna baxmayaraq, hər gün camaşırxanaya gedirdim. Xanımlar ləyənlərin yanında çox oturmağa qoymurdular. Bir-iki saat paltar yuyurdum, sonra yuyulmuş paltarları iplərə sərir, quruları yandakı otağa aparıb qatlayırdım.

Yeddiaylığımda bir gün xanım Ədibi mənə dedi: "Bəzi paltarlar kimyəvi qaza bulaşıb. Uşağına zərərdir. Əlində anasız uşaq da var. Daha gəlmən lazım deyil".

Çox istəyirdim ki, gedim, amma o gündən sonra daha məni aparmadı.

Bütün ev işlərini öncəki kimi görürdüm, uşaqlarla məşğul olurdum. Bilirdim ki, hamilə olduğuma görə daha diqqətli olmalı, uşaqların analarını xatırlamalarına şərait yaratmamalıyam. Onlar da mənimlə dostlaşmışdılar, hamiləlik zamanı halımı soruşur, qeydimə qalırdılar. Ərim çox vaxt cəbhədə olurdu; onlarla dərdləşirdim.

Oğlum dünyaya gələndə ağa Lorustani evdə deyildi. Qızım da müharibə vaxtı dünyaya gəldi. Hələ bir yaşı tamam olmamış müharibə bitdi, qorxu, çətinlik və həyəcanlı günlər arxada qaldı. Lakin mənim üçün hələ müharibə bitməmişdi. Ərim kimyəvi xəsarət almışdı, ancaq evə çox az gəlirdi; ya Dokuhədə aşpazlıq edirdi, ya da sərhədçilərə yemək aparırdı. Altı il altı ay birlikdə yaşadıq. 1992-ci ildə Aşura günü günorta çağı əzadarlıq zamanı huşunu itirib yıxıldı və bir də ayılmadı. Mən yetim uşaqlarla, camaşırxananın, qanlı su və cırıq paltar dolu hovuzların acı və şirin xatirələri ilə qaldım.

# Tacmah Əsədi

Qoyunlarımız vardı. Yaylaq və qışlağa gedirdik. Tək idim; həm sürünün işlərini yerbəyer etməli, həm də uşaqların təhsili ilə maraqlanmalı idim. Şəhərdə uşaqlara bir ev aldım. Qoyunlara çoban tutdum, onları Kərxə çayının kənarına gətirib digər maldarların yanında çadır qurduq. Altı oğlum, dörd qızım vardı. Uşaqların dərs və tapşırıqları olmayanda heyvanların yanına gedirdilər. Özüm də həftədə iki-üç dəfə şəhərlə Kərxə çayı arasında get-gəl edirdim. Yarım saat piyada yol gedib Dehloran-Əndimeşk magistralının başına çatır, maşınla şəhərə gedirdik. Uşaqlarım da özümlə birlikdə işləyirdilər.

Allaha şükür, yetmiş-səksən qoyunumuz, bir neçə baş da inək, uzunqulaq və qatırımız vardı. Yaşayışımız sadə, amma sakit idi. 1980-ci ildə, yayın son günündə isə Səddam bu sakitliyi pozdu: düz evimizin ortasına raket düşdü, otaqların ikisi çökdü. Allahın köməyi ilə uşaqlara bir şey olmadı. Əşyaları uçqunun altından çıxarıb heyvanlarımızın yanına köçdük.

Çadırda yaşayırdıq; nə su vardı, nə elektrik xətti. Bidonla Kərxədən su gətirirdim. Müharibə günbəgün şiddətlənirdi. Yer gecə-gündüz top və tank səslərindən titrəyir, sanki zəlzələ baş verirdi. Balaca uşaqlar top səsini eşidəndə qışqırışır, qaçıb özlərini böyüklərin qucağına atırdılar.

Çadırımız Əndimeşk-Dehloran magistralının yaxınlığında, döyüşçülərin yolunun üstəydi. Onları görəndə çadıra dəvət edib xörək hazırlayırdım.

Bir neçə gündən sonra yanımızdakı torpaqlar döyüşçülərin düşərgəsinə çevrildi. Orada çadır qurdular. Bizə tez-tez deyirdilər ki, bura təhlükəlidir, buradan gedin.

İraqlılarla bizim aramızda yalnız təlatümlü Kərxə çayı vardı.

Döyüşçü uşaqlar o qədər dedilər ki, axırda hər şeyimizi toplayıb Xalxali kəndinə getdik. Yenə çadırlarımızı qurduq, heyvanlara ağıl düzəltdik. Kərxədən 4-5 km uzaqdaydıq. Orada da döyüşçü qüvvələr yerləşmişdilər. Onlar dəstə-dəstə çadırlara gəlir, gecə ikən oradan döyüş yerinə yollanırdılar. Fətir çörəyi bişirib qatıq və kərə yağı ilə onlara aparırdım.

Bir gün səhər tezdən həmişəki kimi işlərimlə məşğul idim. Ocaq qaladım, sacı hazırladım, nazik və yumşaq fətirlər bişirdim. Onların yetmiş-səksən ədədini bir torbaya qoydum.

Tuluq ayranı çox sərin olurdu. Xuzistanın bahar havasında tikanburun ətri adamı valeh edirdi. Tikanburun dağ bitkisidir, uşaqlar sürünü otlağa aparanda oradan dərib mənə gətirirdilər. Ayranı həmişə onunla ətirləndirirdim.

Tikanburun dolu ayranı bidona tökdüm. Torbanı çiynimə atıb bidonu götürdüm. O qədər ağır kişi işləri görmüşdüm ki, böyük torba və bidon mənə ağırlıq etmirdi. Çadırların ətrafı öndəki günlərə nisbətən daha qələbəlik idi. Məni tanıyan uşaqların ikisi uzaqdan yaxınlaşıb:

– Ana, yenə əziyyət çəkmisən, – dedi.

– Nuş olsun! – deyə apardıqlarımı verib evə döndüm.

Qayıdanda yeniyetmə uşaqların kanalın yanında günəş altında oturduqlarını gördüm. Yanlarında çoxlu paltar vardı, onları yuyurdular. Uşaqlara yazığım gəldi. Evə gedib iki qutu yuyucu tozu götürdüm və onların yanına qayıtdım:

- Düzdür, ananız burda deyil, amma mən ölməmişəm ki, özünüz paltar yuyasınız - deyib oturdum və paltarların birini götürdüm.

Xəcalətdən başlarını aşağı salmışdılar. Çox israr edirdilər:

- Yox, ana, tərli və tozludur, özümüz yuyarıq.

– Rulə, siz vuruşmağa gəlmisiz, paltar yumağa yox. Günorta yeməyinizi yeyənə kimi mən hamısını yuyacam.

Paltarları alıb onları göndərdim. Kanalın dərinliyi təxminən 1 metr idi, suyu Əndimeşk bəndindən gəlirdi. Təmiz və axar su idi. Çoxlu kəndlilər, əkinçilər ondan istifadə edirdilər. Müharibədə döyüşçülərin də işinə çox yarayırdı.

Şalvar-köynəklər bozumtul-yaşıl rəngdəydi. Onları bir-bir islatdım, yuyucu tozu töküb yudum. Bir saatdan sonra gülərüzlə qayıtdılar. Yenə başlarını aşağı salmışdılar. Təşəkkür edib paltarları apardılar. Sevindiyimdən uçmaq üzrəydim. Döyüşçülərin özlərini qərib hiss etməməsi, evdən ötrü darıxmaması üçün yaxşı iş idi. Onlar yeniyetmə və gənc idilər, mən də analarının yerində.

Tufanlı bir qış gecəsi idi. Qorxurdum ki, çadırı ildırım vurub yandırar. İtlərin hürüşməsi də məni narahat edirdi, canavarların sürüyə hücum etməsindən qorxurdum. Böyük oğlumla birlikdə çadırın bayırında yağışın altında dayanıb fənərlə ətrafa göz qoyduq. Dayanmadan ildırım çaxırdı. Birdən bir səs gəldi:

– Ay ev yiyəsi!

– Bəli.

– Buranın kəndxudası kimdir?

Fənəri ona doğru tutub başdan-ayağa gəzdirdim. Yaşıl formasından bildim ki, döyüşçüdür. Hiss etdim ki, qəribdir, döyüşçülərin düşərgəsinə yaxınlaşdığını bilmir. Öz-özümə dedim ki, bu tufanda bir yerə getməyə qoymayım. Tez dilləndim:

- Düz gəlmisən.

Baxıb gördüm ki, sayları az deyil; altmış-yetmiş nəfər idilər. Yerə görə narahat deyildim. Çünki həmişə yan-yana böyük çadırlar qururdum, dar və kiçik mühitdə özümü boğulurmuş kimi hiss edirdim.

Biri dedi: "Ərin hardadır?"

Görünür, komandirləri idi. Bir anlığa fikirləşdim ki, ərimin vəfat etdiyini söyləsəm, bizdə xörək yeməyə ürəyi gəlməyəcək, döyüşçüləri bir bəhanə ilə aparacaq. Dedim ki, bir az xəstədir, yatıb.

Onlar üçün qoyun kəsmək istəyirdim, amma o yağışda və qaranlıqda mümkün deyildi. Bir qazanı su ilə doldurub qazın üstünə qoydum, qaynayanda içinə bir kasa çay tökdüm, stəkanla və bir neçə kasa qəndlə onlara verdim. Oğlumu qonşu çadırlara çörək almağa göndərdim. İki böyük qazanda qatıq və fətir çörəyi hazırladım. Qabımız çox deyildi. İki-üçü bir kasada yedi. Sonra da çadırda yatdılar.

Səhər tezdən onlara dedim: "Ərim vəfat edib. Gecəni burda qalasınız deyə düzünü demədim".

Mənə və uşaqlarıma çoxlu dua etdilər. Onların biri çadırın küncünə ağ parça bağladı. Mənə təbrizli olduqlarını söyləyib getdilər.

Ağ parçanı nə üçün bağladıqlarını bilmirdim. Ancaq bir neçə ay parçaya baxıb onların salamatlığı üçün dua edirdim. Həyatda olub-olmadıqlarından xəbərsiz idim.

Bir gün bir Vanet yük maşını çadırın önünə gəldi. Döyüşçünün səsi mənə tanış gəldi. Onu qarşıladım.

– Ana, bu əşyaları sizə gətirmişik, - dedi.

– Bala, mən də sizin fikrinizi çəkirdim. Dostların hanı? Xoş gəlmisən!

– Əməliyyatdaydıq. Bunları uşaqlar sizə göndərdilər.

Qənd, çay, düyü və digər ərzaq məhsulları idi. Dedim:

– Əvvəlcə mənə de görüm, hardan gəlib? Sonra da biz canımızı da döyüşçülərə verərik. Odur ki, bunları da cəbhəyə apar.

Çox israr edib dedi:

– Ana, bunlar uşaqların sizə hədiyyəsidir. Əgər qəbul etməsəniz, narahat olarıq.

Gördüm ki, başqa yolum yoxdur. Kəndin xanımlarını çağırıb hədiyyələri aralarında böldük. Özüm hamıdan az götürdüm, amma evimə döyüşçülərin hədiyyəsi gəldiyinə görə çox sevinirdim.

Hər gün səhər tezdən işlərimi görür, sabun və yuyucu tozu götürüb kanalın kənarına gedirdim. İsrar və xahişlə döyüşçülərin ədyal və paltarlarını alıb yuyurdum. Nəhayət, Xürrəmşəhr azad edildi, döyüşçülər də yavaş-yavaş bizdən uzaqlaşdılar. Onlar üçün çox darıxırdım.

Oğullarım Əbdürrza ilə Höccətullah iki-üç ay idi cəbhəyə getmişdi. Bir gün Vanet yük maşını olan tanışların birinə dedim: "Xürrəmşəhrə bir qədər yemək aparaqmı?"

Razılaşdı. Bütün kənd əhalisi kömək etdi, maşını çörək və digər yeyinti məhsulları ilə doldurduq. Xürrəmşəhrə getdiyimə görə uşaqlarımı da görmək istəyirdim. Apardıqlarımızı şəhərin əvvəlində döyüşçülər arasında payladım, öz uşaqlarımı görmədən geri döndüm.

Əbdürrzanı evləndirdim, amma yanımda qalırdı. 1985-ci ilin martında cəbhəyə getmək istədi. Novruz bayramını birlikdə keçirmək istəyirdim, amma heç bir söz söyləmədim. Getməzdən qabaq ona dedim: "Dostlarını şam yeməyinə dəvət elə".

Dostlarının çoxu döyüş yoldaşları idi. İki quzu kəsib onlara kabab bişirdim. Qonşuları da dəvət etdim. Ertəsi gün cəbhəyə getdi, iki gündən sonra isə Bədr

əməliyyatında şəhid oldu. Onun şəhadətindən sonra döyüşçüləri daha çox düşünür, onlara yemək göndərirdim. "Bütün uşaqlarım ki şəhid olmayıblar; digər döyüşçülər də mənim balalarımdır" – deyirdim. Digər oğlum Məhəmmədrza da bir müddətdən sonra cəbhədə kimyəvi xəsarət aldı.

Çörəyi öz uşaqlarıma verməyib döyüşçülərə aparırdım. Hamısı öz uşaqlarım kimi idi. Müharibədən beş il sonraya qədər hələ məşğul idim. 1994-cü ilin 10 martında Höccətüllahla Qulamrza sürünü dağa otlamağa aparanda Kərxə çayının yaxınlığında minaya düşüb şəhid oldular.

Uşaqlarımı itirmək mənə çox ağır idi. Ancaq hər dəfə onlardan ötrü çox narahat olub özümü ələ ala bilməyəndə analarından uzaqda çayın sahilində paltar yuyan, gülümsəyən, sonra da döyüşə yollanıb bir də geri qayıtmayan yeniyetmələri xatırlayırdım.

# Mahbibi Şərəfi

Qapı-qonşudan eşitdim ki, xanımlar Şəhid Kələntəri xəstəxanasına yaralıların paltarlarını yumağa gedirlər. Hətta ətraf rayonlardan da camaşırxanaya xanım gətirirdilər. İndiyədək heç kimin mənə demədiyinə görə çox narahat oldum. Başıma çadra atıb qatar yolunun və məzarlığın yanından piyada xəstəxanaya yola düşdüm. Qapıda keşikçi vardı.

– Nə işiniz var? – dedi.

– Paltar yumağa gəlmişəm.

– Olmaz.

Çox hirsli idim. Səsimi qaldırdım:

– Necə yəni olmaz?! Əgər ehtiyacınız yoxdursa, niyə başqa rayonlardan xanım gətirirsiniz?! Evdən bura qədər iyirmi dəqiqəyə gəlmişəm. Niyə başqa şəhərlərə maşın göndərib adam gətizdirirsiniz? Məgər Əndimeşkin qadınları şildirlər?! Biz cəbhəyə kömək edirik, paltar yuya bilmərik?!

Çox deyindim. Axırda dedi:

– Ana, axı mən sizi tanımıram. Bura yaralı ilə doludur. Əgər birinin serum iynəsi qolundan çıxarılsa, mən məsuliyyət daşıyacam. Gərək sizin adınızı mənə versinlər.

– Şöbə rəisi Aminə Dağəri bizim qohumumuzdur.

Çox xahiş etdim, axırda buraxıb:

– Gələn dəfə gələndə mütləq vəsiqən olsun, – dedi.

Soruşa-soruşa paltar yuyulan yerə getdim. Xanım İslamipuru Quran dərslərindən tanıyırdım. Oradaydı. Məsələni ona söyləyəndə dedi: "Xanımları gətirmək üçün bizim evə servis gəlir. Sabahdan ora gəl, maşınla gələk".

Xanım İslamipurun evi bizdən üç-dörd küçə aralıdaydı. Hər gün səhər çağı oraya gedib xanımlarla birlikdə camaşırxanaya yollanırdım.

Paltar və ədyallar qanlı olurdu. Onları yuyub ləyənlərin suyunu boşaldanda sanki qandan çay axırdı. Helikopter də yaralı gətirirdi. Bu vəziyyəti görəndə ağı deyir, ağlayırdım. Bəzi xanımlar mənə deyirdilər: "Niyə ağı deyirsən?! Döz, bir neçə gün keçsin, hər şey sənə adiləşəcək".

Ancaq çox çətin idi, hər gün daha da narahat olurdum. Uzun müddət mələfələri açıb qan laxtalarına toxunanda Qulamhüseynin beynini əlimdə hiss edir, ağı deyib ağlayırdım.

Evimiz polis idarəsinin arxasında idi. Ancaq onlara məhəl qoymadan balaca qızlarımın əllərindən tutub yürüşə gedirdim. Həyət qapısını açıq qoyur, inqilabçı gəncləri damdan qaçırırdım.

1979-cu ilin yanvarında atəş səsini eşidib küçəyə qaçdım. Qonşumuz olan 17-18 yaşlı cavan yerə yıxılmışdı. Evə qayıdıb bir stəkan su ilə gəldim. Dostları qorxu içində yanında oturmuşdular. Köynəyinin düymələrini açdım, əlimi başının altına aparıb stəkanı dodağına yaxınlaşdırdım. Nəfəs almırdı. Əlimdə isti bir şey hiss etdim. Baxanda gördüm ki, əlimdəki onun beynidir, həm də qan damır. Onu toplayıb parçanın arasına qoydum. Hiss etdim ki, əllərim quruyub, daha canları qalmayıb.

Dörd-beş ildən sonra camaşırxanada yenə Qulamhüseyn Dövlətşahinin yarılmış başı yadıma düşürdü. Helikopter səsi gələn kimi məni ağlamaq tuturdu. Bilirdim ki, yenə yaralı və ya şəhid gətiriblər və indicə camaşırxana qanlı paltar və mələfələrlə dolacaq. Yanıqlı ağılar deyir, özüm də ağlayırdım. Xanımların biri dedi:

"Buranın yetərincə dərdi var. Lütfən, bu qədər yanıqlı oxuma".

Orada hər an birinin halı pisləşirdi. Ürəyim çox sıxılanda dodaqaltı zümzümə edirdim ki, digərlərini narahat etməyim.

Camaşırxananın içinə və çölünə üst-üstə paltar və mələfə tökmüşdülər. Cırılmış, deşilmiş paltarlar idi. Səhər çağı, hava soyuq idi. Canıma üşütmə düşmüşdü. Cəbhədə olan qardaşım Həmidrza üçün də narahat idim. Xanımların yanıqlı ağlamaq səsi məni daha da nigaran etdi, oturub paltar yuya bilmədim.

Bir paltar götürdüm. Qanlı idi, qolunda bir neçə dəlik vardı. Camaşırxanadan çıxıb üzü Kərbəlaya dayandım. Paltarı qaldırıb ağlaya-ağlaya dedim: "Ey İmam Hüseyn! Mən döyüşçülərin qanlı paltarlarını yuyuram. Cəbhəyə göndərməyə oğlum yoxdur. Səni həzrət Abbasın kəsilmiş qollarına and verirəm, qardaşımı qoru!"

Ağlaya-ağlaya İmam Hüseynə çox and verdim, yalvardım. Ürəyim bir qədər sakitləşdi. İçəri qayıdıb axşama qədər xanımlarla birlikdə paltar yudum. Nədənsə həmin gün nə qədər yuyurdumsa, daha səhərki iztirabım yox idi. Qan qoxusuna da dözə bilirdim. Çünki bu qanın müqəddəs olduğunu bilirdim. Xlor qoxusu isə çox kəskin idi. Yaylığımla ağzımı bağlasam da, çox əziyyət çəkirdim. Başım bərk ağrıyır, gözlərim sulanırdı. Bir neçə həftədən sonra artıq nəfəsimin də xlor qoxusu verdiyini hiss edirdim. İllər sonra həkim gözlərimi müayinə edəndə dedi: "Vay! Bu gözlərə nə etmisən?!" Kəskin xlor qoxusundan sonra üzümə nə qədər su vururdumsa, xeyri olmurdu. Bəzən başım gicəllənir, gözlərim qaralırdı.

Bir gün paltar dolu bir ləyəni başıma qoyub camaşırxanadan çıxdım. Birdən helikopter səsi beynimə

doldu. Ayağım daşa ilişdi, başı üstə yerə yıxıldım. Bilək sümüyümün səsini eşitdim. Baxıb gördüm ki, sümük dərinin altından çıxıb. Parça ilə bağladım. Mələfələri yerdən toplayıb onlara bir də su vurdum və ipdən asdım.

Gündüzlər başım yumağa qarışırdı, gecələrsə ağrıdan yata bilmirdim. Bir neçə il çox ağrı çəkəndən sonra həkimə gedib əməliyyat etdirdim. Yeri hələ də qalır, həmin əlimlə ağır iş görə bilmirəm.

İbtidai siniflərdə oxuyan iki qızım vardı. Özüm onlara baxırdım. Birlikdə anamın yanında qalırdıq. Səhərdən axşamacan camaşırxanada olurdum. Anam həm mənim, həm uşaqların anası olmuşdu. Uşaqlarımı onun yanında qoyanda arxayın olurdum.

Evimizlə üzbəüz ərazi vardı, oradan dəmir yolu keçirdi. Onun yanında bir zirzəmi düzəltdik, üzərinə plitə döşədik. Altı-yeddi pillə ilə aşağı enirdi. İçi palçıqdan idi, yerə kovrolit sərmişdik. Bomba atılanda anam uşaqları oraya aparırdı. Bir dəfə partlayışın və şüşə qırılmasının səsinə yuxudan oyandım. Uşaqların əlindən tutub darta-darta zirzəmiyə apardım. Çox qorxmuşdular. O qədər qışqırdılar ki, səsləri tutuldu.

Evimizin arxasına raket düşmüşdü. Səhərə qədər səngərdə oyaq qaldıq. Səhər çağı uşaqlarla anam evə getdi, mən də camaşırxanaya. Çünki hər dəfə şəhər bombalananda və ya əməliyyat olanda camaşırxananın işi qat-qat çoxalırdı.

Həyətə yetmişdən çox ip bağlamışdılar. Yuyulanları onların üzərindən asırdıq. Külək mələfə və paltarları yerə atırdı. Əvvəlcə sancaq aparıb onlara vurdum. Çox möhkəm deyildi, xeyri olmadı. Bir neçə günlük ev alış-verişi pulunu götürüb bazardan təxminən on-on iki qutu

sancaq aldım. Onları paltar və mələfələrin üstündən vururduq ki, yerə düşməsinlər.

Səhər çağı hovuzların kranını açırdıq, tərtəmiz su ilə dolurdu. Hər şöbənin mələfələrini ayrıca çırpıb hovuzlara tökürdük, özümüz də qırağında oturub çəngələyir, suda çevirirdik ki, yaxşı islansınlar. Onları çıxarıb ləyənə qoyur, xlorla ləkələrini təmizləyirdik. Sonra hovuzun suyuna baxırdıq: qızarırdı; sanki içində qoyun kəsmisən. Hamımız birlikdə salavat deyib yuyurduq. Gecə gözlərimi yumub yatmaq istəyəndə qanlı su dolu hovuz bir neçə dəqiqə gözlərim önündən getmirdi.

Şəhid və yaralıların paltarlarını yumaq çox ağrılı idi. Lakin çox çalışdım və dözümüm artdı. Bir müddətdən sonra gördüm ki, yuyucuxanada ölü yuyuram.

Bizdən yaşlı qadınlar şəhid olmuş xanımlara qüsl vermək üçün yuyucuxanaya gedirdilər. Yavaş-yavaş biz cavanlar da şəhidləri yerbəyer etmək üçün oraya gedir, deyilən hər bir işi görürdük. Bir dəfə düşmən Sina xiyabanını bombaladı, çoxlu arvad-uşaq şəhid oldu. Günbatan çağı qəribə hisslər keçirir, şəhidlər üçün çox darıxırdım. Nahidə dedim ki, rulə, gedək şəhidlərin məzarını ziyarət edək.

Narın yağış yağırdı. Yuyucuxananın önündə iki-üç xanım görüb onlara yaxınlaşdım. Şəhidlərin birinin anası ağlaya-ağlaya dedi:

– Uşağıma qüsl verməyə, onu kəfənləməyə qorxuram.

– Qorxmaq lazım deyil; gedək, özüm edərəm, – dedim, sonra üzümü Nahidə tutub əlavə etdim: – Nə qədər ki axşam düşməyib, get evə, de ki, mən gec gələcəm.

Yuyucuxananın yeri tikə-tikə olmuş və yanmış bədən parçaları ilə doluydu. Burnuma yanmış ət qoxusu dolur, ürəyimi daha çox yandırırdı.

"Bismillah" və salavat deyib qollarımı çırmadım. Üç-dörd xanım idik. Bədəni əzilmiş şəhidlərin hər birinə təyəmmum verib kəfənlədik. Digərlərini də yuyub qüsl verdik. Gecənin yarısına qədər hamısını kəfənə bükdük. Özümdən xəbərim yox idi; bilmirdim ki, qorxuram, yoxsa parça-parça olmuş bu qanlı bədənlərə görə ürəyim qana dönüb.

Gecənin yarısı pasdar qardaşların biri məni maşınla evə apardı. Yorulmuşdum, başımın ağrısından gözlərim açılmırdı. Sanki bədən parçaları əlimdə idi. Hamama girdim, doyunca ağlayıb yüngülləşdim.

Bir neçə gündən sonra səhər çağı yenə şəhər bombalandı. Səsucaldandan elan etdilər ki, şəhidlərə qüsl vermək üçün yuyucuxanaya gəlin. Çadramı başıma atıb getdim. Bir neçə xanım da gəlmişdi. Hələ bir neçə gün öncəki şəhidləri qüsl verdiyimə görə halım yaxşı deyildi. Ancaq möhkəm olmağa çalışdım. Eşitdim ki, şəhidlərin arasında bir seyid xanım var. Ona qüsl verəndə dedim: "Mən o dünyadan çox qorxuram, uşaqlarımdan muğayat ol".

Gözlərimi üzündən çəkmədən ona yalvardım. Dodaqlarındakı təbəssüm məni sakitləşdirdi.

Ramazan ayı idi. Lənətə gəlmiş düşmən cavanları öldürməkdən yorulmurdu. Səhərdən axşama qədər dayanmadan paltar yuyurduq. Daimi xlor qoxusundan iştaham kəsilmişdi. Həm də tez yorulurdum, ayaq üstə çox dura bilmirdim. Axşam öz-özümə dedim ki, obaşdan çox yeyərəm, paltar yumağa taqətim olsun. Bütün sümüklərim ağrıyırdı. Çətinliklə ayağa qalxıb obaşdanlıq hazırladım. Anam, bacım və uşaqlarım da oyandılar. Birtəhər bütün xörəyimi yedim, namaz qıldım, ev işlərini görüb getdim.

Camaşırxana yenə paltar və mələfə ilə dolmuşdu. Ağzımı bir parça ilə bağladım, Xuzistanın isti iyun havasında ləyənin yanından qalxmadım. Tərdən paltarlarım bədənimə yapışmışdı. Günorta namazından sonra susuzluqdan və yorğunluqdan gözlərim qaralırdı. Digərləri də mənim günümdəydilər, amma heç kim üz vurmurdu. Tez-tez yuyurduq ki, yuyulmamış bir şey qalmasın. Günbatan çağı yorğun və əzgin halda evə qayıtdım. Nə vaxt iftarlıq yeyib özümdən getdiyimi bilmədim.

Səhər tezdən oyandım. Uşaqları hazırlayıb özümlə Qüds günü yürüşünə apardım. Deyəsən, evdə heç kim qalmamışdı. Yürüş korpusun önündən başlandı. Hamımız ürəkdən qışqırır, şüar deyirdik. Hava isti idi, körpəli analar əziyyət çəkirdilər. Müsəllaya çatmamış bəziləri qayıtdı. Biz müsəllanın önünə çatdıq. Birdən həyəcan siqnalı verildi və raket səsindən hərə bir tərəfə qaçdı. Qızların əlindən bərk tutdum. Tüstü bizim məhəlləmiz tərəfdən qalxırdı. Haranın vurulduğu dəqiq bilinmirdi. Bəziləri raketlə vurulan səmtə qaçdılar. Biz də qaça-qaça evə qayıtdıq. Raket bizim xiyabanın arxasına, İmam Xomeyni hüseyniyyəsinin yanına düşmüşdü. Bizim evin şüşələri qırılmışdı.

Anama dedim:

– Uşaqları səngərə apar, mən camaşırxanaya gedirəm.

– Belə susuz halda bacararsan? – deyə soruşdu.

Qonşu qadınla piyada getdik. Digər qadınlar da maşınla və ya piyada özlərini yetirdilər. "Ya Hüseyn" dedik və şam azanına qədər susuz halda mələfələr üzərindəki isti və təzə qanları yuduq.

Uşaqları yalnız Əndimeşkin ən çox bombalandığı zaman iki-üç gecə Qalaqasıma – Əndimeşkin kənarında

yerləşən qaçqın düşərgəsinə apardım. Ancaq ürəyim dözmədi, yenə evə qayıtdım. Lənətə gəlmiş Səddamın bizimlə müharibəsinin sonuna qədər camaşırxanaya getdim. Ondan sonra illərlə qərarsız oldum, o günlərin həsrətini çəkdim. Suriyada müharibə başlayanda yenə həvəsləndim. Kürəkənim Seyid Əhməd Mirdavudi sağollaşmağa gələndə ona dedim: "Məni də apar, döyüşçülərin paltarlarını yuyum". Dedi: "Ora çox təhlükəlidir, xanımları aparmaq olmaz".

Nə qədər israr etdimsə, sözündən dönmədi.

Qızıma dedim:

– Rulə, sən ki mənim camaşırxanada olduğumu bilirsən. Ərinə de, məni də aparsın.

– Da, – dedi, – ora bizim müharibə kimi deyil, şərait fərqlidir.

– Məgər orda xanım yoxdur?! Mən də digərləri kimi! – çox narahat halda dedim.

İndi də dünyanın hər bir yerində müqavimət döyüşçülərinin paltarlarını yumağa hazıram. Ancaq nə qədər israr edirəmsə, heç kim aparmır.

# Mündəricat


Naşirdən ........................................................................ 3
Giriş ............................................................................... 5
Zəhra Məliknejad (Xanım Hüseynpur) ............................ 13
Xədicə Dağəri ................................................................ 24
Purənduxt Linmən .......................................................... 28
Məliktac Xosrovbəyi ...................................................... 35
Firiştə Qafili .................................................................. 40
Əşrəf Səmədifər ............................................................. 46
Xavər Tağızadə .............................................................. 53
Zəhra Əhmədnejad ......................................................... 57
Məhin Xoşhalzadə (Xanım Heydəri) ............................... 73
Zəhra Ajirak ................................................................... 78
Seyid Məryəm Musəvi .................................................... 85
Fatimə İslamipur ............................................................ 91
Nahid Niyazi ................................................................ 107
Məsumə Əhmədnejad .................................................... 110
Zöhrə Ləvisi ................................................................. 119
Ətiyyə Çətirçi ............................................................... 125
Şövkət Dezfuli .............................................................. 131
Suğra Bustak ................................................................ 135
Fatimə Namipur (Xanım Şəbani) ................................... 139
Minu Cəmil .................................................................. 145
Güllü Səadət ................................................................ 152
Huma Puryeganə (Xanım Musazadə) ............................. 155
Fatimə Mirçinari ........................................................... 162
Siddiqə Fəllah .............................................................. 164
Pərvin Lorbahari ........................................................... 168
Şəhin Ahəngər .............................................................. 179
Fatimə Əlipur ............................................................... 182
Seyid Bibi Musəvi ......................................................... 186
İran İmami ................................................................... 189
Tacmah Əsədi .............................................................. 194
Mahbibi Şərəfi .............................................................. 200